S.C.İbadullayeva, M.C.Qəhrəmanova

# BİTKİLƏRİN SİRLİ DÜNYASI

## (OT BİTKİLƏRİ)



2016

***Elmi redaktor:* *Əczaçılıq elmləri doktoru, professor, Əməkdar müəllim***
***M.N.Vəliyeva***
***Rəyçilər: Tibb elmləri doktoru, professor***
***L.Allahverdiyeva***
***Biologiya elmləri doktoru, professor***
***F.B.Əsgərov***

***Biologiya elmləri doktoru, professor Səyyarə Cəmşid qızı İbadullayeva, Məlahət Camal qızı Qəhrəmanova. "Bitkilərin sirli dünyası"***

***Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabda Azərbaycan xalq və elmi təbabətində geniş istifadə edilən 123 növ dərman otları barədə məlumatlar verilmişdir. Ot bitkilərinin botaniki xüsusiyyətləri, kimyəvi tərkibi, təsir sahələri, toplanması, qurudulması, xammal kimi istifadə edilən orqanı və istifadə qaydaları göstərilmişdir. Hər bir bitkinin şəkilləri göstərilməklə, əks təsirləri də qeydə alınmışdır.***

***Qrifli nəşr.***

***Bakı-2016***

# Giriş

Dünyada 1 milyona yaxın bitki növünün yayıldığı təxmin edilir. Qədim insanlar bu bitkilərdən daha çox müxtəlif çeşidlərdə istifadə etmiş, baş verən xəstəliklərin müalicəsi üçün bir sıra digər vasitələri əlavə etməklə tətbiq etmişdilər. Dünya xalqlarının minillərlə apardığı belə müşahidələr nəticəsində bitkilərin müalicəvi xüsusyiiətləri öyrənilmiş və hər millətə məxsus loğmanlar inkişaf etmiş, onlar hər bir vilayətdə əsasən bitkilərlə insanları müalicə etmişdir. Bu ən çox orta əsrlərdə vüsət almışdır. Azərbaycan təbabətində o dövrdə 387 bitki növündən istifadə edilmişdir.

Azərbaycan florasının 150 fəsilə, 1000 cinsə, 5000-ə yaxın bitki növündən, 300-ə qədəri hazırda xalq təbabətində geniş istifadə edilir. Lakin, bu bitkilərin bəziləri barədə ədəbiyyatlarda məlumatlar hələ də kifayət qədər yoxdur.

Dünya yaranandan təbiətdə tərkibində çoxlu sayda bioloji fəal birləşmələr sintez edən bitki növləri formalaşmış və əsrlər boyu insanların sərvəti olmuşdur. Öyrənilmişdir ki, bitkilər tərəfindən 14000-ə qədər kimyəvi birləşmələr sintez olunur. Məlum informasiyaya əsasən dünyanın 91 ölkəsində müalicə məqsədi ilə 20 min növdən çox dərman bitkisindən istifadə olunur.

Elmi-mədəni tərəqqinin yalnız intellektual naliyyətlərin inkişafindan asılı olması, cəmiyyətdə yanlış fikir doğurur. Minillər ərzində ulu əcdadlarımızın yaratdığı yaşayış tərzi və təbii amillərə əsaslanan qanunauyğunluqların nə qədər düzgün olması artıq hamıya bəllidir. Qədim əlyazmalarda öz əksini tapmış Azərbaycan xalqının çoxəsrlik - tibb, biologiya və digər sahələri əhatə edən elmi-mədəni tarixi sübut edir ki, ölkəmizdə elmi araşdırmalar çox qədim köklərə malikdir. Azərbaycan ərazisində aşkarlanan qədim abidələrin üzərindəki ilk yazılar bizə bitkilərin müxtəlif məqsədlərlə istifadə olunmasından xəbər verir. Azərbaycan insanı bitkilərdən öz həyat tərzlərində geniş istifadə edərək dərman, qida, geyim, boyaq və məişət işlərində milli etnobioloji xüsusiyyətlərə

malik tarixi sərvət yaratmışdır. Hələ 1000 il bundan öncə Azərbaycan alim-təbibləri 800 növdən çox mürəkkəb komponentli dərman maddələri yaratmışlar ki, bu da 724 bitki növü, 150 heyvan növü, 115 müalicə əhəmiyyətli minerallardan təşkil olunmuşdur.

Statistik göstəricilərə görə XX əsrin sonuna yaxın 30-40% dərman bitkiləri ilə müalicə işi həyata keçirilirdi, hazırda bu tip müalicələr 50-70%-i təşkil edir. Hətta tibbi təhsili olmayan insnlar belə bitkilərin müalicəvi xüsusiyyətlərini yaxşı bilirlər.

Bizim hazırladığımız "Bitkilərin sirli dünyası" adlı kitab bir tərəfdən sahədə 40 ilə yaxın profesional elmi təcrübəyə malik olmamızdan və digər tərəfdən nəsilliklə loğmanlıq peşəsinə yiyələnməmizdən yaranmışdır. Apardığımız çoxillik elmi tədqiqatlarımızın nəticələri bizi vadar etdi ki, bitkilərin bizə məlum olan sirlərini bu kitaba toplayaq. Bu kitabdan insanlar çox şeylər öyrənə bilər və öz xəstəliklərini asan yollarla aradan qaldırar.

Kitabda 123 ot bitkisinin botaniki xüsusiyyətləri, kimyəvi tərkibi, farmokoloji xarakteristikası və xalq təbabəti üsulları barədə məlumat verilir. Eyni zamanda bu bitkilərin digər təbii xammallarla (heyvani yağlar, minerallar, dəri və s.) qarışıqda müalicə üsulları da göstərilmişdir. Ayrıca bitkilərin toplanması, qurudulması, saxlanılması və s. yarımbaşlıqlar altında izah edilmişdir.

## *Bitkilərin istifadəsinin ilk mənbələri*

Dərman bitkilərinin öyrənilməsi və ondan istifadə olunması ən qədim tarixi dövrlərdən - ibtidai icma dövründən başlamışdır. Hələ ibtidai insan öz həyatını qorumaq və baş verən xəstəlikləri aradan qaldırmaq üçün bitkilərdən geniş istifadə etməyə çalışmışdır.

Yazı icad olunana qədər dərman bitkiləri haqqındakı məlumatlar nəsildən-nəsilə şifahi şəkildə keçirdi. Bundan sonra dərman bitkiləri haqqında külliyatlar yazılmışdır. Şumerlər üç fənn əsasında (astronomiya, din və riyaziyyat) tibb elmləri (dərman bitkiləri haqqında) yaradaraq, maraqlı məlumatlar vermişlər.

***Türk*** insanı daş dövründən bəri bitkiləri müalicə məqsədilə işlətmişdir (b.e.ə.5000-ci illər). Hakkarinin şərqində Şanidar mağarasından ortaya çıxan neandertal məzarların içindən tapılan bitki nümunələri buna misaldır. İlk əsər yenə də Anadoluda Adanaya yaxın Anazarbada işıq üzü görmüş Dioscoridesin əsəridir. Əsərin adı "İlac bilgisi" yəni dərmanlar barədə məlumatdır.

***Çində*** 3200 –cü (b.e.ə.) illərdə İmperator Sheng Nung tərəfindən yazılan Pen Tsrao adlı əsər ən qədim yazı qaynaqlarından biridir, burada 300-dən artıq dərman barədə məlumat verilir. Qədim Çin məktəbinin yetirməsi olan Li-Şi-Çjeniya b.e.1522-1596-ci illərində «Famokoqnoziyanın əsasları» kitabında çoxsaylı müalicə vasitələrinin xarakteri haqqında ətraflı məlumat vermişdir.

***Mesopatamiyada*** 3000 –cü (b.e.ə.) illərə aid yazılmış Asur kitabələri, Ninova şəhəri kitabxanasındadır. Bu kitabələrdə çoxsaylı resept və dərman bitkisi ilə müalicə metodları verilmişdir.

***Şumer, Babilistan və Assuriya*** III-I (b.e.ə.) minilliklərdə Azərbaycanda tibbi biliklərin inkişafına təsir göstərmişdir. B.e.ə. III minillikdə Azərbaycanın döyüşkən Quti tayfaları Şumer

ərazisini ələ keçirib 100 il öz əsarəti altında saxladığı dövrdə də iki ölkə arasında tibbi biliklərin mübadiləsi gedirmiş. Bu xalqlar zəfəranın, küncütün, xurmanın, dəlibəngin və digər dərman bitkilərinin müalicəvi keyfiyyətlərindən bəhs edən mətnləri xüsusi gil lövhəciklərdə mixi yazılarla həkk edir və məbədlərdə, padşahların saraylarında yerləşən kitabxanalarda yerləşdirilirdi.

***Hindistanda*** təbabətin ən qədim və məşhur külliyatı «Ayur Veda» (Həyat elmi) eramızdan 2600 il əvvəl yazılmışdır. Bu əsərdə Hindistan həkimi Şuşurta Asklipidanın işlərinə qədər olan bütün tibb ədəbiyyatları ümumiləşdirilmişdir. Burada ayrı-ayrı dərman bitkilərinin botaniki təsviri, coğrafi yayılmaları, toplanılma vaxtı, müxtəlif xəstəliklərə qarşı istifadəsi qaydaları göstərilmişdir. Dərman bitkilərindən olan rəvənd, darçın, zəncəfil, jenşen, tiryək bu dövrlərdə artıq dünya bazarına məlum idi. Qədim Hindistan həkimləri bir çox xəstəlikləri qanalma və qançıxarma ilə yanaşı, bitki mənşəli dərmanlarla da müalicə etmişlər. Eyni zamanda Hindistanda olan bitkiləri (xüsusən, qida əhəmiyyətinə malik) Roma imperiyasına daşımışlar. Bu bitkilərdən bir çoxu – çaşır, ilankölgəsi, soğan, sarımsaq hələ o zamandan Avropanın əczaçılığına daxil edilmişdir. Əgər tibbi nöqteyi nəzərindən baxılarsa, qədim *budda* tibb sirlərində səslənmiş «biz bitkilər aləmində yaşayırıq» sözlərinin baş hərifləridir.

Dünyanın qədim kitabxanalarında Assuriya çarı Aşşurbanipalanın Ninevidəki (b.e.ə. 660 illər) gil lövhələr üzərində dərman bitkiləri haqqında geniş məlumatları mövcuddur. Bu yazılarda dərman bitkilərindən ayrı-ayrı xəstəliklərdə necə istifadə olunması qaydaları göstərilmişdir. Təəssüf ki, arxeoloji qazıntılar bizim üçün qədim dərman bitkilərini tam şəkildə açıqlamamışdır. Hindistanda və Çindəki memarlıq abidələrinin üzərindəki ilk yazılar bizə bitkilərin müalicə məqsədilə istifadə olunmasından xəbər verir. Bitkilərdən xüsusi istifadə olunması haqqında maraqlı məlumatlara: Sankrist, qədim Yəhudi, Çin, Yunan, Roma mədəniyyət abidələrində rast gəlinmişdir.

***Misirdə*** bizim eradan əvvəl 1550-ci illərə aid misirlilərin «Papirus-Ebersa» adlı 7 cilddən ibarət tibb külliyatı dərman bitkilərinin öyrənilməsinə və istifadə olunmasına həsr edilmiş olduqca dəyərli tarixi bir mənbədir. Bu əsərdə ayrı-ayrı dərman bitkilərinin elmi adları, müxtəlif xəstəliklərdə qəbul edilmə vaxtı və istifadə olunma qaydaları xüsusi səliqə ilə təsvir edilmişdir. XIX əsrdə alman - *misirşünas* tədqiqatçısı Georgi Eberson «Papirus-Ebersa»-nı araşdırarkən dərman bitkilərinin istifadəsi haqqında geniş məlumatlar aşkar etmişdir. Tədqiqatçı «Orqanizmin bütün hissələri üçün dərmanların hazırlanması» kitabını ayrı-ayrı hissələr şəklində bir yerə toplamışdır. Burada bir çox xəstəliklərin müalicəsi üçün qədim misirlilərin istifadə etdiyi çoxsaylı reseptlər vardır. Onlar çox mürəkkəb tərkibli müxtəlif məlhəmlər və miksturalardan ibarətdir. Bu dövrdə Misirdə iyli yağlar, balzamlar, qatranlar geniş yayılmışdır. Bitkilərdən əzvayın, bağayarpağının, gənəgərçəyin müalicəvi əhəmiyyəti artıq misirlilərə məlum idi.

***Yunanıstanda*** tibb və əczaçılıq elminin inkişafında qədim yunan xalqının böyük rolu olmuşdur. Tibb elmi öz inkişafına İstanköy adasında doğulan Hippokratın (b.e.ə. 460-377 illər) dövründə başlamışdır. Onun həkimlik fəaliyyətində yazdığı «Corpus Hippocraticum» külliyatı tibb elminin inkişafında mühüm rol oynamış və indiyə qədər də öz əhəmiyyətini itirməmişdir. Hippokrat qədim Yunan tibbində müalicəvi vasitə kimi istifadə olunan 236 bitki göstərmişdir.

***Roma və Bizanda*** Pontos kralı VI Mithridatesin adını daşıyan "Panzəhəri" hələ öz dövründə məşhur olmuşdur. Uzun illər Qaradəniz ətraf dağlarında yaşayan Mithridates zəhərli bitkilərdən dərmanlar hazırlamış 37 cilddə kitab yazmışdır. Burada 1000-ə qədər müalicəvi təsirinə görə sinifləndirilmiş reseptlər vardır. İlk tibb ensiklopediyası və ya müalicə ensiklopediyası Avlu Korneliyu Tselsuya (e.ə. I əsrin sonu və e. I əsrin başlanğıcı) məxsusdur.

Eranın I yüzilliyinın yarısında Roma ordusunun həkimi Azii Dioskorid o dövrdə məlum olan və geniş şəkildə istifadə olunan 500-ə qədər dərman bitkisinin siyahısını vermişdir. Bu kitab təkcə loğmanlar üçün deyil, həm də farmokoloqlar üçün də mənbə rolunu oynayır.

Yeni dərman bitkilərinin öyrənilməsində qədim romalı məşhur həkim və əczaçı Klavdius Qaleninin (b.e.ə. 129-201-ci illər) böyük xidməti olmuşdur. O, dərman texnologiyasının banisi kimi tibb sahəsində 200-ə qədər əsər yazmışdır. Bunlardan ən mühüm əhəmiyyət kəsb edən və tibbdə böyük rol oynayan iki əsəri nəbatat elminə aiddir. K.Qalenin əsərləri dəfələrlə ərəb, suriya, fars və qədim yəhudi dillərinə tərcümə olunmuşdur. İlk dəfə olaraq bitki xammalından preparatlar, məhlullar və ekstraktların alınmasının təşəbbüskarı olmuşdur. Hazırda tibbdə bu dərman preparatları «Qalen preparatları» adı ilə öz əhəmiyyətini itirməmişdir.

IX-X əsrlərdə Dioskoridin, Qalenin və Arilemin bitkilər haqqındakı əsərləri ilk dəfə olaraq İtaliyan, Fransız, İngilis və Alman dillərinə tərcümə olunmuşdur. Lakin Avropada dərman bitkiləri haqqında orijinal əsər çox gec, XV-XVI əsrlərdə meydana gəldi. Buradakı məlumatlar müəyyən dərəcədə yunan və latın botanik və loğmanlarından götürülmüşdür.

***Ərəb və islam*** dünyasında - dərman bitkiləri ilə müalicə Roma imperiyasının çökməsindən sonra yazılı mətinlərin gəlməsiylə başlamışdır. O dövrdə Fərabi, Dinəvəri, Biruni, İbni Baytar və İbni Sina tərəfindən tədqiqatlar başlamışdır. Ərəblər ilk dəfə olaraq əczaçılıq elmini müstəqil şəklə salmış və bu sahədə ixtisas verən məktəblər açmışdır. «Qərabəddin Kəbir» adlı kitab yazılmış, dərman bitkilərinin istifadə olunması və öyrənilməsinə aid bir sıra nəzəri və əməli işlər görmüşlər. IV əsrdə latın nəbatat tərtibatçısı Arileem meydana çıxmışdır.

Dünya təbabətinin atası sayılan filosof və həkim İbn-Sina deyirdi: «Həkimin üç silahı vardır: söz, bitki və bıçaq». Ərəblərin hakimiyyəti dövründə tacik xalqının məşhur oğlu filosof, həkim

və əczaçı Əbu-Əli ibn-Sinanın tibb və əczaçılıq elmləri sahəsində yaratdığı əsərlər bütün dünyada şöhrət qazanmışdır. İslam tibb məktəbinin görkəmli nümayəndəsi olan İbn-Sinanın anadan olmasının 1000 illiyini 1980-cı ildə bütün dünya qeyd etmişdir. Onun 5 cilddən ibarət «Tibb elminin qanunları» külliyatı dəfələrlə dünyanın bir çox dillərinə tərcümə olunaraq, orta əsrlərdə Ərəb və Avropa alimlərinin stolüstü kitabına çevrilmişdir. İbn-Sina öz kitablarında 900 qədər dərman bitkisi haqqında geniş məlumat vermişdir.

Ərəb xilafəti hakimiyyəti dövründə orta əsrlərdə təbabət və dərmanşünaslıq elminin inkişafında bir çox ərəb, fars, tacik və özbək alimləri ilə yanaşı, azərbaycanlı həkimlərindən Fərrabinin, Razinin, Qurqaninin, Hirovinin, Ömər-İbn-Osmanın və digərlərinin də böyük xidmətləri olmuşdur.

***Rusiyada*** monaxlar XI əsrdən etibarən dərman bitkilərinin öyrənilməsi və istifadəsi ilə məşğul olurdular. XVII əsrin əvvəllərində Moskvada - Kremldə «Аптекарски приказ» adlı bir müəssisə təşkil olunmuşdur ki, bu müəssisə Rusiyada olan tibb və əczaçılıq işlərinə rəhbərlik edirdi. XVIII əsrin əvvəllərində Rusiyada dərman bitkilərini öyrənmək məqsədilə məşhur aptekçi Messerşmid Sibirə ekspedisiyaya göndərilir və bununla da elmin bu sahəsi büsat alır. XIX əsrin sonlarında Sibirin məşhur botaniki P.N.Krılov Sibir və Altayın yerli dərman bitkiləri haqqında müfəssəl məlumat verən bir külliyat buraxır. Bu illərdə Rusiyada 180-a qədər müxtəlif dərman bitkisi tədarük olunurdu.

***Azərbaycanda*** hələ Manna dövləti (b.e.ə. IX-VII əsrlər) dövründə mixi yazı sistemi geniş yayıldığına görə, Assuriya və Babilistanın tibb mətnləri oxunur və tətbiq edilirdi. Bir çox şəfaverici dağ çiçəkləri Assuriyanın paytaxtı Nineviyaya məhz Azərbaycandan gətirilirdi.

B.e.ə. I minillikdə Azərbaycan təbabəti həm də qədim "Avesta"dan qaynaqlanırdı. O, dövrdə zərdüştilik Azərbaycanın əsas dininə çevrilmişdi. Ərəb və fars müəlliflərinin əksəriyyəti Azərbaycanı (daha dəqiq desək, Urmiyanı) Zərdüşt peyğəmbərin

vətəni sayırdılar. Makedoniyalı İsgəndərin yürüşü zamanı məhv edilmiş Avestanın bərpasını da Azərbaycan mağları (kahinləri) həyata keçirirdilər. Zərdüştlər inək sidiyini (nirəng) güclü dərman sayırdılar. Onu antiseptik, insanı cavanlaşdıran və şər qüvvələrdən qoruyan vasitə hesab edirdilər. Zəfəran, sarımsaq və biyan kökü geniş yayılmış dərman bitkilərindən idi.

Bu dövrdə Azərbaycan təbabəti Yunan təbabətinin inkişafına da təsir göstərmişdi. Tibb elmində hökm sürmüş “dörd ünsür” nəzəriyyəsini yunanlar atəşpərəstlərdən götürmüşlər. Qədim yunan filosofu Empedokl (təxminən e.ə. 484-424 illər) bütün əşyaların dörd ünsürdən (su, hava, od, torpaq) ibarət olduğunu söyləyərkən, atəşpərəstlərin müqəddəs varlıqlar haqqında təsəvvürlərinə arxalanırdı. Empedoklun ideyaları XVIII əsrin sonlarına qədər dünya elmində hökm sürmüşdü.

Tanınmış yunan həkimi Erasistrat (e.ə. təxminən 315-220 illər) Misirin məşhur İsgəndəriyə Akademiyasında çalışırdı və tez-tez Azərbaycana gələrək, yerli tibb ənənələri haqqında məlumatlar toplayırdı. Şimali Azərbaycanda yerləşən Qafqaz Albaniyası dövlətində də tibb inkişaf edirdi. Iki ölkə arasındakı sazişə əsasən, Albaniyadan Romaya dərman bitkiləri idxal edilirdi. Burada I-IV əsrlərdə xristianlığın və yunan dilinin yayılması nəticəsində qədim Yunanstan tibbi üzrə traktatları, Hippokratın, Qalenin əsərləri məşhurlaşmışdı. Tibb sahəsində müəyyən biliklər kilsələrin nəzdində fəaliyyət göstərən dini məktəblərdə tədris olunurdu. Alban tarixçisi Moisey Kağankatlı özünün “Alban tarixi” əsərində ölkədə olan vacib peşələrin sırasında həkimliyin-loğmanlığın da adını da çəkirdi.

Qədim zamanlarda Azərbaycan təbabətində türk şamançılığı ilə bağlı müalicə üsulları da geniş yayılmışdı. Bu, öz kökləri ilə çox qədim zamanlara, daş dövrünə və ibtidai icmaya qam-şaman oyunlarına bağlı idi. Bu oyunlarda sehrbazlıq, təlqin, xəstəyə psixoloji təsir göstərən xüsusi ritual mahnılar və rəqslər vacib rol oynayırdı. Şamanlar xəstələri müalicə etmək üçün onların canından mənfi qüvvələri qovmağa çalışır, bunun üçün

sehrli dualar oxuyur və uyuşdurucu bitkilərin təsiri ilə ekstaza gələrək, ritual rəqslər oynayır və nəğmələr oxuyurdular. Psixoloji təlqinlə müşayiət olunan bu müalicələr çox vaxt həqiqətən də müsbət nəticə verirdi.

Azərbaycanda məskunlaşmış alban, qıpçaq və oğuz tayfalarının biliciləri bir çox şəfaverici otları (yovşan, yarpız, çobanyastığı, dazıotu və s.) tanıyır və onlardan müalicə məqsədilə istifadə edirdilər. Bunlar arasında Acı yovşan ən məşhur dərman bitkilərindən biri idi. Onu mədə-bağırsaq xəstəliklərini sağaltmaq və bağırsaq qurdları üçün işlədirdilər. Keçmişdə oğuzlar dərmana "ota", həkimə isə "otaçı" deyirdilər. "Kitabi-Dədə Qorqud" eposunda şəfalı bitkilərlə və hipnozla müalicə səhnələri vardır. "Gənc igidin yarasını sağaltmaq üçün qırx incəbel qız dağlara yayılır, dağ çiçəklərini toplayır, ana südü ilə qarışdıraraq, yaraya məlhəm qoyur, igidi həkimlərə tapşırırdılar". O zaman süd məhsulları (qımız, qatıq və ayran) güclü müalicə vasitələri hesab olunurdu. Qımız vərəmin, astma və bronxitin, qatıq isə mədə-bağırsaq xəstəliklərinin müalicəsi üçün istifadə olunurdu. İsti madyan südü öskürəyi götürmək və qızdırmanı salmaq, ayran isə suya olan yanğını dəf etmək üçün işlənirdi. Daha sonrakı dövrlərdə Azərbaycanda türk xalq təbabətinə "türkəçarə" deməyə başladılar.

VIII əsrdə Azərbaycan Ərəb qoşunları tərəfindən işğal olundu və ölkə İspaniyadan Hindistana qədər uzanmış Ərəb xilafətinin tərkibinə qatıldı. Müxtəlif xalqların vahid bir dövlətə qoşulması və bir-biri ilə ünsiyyətdə olması elmlərin və mədəniyyətlərin görünməmiş inkişafına səbəb oldu. Bünövrəsi VIII-IX əsrlərdə qoyulmuş bu yüksəliş XIV əsrin sonlarına qədər davam etdi. Mübaliğəsiz demək olar ki, X-XIV əsrlərdə islam dünyası bəşəriyyət sivilizasiyasının zirvəsini təşkil edirdi. Ən böyük universitetlər, rəsədxanalar, xəstəxanalar, əczaxanalar və kitabxanalar məhz müsəlman Şərqində yerləşirdi, ən güclü alimlər burada çalışırdılar. Bu dövrdə Azərbaycan şəhərlərində böyük məscidlərin nəzdində mədrəsələr fəaliyyət göstərirdi. Bu

mədrəsələrdə ərəb və fars dilləri, qrammatika, məntiq, kəlam (dini doqmatika), fiqh (islam hüququ), riyaziyyat, kalliqrafiya (xəttahlıq), tarix və əbəbiyyat fənləri öyrədilirdi, o cümlədən müasir ali məktəblərə bənzəyən böyük mədrəsələrdə yunan fəlsəfəsi, astrologiya, məntiq, natiqlik elmi, həndəsə, tibb, əlkimya və bu kimi fənnlər tədris olunurdu. O zaman Şamaxının «Məlhəm» mədrəsəsi məşhur elm və tədris mərkəzlərindən biri idi. Bu mədrəsəyə görkəmli hakim və alim Kafiyəddin Ömər ibn Osman rəhbərlik edirdi. Onun dərman bitkiləri barədə məlumatları indiyədək istifadə edilir.

Dahi Əbu Əli İbn Sina (980-1037) da dəfələrlə Azərbaycanda olmuş və buradan tibbi məlumatlar toplamışdı. O, «Qanun fit-Tibb» («Tibb qanunları») əsərində Azərbaycanın Səburxast qəsəbəsinə səfərindən bəhs edir. Ibn Sina uzun müddət Azərbaycanın sərhədlərində yerləşən Həmədan şəhərində yaşamış və “Tibb qanunları” əsərinin böyük hissəsini orada yazmışdı.

XI əsrdə yaşamış Azərbaycanlı müəllif İsa ər-Raqi Tiflisi Ibn Sinanın yaradıcılığı ilə maraqlanırdı və onun «Qanun fit-Tibb» əsərinə şərhlər yazmışdı. Böyük Azərbaycan alimi Bəhmənyar əl-Azərbaycani (vəf. 1067ci il) Ibn Sinanın tələbəsi idi. Azəərbaycanın dahiləri sayılan Nizami Gəncəvi, Xaqani və Şirvani kimi böyük şairlərin əsərlərində də dərman vasitələri, müalicə üsulları haqqında yetərincə məlumatlar vardır.

Azərbaycanda tibb elminin çiçəklənməsi məhz XIII-XIV əsrlərə təsadüf edir. Çox güman ki, məhz bu dövrdə Azərbaycan tibbində iynəbatırma və dağlama (müasir refleksoterapiya) müalicə üsulları yayılmağa başladı. Bu qədim müalicə üsulunun qalıqları indinin özündə də «çildağ» adı ilə yaşamaqdadır.

Azərbaycan alimi Nəciməddin Əhməd Naxçıvani (vəfatı - 1253) İbn Sinanın tibb və fəlsəfə üzrə əsərlərinə şərh və haşiyyələr yazmışdı.

Nəsrəddin Tusinin elmi məktəbinə aid alimlər də bir sıra mühüm tibb əsərləri yaratmışdılar. Bu alimlərdən biri Əbdülməcid Təbib hesab olunur. Təxminən 1275-1280-ci illərdə o, «Kitabül-

müdavat» əsərini yazmışdı. Kitabda psixiatriya, nevrologiya ilə yanaşı, tibbin bir çox başqa mövzuları da araşdırılır. Əbdülməcid Təbib bu kitabda həm müalicə üsullarından, həm də təbii dərmanlardan bəhs edir. Kitabın böyük bir hissəsi sinir sistemi xəstəliklərinə həsr olunmuşdur. Müəllif iflic, nevralgiyalar, digər sinir sistemi xəstəliklərindən və onların müalicəsindən bəhs edir.

XIII-XIV əsrlərdə təkcə Cənubi Azərbaycanda 67 xəstəxana fəaliyyət göstərirdi və orada tibb, əczaçılıq elmləri üzrə peşəkar mütəxəssislər işləyirdilər. XIV əsrin əvvəllərində Təbrizdə "Darüş-şifa" ("Şəfa evi") adında elmi mərkəz təsis edilmişdi. Bu tədris, tibb və digər elmi müəssisələri, o cümlədən, rəsədxananı birləşdirən bütöv bir şəhərcik idi. Mərkəzdə Azərbaycan alimləri və müəllimləri ilə yanaşı, digər ölkələrdən - Çindən, Hindistandan, Suriyadan və Misirdən dəvət olunmuş mütəxəssislər də çalışırdılar. "Darüş-şifa"nın kitabxanasında İrandan, Hindistandan, Misirdən, Çin və başqa ölkələrdən gətirilmiş on minlərlə əlyazma kitab var idi. Şəhərcikdə müasir universitetlərə bənzəyən ali məktəb (mədrəsə) fəaliyyət göstərirdi. Buraya təbiətşünaslığı, fəlsəfəni, tarixi, tibbi, astronomiyanı, məntiqi öyrənmək üçün hər il Şərqin müxtəlif ölkələrindən 6-7 min tələbə gəlirdi. Bunlar digər fənnlərlə yanaşı dərman bitkilərinin istifadə yollarının öyrənilməsi və tətbiqi ilə də məşğul olurdular.

XV əsrdə Azərbaycan hökmdarı Sultan Yaqub Ağqoyunlu Təbrizdə «Xəft behişt» («Yeddi cənnət») sarayını inşa etmişdi. Həmin sarayda 1000 çarpayılıq xəstəxana və dünyanın hər yerindən, o cümlədən, Hindistandan və Çindən gətirilmiş dərman vasitələri ilə təchiz olunmuş əczaxana vardı.

Məşhur müəlliflərdən xorasanlı Yusif Hərəvinin "Tibbi-Yusifi" (1511) əsəri bütün Müsəlman Şərqində, o cümlədən, Azərbaycanda iki formada şeir və nəsr variantları əldən-ələ gəzirdi. "Tibbi-Yusifi" əsərinin əlyazmalarını dünyanın bir çox fondlarında, o cümlədən, Bakıdakı Əlyazmalar İnstitutunda mühafizə olunur.

Səfəvilər dövründə Azərbaycanda bir sıra görkəmli təbiblər yetişirdi. Yusif Qarabağı XVII əsrdə Azərbaycandan mühacirət edərək, Səmərqənddə yaşayırdı və orada mədrəsədə dərs deyirdi. O, İbn Sinanın "Tibb qanunları" əsərinə şərh yazmışdı. Səmərqənd əhalisi ona hörmət əlaməti olaraq "Böyük Axund" deyirdilər.

Osmanlı Sultan Murad dövrünə aid «Tibbnamə» əsərininin 1711-1712-ci ildə Məhəmməd Yusif Şirvani tərəfindən köçürülmüş nüsxəsi də mövcuddur. Kitab Osmanlı türk dilində yazılıb və o dövrdə məlum olmuş əksər xəstəliklərin müalicəsindən bəhs edir. Məhəmməd Yusif Şirvani XVII əsrin sonunda, XVIII əsrin əvvəllərində yaşamış Azərbaycanın məşhur alim, həkim və xəttatlarından biridir. O, Şamaxıda doğulub böyümüş, orada həkimlik təhsili almış, həm də dərmanşünaslıq elmini öyrənmişdir. O, Şirvan bəylərbəyi Hüseyn xanın yanında həkim olmuşdu. 1711-1712-ci ildə Məhəmməd Yusif Şirvani müəllifi məlum olmayan "Tibbnamə" əsərinin üzünü köçürmüş, ona müqəddimə, şərh və izahatlar yazmışdı. Onun xidməti sayəsində bu kitab günümüzə qədər gəlib çatmışdır. "Tibbnamə" əski türk dilində yazılmış orta əsr tibb əsərləri arasında əsas yer tutur. Bu kitab o zaman məlum olan əksər xəstəliklərin müalicəsindən bəhs edir. "Tibbnamə" əsəri Azərbaycanda 1990-cı ildə kiril əlifbası ilə geniş oxucu kütləsi üçün nəşr edilmiş ilk orta əsr tibb əsəri oldu. Sonralar bu kitab rus dilinə də tərcümə olundu və Sankt-Peterburqda nəşr edildi. "Tibbnamə" Rusiyada dərc edilmiş Azərbaycanın tibb üzrə ilk orta əsr qaynağıdır.

Həsən İbn Rza Şirvani XVIII əsrdə yaşamış məşhur Azərbaycan əczaçısı və «Siracüt-tibb» («Tibbin çırağı») əsərinin müəllifidir. Fars dilində yazılmış bu məşhur əsərdə yüzlərlə dərman nüsxələri göstərilmişdir. «Siracüt-tibb» orta əsr Azərbaycan əczaçılarının stolüstü kitabı olmaqla yanaşı, qonşu Şərq ölkələrində də məşhur idi. Kitabda mürəkkəb tərkibli nüsxələrdən bəhs olunur. Müəllif onları «mürəkkəbat» adlandırır. Bu dərmanlardan bəziləri 50-60 və daha çox bitkidən ibarətdir.

Nümunə kimi, Həsən ibn Rza Şirvaninin nüsxələrindən birini göstərək: «Bambukun içliyindən hazırlanan həblər («qursi-təbaşir») ödqovucu təsirə malikdir, qan təzyiqini aşağı salır, spazmlara qarşı faydalıdır. Tərkibi: bambukun içi, qızılgül, ağ səndəl, xiyar toxumları, nilufər siropu, zirinc, ərəb qatranı, gəvən kitrəsi, dəvətikanının havada bərkimiş şirəsi. Bunları döyürlər və sitron suyu ilə qarışdırıb həblər düzəldirdilər».

Həsən İbn Rza Şirvaniyə məxsus bu əsərin əlyazma nüsxələri Azərbaycan MEA-nın Əlyazmalar İnstitutunda və eləcə də, İranın əlyazma xəzinələrində saxlanır.

XVIII-XIX əsrlərdə Azərbaycanda Məhəmməd Peygəmbərin və səhabələrinin tibblə bağlı deyimləri haqqında hədislər məcmuələri tərtib edilir və köçürülürdü. Bu əsərlərin adı "Tibbi-Nəbəvi" ("Peyğəmbərin tibbi") idi. Əlyazmalar İnstitutunda "Tibbi-Nəbəvi"nin üç müxtəlif əlyazması saxlanılır. Onlardan birisi katib Məhəmməd Bərgüşadi tərəfindən köçürülmüşdür.

XIX əsrdə Azərbaycan dilində tərtib olunmuş tibb əsərlərindən biri də anonim "Nüsxəcat" kitabıdır. Burada xalq təbabətinin bir sıra reseptləri və həmçinin müxtəlif xəstəliklərə qarşı sehr və dualar verilmişdir. O dövrdə yaşayan məşhur təbiblərdən biri də Xurşud Banu Natəvanın saray həkimi Məhəmmədqulu Qayıbzadə Qarabaği idi.

XIX əsrdən başlayaraq Azərbaycanda Avropa tibbinin təsiri duyulmağa başlayır və tibb elmi yeni bir mərhələyə qədəm qoyur.

Azərbaycan xalqının dərman vasitələrindən istifadə etməsi yuxarıda qeyd edildiyi kimi ən qədim dövrlərdən başlamışdır. Dərman vasitələrinin müxtəlif xəstəliklərdə işlədilməsi, yeni müalicə vasitələrinin axtarışı və aşkar edilməsi, xəstəliklərə qarşı dərmanlarla mübarizə üsullarının müəyyənləşdirilməsi və bu kimi məsələlər uzun müddət sufi fikirlərinin və baxışlarının təsiri altında olmuşdur. Lakin bu maneələrə baxmayaraq, təbiətdə yeni

müalicə vasitələrinin və eləcə də, onların daha əlverişli dərman formalarının və tətbiq üsullarının axtarışı davam edirdi.

Azərbaycan tarix boyu başqa xalqların və dövlətlərin, xüsusilə, işğalçı dövlətlərin mədəniyyəti, elmi və eləcə də, təbabəti ilə təmasda olmaq məcburiyyətində qalmışdır. Bu isə öz növbəsində Azərbaycanda təbabətin inkişafına öz təsirini göstərməyə bilməzdi. Məsələn, Ərəb xilafətinin hakimiyyəti dövründə ərəblərin inkişaf etmiş mədəniyyəti, elmi və təbabəti xilafətin bütün ərazisində, o cümlədən, Azərbaycan ərazisində də qəbul olunmuşdur. Həmin dövrdə Azərbaycanda təbabət və dərmanşünaslıq sahəsində baş vermiş əlamətdar hadisələrdən biri, primitiv də olsa ilk müalicə-profilaktika ocaqlarının yaradılması olmuşdur. Bunlardan dərüş-şəfa, əczaçıxana, tibb mədrəsələrini göstərmək olar. Bu dövrlərə aid aşkar edilmiş tarixi məlumatlar və əlyazmaları Azərbaycanda ilk dərmanşünaslıq ocaqlarının meydana gəlməsi ilə xarakterizə olunur. Bu dərmanşünaslıq ocaqlarına əttarlar rəhbərlik edirdilər. Əttarlar əsasən dərman bitkilərinin toplanılması, qurudulması, emalı və eləcə də, öz kiçik dükanlarında dərman vasitələrinin satışı ilə məşğul olurdular. Həmin dövrlərdə fəaliyyət göstərmiş əttarlardan və həkimlərdən qalmış əlyazmalarından məlum olur ki, Azərbaycanın xalq təbabətində bir çox otlardan, müxtəlif bitkilərin çiçəklərindən, köklərindən, toxumlarından, meyvələrindən, qabığından, kökümsov gövdəsindən, yarpaqlarından dərman vasitəsi kimi geniş istifadə edirmişlər, eyni zamanda müxtəlif dərman formaları (dəmləmələr, bişirmələr, aromatik sular, məhlullar) uğurla tətbiq olunmuşdur.

X-XI əsrlərdə yaşamış Zəkəriyyə Razinin və Ömər Osmanın dərmanşünaslığın inkişafında xidmətləri xüsusilə qeyd edilməlidir. Zəkəriyyə Razi 200-dək əsərin müəllifi olmaqla, bu əsərlərdə kimyaya və dərmanşünaslığa mühüm yer vermişdir. Razi su hamamının ilk banilərindən biri sayılır. Onun “Yoxsullar üçün təbabət“, “Həkim olmayanda“ əsərləri təbabətə və dərmanşünaslığa aid digər əsərləri böyük şöhrət tapmışdır.

Azərbaycanlı həkim Ömər Osman tərəfindən olduqca maraqlı və effektli bir çox dərman reseptləri tərtib edilmişdir. Ömər Osmanın ürək xəstəliklərində təklif etdiyi xüsusi pəhriz rejmi böyük maraq doğurur. Ömər Osman öz xəstələrinə şirin pəhriz şərbətlər, şirin şərablar, bal, bəhməz və s. təyin edirmiş. Xəstəliklərin müalicəsində Ömər Osman balqabaq və yerkökü bişirmələrini uğurla tətbiq edirdi.

Bu zaman Azərbaycanda bir sıra görkəmli və istedadlı alimlər, şairlər, filosoflar, həkimlər meydana gəlmişdir. Onların bu diyarda mədəniyyətin və elmin daha da inkişaf tapmasında böyük xidmətləri olmuşdur. Bu dövrün ən məhşur simalarından biri dahi Azərbaycan şairi şeyx İlyas İbn-Yusif Nizami Gəncəvi olmuşdur. Hərtərəfli, zəngin, ensiklopedik biliyə malik Nizami Gəncəvi təbiətşünaslıq, fəlsəfə, astronomiya, təbabət elmlərinin bir çox məsələləri ilə yaxşı tanış idi. Şairin təbabətə dair mülahizələri və baxışları demək olar ki, onun bütün əsərlərində öz əksini tapmışdır.

Bir sıra digər şərq ölkələri ilə sərhəddə malik Azərbaycanda xalq təbabətinin özünəməxsus cəhətləri olmuşdur. Burada təbabətin, dərmanşünaslığın inkişafında iki istiqamət ayırd etmək olar. Birinci istiqamət ondan ibarət idi ki, şəhərlərdə, şəhərətrafı və sərhəddə yerləşən yaşayış ərazilərində yerli dərman vasitələri ilə yanaşı, habelə qonşu ölkələrdən və digər inkişaf etmiş dövlətlərdən gətirilən dərman vasitələrindən də geniş istifadə olunmuşdur. Şəhərlərdə bu işlə xüsusi adamlar, bu sahənin peşəkarları, təbabəti yaxşı bilən təbiblər və həkimlər məşğul olmuşdur. Bunlar ərəb təbabətinin nailiyyətlərinə əsaslanmaqla, dərmanşünaslığa və əczaçılığa aid olan ərəb kitablarından (“Qərabəddini“) - farmakopeyalarından istifadə edirmişlər. Əttarlar əsasən dərman vasitələrinin alışı və satışı işlərinə baxırdılar, müalicə işi ilə nisbətən az məşğul olurdular. Bunlar “Şərq aptekləri“ adlanan əczaxanaların sahibləri olmaqla, el arasında “nüsxəbəndlər” kimi tanınırdılar (nüsxə - resept, bənd - məktub kimi başa düşülürdü). Nüsxəbəndlər hazır dərman

vasitələrini satmaq və onlardan istifadə etməklə yanaşı, habelə özləri də həkim reseptləri üzrə dərmanların hazırlanması ilə məşğul olurdular. Həmin dövrlərdə tətbiq olunan dərman vasitələrindən bir sıra mədəni şəkildə yetişdirilən bitkilərin (bibər, sumax, zəfəran, cirə, xardal, şüyüd, nar, badam, kamfora, kardamon-hil, darçın və s.) məhlullarını göstərmək olar. Lalə-xaşxaş başcıqlarından tiryəkin alınması və hazırlanması da məlum idi.

Xalq təbabətinin ikinci istiqaməti şəhərlərdən uzaqlarda, kənarda ucqar dağlıq əyalətlərdə inkişaf edirdi. Bu yerlərdə təcrübəli, elmi cəhətdən hazırlıqlı həkimlər, demək olar ki, olmurdu. VIII-IX əsrləri əhatə edən ərəb elminin parlaq çiçəklənmə dövründən sonra ərəb xilafətinin ayrı-ayrı dövlətlərə parçalanması ilə əlaqədar olaraq elmin və təbabətin inkişafında da sönüklük müşahidə olunmağa başlayır. Bununla əlaqədar olaraq Azərbaycanda da dərmanşünaslığın inkişafı nisbətən zəifləyir və sonraki bir neçə əsr ərzində bu sahədə elə bir nəzərə çarpacaq inkişaf baş vermir.

XII-XIV əsrlərdə Azərbaycan dəfələrlə qanlı və viranedici müharibələr səhnəsinə çevrilir. Bütün bunlar digər sahələrdə olduğu kimi, dərmanşünaslığa da mənfi təsir göstərmişdir. Bu dövrlərdə də dərmanşünaslıq əvvəllər olduğu kimi həkimlərin, təbiblərin və əttarların ixtiyarında olmaqda idi, lakin onun inkişafı çox ləng gedirdi. XIV əsrin tarixçisi Rəşadəddinin məlumatlarında göstərilir ki, bu dövrlərdə bir çox təbib və əttarların peşəkarlğının səviyyəsi aşağı düşmüşdür. Lakin buna baxmayaraq, XVII-XVIII əsrlərdə Azərbaycan həkimləri tərəfindən tibbə aid bir sıra kitablar yazılmışdır ki, bu əsərlərdə dərman bitkilərinə böyük yer verilir. Belə kitablardan Məhəmməd Yusif Şirvaninin "Tibbi-Namə", "Şərq dərmanlarının lüğəti" və digər əsərlərini göstərmək olar. Bu kitablardan Məhəmməd Əli Pişəvərinin "Məcməül-Gəvamə" (1829), Səid Məhəmməd Hüseyinin "Qərabəddini-Kəbir" (1830) əsərlərini göstərmək olar. Bu əsərlərdə bir çox dərman vasitələri, xüsusilə dərman bitkiləri haqqında geniş və ətraflı məlumatlar

verilmiş, onların müxtəlif xəstəliklərdə tətbiqinə dair göstərişlər təsvir edilmişdir. Azərbaycan xalq təbabətində bitkisəl dərman vasitələrinin tədqiq edilib öyrənilməsində bakılı Əbdül Axundovun böyük əməyi olmuşdur. Axundov bitkilərin botaniki adlarını müəyyənləşdirmiş və X əsrdə Əbu-Mənsur Müvaffaka-Ben-Əl-Hirovi tərəfindən yazılmış Yaxın Şərqdə fars dilində ilk tibb ədəbiyyatı sayılan kitabı Azərbaycan dilinə tərcümə etmişdir.

Bütün bunlar müasir fitoterapiyaya başlanğıc vermişdir. Azərbaycanda dərman bitkilərinin elmi səviyyədə öyrənilməsi 1920-ci ildən başlanmışdır. Sözsüz ki, xalq təbabətində istifadə edilən bitkilərin kimyəvi tərkibinin öyrənilməsi müasir fitoterapiyanın yaranmasına gətirib çıxarmışdır.

## *Urtica* L. – Gicitkan

### *Urtica dioica* L. - İkievli gicitkan

Bölgələrdə göynədici, dalayan, yandıran gicitkan, iri gicitkan, gicitkan, iynəli, qoltuqağacı kimi taninir.

**Botaniki xarakteristikası.** Çoxillik ot bitkisi olub, çoxsaylı möhkəm tükcüklərdən ibarətdir. Kökümsovu üfüqi, qaytanabənzər, yeraltı, hətta yerüstü budaqlanan, sarı rəngli nazik kökümsovlardan ibarətdir. Gövdəsi düz və ya qalxan, hündürlüyü 150-200 sm, küt, dənəvər olub, yuxarı hissəsi budaqlanandır. Yarpaqları qarşı-qarşıya, tünd-yaşıl, yumurtavari və ya neştərşəkilli, çoxdişcikli, ürəkşəkilli və uzun itiuclu zirvəsi vardir. Yarpaqları uzunsov, itiuclu, kənarları dişcikli, seyrək tükcüklü olmaqla, nazik, kövrək olub, tünd-yaşıl rənglidir. Özünəməxsus iyli olub, acı ot dadı verir. Yarpaqlarının uzunluğu 10-17 sm, eni 5-7 sm-dir. Zoğu sərbəst, xətti-neştərşəkilli olmaqla, uzunluğu 1sm-dir. Yarpağının yuxarı hissəsi və gövdəsi cadarlaşmış olub, üzərində tükcüklər vardır. İkievli bitkidir. Çiçək qrupu zəngşəkilli, budaqlanandır. Kiçik, yaşıl, görkəmsiz çiçəkləri olur. Azotu bol olan torpaqlarda, kölgəli və yaşayış yerlərinində çay kənarlarında, zibilli yerlərdə, oba yerlərində və xam meşələrdə yayılmışdır. Çiçəkləyən zaman yarpaqları yığılır. Çoxillik yabanı ikievli gicitkanın yarpaqları iyun-iyul aylarında xammal kimi toplanılır. Toplanılmış xammal



hava dəyişilən kölgə yerlərdə və ya 40-50$^0$C temperaturda ventiliyasiya şəraitində quruducu şkafda qurudulmalıdır.

Qaranlıq və quru yerlərdə kisələrdə saxlanılmalıdır.

**Tərkibi və təsiri:** Yarpaqlarının tərkibində, aşı maddələr, pantoten və qarışqa turşuları vardır. Eyni zamanda çoxlu miqdarda askorbin turşusu (269mq%), karotin və karotinoidlər (50mq%), üzvi turşular (qarışqa, pantoten), B və K (0,2%) vitaminləri vardır.

Bitkidə çox miqdarda aşı maddələr, mikroelementlər, fitonsidlər, protoporfirin, koproporfirin, urtisin qlükozidi, kofein, p-kumarin, ferulin-asetilxolin, histamin və 5-hidroksitriptamin maddələri vardır. Yarpaqlarının məhlulu və ekstraktı qankəsici maddə kimi ağciyər, böyrək, uşaqlıq və bağırsaq qanaxmalarında faydalıdır. Yarpaqları polivitamin qarışıqlarının tərkibinə daxildir.

Asteniya, qanazlığı, arterial hipotenziyada işlədilir. Nevroz, isteriya, bronxit, pnevmoniya, bronxial astma, vərəm, difteriya, iştahasızlıq, ishal, qəbizlik, qastrit, enterkolit epilepsiya və ateroskleroz xəstəliklərində tətbiq edilir. Qaraciyər, böyrək və öd yollarının xəstəliklərində sidikqovucu və iltihabəleyhinə dərman kimi nefrit, pielonefrit və sistitin müalicəsində istifadə edilir. Sidikqovucu və orqanizm möhkəmləndirici dərman kimi I-II dərəcəli ürək-damar xəstəliklərinə müsbət təsir edir. Uşaqlığın tonusunu yüksəldərək qankəsici təsir göstərir, klimakterik qanaxmalarda, uşaqlıq fibromasında, doğuşdan və abortdan sonrakı qanaxmalarda, iltihabi proseslərdə istifadə edilir. 3 xörək qaşığı bitki 2 stəkan qaynar suda (termosda) dəmlənərək gündə 3 dəfə yeməkdən 20-30 dəqiqə əvvəl qəbul edilməlidir (sutqalıq doza). Xaricə yüksək konsentrasiyada gündə 2 dəfə qəbul edilir.

Podaqra, revmatizm, diatez, ekzema, hipoqalaktiya (süd ifrazının azlığı), şəkərli diabet, hemorroy, malyariya və piylənmələrdə tətbiq edilir. Dəmləməsi yanıq, yara və zədələnmələrdə dərinin regenerasiya prosesini normallaşdırır. Cavan bitkinin soku öd və böyrək daşlarının əridilməsinə kömək edir. Gicitkanın kökü öd və böyrəklərdə «ilişib qalan» daşlar üçün olduqca yaxşı dərmandır. Bunun üçün ən yaxşı gicitkanın toxumu

hesab olunur. Xaricə tətbiqində yanıqlarda (zəif isladıcı), yaraların müalicəsində, ekzemada, dəri qaşınmalarında, oynaq revmatizmində əvəzedilməz hesab olunur.

## *Althaea* L. – Bəlğəmotu (gülxətmi)

***Althaea officinalis* L. – Dərman bəlğəmotu** (Aptek gülxətmi, əməköməci, bəlğəmotu, vəhşi lalə, vəhşi qızılgül, gülxətmi)

**Botaniki xarakteristikası:** Dərman gülxətmi çoxillik ot bitkisi olub, qısa, qalın, çoxbaşlı əsas və yan köklərə malikdir. Gövdəsi şaxəli, düz silindrik, üzərəndə çiçəkləri az, əsası boz-bulanıq purpurşəkilli, çılpaq, yuxarı hissələri sıx tükcüklü və pərlidir. Aşağı yarp aqları dairəvi, böyrəkşəkilli və ya yumurtaşəkillidir.



Ürəkvarı-uzunsov, uzunsov-yumurtaşəkilli olub, zirvə yarpaqları itiucludur. Bərabər olmayan zirvə yarpaqları dişcikli, sallanan, kənarları isə sıxyarpaqlıdır. Yarpaqlarının rəngi ağ və ya çəhrayı olub, tumurcuğu və ikiqat kaşacığı vardır. Silindrik formalı boyu uzununa 2-4 hissəyə bölünmüş, getdikcə daralan, uzunluğu 35 sm olub, qalınlığı 0,5-1,5(2) sm-ə bərabərdir. Kök səthi uzununa şırımlı, boş, yumşaq liflərdən ibarət olmaqla, üzərində tünd ləkələr vardır. Köklərin xarici hissəsi ağ, sarımtıl-ağ və ya bozumtul rəngdə olur. Mərkəzi hissəsi dənəvər, kələ-kötür, xarici hissəsi isə keçəyəbənzər tükcüklüdür. Zəif iyli, özünəməxsus şirin dadlı və seliklidir. Göl və suvarma

kanallarının sahillərində, kollar arasında çəmənlik və düzənliklərdə yayılmışdır.

Dərman bitkisi kimi payız və ya yaz fəslində toplanılır, təmizlənir, yuyulur və qurudulur. Mantar qatı və lateral kökləri çıxarılır. Çiçəyi sentyabr-oktyabr aylarında toplanılır. Toplanılma 3-4 ildən bir aparılmalıdır. Xammal 45-50°C temperaturda qurudulur. Təbii olaraq qurudulma günəş düşməyən küləkli yerlədə aparılmalıdır. Toplanılmış uzun və qalın kökləri, 30-35 sm olur. Doğradıqdan sonra 2-3 gün hava çəkən yerdə saxlanılmaqla, uzununa 2-4 hissəyə kəsilməlidir.

**Təsiri və tərkibi:** Köklərinin tərkibində 11% selik, müxtəlif qarışıqlar pentoza, heksoza, əlavə olaraq nişasta (37%), saxaroza və yağ turşuları vardır. Gülxətmi xammalı kökləri təmizlənmiş və təmizlənməmiş olmaqla, iki formada mövcuddur. Yarpaqlarında 35% selik maddəsi, qalaktoza, qlükoza, arabinoza, ramnoza, nişasta, pektin, yağ turşuları və digər maddələr vardır. Aptekdə sirop, məhlul və ekstrakt şəklində satılır. Eyni zamanda siropunun hazırlanması üçün yabanı və mədəni bitkilərdən istifadə edilir. Kökündən hazırlanan *mukaltin* dərmanının güclü öskürəkkəsici təsiri vardır.

Bitkinin istifadə orqanı kökü, bəzən yarpaq və çiçəkləridir. Başlıca olaraq yuxarı tənəffüs yollarının iltihabi xəstəliklərində, öskürək əleyhinə, sinə yumşaldıcı vasitə kimi istifadə edilir. Gülxətminin kökündən mədə-bağırsaq traktı: mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, qastrit, kolit və ishal xəstəliklərində olduqca geniş istifadə edilir. Şərq təbabətində böyrək və sidik axarlarının daş xəstəliyində, sistitdə, sidik kanalındakı şişlərdə, xroniki prostatitdə, oynaq ağrılarında tətbiq edilir. Termosda 2-3 xörək qaşığı kökünü 0,5 litr qaynanmış suda 10-12 saat ərzində dəmləmək lazımdır. 0,5 stəkan gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir.Kökündən hazırlanmış toz, məhlul və siropu iltihabsorucu və öskürəkkəsici xüsusiyyətə malikdir.

Tərkibində 8%-ə qədər bioloji aktiv maddələr, 14%-ə qədər su, 7% ümumi kül, 0,5% həlledilməyən kül, 0.5%-dən az üzvi turşular və 0,5% mineral maddələr olur.

## *Plantago* L. – Bağayarpağı

***Plantago major*** **L.** – İri bağayarpağı (böyük bağayarpağı, yara məlhəmi, çapıq, yara sağaldan, çibanotu, bağayarpağı, yol yoldaşı)

**Botaniki xarakteristikası:** İkiillik ot bitkisi olub, qısa vertikal və çoxsaylı sapabənzər lifli kökləri vardır. Gövdə 15-45 sm olub, nazik şırımlı, hamar və dairəvi çiçəklərə malikdir. Yarpaqları dairəvi və ya ellipsəbənzər, bütövkənarlı və ya azdişcikli olub, qanadlıdır. Sünbül çiçəklərinin uzunluğu 5-37 sm- dir. Çiçəkləri kiçik, tacı bozumtul olub, qoltuq tumurcuqlarının üzərində oturur.



Bu bitki dağlıq çəmənliklərdə, həyət və küçələr boyunca yayılmışdır.

Yabanı və mədəni şəkildə əkilən bağayarpağının yarpaqlarını bitki çiçəkləyən dövrdə 3-4 ildən bir toplamaq lazımdır. Dərman məqsədilə bitkinin bütöv, sağlam yarpaqları toplanılmalıdır. Sonra xammalı parça və ya kağız üzərində nazik bir təbəqədə (3-5 sm) yaymalı, yaxşı ventiliyasiya edilən açıq çardaxlarda və ya quruducu şkafda 40-50$^0$C-də qurutmaq lazımdır.

Xammal hiqroskopik olduğundan rütublətli, nəmli yerlərdən uzaq tutulmalıdır. İşıqdan qorunan quru yerlərdə, parça kisələrə yığılmaqla saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Təsiri və tərkibi:** Yarpaqlarının tərkibində aşı və acı, maddələr, karotin, indekan qlükozidi aukubin, askorbin turşusu (42,2mq%), C və K vitamini, alkoloidlər, flavonoidlər, mannit, sorbit, üzvi turşular (olein) vardır. Toxumlarının tərkibində selik (16%-ə qədər), yağ (20%) və karbohidrat (0,17%) vardır.

Yarpaqlarından hazırlanmış *plantaqlyusid* məhlulu spazmolotik və iltihabsorucu dərman kimi istifadə edilir.

Bütöv, briketləşdirilmiş yarpaqları keyfiyyətli iltihabsorucu və öskürəkkəsici kimi tətbiq edilir. Böyük bağayarpağının təzə kökündən hazırlanmış sok anasid qastrit və xroniki kolitin müalicəsi üçün əvəzedilməz hesab olunur. Bitki iltihabsorucu, bakterisid, yarasağaldıcı, öskürək və qankəsici, sidikqovucu və hipotenziv təsirə malikdir. Hipertoniya və aterosklerozda daha çox tətbiq edilir. Yarpaqlarının sok və dəmləməsi yaxşı öskürəkkəsici maddə olduğundan kəskin və xroniki tənəffüs yolu xəstəliklərində müvəffəqiyyətlə işlədilir. Bundan başqa mədə-bağırsaq traktı, qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, kəskin və xroniki enteritdə, xoralı kolitdə işlədilir. Bağayarpağı ishal, dezinteriya və vərəm xəstəliyinin müalicəsində olduqca effektlidir. Bunun üçün1-3 çay qaşığı (5-15q) bitkini 2 stəkan qaynar suda dəmləyərək, gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl içmək lazımdır (sutqalıq doza). Bikinin ovuntusunu (toz) 1 q-dan gündə 3-4 dəfə yeməkdən 30-40 dəqiqə əvvəl qəbul etmək də olar.

Ağciyər və mədə xərçəngi zamanı bitkinin təzə yarpaqlarını əzərək üzərinə doyana qədər şəkər tozu əlavə etmək və isti yerdə 2 həftə saxlamaq lazımdır. 1 xörək qaşığı gündə 3-4 dəfə yeməkdən 20 dəqiqə əvvəl qəbul edilməlidir.

Qanaxmalarda 2 xörək qaşığı quru bitki və 2 xörək qaşığı gicitkan 2 stəkan qaynar suda dəmlənərək qəbul edilməlidir (sutqalıq doza).

Çiçəkləri yaşıl və ya qonurumtul-yaşıl olub, Spesifik iyə və dada malik . Tərkibində mütləq rütubət 4%, ümumi külün miqdarı 20%, qaralmış və xarab olmuş yarpaqlar 5%, xarab olmuş çiçəklər 1%, üzvi maddələri 1%, mineral maddələri isə 1%-dən çox olmur.

Bədxassəli şişlərin, mədə, bağırsaq, qaraciyər, böyrək, şəkər, sonsuzluq, xroniki xora, göz, qanaxma və ağciyər xəstəliklərinin müalicəsində məsləhət görülür. Bağayarpağın dəmləməsi temperatur və öskürəklə müşayət olunan ağ ciyər vərəmində ağrıkəsici, müxtəlif həşarat və ilan sancmalarında zəhərin orqanizmdən təmizlənməsində əvəzsiz sayılır. Xroniki ishalda bitki və toxumundan istifadə edilir. Yarpaqları elmi təbabətdə dəri xəstəliklərində yaralanma, frunkulyoz və döyənəkli xoralarda, islatma şəklində isə əsasən irinli dəri xəstəliklərində işlədilir.

***Plantago squalida* Salisb. (=*Plantago psyllium* L.)**– Birə bağayarpağı (yara məlhəmi, yara sağaldan, çibanotu, böyük birə bağayarpağı, psillum)

**Botaniki xarakteristikası:** Birillik, ot bitkisi olub, hündürlüyü 40 sm, kökü qısa, möhkəm budaqlı iyəbənzər gövdəyə malikdir. Yarpaqları qarşı-qarşıya xətti olmaqla, bütövkənarlıdır. Çiçəkləri burulmuş, yumurtavari-şarşəkilli olur. Uzun başcıqlı çiçəkləri gövdə üzərindəki yarpaqların arasında yerləşir. Tumurcuqları çəhrayı-qəhvəyi, qonur meyvələri isə elliptik kapsul içərisində yerləşir.



Bitkinin yerüstü hissələri şaxələnmiş, yarpaqları gövdə üzərində müxtəlif olmaqla yerləşir. Ölçüsü 0.6-4 sm-ə qədər olur. Yarpaqlarının uzunluğu 7 sm, xətti-

bütövkənarlı və ya seyrəkdişlidir. Çiçəkləri kiçik, sıx, yumurtaşəkilli və uzunsov olmaqla, çoxsaylı başcıqlıdır. Çiçəkləri ən çox hallarda gövdənin zirvəsində yuxarı şaxələnmələrdə olur. Bitkinin rəngi çəhrayı-qonur çiçəklərinin rəngi isə qonur-yaşıldır. İyi yoxdur, dadı isə azacıq acıdır. Toxumları uzunsov-oval, qayıq formalı olmaqla, kənarlarının daxili hissəsi əyridir. Bir tərəfi qabarıq, digər tərəfi isə basıqdır. Mərkəzin çökük tərəfində zolaq, ağımtıl xal yerləşir. Toxumu parlaq, sürüşkən, tünd-qəhvəyi, demək olar ki, qara rənglidir. Uzunluğu 1,7-2,3 mm, eni 0,6-1,5 mm-ə bərabərdir. Suda selik əmələ gətirir, iyi və dadı yoxdur.

Quru yamaclarında, eyni zamanda rütublətli yerlərdə bitir.

Bitki çiçəkləyən dövrdə toplanılır. Toxumun toplanılması barvermə ərzində həyata keçirilməlidir. Xammal bir sutqadan gec olmayaraq sərilməlidir. Quruduqdan sonra təmizlənməlidir.

Xammalı hiqroskopik olduğundan rütublətli yerlərdən uzaq tutulmalıdır. Işıqdan qorunan quru, yerlərdə, parça kisələrə yığılmalmaqla saxlanılmalıdır. Saxlama müddəti 3 ildir.

**Təsiri və tərkibi:** Toxumu aukubin qlükozidi, selik, zülal və yağdan ibarətdir.

Tərkibində selik, karotinoidlər, flavonoidlər və tannin vardır. Təzə yığılmış bağayarpağı bitkisi şirə çəkmək üçün dərman xammalı kimi istifadə edilir. Bağayarpağının becərilən kulturası və yetkin toxumu keyfiyyətli dərman kimi istifadə edilir.

Təzə yarpaqlarından *acıbağayarpağı soku* alınır ki, bu da qastrit və xroniki kolitlərin müalicəsində istifadə olunur.

Nəmliyi ən azı 70%, təbii rəngini itirmiş yarpaqları 5%, üzvi maddələri 2%, mineral maddələri isə 1%-dən çox deyildir.

## *Tussilago* L. – Dəvədabanı

***Tussilago farfara* L. – Adi dəvədabanı** (Ögeyana, atdırnağı, vərəmotu, dəvədabanı, ağdırnaq, az ağaran, ana otu, riyakar)

**Botaniki xarakteristikası:** Erkən yazda sürünən, şaxələnmiş uzun və sıx kökləri vardır. Çoxillik bitki olub, gövdəsinin uzunluğu 15-20 sm-dir. Gövdəsi qa palı, yarpaqları pulcuqlu, çiçəyin səbətciyinin diametri 1-2 sm-dir. Bütün çiçəklərin səbətciyi qızılı-sarı rənglidir.



Çay sahillərində, yarğan sahələrində, gilli yerlərdə, dəmiryol və avtomobil yollarının ətraflarında bitir.

Yayın birinci yarısında iyun-iyul aylarında saplağının uzunluğu 5 sm-ə qədər olan yarpaqları yığılmalıdır. Həddindən artıq cavan, yuxarı hissələrin tükcüklü yarpaqları, zədələnmiş paslı, qırmızı-qonur, göbələklərlə çirklənmiş orqanları atılmalıdır. Yarpaqlar 50-60$^0$C temperaturda ventiliyasiyalı olan yerlərdə

qurudulur. Qurudulmuş xammal rütublətli yerlərdən mühafizə olunmalıdır.

**Tərkibi və təsiri**: Yarpaqlarının tərkibində acı qlükozidlər (2,6%-ə qədər), sitosterin, aşı maddələr, pirrolizidin alkaloidi, qall, çaxır və alma turşuları, askorbin turşusu (5mq%), saponinlər, inulin və dekstrin maddələri vardır.

Yarpaqlarının tərkibində 7-8% selik, acı qlükozidlər, saponinlər, karotinoidlər, inulin, alma, çaxır turşusu və aşı maddələri vardır.

Tərkibində iltihabsorucu, öskürəkkəsici, büzücü, sidik və tərqovucu maddələr vardır. Əsasən antisklerotik və spazmolotik xüsusiyyətlər göstərir. Dəvədabanı bitkisi yuxarı tənəffüs yollarının kəskin və xroniki xəstəliklərində: bronxit, plevrit, pnevmoniya, difteriya, bronxial astma, bronxoektaziya və qripp xəstəliklərinin müalicəsində tətbiq edilir. Keyfiyyətli öskürəkkəsici və ödqovucu dərman olduğu üçün vərəmdə, iltihabsorucu xüsusiyyətinə görə mədə-bağırsaq traktı, qara ciyər və öd xəstəlikləri, malyariya, ekzema, böyrək xəstəlikləri və sistitin müalicəsində səmərəlidir. Yanıqlarda, frunkulyoz, tromboflebit, angina və stomatitlərdə xaricə təyin edilir. 3 xörək qaşığı çiçək və ya yarpaqlarını 2 stəkan qaynar suda dəmləyərək (termosda) içmək məsləhətdir (sutqalıq doza). Sonra gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul etmək lazımdır. Bu tərkib həm də xaricə tətbiq edilə bilər.

Xalq təbabətində **y**anıq əleyhinə maddə kimi istifadə edilir.

## *Linum* L. - Zəyrək

***Linum usitatissimum* L. - Adi zəyərək** (Əkin (səpin) kətanı, kətan, qəlsəməyəbənzər, kürəkçik, yabanı kətan, uzunlifli kətan)

**Botaniki xarakteristikası:** Birillik və çoxillik otlar olub, yarpaqları bütöv, qarşı-qarşıya və ya bəzən əkslik, ziddiyyət təşkil edir. Bəzən beş dəfə artıq inkişaf etmiş erkəkciklərdən başqa, beş dəfə inkişafdan qalmış (dişcikləri) və ya sapcıqları, ləçəyə qarşı oturaq şəkildə mövcuddur. Yumurtalığı bütövdür. Meyvəsi beşyuvalı qutucuqdan təşkil olunmuşdur. Hər yuva daha iki yuvacıqdan ibarət olmaqla, hər bir yuvada bir toxum yerləşir. Yağlı toxumları vardır.



Düz, nazikgövdəsinin hündürlüyü 70-150 sm, qollu-budaqlı və demək olar ki, orta dərəcəli budaqlıdır. Yarpaqları, neştərşəkilli

və ya xətti-neştərşəkillidir. Nadir hallarda ağ, mavi və ya çəhrayı çiçəkli, meyvələri dairəvi toxumlu, parlaq və xurmayıdır. Yastılaşmış toxumları yumurtaşəkilli və itiuclu olub, uzunluğu 4-6 mm, qalınlığı isə 2-3 mm-dir. Toxum səthi demək olar ki, açıq-sarı, sarı, aşkar görünən və qabarıq zolaqlıdır. İyi yoxdur, selikli-yağlı dada malikdir.

Qapalı halda bağlamalarda, həşəratdan qorunmaqla quru yerlərdə saxlanılmalıdır. Saxlama müddəti 3 ildir.

Toxumları təmizlənməli və toplanılmalıdır. Taxıl qurutma yerlərində və ya qoruyucu havalı yerlərdə qurudulmalıdır.

**Tərkibi və təsiri:** Tərkibində 13%-dən çox olmayan su, 6% ümumi kül, 2% isə üzvi və mineral duzlar vardır.

Toxumunu hidroliz edərkən qalaturon turşusu, qalaktoza, ramnoza və arabinoza, ali yağ turşularının və zülalların triqliseridlərdən ibarət yağlar (30-40%) olur.

Xaricə məlhəm (təpitmə), daxilə isə bürüyücü və yumuşatıcı maddə şəklində təyin edilir.

Tərkibində rütubət 13%, kül 6%, çiçək hissəcikləri 4%, yarpaq, gövdə, çiçək hissəcikləri 1%, üzvü birləşmələr 2% mineral birləşmələr isə 0,5%-dən çox deyildir.

## *Capsella* Medik. - Quşəppəyi

### *Capsella bursa - pastoris* (L.) Medik. - Adi quşəppəyi

**Botaniki xarakteristikası.** Bir və ya ikiillik bitkidir. Milşəkilli kök sisteminə malikdir. Gövdəsinin uzunluğu 10-40sm, yarpaqlı, sadə və ya budaqlanan, səthi qabırğalı, çılpaq və ya zəif tüklü, çiçəkləri və yetişməmiş meyvələri olur. Kök üzərindəki yarpaqları uzunsov-neştərşəkilli, meyvələrinin bir tərəfi daralaraq üçbucağabənzər dişli girintili-çıxıntılı və ya lələyəbənzər bölümlüdür. Gövdəki yarpaqları növbəli, oturaq, girintili-çıxıntılı dişcikli və ya bütöv, zirvə yarpaqları isə getdikcə azalandir. Çiçəyinin quruluşu $K_4L_4E_{4+2}D_1$ bərabərdir. Meyvələri sıxılmış çəlləyəbənzər, tərsüçbucağabənzər və ya üçbucaq-ürəkşəkilli formalı, zirvədə isə dişli, uzunluğu 3-8mm, eni 2-5mm-dir. Zəif iyli, özünəməxsus acı dadlıdır.



Bütün zonalarda - arandan dağlıq, subalp qurşaqlara qədər yayılmışdır.

Yayda çiçəkləmə fazasından, meyvə verənə qədər olan müddətdə qazıb çıxartmaqla və ya kəsməklə toplanılmalıdır. Toplanılmış xammal hava dəyişilən kölgəli yerlərdə qurudulmalıdır.

**Tərkibi və təsiri:** Yarpaqlarının tərkibində filloxinon (vitamin K), askorbin turşusu, aşı maddələr, flavonoidlər və üzvi turşular vardır. Tərkibində K vitamini, bor turşusu, qissopin, çaxır, fumarin və alma turşuları, flavanoidlər, xolin və asetilxolin, tiramin, çoxlu kalium, peptid, inozit, saponinlər, fitonsidlər və

askorbin turşusu vardır. Toxumlarının tərkibində 28% yağ və az miqdarda allilqor turşuları vardır.

Birillik bitki olan quşəppəyi otunun yerüstü hissəsi keyfiyyətli dərman xammalı və dərman bitkisidir. Quşəppəyi ekstraktı (Extr. Bursae pastoris fluidum). Ekstrakt (1:1) nisbətində 70% spirtli məhluludur. 20-25 damcı gündə 2-3 dəfə içmək olar.

Hipotenziv, hərarətsalıcı, büzücü və sidikqovucu xüsusiyyətə malikdir. Təzə bitkidən hazırlanmış soku güclü qankəsicidir. Hipertoniya və ateroskleroz xəstəliyində təyin edilir. Yazda cavan yarpaqları salat kimi yeyilir. Dəmləməsi başlıca olaraq mədə-bağırsaq traktı, ishal, öd və böyrəkdaşı, maddələr mübadiləsi pozğunluğu ilə gedən podaqra və revmatizm xəstəliklərində işlədilir. Quşəppəyi yaxşı qankəsici maddə kimi uşaqlıq, mədə və böyrək qanaxmalarında tətbiq edilir. 2 çay qaşığı bitkini 2 stəkan qaynar suda 10 dəqiqə dəmləyərək, gün ərzində 2 fincan içmək lazımdır (sutqalıq doza). Qarışıq kimi ürək və qan dövranı pozğunluqlarında 10,0quşəppəyi,10,0 yemişan,5,0 valerian,5,0 badrinc olmaqla, qarışıq hazırlanaraq, 2 çay qaşığı 250ml suda 10 saat ərzində dəmlənərək isti halda qəbul edilməlidir. Eyni dozada qatırquyruğu ilə birlikdə ağciyər, revmatizm, qaraciyər, podaqra, burun-qulaq və boğaz infeksiyalarında qəbul edilə bilər. Maye və sulu ekstraktı uşaqlığın atoniyası və uşaqlıq qanaxmalarında tətbiq edilir.

Nəmliyi ən azı 13%, ümumi külün miqdarı 10%, 70% etil spirti ilə çıxarılan ekstraktiv maddələr 10%, qaralmış kök, gövdə, yarpaq və xarab olmuş nişasta tərkibli hissəciklər 3%, üzvi maddələri 2%, mineral maddələri isə 1%-dən çox deyildir.

Təzə yarpaqları diabet xəstəliyinin müalicəsində istifadə edilir.

## *Coriandrum* L. – Keşniş

**Coriandrum sativum* **L. – Çöl keşnişi** (Əkin keşnişi, keşniş)

**Botaniki xarakteristikası:** Birillik ot bitkisi olmaqla, hündürlüyü 70 sm-ə qədər olub, iyşəkilli gövdəyə malikdir. Gövdəsi çılpaq, nazik şırımlı və içiboşdur. Kökətrafı yarpaqları uzunyarpaqlı, kənarları kəsilmiş dişcikli, gövdənin aşağı hissəsi qısa saplaqlı olub, ikiləlәklidir. Yuxarı yarpaqları oturaq, 2-3 yerə bölünmüş lələkli olub, xətti olmaqla, bütövkənarlıdır. Mürəkkəb çətir çiçəkqrupu olub, 3-5 şüalı, çətiri 3 yarpaqlı dolaşmayandır. Çiçəkləri kiçik, kasacığı 5 əsaslı, meyvələri dişcikli, çiçək tacı isə ağ və ya çəhrayıdır.



Meyvəsi sallaq, şarşəkilli, köndələn olub, 2-5 mm-ə bərabərdir. Daxili tərəfi çökük, xarici tərəfi isə qabarıqdır. Yuxarı hissəsinin meyvəsi sallaq, aydın görünən kasacıqlı və sütuncuqludur. Çiçəkləri sarımtıl-boz və ya sarı-samanı, dadı tünd ətirli, kəskin iyli və spesifik aromatlıdır.

Əkin keşnişi XIX əsrin ikinci yarısından becərilməyə başlanılmışdır. Rus tədqiqatçıları tərəfindən seleksiya-toxumçuluq istiqamətində geniş tədqiqatlar aparılmışdır.

Əkin keşnişi mədəni becərilən birillik ot bitkisi olub, meyvə yetişən zaman keyfiyyətli dərman xammalı kimi toplanılır. Tamamilə qurutmaq və sonra döymək lazımdır.

**Tərkibi və təsiri:** Meyvənin tərkibində 1,4% efir yağı, əsas komponent olan linalool (50-80%) pinen, heranilol və piyli yağ (20%) vardır. Maye və sulu ekstraktı keyfiyyətli dərmandır. Mədə-bağırsaq, öd və babasil əleyhinə qarışıqların tərkibidə işlədilir.

## *Melissa* L. – Bədrənc (Batrınc)

***Melissa officinalis* L. – Dərman bədrənci** (Limonnu nanə, limonotu, ballı nanə, ballıot, bədrənc)

**Botaniki xarakteristikası** – Çoxillik ot bitkisi olub, hündürlüyü 50-120 sm-ə bərabərdir. Gövdəsi dördtilli, düzqalxan və budaqlanandır. Yarpaqları qarşı-qarşıya, saplaqlı olmaqla, yumurtavari və çəpərəbənzər kənarlara malikdir. 5-8 sm uzunluğa və 3 sm eninə malikdir. Yuxarı yarpaqları 3-10 sm-dir. Kasacığı ikidodaqlı, çiçək tacı 1,5-2 dəfə kasacıqdan uzun, ağımtıl, çəhrayı və ya açıq- bənövşəyi olub, 13-15 mm-dir. Meyvələri qiymlətli olmaqla, 4 yumurtavari, açıq-qonur, boz rəngli olub, uzunluğu 1,8-2,0 mm-ə bərabərdir. Bütün hissələri xammaldır.



Meşələrdə, kiçik yarğanlarda, kölgəli dərələrdə və aşağı dağ qurşaqlarında yayılır.

Bitki butonizasiya vaxtı və təzə çiçəkləmə başladıqda zirvəsindəki gövdəsi və yarpaqları ilə birlikdə toplanılır. Çardaq və ya naves altında, yaxşı havalanan kölgəli yerlərdə temperatur 35°C-dən çox olmamaqla qurudulmalıdır. Efir yağlı xammalın saxlanılmasına düzgün riayət etmək lazımdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Xammalın tərkibində efir yağı (0,2%), sitral (62%), sitronellal, heraniol və linol maddələri vardır. Bundan başqa aşı maddələri, $B_1$, $B_2$, C vitaminləri, müxtəlif üzvi turşular, kumarinlər və flavonoidlər də vardır. Tərkibində efir yağının əsas komponenti yarpaqlarında limon iyli sitral və sitronellal təşkil edir.

Dərman bitkisi olan bədrəncin xirdalanmış yarpaqları sedativ və spazmolotikdir. "Kasmin" preparatı antikoqliyant və antiaqreqant təsirə malikdir. Üz səpkilərində tətbiq edilən "Lomaherpan" kremi əvəzsiz virusəleyhinə təsirə malikdir. Tərkibində ekstrakt və efir yağı olan çox kombinəedilmiş "Dormiplant", "Novo-Passit", "Persen", "Nervoflukus", "Qastrovit", "Enerqotonik", "Altaleks" dərman preparatları da mövcuddur. Sedativ dərman preparatlarının tərkibinin əsas komponentidir. Bədrənc preparatları sedativ, spazmolotik və antibakterial təsirə malikdir. Təngnəfəsliyi, ürək ağrılarını götürür, tənəffüs sayını azaldır, sinir sistemini tonuslsndırır və möhkəmləndirir. Yüksək terapevtik effekti tərkibindəki efir yağı ilə bağlıdır. Bədrənc bitkisi mədə şirəsinin ifrazını nizama salır, spazmı azaldır, meteorizm, diskenziya, ferment çatmamazlıqlarını aradan götürür və maddələr mübadiləsini yaxşılaşdırır.

Bədrənc dəmləməsi nevrozlarda, halsızlıq, vegetativ-damar distoniyasında müvəffəqiyyətlə istifadə edilir. Bundan başqa bağırsaq diskenziyasında və bağırsaq sancısında, xolesistit, xolangit, böyrəkdaşı, sidikyolu xəstəliklərində, stenokardiya və klimakterik sindromlarda işlədilir. Xaricə işlətdikdə dəriyə antibakterial, antivirus, frunkulyoz, herpes, stomatit və parodontozlara yaxşı təsir edir. Bədrənc bitkisi kombinəedilmiş

şəkildə ektrakt, dəmləmə kimi sedativ, spazmolotik, ağrıkəsici, hipotenziv təsir edir. Çiçəkləyənə qədər cavan yarpaqları kəsilərkən şirəsindən kulinariyada istifadə edilir. Yarpağındakı limon iyi efir yağına görə olduğundan parfümeriyada istifadə edilir.

## Mentha L. – Yarpız

**Mentha piperita* **L. – İstiot nanə** (Acı nanə, soyuq nanə, qıvrım nanə, istiot nanə, ballı nanə, nanə)

**Botaniki xarakteristikası:** Mədəni şəkildə əkilən, çoxillik ot bitkisi olub, hündürlüyü 30-100 sm-dir. Gövdəsi düzqalxan, budaqlanan, dördtilli, sıxyarpaqlı, çılpaq və ya arabir qısa tükcüklərdən ibarətdir. Kökümsovu üfüqi, budaqlanan, nazik düyünlü olub, saçaqlı kök sisteminə malikdir. Yarpaqları çarpaz, qarşı- qarşıya yerləşir. Yarpaqları qısa saplaqlı, uzunsov-yumurtaşəkilli, itiuclu, əsası ürəkşəkilli, iti mişarşəkilli kənarlara malik, yuxarı tərəfi tünd-yaşıl, aşağı tərəfi isə açıq-yaşıldır. Çiçəkləri xırda olmaqla gövdənin başında yalançı çiçək köbəsində və sünbül çiçək qrupunda toplanır. Kasacığı boruşəkilli, 5 dişcikli olub, bənövşəyidir. Ləçəyi qeyri-düzgün, çəhrayı və ya tutqun-bənövşəyidir.



Mədəni becərilən bitki olaraq düzən və kifayət qədər rütublətli yerlərdə əkilməlidir. Vegetativ orqanlarla, bəzən ştillərlə artırılan bitkidir. Cavan gövdəsinin uzunluğu 20-40 sm-dir. Bu bitkinin yeri 3 ildən bir dəyişilməlidir.

Yarpaq və çiçəkləri iyul-avqust aylarında toplanılır. Kölgəli və küləkli yerlərdə qurudulmalıdır. Sonra xammalı yaba ilə çevirmək və silkələmək lazımdır. Yarpaqları keyfiyyətli xammal hesab olunur. Tərkibində efiryağlı maddələrin miqdarı çoxdur. Yarpaqların bütün üst hissəsi metal parıltılıdır. Kəskin iyli, özünəməxsus aromatlı yandırıcı dada malik, çeynədikdə ağızda soyuqluq əmələ gətirən bitkidir.

**Tərkibi və təsiri**: Yarpaqlarında efir yağlarının miqdarı 2,7%, çiçəklərində 6% qədər, gövdəsində isə 0,3% olur. Karotin (40mq%), ursol və olein turşuları, triterpenlər, puleqon, fitonsidlər, hesperidin, flavonoidlər və betain maddələri vardır. Yarpaqlarının tərkibində mentol çoxdur.

Xüsusi aromat iyli olmasına səbəb tərkibində efir yağlarının, xüsusən mentolun olması ilə bağlıdır. Bu yerli keyləşdirmə, srazmolotik, ağrıkəsici və antiseptik təsirə malik olmaqla, kaponar damarları reflektoru surətdə genişləndirir. Olimetin (Olimetinum), enatin (Enatinum), şam «Anestezol», validol, Zelenin damcısı və mentol tərkibli digər dərmanlar hazırlanır. Məhlulu (1:20) ağrıkəsici dərman kimi tətbiq edilir. Nanəli su və miksturası xoş rayihəsi ilə seçilir. Təzə yığılmış yarpaqlarının tərkibində spazmolotik, sakitləşdirici, ağrıkəsici, antiseptik maddə kimi həb, diş damcısı, pasta, kompleks preparat olan karvalol, valokardin və milokardin preparatlarının tərkibində vardır.

Nanə spazmolotik, ağrıkəsici, antiseptik, ödqovucu və yelqovucu xüsusiyyətə malikdir. Ürək-damar sistemini stimullaşdırıcı, ağrıkəsici (xüsusən baş ağrıları) olduğu üçün hipertoniya xəstəliyi, stenokardiya, revmatizm, diş ağrısı və ateroskleroz xəstəliyinin müalicəsində istifadə edilir. Yuxarı tənəffüs yolları - bronxial astma və bronxoektaziya xəstəliklərinin

müalicəsi üçün məsləhət görülür. Öd yolları və bağırsağın diskenziyasında yaxşı effekt verir. Həzmi və iştahı artırır. Qastrit, xora xəstəliyi, kolit, enterkolit, meteorizm, təngnəfəslik, qusma və ishal xəstəlikliyində tətbiq edilir. Öddaşı, hepatit və xolesistit xəstəliklərində bitki çaylarının tərkibinə daxil edilmişdir. Yarpızı fasiləsiz qəbul etmək orqanizmi möhkəmləndirici, sakitləşdirici kimi isteriya, halsızlıq, miqren xəstəliklərinə müsbət təsir etməklə yanaşı, həm də diuretik təsir göstərir. Xoş ətirli və dadlı olduğundan əksər dərman bitkilərinin qarışıqlarına daxil edilir. Xaricə vanna kimi tətbiq edilir. Bu tətbiq damcı, mikustura, həb (validol) və karandaş şəklindədir. Yarpaqlarının tərkibində mentol olduğundan stenokardiya, mədə və bağırsaq sancılarında istifadə edilir. Xaricə nevralgiya, diş ağrılarında, antiseptik, ağrıkəsici və iltihabi xüsusiyyətinə görə bronxit və bronxoektaziya xəstəliklərdə məsləhət görülür. Mentolun valerianla qarışığı – validol, parafinlə qarışığı – karandaş şəklində miqrendə, Zeleninlə valokardin kimi istifadə edilir. Bundan başqa yarpaqları iştahın artırılmasında, tənğnəfəslik və qusmalarda tətbiq edilir. Alman həkimləri mədə xəstəlikləri, meteorizmdə, Avstriya və Bolqar həkimləri yarpaqlarının dəmləmə, bişirmə və yağından mədə-bağırsaq spazmında, meteorizmdə, ishalda, tənğnəfəslik və qusmalarda öd, qaraciyər xəstəliklərində (daş, sarılıq, böyrək sancıları) və baş ağrılarında təyinini məsləhət görürlər. Vannalarının qəbul edilməsini də lazım bilirlər. Təzə və qurumuş yarpaqlarının sup, salat, tərəvəz və ət məhsulları ilə birlikdə qəbul edilməsi də məsləhətdir. Çayların tərkibində ödqovucu, tərqovucu kimi, qida, konditer və parfümeriya sənayesində diş məcunu və tozlarının hazırlanmasında geniş istifadə edilir. 2 xörək qaşığı bitkini 2 stəkan qaynar suda dəmləyərək (termosda) gündə 3 dəfə hər dəfə yeməkdən 30 dəqiqə əvvəl içmək lazımdır (sutqalıq doza). Nanə yağı (*Oleum Menthae piperitae*). Tərkibində 50% mentol diş praktikasında 1-3 damcı, mentol (*Mentholum*) isə dəri səpkilərində və mialgiyada işlədilir.

Tərkibində efir yağı 4%, menton, pinen, limonen, puleqon, mentofuran, sirkə və valerian turşusunun mentol efiri vardır. Bundan başqa tərkibi karotinoidlər və flavonoidlərdən ibarətdir. Ümumi külün miqdarı 14%, qaralmış kök, gövdə, yarpaq və xarab olmuş nişasta tərkibli hissəciklər 5%, üzvi maddələr 1%, mineral maddələr isə 1%-dən çox deyildir.

## *Salvia* L. – Sürvə, Adaçayı

***Salvia officinalis* L. – Dərman sürvəsi** (aptek sürvəsi, adaçayı, şalfey, sürvə, açar-otu)

**Botaniki xarakteristikası:** Yarımkol olub, hündürlüyü 50 sm, budaqlanan, gövdəsi dördtilli, qarşı-qarşıya, uzunsaplaqlı və uzunsov yarpaqlıdır. Yarpaqlarının əsası dairəvi və ya ürəkşəkilli, hətta ikipərli olmaqla, kiçik çəpərlidir. Yarpaqlarının uzunluğu 10 sm, eni isə 2,5sm-dir. Çiçəkləri böyük, göy-bənövşəyi rəngli, ikidodaqlı, köbəli olub, sünbül çiçək qrupunda toplanmışdır. Dilimli yarpaqları - 1-35mm, dairəvi yarpaqları isə müxtəlif forma və ölçülərdə rast gəlinir. Yuxarı yarpaqları bir bərabərdə, bürüşüklü və ya kiçik deşikli, sıx torabənzər, kiçik damarlara malik olub, yuxarı hissəsi çökük, aşağı hissəsi isə qabarıqdır. Çiçəkləri yaşıl



və ya gümüşü-ağ, xüsusən aşağı hissəsi uzun tükcüklüdür. Aromat iyli, acı (ədviyyəli) dadlı olub, azacıq büzücüdür. Xoş rayihəlidir.

İstisevən və quraqlığa davamlı bitkidir. Becərilmə zamanı torpaq münbit, məhsuldar, bərəklətli olmalı və işıqlanma şəraiti təmin olunmalıdır. Yarımkolu və yarpaqları keyfiyyətli dərman xammalı kimi yayda toplanılır. Quruducu şkafda 35-40°C temperaturda qurudulmalıdır. Bağlı yeşiklərdə, anbarlarda isə parçadan olan kisə və taylarda efiryağlı xammala edilən düzgün quluğu gözləməklə saxlamaq lazımdır. Bir il ərzində efiryağlı tərkib yoxlanılmalıdır. Saxlanılma müddəti 1,5 ildir

**Tərkibi və təsiri:**Yarpaqlarının tərkibində efiryağlı maddələr (0,5-2,5%), sineol (15%), pinen, tuyon, salven, borneol, kamfora və digər terpenoidlər vardır. Bundan başqa flavonoidlər, aşı maddələr, triterpen turşuları – ursol, olein, diterpenoidlər, fenol, acı maddələr və fitonsidlər vardır. Sürvənin yarpaqlarında efir yağı, alkoloidlər – salven, tuyon, sineol, acı, aşı maddələr, qatran, turşu (ursol və olein), fitonsidlər, Kox çöplərinə (vərəm) qarşı aktiv olan maddələr və fitonsidlər vardır.

Xalq təbabəti praktikasında şalfey iltihabsorucu və dezinfeksiyaedici maddə kimi xaricə ən çox dəri xəstəliklərində işlənilir. Bundan başqa angina, qripp, stomatit, gingivit və imalə şəklində də işlədilir. Tərazaldıcı xüsusiyyəti vardır. Tərkibindəki efir dezinfeksiyaedici və qıcolma əleyhinə, aşı maddələr isə bağırsaq çatmamazlığı hallarında işlədilir. Məhlul şəklində daxilə 1-2 xörək qaşığı 2 stəkan qaynar suda 10 dəqiqə dəmlənilərək (termosda) qəbul edilir (sutqalıq doza) və ya xaricə tətbiq edilir. Bizim qənaətimizə görə sürvə ağız və boğazın iltihabi xəstəliklərində, xaricə bürüyücü, kompres və sarğı qoyulmasında çox yaxşı təsir edir. Sürvə ilə çoban yastığının hər birindən 2 çay qaşığı 250ml suda 15 dəqiqə dəmləyərək çox tərləmələrdə yüksək nəticə verir.

Efir yağı ən azı 0,8%, nəmliyi 14%, ümumi külün miqdarı 12%, qaralmış kök, gövdə, yarpaq və xarab olmuş nişasta tərkibli

hissəciklər 5%, üzvi maddələr 3%, mineral maddələri isə 0,5%-dən çox deyildir.

Xammalın yarpaqlarının tərkibində 2,5% efir yağı, sienol (15% qədər), aşı maddələri, ursol və olein turşusu vardır.

Qaraciyər və böyrək, qastrit, xora xəstəliyi, enterkolit, ishal və bronxit xəstəliklərində daxilə qəbul edilir. Şalfey cinsi vəziləri normallaşdırır. Sonsuzluqda və klimakterik vəziyyətlərdə olduqca səmərəlidir. Dəmləməsi sinir sistemini möhkəmləndirərək tər ifrazını azaldır. Kulinariya bitkisi olduğundan sup və tərəvəzli yeməklərin tərkibinə qatıla bilər. Südverən qadınların südünü artırmaq üçün istifadə edilə bilər. Balla qarışdıraraq fiziki cəhətdən zəif uşaqların orqanizmini möhkəmləndirir.

**Əks göstəriş** – Kəskin nefrit və hamiləlik

## *Carum* L. – Zirə

***Carum carvi* L. – Adi zirə** (Zirə, tmin, kəklikotu, yabanı zirə)

**Botaniki xarakteristikası:** İkiillik ot bitkisidir. Kökləri iyşəkilli lətlidir. Gövdənin hündürlüyü 30-80 (100) sm, düzqalxan və budaqlanandır. Yarparqları iki, üç ləlşəkilli, aşağı hissəsi böyük uzun saplaqlı, yuxarı hissəsi kiçik qısa saplaqlı, çiçəkqrupu mürəkkəb çətir, yastılaşmış ağ rəngli meyvələri vardır. Sallaq meyvələrinin uzunluğu 3-7mm, eni isə 1,5mm-dir.



Quru dərələrdə, rütublətli çəmənliklərdə, çay kənarlarında, dağlarda, kəsilmiş meşələrdə, meşə kənarlarında, talacıqlarda və bozqır çəmənlikldə yaşayır. Rusiya, Ukrayna və Belorusiyada yayılmışdır.

Keyfiyyətli xammal kimi iyul-avqust aylarında yarpaqları toplanılır. Xammalı yaxşı ventiliyasiyalı yerlərdə qurudulmalıdır.

Meyvəsi sallaq uzunsov olub, oraqşəkilli qatlanmış, yanlardan sıxılmış, uzunluğu 3-7 mm, eni isə 1-1,5mm-dir. Meyvələrinin daxili tərəfi basıq, xarici tərəfi isə qabarıqdır. Meyvələri 5 uzunsov qabırğalıdır. Çiçəyinin rəngi tünd-boz olub, qabırğaları açıq şəkildə görünür. Dadı acı, yandırıcı ədviyyəli, kəskin iyli və aromatlıdır. Efiryağlı olduğundan quru, sərin, havası dəyişilən yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Meyvələrinin tərkibində 3-6% efir yağı, karvon (40-50%), limonen, karvakrol, 20% piy yağları və flavonoidlər vardır. Meyvələrində başlıca olaraq karvon və limonen, aşı maddələri və yağlar (22% qədər) vardır.

Bitki və çiçəklərində flavonoidlər (kverçetin, kempferol və izoramnetin) və asetil tərkibli polin maddələri vardır.

Yarpaqları və meyvələri keyfiyyətli tərqovucudur. Meteorizminin müalicəsində və mədə qarışıqlarında müvəffəqiyyətlə işlədilir. İştahlandırıcı, spazmolotik (bağırsaq əzələlərini, uşaqlıq, sidik yolu), bronxlardakı seliyi artıran, qadınlarda laktasiyanı gücləndirən xüsusiyyətləri vardır. 2-3 çay qaşığı bitkini 200 ml qaynar suda dəmləmək (termosda) və hər gün içmək lazımdır.

Efir yağı ən azı 4%, nəmliyi 12%, ümumi kül 8%, meyvələrini tərkibində efir yağı 1%, qaralmış kök, gövdə, yarpaq və xarab olmuş nişasta tərkibli hissəciklər 2%, üzvi maddələri isə 0,5-dən çox deyildir.

Bronxlarda iltihab mənşəli öskürəklərdə, yumşaldıcı və tərqovucu dərman kimi qastrit, enterkolit, uşaqlarda bağırsaq sancılarında, meteorizm, xroniki atonik qəbizlikdə yaxşı nəticə verir. Südverən analarda laktasiyanı gücləndirir. 1 xörək qaşığı meyvəni 1 stəkan smetanda qarışdıraraq 3 dəqiqə qaynatmaq lazımdır. 1 xörək qaşığı gündə 3 dəfə içmək lazımdır.

## *Anethum* L. - Şüyüd

***Anethum graveolens*** **L. - Bostan şüyüdü** (İyli şüyüd, şüyüd, şivid)

**Botaniki xarakteristikası** – Birillik ot bitkisi olub,hündürlüyü 40-120 sm-ə bərabərdir. Əsas kökü incə, zərif, budaqlanandır. Gövdəsi düzqalxan və ya azacıq əyilmiş, budaqlanan, dairəvi, uzunsov açıq-yaşıl və yaşıl, mil-mil, incə mumabənzər qatlıdır. Yarpaqları növbəli, üçüncülü-dördüncülü ləlēkşəkilli olub, uzunluğu 30 sm, eni 4-25 sm-dir. Aşağı yarpaqlarının uzunluğu 4-12 sm, saplaqlı, orta və yuxarı yarpaqları qısa saplaqlı və oturaqdır. Hamaşçiçəkləri mürəkkəb, çoxşüalı çətirinin diametri 7-30 sm-dir. Çiçəkləri kiçik, ikicinsli, beşüzvlü, sarı ləçəkli, dar olub, zirvəsi bükülü vəziyyətdədir. Meyvələri sallaq, asılı vəziyyətdə, ellips və ya enli ellipsşəkilli, uzunluğu 3-7 mm, eni 1,5-4 mm, sarımtıl-qəhvəyidir. Bitkinin yerüstü hissəsi aromatlı, efir iyli, şirintəhər-ədviyyəli dadlıdır. İyun-avqust ayında çiçəkləyir, avqust-sentyabr aylarında isə meyvələri yetişir.

Xammal meyvə yetişən dövrdə mərkəzi çətirinin toplanılması ilə başa çatır. Döyülmüş meyvələrini tamam qurutduqdan sonra digər qarışıqlardan təmizləyirlər.

Xüsusi merikarp seyrək yerləşməklə, meyvəsi sallaq, asılı vəziyyətdə, uzunluğu 3-7 mm, eni isə 1,5-4 mm-ə bərabərdir. Meyvələri enli ellipsşəkilli, aşağı tərəfi zəif qabarıq, daxili isə yastıdır. Hər bir merikarp 5 qabırğalıdır. Xarici tərəfində 3 sapşəkilli, yan tərəfi isə - 2 yastı qanadabənzərdir. Çiçəkləri yaşılımtıl-boz və ya qonur, boz, qabırğası sarımtıl-qonurdur. Kəskin iyli və aromatlıdır. Şirin-ədviyyəli dadlı və bir qədər də yandırıcıdır.

**Tərkibi və təsiri:** Tərkibində efir yağı (2-4%) və onun əsas komponenti karvon (40-60%), limonen(19-40%), fillandren, dihidrokarbon və digər terpenoidləri vardır. Meyvələrinin tərkibində furanoxromonlar vardır. Toxumlarında 20% piyli yağlar vardır. Otunun tərkibində 0,56-1,5% efir yağı, çoxlu miqdarda (16%) karbon tərkibli maddələr, bol vitaminlər C, $B_1$, $B_2$, PP, P, karotinoidlər, kalium duzları, kalsium, fosfor, dəmir, fol turşusu və flavonoidlər (kverçetin, izoramnetin, kempferol) vardır. Toxumundae efir yağları 2% spirt, rütubət 12%, ümumi kül 10%, 10%-li xlorid turşusunda həllolmayan kül 1%, xırdalanmış, doğranmış diametri 3 mm olan hissəciklər 1%, üzvi turşular 2%, mineral duzlar isə 1% olur.

Efir yağlı xammalın saxlanılmasına düzgün riayət etmək lazımdır. Saxlanılma müddəti 3 ildir.

Şüyüdün ətirli meyvəsi və xammalı vardır. Bağırsağa yaxşı təsir etməklə, tərqovucu və spazmolotik xassəsi vardır. Qarışıqları mədə-bağırsaq və uroloji problemlərə çox yaxşı təsir edir. Tərqovucu kimi 1 hissə şüyüdlü 1000 hissəsuya qatmaq lazımdır. Kombinəedilmiş efiryağlı maddələrdən “Solutan”, “Spazmosistenal”, “Qrezeofulvin” dərmanlarına rast gəlinir.

Spazmolotik dərman preparatlarıdır. Bostan şüyüdü meyvələrindənalınan dərman preparatları mədəaltı vəzi sekresiyasını artırır, spazmolotik, öskürəkkəsici, ödqovucu,

diuretik, möhkəmləndirici, bağırsağın mator funksiyasını artırır, antibakterial aktivliyi olmaqla, südverən anaların südünü artırır. Şüyüdün tərkibində olan furanoxromonlar koranar və periferik damarların genişlənmə effektini artırır.

Ətirli şüyüd meyvəsi mədə-bağırsaq xəstəliklərində tərqovucu və spazmolotik xassəsi olmaqla, yüngül sidikqovucu təsirə malikdir. Razyana xammalı ilə birlikdə keyfiyyətli tərqovucu və meteorizmə qarşı effektli dərman maddəsi kimi olduqca qiymətlidir. Yarpaqları hipoxrom anemiya zamanı tətbiq edilir. Tərkibində askorbin turşusu, karotin və dəmir vardır. Hipertoniya zamanı sidikqovucu kimi işlədilir.

## *Valeriana* L. – Pişikotu

***Valeriana officinalis* L.** – **Dərman pişikotu** (Maun, pişik kökü, pişikotu, dərman valerianı, aptek valerianı, valerian, yer ladanı, çibanotu, qızdırma kökü, aromatlı kök)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, hündürlüyü 2m-ə qədərdər. Kökümsovu qısa, şaquli, çoxsaylı əlavə kökləri olmaqla, uzunluğu 20sm-dir. Birinci il kökətrafı uzun yarpaqları çətir əmələ gətirir. İkinci il çiçəkəmələgətirən gövdə əmələ gətirir. Gövdəsi düzqalxan, sadə, yuxarı hissədən budaqlanan, içiboş, silindrik, şırımlı, çılpaq və ya aşağı hissəsi tükcüklüdür. Yarpaqları qarşı-qarşıya, cüt olmayan, xətti-neştərşəkilli və ya yumurtavari, iridişcikli seqmentdən ibarətdir. Aşağı yarpaqları saplaqlı, yuxarı



yarpaqları isə oturaqdır. Çiçəkləri kiçik, tutqun çəhrayıdan, bənövşəyi rəngə qədər dəyişir. Zirvədə geniş qalxanvari süpürgəşəkilli gövdələri toplanılır. Bu bitkinin müxtəlif növləri – adi valerian (*V. officinalis* L.), bataqlıq valerianı (*V. palustris* Kqeyeq), parlaq valerian (*V. nitida* Kqeyeq), rus valerianı (*V. rossica* Sm.) vardır.

Valerian sahilboyu ərazilərdə, sucaq kolluqlarda, yarğanlarda, bozqırlarda, çəmənliklərdə, müxtəlifotluqlarda və rütublətli yerlərdə bitir.

. Erkən yazdan vegetasiya başlayana qədər toplanıla bilər. Kökümsov və kökləri və yerüstü hissələri toplanıldıqdan sonra 20 dəqiqə ərzində yuyulmalıdır. Sonra 3-5 sm qalınlığında sərilməlidir. Kökümsov və kökləri quruducu şkafda 35°C temperaturda qurudulmalıdır. Qurudulma zamanı bükülməməli və qatlanmamalıdır.

Bütöv və doğranmış kökümsovlarının uzunluğu 4 sm, qalınlığı 3 sm, yumşaq, ürəkvari, içiboş, oyuqlu və köndələn istiqamlətli arakəsmədən ibarətdir. Kökümsovunun bütün tərəflərində çoxsaylı nazik əlavə kökləri vardır. Bəzən yeraltı gövdəsi stolonlardan ibarət olur. Kökümsovları hamar, düz, müxtəlif uzunluqlu olub, qalınlığı 3 mm-ə bərabərir. Kökümsov və köklərinin rəngi xaricdən sarımtıl-qəhvəyi, sınmış halda sarımtıldan tünd qəhvəyiyə qədər dəyişir. Güclü aromat iylidir. Ədviyyəli və şirin-açıtəhər dadlıdır.

Efir yağli xammal olduğundan saxlanılmasına düzgün riayət etmək lazımdır. Belə ki, quru yerdə kisə və taylarda saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Xammalın meyvələrinin tərkibində 1,4% efir yağı, əsas komponent olan linalool (50-80%) pinen, heranilol və 20% qədər yağlı piy vardır.

Kököndə efir yağı (valerian borneol efiri), izovalerian turşusu vardır. Bitkinin tərkibində alkoloidlər (valerin, xatinin), valerid

qlükozidi, saponinlər, aşı maddələri və üzvi maddələr vardır. Aptekdə bir neçə formada satılır.

Nevroz, sinir sistemi ilə bağlı halsızlıqlarda daha çox istifadə edilir. Hipotenziv və spazmolitik xüsusiyyətinə görə hipertoniya xəstəliyində, kardionevroz və stenokardiya zamanı istifadə edilir. Valerian spastik kolitlərdə, xroniki ishal, mədə-bağırsaq nevrozunda da müvəffəqiyyətlə tətbiq edilir. Qalxanvari vəzinin hiperfunksiyası, bədənin əsməsi (xoreya), epilepsiya və erkən klimakterik şikayətlər zamanı valerianı qəbul etmək olduqca yaxşı təsir edir. Eyni zamanda iştahsızlıq, orqanizmin möhkəmləndirilməsində öd, mədə və mədəaltı vəzi sisteminin xəstəliklərində də tətbiqi çox yaxşı səmərə verir. Köklərində 2%-ə qədər efir yağı, borneol, izovalerian turşusu, kamfen, pinen və digər terpenlər vardır. Köklərində bolluca efir yağları, valerian turşusu, xatinin alkaloidi, valerin qlükozidi, aşı maddələr, üzvi turşular və şəkər vardır. Sinir sistemini sakitləşdirir və spazmolotik təsir göstərir. Sinir mənşəli halsızlıqlarda, ürək-damar nevrozunda, ürəkdöyünmədə, ekstrasistolada, meteorizm və qəbizliklərdə tətbiq edilir. Termosda 1 xörək qaşığı köklərindən 1 stəkan qaynanmış suda gündə 3-4 dəfə, hər dəfə 1/3 stəkan qəbul edilir. Toz şəklində kökləri 1-2 q olmaqla, gündə 3-4 dəfə yeməkdən əvvəl qəbul edilə bilər. Tinktura valerianı (*T-ae Valeriane*) yeniyetmə və gənclər gündə 2-3 dəfə 20-30 damcı, uşaqlar isə yaşdan asılı olaraq qəbul edə bilərlər. Efirli valerian məhlulunu 15-30 damcı gündə 2-3 dəfə, quru valerian ekstraktı 1-3 həb gündə 2-3 dəfə, inciçiçəyi – valerian – adonizid damcısı 15-20 damcı gündə 2-3 dəfə, möhkəmləndirici çayı (1 hissə valerian kökü, 2 hissə yarpız yarpaqları, 2 hissə üçyarpaq yonca və 1 hissə mayaotu) qəbul etmək çox faydalıdır. Digər qarışıqların tərkibində də karvolol (valokardin), zelenin damcısı, mədə çayı və s. vardir.

1 xörək qaşığı 2 stəkan qaynanmış suda dəmləyib, gündə 2-3 dəfə qəbul edilir.

Bu preparatın uzunmüddətli qəbul edilməsi həssaslıq və adətetmə halı törədir. Enterkolitin kəskinləşməsi, qlomerulonefrit

zamanı preparatı qəbul etmək məsləhət görülmür. Preparatı 1,5-2 ay qəbul etmək insanda diskomfort hallar, baş ağrısı, halsızlıq, mədə-bağırsaq traktında xoşagəlməz duyğular törənir.

## *Lepidotheca* Nutt.-Lepidoteka

***Lepidotheca suaveolens*** **(Pursh) Nutt.)** - İyli lepidoteka

**Botaniki xarakteristikası:** Birillik budaqlanan ot bitkisi olub, hündürlüyü 30 sm qədərdir. Yarpaqları növbəli, iki tərəfi bölünmüş lələkvari, ensiz xətti neştərşəkilli paycıqdan ibarətdir. Çiçəkləri kiçik, boruşəkilli, sarımtıl-yaşıl, dairəvi səbətciyi və qısa oturaq çiçəkyatağı vardır. Səbətciyi kiçik, diametri 5-8mm, uzunsov-yumurtaşəkilli yarpaqları geniş dişcikli kənarlara malikdir. Çiçəkləmə başlayan zaman səbətciyi şarşəkilli sonra tədricən yumurtaşəkilli formaya düşür. Ətirli çobanyastiğı - sonra tədricən çılpaq kasacığını, ağ dilşəkilli çiçəklərini itirir.



Bütövkənarlı çiçəkləri dairəvi-konusıəkilli formada olub, kasayarpaqsız və ya onun elementlərinə rast gəlinməklə, uzunluğu 1sm-ə bərabərdir. Yalnız boruşəkilli çiçəkləri vardır. Kasacığı çılpaq, çox qabarıq, uzunsov-konusşəkilli, daxili hissəsi isə ensiz, səbətciyində oval, zirvəsində isə dairəvi çoxsaylı yarpaqcıqlar vardır. Kənar yarpaqları aydın bölümlüdür. Köndələn istiqamətdə səbətciklərin ölçüsü 3-6 mm-ə bərabərdir. Çiçəkləri sarımtıl-yaşıl, gümüşü-yaşıl, kəskin iyli, aromatlı, dadı isə ədviyyatlı acıdır.

Çiçəkləri bitki çiçək açan zaman toplanılmalıdır. Toplanılan zaman kasacığını xammala

qatmaq olmaz. Xammalını polietilenin üstündə sərmək arzuolunmazdır. Yığılmış xammal açıq, lakin kölgəli, yaxşı ventilyasiyalı naveslərdə və ya 45$^{O}$C temperaturda, quruducu şkafda qurudulmalıdır. Bu zaman 1kq nazik doğranmış xammal 1m$^2$ sahəyə 4-6 gün ərzində sərilməlidir. Quru havalı yerlardə saxlamalı, altına kağız sərməklə, faner yeşiklərdə qablaşdırmalı, efiryağlı olduğundan cibli kisələrdə saxlanılmalıdır. Saxlama müddəti 1 ildir.

**Tərkibi və təsiri:** Çiçəklərinin tərkibində 0,8% efir yağı, xamazulin və flavanoidlər (apigenin törəmələri, yuteolin), salisil turşusu, karotinoidlər və askorbin turşusu tapılmışdır. Efir yağı ən azı 0,2%, nəmliyi ən azı 14%, ümumi kül 12%, qaralmış yarpaqları və uzunluğu 3sm olan çiçəkləri 8%, üzvi maddələri 1%, mineral maddələri 0,3% -dən çox deyildir.

Çiçəkləri iltihabsorucu, spazmolitik, və tərqovucudur. Məhlul və qarışıqların tərkibində daxilə qəbul edilir. Tərkibində efir olduğundan dezodorasiyaedici maddə kimi qarqara, vanna və müalicəvi imalə edilir.

## *Matricaria* L.( *Chamomilla* S.F.Gray) – Mollabaşı

***Matricaria recutita* L.- Adi mollabaşı** (yırtıq çobanyastığı, mollabaşı, romlu, qırpıqgöz, qırpıqgöz otu, ana otu, qız çiçəyi)

**Botaniki xarakteristikası:** Birillik ot bitkisi olub, zəif tək gövdəyə malik, hündürlüyü 60sm, əsası budaqlanan, qabirğalı-şırımlı, çılpaq, yuxarı hissəsi yarpaqlıdır. Yarpaqları növbəli, uzunluğu 2-5 sm, oturaq, iki və ya üç yerə bölünmüş, xətti, bizəoxşar, itiucludur. Çiçəkləri 15-20 mm ölçüdə çoxsaylı, kənar çiçəkləri ağ, dilşəkilli, daxili isə sarı rəngli olmaqla boruşəkillidir. Çoxsıralı, yarımkürəvi, uzunsov, küt yarpaqlara, tutqun-yaşıl, yastı, dişcikli və bozumtul kənarlara malikdir. Çiçək yatağının sonu



çılpaq və uzunsovdur. Çiçəklərin kənarları çiçək açan vaxt üfüqi, sonu isə bükülmüş vəziyyətdə olur. Bütövkənarlı və ya qismən tökülən çiçək səbətləri, yarımşarşəkilli və ya konusəkilli formada olub, çiçəklərinin diametri 3 sm-ə qədər olur. Səbətinin kənarlarında dilşəkilli və ya çoxlu sayda boruşəkilli çiçəkləri vardır. Çiçək yatağı çiçəkləmə başlayan zaman şarşəkilli, sonradan isə azacıq batıq olmaqla, köndələn yerləşmiş səbətcikləri 4-8 mm olur. Dilşəkilli çiçəkləri ağ və boruşəkilli formalıdır. Kəskin iyli, aromatlı, dadı isə ədviyyəli acıdır.

Çəmənlik, çöllük, otluq, alaqotu olan yerlərdə, yaşayış yerlərinin yaxınlığında və xüsusən yol kənarlarında rast gəlinir.

Bitki çiçəkləyən zaman çiçək səbəti toplanılır. Quruducu şkafda 35-40$^{0}$C və ya açıq ventiliyasiyalı yerlərdə qurudulmalıdır. Quru havalı yerlərdə saxlamalı, altına kağız sərməklə, faner yeşiklərdə qablaşdırmalı, efiryağlı olduğundan cibli kisələrdə saxlanılmalıdır.

**Tərkibi və təsiri**: Çiçəklərinin tərkibində flavonoidlər, üzvi turşular, kumarin, terpenlər -qiymlətli olan matrisin, matrikarin və xamazulin, seskviterpenlər, spirt, vitamin, acı maddələr, qatran, 0,8% efir yağı vardır. Bundan başqa polisaxaridlər, karotinoidlər və askorbin turşusu tapılmışdır.

Çiçəklərinin tərkibində efir yağı, xamazulen, lakton vardır.

Mədəni və yabanı çobanyastığı çiçəkləri xammal və dərman bitkisi kimi olduqca faydalıdır.

Sinir sisteminə sedativ təsir göstərir. İltihabəleyhinə, antiseptik, qankəsici, ağrıkəsici, yelqovucu, tərqovucu, ödqovucu, büzücü, yumşaldıcı və antiallergik xüsusiyyəti vardır. Sinir sistemi xəstəliklərində - nevroz, isteriya, xoreya, epilepsiya, nevralgiya, üçlü sinirin iltihabı, olqo və dismenorreyalarda təyin edilir. Çobanyastığı zəif işlədici öskürəkkəsici maddə kimi tənəffüs orqanlarının xəstəliklərində istifadə edilir.

Mədə-bağırsaq traktında – qastrit, xora xəstəlikləri, enterkolit, qeyri spesifik xoralı kolit, xolesistit, hepatit, bağırsaq diskenziyası və meteorizm xəstəliklərində istifadə edilir. Böyrək,

sidikyolu və diatezdə bir çox qarışıqların tərkibinə verilir. Angina, stomatit və peridontit, ekzema, frunkulyoz və yanıqlarda təyin edilir. 2-3 xörək qaşığı çiçəkləri 2 stəkan qaynar suda dəmləyərək (termosda), gündə 3 dəfə içmək lazımdır.

Xaricə tətbiqi zamanı 4-6 xörək qaşığı çiçəkləri 2 stəkan qaynar suda dəmləmək lazımdır. Çiçəkləri iltihabsorucu, spazmolitik, antiallergik və tərqovucudur. Məhlul və qarışıqların tərkibində daxilə qəbul edilir. Tərkibində efir olan *romazulan* ekstraktı iltihabsorucu və dezodorasiyaedici maddə kimi qarqara, kompres etmək, enterit və kolitlərin müalicəsi üçün təyin edilir. Zəif antiseptik və büzücü təsirə malikdir. Yığılmış xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə və ya 35-40$^{O}$C temperaturda, quruducu şkafda qurudulmalıdır. Bu zaman xammal çəkisinin 25-27% itirir.

## *Arnica* L. – Öküzotu

***Arnica montana* L. – Dağ öküzotu** (Dağ qoyunu, öküzotu, ivan çiçək, yun rəngli).

**Botaniki xarakteristikası:** Dağ öküzotu çoxillik ot bitkisidir. Kökümsovu sürünən, üfüqi budaqlanan, uzunluğu 15 sm-ə qədər, xarici tərəfdən qəhvəyi və ya tünd-qəhvəyi olub, çoxsaylı sapşəkilli kökü vardır. Kökümsovu 1-2 sm dərinlikdə və ya səthdə yerləşir. Yarpaqları qarşı-qarşıya, oturaq, bütövkənarlı, tərsyumurtaşəkilli, yuxarı hissədən dəmir parıltılı, aşağı hissədən çılpaq, uzunluğu 15-17 sm olmaqla, iri çətirlərdən ibarətdir. Gövdəsi tək (bəzən 2-3), hündürlüyü 60 sm-ə qədər, düzgövdəlidir. Çiçəkləri



zəngşəkilli, ikicərgəli, yarpaqlarının forması uzunsov-neştərvari, rəngi isə yaşılımtıl-bozdur. Kənar çiçəkləri 14-20 dilcikli və 3 dişciklidir. Orta çiçəkləri boruşəkilli, ikicinsli və çoxsaylıdır. Bütövkənarlı çətirin diametri 3 sm olub, dilşəkilli və boruşəkilli çiçəklərdən ibarət səbətciklər malikdir. Çiçəkləri zəngşəkilli, ikicərgəli, yarpaqlarının forması uzunsov-neştərvari, rəngi isə yaşılımtıl-bozdur. Çiçəkləri çəhrayı-yaşıl, kəskin iyli, aromatlı olub, kəskin acı dadlıdır.

Talalarda, yarğanların kənarlarında, cəngəlliklərdə, hündürlüyü 500-2000m olan dağ yüksəkliklərində və meşə kənarlarında yayılmışdır.

İyun-iyul aylarında çiçəkləyən zaman çiçək və çiçəkqruplarını 3 sm ölçüdə kəsməklə toplanılır. Yığılmış xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə və ya 55-60$^{O}$C temperaturda quruducu şkafda qurudulmalıdır.

Xammal quru yerlərdə və stelajlarda saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Dağ öküzotunun yabanı çoxillik və mədəni ot bitkisi xammal və dərman bitkisi kimi olduqca faydalıdır. Çiçəklərinin tərkibində 0,15% efir yağı, arniçin qarışıqları, triterpenoidlər (4%), aşı maddələri və karotinoidlər tapılmışdır.

Çiçəkləri qankəsici maddə kimi mamalıq və genekologiya praktikasında, xarici səpkilərdə, qansızmalarda, karbonkul və frunkullarda məhlul şəklində tətbiq edilir. Məhlulu eyni zamanda uşaqlıq qanaxmalarında və ödqovucu dərman kimi təyin edilir.

## *Inula* L. – Andız

***İnula helenium* L. – Uca andız** (uca andız, oman, andız, şəkkotu, qanlı, elena otu, vəhşı günəbaxan)



**Botaniki xarakteristikası -** Düzgövdəli, çoxillik ot bitkisi olub, hündürlüyü 1-2 m-dir. İri yarpaqları növbəli, uzunsov-ellipsşəkilli və kənarları bərabər olmayan dişciklidir. Çiçək səbəti iri, gövdənin zirvəsi bərabərliyində yerləşir. Səbətciyin kənar çiçəkləri dilşəkilli, qızılı-yaşıl, orta çiçəkləri isə boruşəkillidir. Çiçəkləri xaricdən sarımtıl-qonur, daxili sarımtıl-ağ və ya sarımtıl-qonur olub, özünəməxsus iyli (aromatlı) və ədviyyatlı acı dadlıdır.

Kökümsovları qısa, adətən çoxkünbəzli, azsaylı, diametri 6-7 sm, uzunluğu 20 sm, qalınlığı 2-3 sm-ə qədərdir. Kökümsovları və kökləri xaricdən qonur-boz rənglidir. Kökümsov yarpaqları uzunsov saplaqlı və uzunsov-yumurtavari olub, uzunluğu 50 sm-dir. Gövdə yarpaqları kiçikdir. Bütün yarpaqları yuxarı tərəfdən qırışıq, cod, parıltılı, aşağı tərəfdən isə məxməri, sarı-yaşıl rəngli, ürəyəbənzər əsaslı və dişli kənara malikdir. Toxumları kəkillidir.

Su sahillərində, öndağlıq ərazilərdə və meşə talalarında yayılmışdır.

Payızda və erkən yazda kökümsov və köklərini yeri qazmaqla toplamaq lazımdır. İyul-sentyabr aylarında çiçəkləyir və sentyabr-oktyabr aylarında isə meyvələri yetişir. Bitkini dərman xammalı kimi 2-4 yaşlarında toplamaq məsləhətdir. Çıxarılan xammalın uzunluğu 10-15 sm, qalınlığı isə 1-2 sm olur. Yığılmış xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə və ya $40^{O}C$ temperaturda, quruducu şkafda qurudulmalıdır. Bu zaman 1 kq nazik doğranmış xammal $1m^2$ sahəyə sərilməklə, 2-3 gün ərzində qurudulmalıdır. Quru havalı yerlərdə saxlamalı, faner yeşiklərdə qablaşdırmalı, efiryağlı olduğundan cibli kisələrdə saxlanılmalıdır. Saxlama müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Kökümsov və köklərinin tərkibində efir yağı, alontolakton (1-3%), triterpenoid laktonları və 44% inulin saponinləri, psevdoinulin, inulenin, qatran, aşı maddələri, β-sitositerin, triterpen saponinlər, palmitin, sirkə və benzoy turşuları vardır. Yarpaqlarının tərkibində 3% efir yağı, C və E vitaminləri, aşı maddələri (9,32%), lakton (1,19%), fumarin, sirkə və propion turşuları vardır. Orqanlarında efir yağları, mürəkkəb tərkibli qalenin, lakton, alantol və proazulen maddələri vardır. Bundan başqa tərkibində efir yağı (1-3%), alontolakton, izoalontolakton, dihidroalontolakton, alontol turşusu, proazulen, çoxlu miqdarda inulin (44%-ə qədər), rsevdoinulin, inulein, alkaloidlər, qatran, sirkə və benzoy turşuları vardır. Bu bitkini Hippokrat yüksək qiymətləndirmişdir.

Çoxillik ot bitkisi olan hündür andizin kökümsov və kökləri qiymlətli xammal və dərman bitkisidir.

Andızın öskürəkkəsici və iltihabsorucu xüsusiyyətinə görə bronxit, pnevmoniya, bronxial astma, vərəm və difteriya xəstəliklərində istifadə edilir. Keyfiyyətli iltihabqovucu xüsusiyyətinə görə qastrit, kolit, qaraciyər və öd yolları, sidikçıxarıcı orqanların xəstəliklərində təyin edilir. Andız ishalda, xroniki enterkolit, qəbizlik, iştahasızlıq hallarında işlədilir. Kökümsov və kökləri bronxit, traxeit, ağciyər vərəmi, astma xəstəliklərində faydalıdır. Keyfiyyətli öskürəkkəsici və dezinfeksiyaedici dərman bitkisidir. Məhlulu mədə xəstəlikləri – qastrit, xora, sinir xəstəlikləri, radikulit, endemik ur və onikibarmaq bağırsağın xora xəstəliyində 1 xörək qaşığı dəmləməsi gündə 2-3 dəfə qəbul edilməlidir. Bundan başqa ürək xəstəliklərində, hipertoniyada, diş ağrılarında, təngnəfəslik və arıqlamalarda, kolit, qaraciyər, öd, sidikyolu xəstəlikləri və şişkinliklərdə olduqca səmərəlidir. Yüksək təsirli antihelmint (xüsusilə askaridlər) dərman maddəsidir. Xüsusilə 1:100 və 1:1000 qatılıqda qurdları qovur. Kökümsov və köklərinin bişirmələri (qırma, briket) tənəffüs orqanlarının xəstəliklərində, xüsusən öskürəkkəsici kimi qarışıqların tərkibində tətbiq edilir. Alanton adlanan preparatından 0,12q dozada gündə 3 dəfə yeməkdən sonra 6-8 həftə ərzində mədə və onikibarmaq bağırsaq xəstəliyində çox yaxşı təsir edir. 2 çay qaşığı 1 stəkan qaynanmış suya əlavə edərək termosda saxlanılır. 1/3 stəkan gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir. Dəmləmə üşün 1 xörək qaşığı kökünü 2 stəkan suya 10-15 dəqiqə zəif odda qızdırmaqla dəmləmək lazımdır. Hər saatdan bir 1-2 xörək qaşığı qəbul etmək məqsədəuyğundur. Öskürmə zamanı aşağıdakı resepdən istifadə etmək lazımdır. Kəskin böyrək xəstəlikləri və hamiləlikdə bu bitkinin qəbulu qadağandır. Dəri xəstəliklərində (leyşmaniyoz, ekzema, dəri səpkiləri) kökləri süzgəcdən keçirilərək məlhəmi isti halda dərinin üzərinə qoyulur. Andız Tibet təbabətində qiymlətli hesab olunur. Bolqar təbabətində

köklərinin dəmləməsi ürəkdöyünmə, baş ağrıları, epilepsiya və difteriyada dərman kimi işlədilir. Dəri xəstəliklərində qədim reseptin (məlhəm) tərkibi aşağıdakı kimidir:

180 q andız kökü 360 q suda qaynadılır və 120 q donuz salası və kərə yağı ilə qarışdırılır. Revmatizmdə pıtrağın kökü ilə birlikdə istifadə edilir.

* 2 xörək qaşığı andız kökü 1 stəkan suda 30 dəqiqə dəmlənilir, 10 dəqiqə soyudulur, 0,5 stəkan gündə 2-3 dəfə yeməkdən 1 saat əvvəl qəbul edilir.

* 2 çay qaşığı xırdalanmış andız kökü qaynanmış soyuq suda 8 saat saxlanılır 0,5 stəkan gündə 4 dəfə yeməkdən 30 dəqiqə əvvəl qəbul edilir.

* 20q andız kökü 100q 70%-li spirtdə 8-10 gün saxlanılır. 20 damcı gündə 3 dəfə yeməkdən 20 dəqiqə əvvəl qəbul edilir.

Qadın xəstəlikləri zamanı 1 çay qaşığı xırdalanmış andız kökünün üzərinə 1 stəkan qaynar su əlavə edərək, 10-15 dəqiqə ərzində zəif od üzərində saxladıqdan sonra 4 saat kənara qoyulur və süzülür. Vaxtsız ağrılı aybaşılarda gündə 3-4 dəfə hər dəfə 1 xörək qaşığı qəbul edilir.

Rp.: Dec. Rad. İnulae 20,0 : 200,0
Liquiritiae 10,0
M.D.S. 1 xörək qaşığı gündə 3-4 dəfə qəbul etmək

Rp.: Dec. Rad. İnulae 20,0 : 200,0
Natrii benzoatis 4,0
M.D.S. 1 xörək qaşığı gündə 3-5 dəfə qəbul etmək

Xalq təbabətində baş ağrıları, eplepsiya, ürəkdöyünmələrdə və vaxtaşırı menstruasiyalarda işlədilir. Hamiləlik dövründə qəbul etmək qətiyyən olmaz. Çünki vaxtından əvvəl döğus baş verə bilər. Andızın kökü podaqra, qeyri-spesifik artritlərdə, qankəsici, yarasağaldıcı və eksudativ diatezlərdə, bronxit, traxeit, ağciyər vərəmində müvəffəqiyyətlə işlədilir. Ekzemada, neyrodermitdə, çətin sağalan yara və iltihabi xəstəliklərdə xaricə təyin edilir.

Böyrək xəstəliyi və hamiləlikdə əks göstərişdir.

## *Zingiber* Mill. – Zəncəfil

***Zingiber officinale*** **Roscoe** (=Amomum zingiber L.) – Aptek zəncəfili (dərman zəncəfili, zəncəfil

**Botaniki xarakteristikası** – Çoxillik ot bitkisi olub,hündürlüyü 1 m-ə qədər, güclü budaqlanan, üfüqi istiqamlətli kökümsova malikdir. Yarpaqları növbəli, qınlı, ensiz neştərşəkilli, bütövkənarlı olub, aşağı hissədən mərkəzi damarları irəli çıxmışdır. Yalançı gövdəsi ensiz yarpaq qınlarını qucaqlamışdır. Yuxarı yarpaq qınları 1 m, yarpaq lövhəcikləri 18-20 sm uzunluqlu, aşağı yarpaqları isə qısa qınlıdır. Çiçəkli gövdəsi 30 sm-ə qədər hündürlüyündə, zirvədə çiçək altlığı olan sünbül çiçək qrupu, qoltuq tumurcuqlarında ziqomorf ikicinsli çiçəkləri vardır.



Çiçək yatağı 2, kasacığı yaşıl və boruludur. Çiçək tacı qeyri-bərabər olmaqla, 3 ləçəklidir. Erkəkcikləri ikicərgəlidir. Erkəkciklərin xarici çərgədə yerləşənləri barsız, mərkəzdə yerləşənlər ləçəkvari nektarlı, iri məsaməli dekorativ rəngli, iki tərəfləri iti dişciklidir. Daxildə yerləşən yan erkəkciklər inkişafdan qalmış və nektarlığı azalmış, yalnız bir erkəkciyi normal tozluqdan ibarətdir. Mədəni becərilən sortların çiçəyinin rəngi müxtəlif olur. Bənövşəyi-qonurdan sarımtıl rəngə qədər, dodaqlı, açıq, demək olar ki, qaramtıl-bənövşəyidən, çilənmiş sarımtıl rəngə qədər dəyişir. Meyvələri 3 yuvalı qutucuqdan ibarətdir. Adətən vegetativ kökümsovlarla çoxalır.

Yabanı növünə rast gəlinməmişdir. Bu bitkinin vətəni qədim Hindistan sayılır. İndi bu bitki praktik olaraq mədəni şəkildə bütün tropik ölkələrdə becərilir.

Kökümsovları 6-10 aydan sonra substrata (yarpaqları saralmağa başlayanda və ölüşkəyərək qurumağa başladıqda) dırmaşaraq çıxır. Kökümsovun qazıb çıxartmaq və günəş altında qurutmaq lazımdır. Tədricən mantarı təmizlənmiş kökümsovu ağ rəngli və təmizlənməyən kökümsovu isə sarı rəngli olub, halqaşəkilli dişcikli yarpaqları vardır. Kökümsovunun özünəməxsus – budaqlanan, yan tərəfdən güclü yastılaşmış xarakteri vardır. Aromat iyli və yandırıcı dadlıdır.

**Tərkibi və təsiri:** Kökümsovunun tərkibində 1,5-3% efir yağı, başlıca hissəsi α və β sinqiberqendən (70%) ibarət seskviterpenlər olmaqla, özünəməxsus zəncəfil iyi vardır. Bundan başqa tərkibində linalool, heranilol, bizabolen, sineol, sitral, borneol və farnezin olur. Kökümsovun qatranlı hissəsi yandırıcı dadlı, «gingerol» adlanır ki, bunun da tərkibində 5-8% gingerol maddələri – lipidlər (6-8%), aminturşular, vitaminlər (nikotin turşusu) və 50%-ə qədər nişasta vardır.

Tərkibindən alınan ekstrakt kompleks dərman maddələrindən - «Maraslavin», «Orijinal Bittner balzamı», «Doktor MOM»-dan ibarətdir.

İştahartırıcı olub, mədə-bağırsağı stimullaşdırıcıdır.

Kökümsovundan mədə-bağırsaq sistemini qüvvətləndirici, tərqovucu və spazmolotik vasitə kimi istifadə edilir. Bir çox ölkələrdə bişirmə, dəmləmə kimi mədə-bağırsaq sistemini qüvvətləndirici olaraq istifadə edilir. Dəmləməsindən mədə xəstəliklərində iştah damcısı və tonuslandırıcı dərman kimi işlədilir. Kökümsovundan eyni adlı -"qara zəncəfil" ədviyyat maddəsi kimi qida sənayesində, konditer məhsullarında və sulu likvorların hazırlanmasında istifadə edilir. Kökümsovu Britaniya, Çin, Yaponiya, Efiopiya, Avstriya və İsveçrə farmakopeyasında ızünəməxsus yer tutur. Analoji olaraq aptek zəncəfili: Yaponiyada *Zingiber mioga* (Thunb.) Roscoe Asiyada (Hindistan, Malaziya) *Zingiber zerumbet* (L.) Sm. kökümsovundan təbabətdə istifadə edilir. Dərman bitkisi kimi xammalının tərkibində efir yağı və aromatik birləşmələr vardır.

## ***Pimpinella*** **L. –Yalançı cirə**

****Pimpinella anisum*** **L. (=Anisum vulgare Gaertn.) – Adi cirə** (cirəgülü, badyan, mələkotu, qanus, canus, çanuş).

**Botaniki xarakteristikası -** Adi cirəgülü birillik bitki olub, hündürlüyü 50-60 sm-dir. Gövdəsi düzqalxan, dairəvi, yuxarı tərəfi budaqlanandır. Kökətrafı və gövdənin aşağı hissəsinin yarpaqları uzun saplaqlı, bütöv və dayaz üçpərli, dairəvi-böyrəkşəkilli formalı, kənarları iridişli, orta uzunluqlu saplaqlı, qovuşuq olmaqla kənarları ikiyə bölünmüş, yan seqmenti normal, son seqmenti isə üçpərlidir.Yuxarı yarpaqları 3 və 5-ə bölünmüş dar xətti seqmentlidir. Çiçəkləri kiçik 5 üzvlü, ağ rəngli olub, mürəkkəb çətir çiçək qrupunda formalaşmışdır. Meyvələri müəyyən edilməyən sallaq meyvədir. Yumurtavari və



ya tərs armadvari formalı, yan tərəfdən azacıq yastılaşmış, əsası geniş, zirvəsi isə daralmışdır. Zirvəsi beşdişli, kasacığı və dişiciküstü yarılmış vəziyyətdədir. Meyvənin yuxarı tərəfi kələ-kötür, nahamar, xarici tərəfi qabarıq, daxili tərəfi isə yastıdır. Hər meyvədə 5 zəif qabırğa vardır. Bunlar qabarıq olmaqla, 3-ü qabarcığın üzərində 2-si isə yanlarda yerləşirlər. Güclü aromat iylidir. Şirin-ədviyyəli dadlıdır.

İyun-iyul aylarında çiçəkləyir, avqust ayında isə yetişir. Münbit, məhsuldar və bərəklətli torpaqlarda yaşamağı sevir.

Çətirlərinin 60-80%-i qonurlaşdıqda əllə və ya maşınla biçilməlidir. Biçildikdən sonra kölgə şəraitində naves altında qurudulur, döyülərək qarışıqlardan təmizlənir və təkrar olaraq brezent üzərinə sərilir. Efiryağlı xammal anbarlarda kisələrin içərisində saxlanılır. Saxlama müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Meyvənin tərkibində 1-3%, bəzən 6% efir yağı vardır. Efir yağının tərkibində anetol (80-90%), metilxavikol (10%), cirə aldehid, cirə keton və cirə turşusu vardır. Adi cirəgülünin meyvələrinn tərkibində piyli yağlar (15-30%), zülali maddələr 29-31°C temperaturda sıxlaşdırıldıqda isə (20%) piyli yağlar alınır. Öskürəkkəsici dərmandır.

Adi cirəgülünin meyvələri, xammalı dərman hesab edilir. Öskürəkkəsici dərmandır. Qarışıqların tərkibinə (sinə qarışığı № 3; işlədici qarışıq №2) daxildir.

Cirə yağındakı anetol tənəffüs yollarının selikli qişasına təsir edir. Belə ki, tənəffüs yollarında kirpikli epitel hüceyrəsini aktivləşdirərək, sekresiyanı gücləndirir və bəlğəmin evakuasiyasına səbəb olur. Həm də antiseptik xassəyə malikdir. Bronx və bağırsaqlardakı saya əzələlərə təsir edərək, spazmını aradan qaldırır, iltihabsorucu, sidikqovucu təsir edir və südverən qadınların südünü artırır.

Öskürəkkəsici dərman kimi yuxarı tənəffüs yollarının iltihabında, difteriyada təyin edilir. Farmakoloji cəhətcə tərkibindəki efir yağı sorucu və spazmalotik təsirə malikdir. Cirə

meyvələrindən hazırlanan yağ bronxdan bəlğəmin durulaşdırılmasına təsir etməklə, çıxarılmasını tezləşdirərək, bakterisid təsir edir. Traxeid, laringit, bronxit, difteriya, xroniki bronxopnevmoniya və tonzillit xəstəliklərində çox yaxşı təsir edir. Cirə preparatlarını eyni zamanda qastrit, meteorizm, atonik qəbizlik və digər mədə-bağırsaq traktının xəstəliklərində müvəffəqiyyətlə tətbiq etmək mümkündür. Meyvələri sistit, pielonefrit, uretritdə yüngül sidikqovucu, həm də antiseptik və spazmolotik təsirə malikdir. Mamalıqda və genekologiyada meyvələri antispastik, sidikqovucu təsirdən başqa, keyfiyyətli köməkçi, yardımçı dərman kimi menstruasiya və doğuş fəaliyyətini də stimullaşdırır. Meyvələrinin xoşagələn ətrinə görə ət, balıq sıyıqlarının tərkibinə, kələm turşusuna, xiyar və pomidorun duza qoyulmasında istifadə edilir.

## *Foeniculum* Hill – Razyana

***Foeniculum vulgare* Mill.** – Adi razyana (Sürünən şüyüd, aptek şüyüdü, aptek razyanası, ətirli razyana)

**Botaniki xarakteristikası:** Ikiillik ot bitkisi olub, hündürlüyü 2m-ə qədər, dairəvi kollu, gövdənin yuxarı tərəfindən budaqlanandır. Yarpaqları növbəli, qınlı, aşağı yarpaqları saplaqlı, çoxsaylı, ləlləkvari-bölünmüş, xətti-sapşəkilli, paycıqlı, yuxarı yarpaqları isə demək olar ki, oturaqdır. Çiçəkləri kiçik, sarı, 5 ləçəkli, mürəkkəb çiçək qrupunda formalaşmışdır. Sallaq meyvələrinin uzunluğu 10 mm, eni isə 4mm olmaqla, 2 meyvəlidir.



Bozqır rayonlarda, daşlı dərələrdə, yol və yaşayış yerlərinin qarşısında rast gəlinir. Münbit, məhsuldar, bərəklətli torpaqlarda yaşamaqla, isti, işıqsevən və quraqlığa davamlı bitkidir.

Sallaq meyvəli, uzunsov formalı iki meyvədən, uzunluğu 4-10 mm, eni isə 1,5-4mm-dir. Meyvələrinin daxili tərəfi yastı, xarici tərəfi isə qabarıqdır. Meyvələri 5 uzunsov qabirğadan, bunlardan 3 qabarıq, 2 isə çökük olub, yan tərəfdə yerləşmişdir. Meyvələrinin üzərində görünən çöküntülər vardır. Çiçəkləri yaşıl-qonur, özünəməxsus tünd iyli və ədviyyatlı şirin dadlıdır.

İlk olaraq yetişmiş meyvələri və mərkəzi çətiri toplanılmalıdır. Toplanılmış dərzlər naves altında qurudulmalı, döyülməli, təmizlənməli və çeşidlərə ayrılmalıdır. Efiryağlı bitki olduğundan xammal düzgün qurudulmalı, kisə və yeşiklərə qablaşdırılmalıdır.

**Tərkibi və təsiri**: Meyvələrinin tərkibində 6% efir yağı, başlıca komponent olan anetol (60%-ə qədər) fenxon, pinen, metilxavikol və 18% piyli yağlar vardır. Keyfiyyətli xammal yetişmiş meyvələri hesab olunur.

Meyvələrindən hazırlanan məhluldan öskürəkkəsici, meteorizmdə bağırsaq yumşaldıcı və ödqovucu kimi istifadə edilir.

## *Thymus* L. – Kəklikotu

***Thymus serpyllum*** L. – Sürünən kəkotu (kəklikotu, İsanın anası, ilahi ləçək, limon iyli, xoş iyli, gözəl qoxulu)

**Botaniki xarakteristikası:** Həmişəyaşil, budaqlanan, kiçik yarımkol bitkisidir. Gövdəsi nazik oduncaqdır. Çiçəkli gövdəsi düzqalxan və ya azca qalxmış olub, hündürlüyü 2-15sm-ə qədər olub, gövdənin üzəri çiçəklərlə örtülmüşdür. Yarpaqları qarşı-qarşıya, qısa saplaqlı, ellipsşəkilli, kənarları orta ölçülü kirpiciklidir. Orta gövdələrində yarpaqların uzunluğu 5-10 mm, eni isə 1,5-3,5 mm-ə bərabərdir. Başcıq çiçək qrupuna malik olub,



kompaktdır. Çiçəkləri ensiz, zəngşəkilli, ikidodaqlı olub, kasacığı tükcüklüdür.

Qarışıq nazik budaqcıqları, yarpaq və çiçəkləri vardır. Yarpaqları qısa saplaqlı, uzunsov-ellipsşəkilli, bütövkənarlı olub, uzunluğu 15sm-ə qədər, çılpaq və ya zəif tükcüklüdür. Çoxsaylı nöqtəşəkilli səpkilərdən, aşağı nahiyyədə olan kəskin damarlardan ibarətdir. Lövhəcik və saplaq üzərində gözlə və ya lupa ilə görünən uzun cod tükcükləri vardır. Çiçəkləri kiçik, tək və ya bir neçə ədəd nazik dördtilli budaqcıqdan ibarətdir. Kasacığı ikidodaqlı, qonur-qırmızı, uzunluğu 4mm-ə qədər olub, xaricdən örtülmüşdür. Budaqcığı göyümtül-bənövşəyi, uzunluğu 3-5mm-dir. Kəskin özünəməxsus aromat iyli və ədviyyəli şirin dadlı olmaqla, azacıq büzücüdür.

Qumsallıqlarda, küknar və qarışıq meşələrdə, talalarda, yeni salınmış meşələrdə yayılmışdır.

Keyfiyyətli xammal olaraq çiçəkləri, yarpaqları, hətta gövdəsi ola bilər. Xammal kimi bitki çiçəkləyən zaman (may-iyul) toplamaq lazımdır. Yığılmış xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə və ya 35-40$^{O}$C temperaturda, quruducu şkafda qurudulmalıdır. Bu zaman 1 kq nazik doğranmış xammal 1m$^2$ sahəyə 3-5 gün ərzində sərilməlidir. Efiryağlı bitki olduğundan xammal yaxşı tıxanmalı və bağlanmalıdır. Xammalının saxlanılma müddəti 2 il, tozu isə 1,5 ildir.

**Tərkibi və təsiri:** Tərkibində efir yağı, timol (50%-ə qədər), karvakrol, terpinin, terpineol, çinqiberin və borneol maddələri vardır. Bundan əlavə aşı maddələr, flavonoidlər, qatran, ursol və olein turşuları da vardır.

Otun tərkibində 1% efir yağı, əsasən timol, karvakrol, ursol, olein turşusu və flavonoidlər vardır. Quru xammalın çıxımı 32-34%-dir.

Tərkibində acı maddələr olduğundan iştahgətirici, mədə-bağırsaq, qaraciyər, mədəaltı vəzi xəstəliklərini sağaldıcı xüsusiyyəti vardır. Dəmləmə, bişirmə və ekstrakt kimi yuxarı

tənəffüs yolu xəstəliklərinin iltihabı, vərəm, difteriya və bronxial astma xəstəliyində müvəffəqiyyətlə işlədilir. «Pertussin» adlı dərman preparatının əsas komponenti kəklikotundan ibarətdir. Xaricə tətbiq kimi oynaq, əzələ və periferik sinir sistemi xəstəliklərində aromatik vanna kimi qəbul edilir. Dəmləmə və ekstraktları kəskin və xroniki tənəffüs yolları xəstəliklərində, bronxial astma və vərəmdə tətbiq edilir. Bakterisid dərman kimi qıcolma əleyhinə, möhkəmləndirici, ağrıkəsici, yarasağaldıcı, qurdəleyhinə dərmandır. Yaxşı balverən bitkidir. Eyni zamanda parfümepiyada işlədilir. Bolqar təbabətində bronxial astma, xora xəstəliyində, iştahasızlıqda, meteorizm və diareyyada bişirilməsindən istifadə edilir. Revmatizm, angina, sinir və dəri xəstəliklərində vanna şəklində qəbul edilməsi məsləhət görülür. Alman təbabətində çiçəklərindən tənəffüs orqanları, öskürəkdə, aromatik vannaların qəbul edilməsi göstərişdir. Fransız təbabətində spazmolotik, qurd əleyhinə, epitel toxumalarını yeniləşdirici, turşulardan yaranan yanıqlarda, (10q - 1litr hesabı ilə) məsləhət görülür. Uşaqların revmatizmində: bitkinin cövhəri 2q, rozmarin 1q, lavanda 1q, çay sodası 350,0 vanna şəklində qəbul edilir. Avstriya təbabətində dəmləmə və tinkturaları qastrit, meteorizm, qıcolma və qurdəleyhinə dezinfeksiyaedici kimi istifadə edilir. Qatı dəmləməsi 5q 250ml-də dəmlənir. Sutqalıq dozası 500 qramdır. Polşa təbabətində bakterisid, iltihabəleyhinə, böyrək, qaraciyər, nevralgiya, oynaq revmatizmi, bronxit və bronxial astmada istifadə edilir. Mədə narahatlığı və tutmaşəkilli öskürək hallarında aşağıdakı qarışığı qəbul etmək olduqca səmərəlidir. Otu dəmləmə kimi öskürəkkəsici və ağrıkəsici dərman kimi radikulit və nevritlərdə, ekstraktı “pertussin” adı ilə öskürəkkəsici və yumşaldıcı olmaqla, bronxit və digər tənəffüs yolu xəstəliklərində tətbiq edilir. Bişirmələri müalicəvi vanna, islatmalarda, dəri xəstəliklərində nəm sarğılarda istifadə edilir.

20 q kəklikotu çiçəkləri, 10 q bibər, 10 q boymadərən 10 q bahar xoruzgülü, 10 q zirə, 10 q neştərşəkilli bağayarpağı, 10 q şehçiçəyi, 2 çay qaşığı qarışığı 250ml suda 10 dəqiqə dəmləyərək

günaşırı 3 fincan qəbul edilməlidir. Xaricə işlətmək üçün: 1-2 xörək qaşığı bitkini 2 stəkan qaynar suda dəmləyərək işlədilir.

Güclü iltihabqovucu (tərkibində timol vardır), qıcolma əleyhinə, sedativ, öskürəkkəsici, ağrıkəsici, yarasağaldıcı və qurdqovucu təsiri vardır. Hipertoniya xəstəliyi, ateroskleroz, nevralgiya, radikulit, tireotoksikoz (zob), nevroz və isteriya xəstəliklərində işlədilir. Qurdqovucu, tərlədici, maddə kimi nevralgiya, mədə bağırsaq sancısında tətbiq edilir. Azərbaycan təbabətində yarpaqlarının dəmləmə və məhlulu ürək xəstəliklərində, qəbizlik, qaraciyər xəstəliklərində iltihabsorucu maddə kimi olduqca faydalıdır. Bundan başqa hipertoniya və ateroskleroz xəstəliklərində tətbiq edilir.

Qaraciyər, böyrək, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, miksödema və hamiləlik.

***Thymus vulgaris*** L. – Adi kəkotu (dərman kəklikotu, kəklikotu)

**Botaniki xarakteristikası:** Yarımkol bitkisi olub, budaqlanan, düzqalxan və ya gövdəsi qalxan olub, hündürlüyü 50 sm-ə qədərdir. Budaqları nazik, dördtilli, yarpaqları yumurtaşəkilli və ya uzunsov-neştərşəkilli, üzərində nöqtəşəkilli metal parıltılı efiryağlı dənəcikləri vardır. Budaqcıqların sonunda kiçik çiçəklər toplanır, gövdəsində salxımşəkilli çiçək qrupu vardır. Tacı ikidodaqlı, çəhrayı və ya göyümtüldür.



Yarpaqları, çıçək və gövdəsi ayrı-ayrılıqda qalınlığı 1mm-ə qədərdir. Yarpaqları kiçik, qısa saplaqlı, bütövkənarları, kənarı

daxilinə tərəf qatlanmış, zahiri görünüşünə görə xətti formalıdır. Hamar yarpaqları neştərvari-ellipsşəkilli olub, uzunluğu 10 mm, eni 2-3mm-dir. Yarpaqların üst tərəfi çoxsaylı, lupa ilə görünən parlaq, şarşəkilli, qonur-qırmızı metal parıltılı efir yağlı hissəciklərdən ibarətdir. Yarpaqların yuxarı tərəfi tünd-yaşıl və ya qonur-yaşıl, aşağı tərəfi isə sarımtıl-yaşıl, kiçik çıçəkləri, tək və ya bir neçəsi birlikdə rast gəlinir. Kasacığı ikidodaqlı və açıq-yaşıldır. Çıçəkləri aydın olmayan ikidodaqlı, çəhrayı, açıq göyümtül və ya ağımtıldır. Gövdəsi müxtəlıf formalı, dördtilli, yaşılımtıl-qəhvəyidən qonur rəngə qədər dəyişir. Ədviyyəli, kəskin iyli və aromatlıdır.

Yabanı yarımkol olan kəklikotu çiçəkləyən zaman keyfiyyətli xammal və dərman bitkisi kimi toplanılır. Yığılmış xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə və ya 35-40$^{O}$C temperaturda, quruducu şkafda qurudulmalıdır. Bu zaman 1kq nazik doğranmış xammal 1m$^2$ sahəyə 5-7 gün ərzində sərilməlidir. Xammalın çıxımı 26-30% olur. Efiryağlı bitki olduğundan xammal olan bağlama yaxşı bağlanmalıdır. Bütöv və doğranmış xammalının saxlanılma müddəti 1 ildir.

**Tərkibi və təsiri**: Otun tərkibində 1,2% efir yağı, əsasən timol (40%), karvakrol, seskviterpenlər, aşı maddələr, askorbin turşusu və flavonoidlər vardır.

Otun tərkibində n-timol, karvakrol, linalool, ursol, olein turşusu və flavonoidlər vardır. Öskürəkkəsici, antimikrob və spazmolotik dərmandır. Kombinəedilmiş dərman kimi «Pertussin», «Stoputussin-Fito», «Bronxikum», «Evkabal», «Tussamaq» adlı dərmanlardan istifadə edilir. Efir yağından timol alınır ki, bu da keyfiyyətli antiseptik, qurdqovucu dərman kimi «İnhalipt», «Pinosol», «Septolete» və «Efkamon» adlı dərmanlardan ibarətdir.

Öskürəkkəsici və antiseptik dərmanlar. Sürünən kəklikotunda olduğu kimidir.

## *Orthosiphon* Benth. – Böyrəkotu

***Orthosiphon stamineus* Benth**. – Böyrək çayı (Hind çayı, Yava çayı)

**Botaniki xarakteristikası:** Böyrək çayı böyük olmayan həmişəyaşıl kol bitkisidir. Gövdəsi dördtilli, budaqlanan, tünd-bənövşəyi olub, hündürlüyü 30-40 sm-dir. Yarpaqları qarşı-qarşıya, uzunsov-yumurtavari və ya rombvari, pazabənzər əsası və itiuclu zirvəsi vardır. Çiçəkləri monosimmetrik, qarşı-qarşıya düzülmüş çiçək köbəsi zirvədə kəsik-kəsik salxımşəkilli



hamaşçiçəklərlə əvəz olunur. Kasacığı zəngşəkilli və ikidodaqlıdır. Çiçək tacı ikidodaqlı, əsası boruşəkilli olub, tutqun-bənövşəyidir. Erkəkciyi 4 ədəd olmaqla, boruşəkilli çiçək tacı vardır.

Bütöv və ya sınmış yarpaqları qısasaplaqlı, rombabənzər-ellipsvari və ya uzunsov-yumurtavari, zirvəsi itiuclu və pazabənzər-itiuclu əsasa malik, qismən eşilmiş formalıdır. Yarpağının yuxarı tərəfi iridişcikli, əsası bütövkənarlı və çılpaqdır. Aşağı tərəfi damarlı və az tükcüklüdür. Damarları lələyə oxşayır. Gövdənin zirvəsində yarpaqları qarşı-qarşıya yerləşir. Gövdəsi dördtilli uzunluğu 3-5 sm, qalınlığı isə 2,5 mm-ə bərabərdir. Çiçək yarpaqları sarımtıl-yaşıl, yuxarı tərəfi isə bənövşəyi-qonurdur. Zəif iyli, azacıq büzücü və acıtəhər dadlıdır.

Xammal kimi yarpaqları və gövdənin zirvə yarpaqları bütün vegetasiya dövründə yay ərzində 5-6 dəfə toplanılır. Xammal nazik kəsilməli və günəş altında tez qurudulmalı, quruducu şkafda 30-35°C temperaturda və ya kölgədə 3 gedişlə 24-36 saat ərzində fermentasiya (qıcqırma) etmək lazımdır. Quru, sərin və havası tez-tez dəyişilən yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Yarpaqlarının tərkibində ortosifonin qlükozidləri, triterpen saponinlər, aşı maddələri, efirli yağlar və üzvi turşular vardır.

İltihabsorucu və sidikqovucu dərmandır.

Yarpaqlarının tərkibində zəif sidikqovucu maddələr olduğundan pielonefrit, pielit, qlomerulonefrit və hətta xolesistitlərdə təyin edilir.

Böyrək çayı yarpaqlarının tərkibində zəif sidikqovucu maddələr olduğundan böyrək funksiyasının pozğunluqlarında və qaraciyər xəstəliklərində işlədilir.

## *Origanum* L. – Qaraqınıq

***Origanum vulgare* L. – Adi qaraqınıq** (bürkülü, ana məhəbbəti, kisəcik, sirkən, birəcik, qaraqınıq, ağgöbələk-ot, nazənin, şuxçiçək, birəcik, bozalaq otu, meşə nanəsi)

**Botaniki xüsusiyyətləri:** Çoxillik, uzunsov-yumurtavari və nöqtəli vəzili bitkidir. Çiçəkləri 1-3 ədəd olub, çiçək altlıqlarının qoltuğunda yerləşir. Kasacığı zəngşəkilli, 13 damarlı, 5 bərabər dişcikli və ağzı həlqəvi tükcüklüdür. Tacı qısa borulu, iki dodaqlı, üst dodağı oyuqlu, alt dodağı isə 3 bərabər pərlidir. Erkəkcikləri 4 ədəddir.



Bütöv çiçəkli gövdəsinin uzunluğu 20 sm-ə qədər olur. Yarpaqları qarşı-qarşıya, saplaqlı, yumurtavari və ya uzunsov-yumurtavari, zirvəsi itiuclu, xırda

dişcikli və ya bütöv kənarlı olub, uzunluğu 2-4 sm-ə bərabərdir. Gövdəsi dördtilli, yumşaq tükcüklü və ya tamamilə çılpaq olur. Çoxçiçəkli, qollu-budaqlı, qalxanvarı-süpürgəvari çiçəkqrupunda, xırda çiçəkli olmaqla, uzunluğu 3-5 mm-ə bərabərdir. Çiçək altlığı uzun saplaqlı və uzunsov itiucludur. Kasacığı üçbucaq-neştərvari dişcikli, çılpaq və ya az tükcüklüdür. Çiçək tacı ikidodaqlı olub, 8 mm-dir. Yarpaqları yuxarıdan yaşıl, alt hissədən tutqun-yaşıl, gövdəsi yaşıl və ya purpur, çiçək altlığı və kasacığı tutqun-purpur və ya tutqun-yaşıl, tacı isə tutqun-purpur və ya qonur-çəhrayıdır. Aromatlı və şirin-acı dadlı olub, azacıq büzücüdür.

Seyrək meşələrdə, meşə kənarında və çöllərdə, dağ dərələrində, kiçik yarğanlarda və çaybasar, subasar yerlərdə yayılmışdır. Əsasən böyük olmayan pöhrəliklərinə rast gəlinir.

Bu bitki iyul-avqustda  çiçəkləyəyir. Oraq və ya iti alətlə kəsilərək toplanılır. Yaxşı ventiliyasiyalı çardax və naveslərdə qurudulur. Xammalı nazik kəsilərək daimi olaraq qarışdırılır və çevrilir. Quruducu şkafda 40°C temperaturda qurudulur.

Efiryağlı bitki olduğundan xammalı kip bağlanmalıdır. Bütöv və doğranmış xammalının saxlanılma müddəti 2 il, tozununku isə 1 il 6 aydır.

**Tərkibi və təsiri:** Tərkibində 0,3-1,2% efir yağı: fenol-timol (10%), karvakrol izomerləri, seskviterpenoidlər (12,5%), monoterpenoidlər – heranilasetat (5%) olur. Ədviyyəli və bakterisid təsirlidir. Bundan başqa tərkibində fenol (12-20%), flavonoidlər, askorbin turşusu və aşı maddələri olur.

Tərkibində efir yağları (fenol, timol və onun izomerləri), acı maddələr və çoxlu miqdarda askorbin turşusu və piqmentlər vardır.

Qaraqınıq bitkisi (bütöv, doğranmış, briket) keyfiyyətli öskürəkkəsici və  bağırsaq peristaltikasını artıran dərman kimi işlədilir. Daxilə qəbul etmək üçün dəmləmə, vanna və antiseptik vasitə kimi təyin edilir. Ağciyər xəstəliklərində tərlədici dərman kimi də faydalıdır. Mərkəzi sinir sistemini möhkəmləndirici: nevroz, halsızlıq, isteriya, epilepsiya, hipertoniya xəstəliyi,

ateroskleroz, klimaksla bağlı nevrotik şikayətlər zamanı tətbiq edilir. Bronxial vəzinin sekresiyasının artırılmasında, spazmolotik, öskürəkkəsici təsir edərək, güclü tər ifrazına səbəb olur. Bronxit, pnevmoniya, bronxoektaziya, bronxial astma və difteriya xəstəliklərinin müalicəsində istifadə edilir. Bundan başqa iştahasızlıq, qastrit, mədə-bağırsaq spazmında, mədə və onikibarmaq bağırsaq xorasında, atonik qəbizliklərdə, ödqovucu və iltihab əleyhinə tətbiq edilir. Məhlulunu hazırlamaq üçün 2 xörək qaşığı bitkini 2 stəkan qaynanmış suda dəmlənələrək (termosda), qəbul edilməlidir. Gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl qəbul edilməlidir.

Spirtli məhlulunu hazırlamaq üçün 10 q bitki 150 ml 70%-li etil spirtində həll edilməlidir. 7-10 gün qaranlıq otaqda saxlanılmalıdır. 30-40 damcı gündə 3-4 dəfə qəbul edilməlidir. N.Q.Kovalev məsləhət görürdü ki, epilersiya zamanı 2 xörək qaşığı bitki 1,5 stəkan qaynanmış suda dəmlənərək (termosda), qəbul edilməlidir (sutqalıq doza). Müalicə müddəti 3 ildir.

Revmatizm zamanı oynaqların şişkinliklərində, podaqrada, amonoreyyada, ekzema, dəri səpkiləri və müxtəlif yaralanmalarda istifadə edilir.

## *İri*s L. - Süsən

***İris germaniaca* L. - Alman süsəni** (Süsən, soğanaqlı-süsən, əzizim)

**Botaniki xarakteristikası** – Bu növ çoxillik ot bitkisi olub, iri, inkişaf edən, azbudaqlı kökə, aşağı tərəfdə isə çoxsaylı kökə malikdir. Kökümsovun zirvəsində 4-6 yarpaqları vardır. Yarpaqlarının hündürlüyü 1 m-ə qədər, göyümtül-yaşıl, tutqun, qılıncvari və paralel damarlıdır. Gövdə üzərində bir neçə iri, gözəl çiçəkləri olur. Çiçəkyanlığı sadə, tacabənzər, 3 xarici yarpaqcığının kənarları qatlanmış, 3 daxili yarpaqcığı isə yuxarıya doğru yönəlmişdir.



Erkəkciyi 3 olub, yuxarı yarpaqcıq arasında yerləşmişdir. Aşağı yumurtalıqlı olub, üçyuvalıdır. Çiçəkləri tünd-bənövşəyi rəngli,qutucuqmeyvədir.

Kökü sıx, ağ kökümsovlu, yuxarı hissəsi yastılaşmış, gərilmiş, bir-iki şaxəyə ayrılmışdır. Bitkinin aşağı tərəfləri çoxsaylı, dairəvi tünd rəngli kökdən ibarətdir. Yuxarı tərəfi qabarıq, yastığabənər qalınlaşmış və köndələn istiqamlətli, üzərində kiçik tünd nöqtələr olmaqla, yarpaqlarında zəif damarlanma mövcuddur. Qazılaraq təzə çıxarılmış kökləri ot iyi verməklə, hava qurudacusunda quruyarkən, xoşagələn bənövşə iyi verir.

Plantasiyalarda kökümsovunu 2-3 il becərdikdən sonra payızda toplayırlar. Kökümsovu, yarpaqları və kökləri toplanılır. Kökümsovlarını axar suda yuduqdan sonra günəş altında qurutmaq lazımdır.

**Tərkibi və təsiri**: Kökümsovunun tərkibində 0,1-0,2% efir yağı vardır. Efir yağının tərkibində miristin turşusu (80-90%) və keton iron vardır.

Su-spirt çıxarışından kompleks dərman preparatları “Bitner” və “Mayrera” balzamları hazırlanır.

Öskürəkkəsici dərmanlar.

Avropa və Britaniya farmokopeyasında əsasən kökümsovundan dərman hazırlanır. Hindistan farmokopeyasında büzücü, işlədici və sidikqovucu dərmanlar, Avropa ölkələrinin farmokopeyasında isə tərqovucu, öskürəkkəsici və işlədici kimi istifadə edilir. Kökündən parfümeriyada, diş məcunlarının hazırlanmasında və konditer sahəsində istifadə edilir.

## *Acorus* L. - Kəcəvər

***Acorus calamus* L.** – Adi kəcəvər (Qara kök, kəcəvər, ləçəyəbənzər, bataqlıq kəcəvəri, suzanbağı kökü, qılıncvari kök, tatar zəhəri, gördəvər)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, sürünən, üfüqi kökümsova malikdir. Kökümsovu qol-budaqlı, diametri 0,3 sm, uzunluğu 1,5 m, xaricdən qonur və ya yaşılımtıl-sarı, kənarları çoxsaylı qaytanabənzər, köklərinin uzunluğu 40-50 sm, yuxarı tərəfdən iri yarımaypara yarpaqlardan ibarətdir. Yarpaqlarının uzunluğu 10-15 sm, açıq-yaşıl, yumşaq, itiuclu, zirvə və yan budaqlıdır. Gövdə üzərindəki çiçək qruplarının hündürlüyü 40-80 sm, yastılaşmış hamaşçiçəkləri yuxarıdan silindrik, azacıq daralmış, uzunluğu 12 sm,



qalınlığı 2 sm-ə bərabərdir. Çiçəkləri kiçik, yaşılımtıl-sarı olub, ikicinslidir.

Kökümsovları yüngül, silindrik, azacıq yastılaşmış, əyilmiş, qatlanmış, bəzən budaqlanan və çox hissəsi uzununa yarılmış olur. Yuxarı hissəsi yarımaypara formalı, iri dişli, yarpaqlı, aşağı hissəsi çoxsaylı kiçik dairəvi, köklü, bərabər olmayan məsaməli olub, deşik-deşikdir. Parçalanmış hissələri 30 sm, qalınlığı isə 2 sm-ə qədər olur. Çiçəkləri xaricdən sarımtıl və ya qırmızımtıl-qonur, bəzən yaşılımtıl-qonur olmaqla, yarpaqları tünd-qonur rəngli olur. Çiçəkləri sarımtıl, çəhrayı, bəzən yaşıl olur. Güclü aromat iyli və şirintəhər-acı dadılıdır.

Çay, göl, nohur, çəmənlik və bataqlıq sahillərində yayılır.

Yayın sonu və bütün payız fəsli ərzində sututarlarda su azalan zaman, bəzən yazda aprel ayında yarpaqların uzanma fazasında toplanılmalıdır. Kökümsovu və yerüstü hissəsi kəsilərək götürülür, soyuq suda yuyularaq təmizlənir və 2-5 sm ölçüdə kəsilərək bir neçə gün açıq havada naves və ya çardaxda qurudulur. Kökümsovların uzunluğu 5-30 sm kəsilməlidir.Kökümsovları yaxşı ventiliyasiyalı olan çardax və naveslərdə qurudulmalıdır. Quruducu şkafda 40ºC-də qurudulmalıdır.

Efiryağlı bitki olduğundan xammalı yaxşı bükülməli, tıxanmalı və bağlanmalıdır. Bütöv və doğranmış xammalının saxlanılma müddəti 3 il, tozununku isə 1,5 ildir.

**Tərkibi və təsiri:** Kökümsovunda aşı maddələri, qatran, nişasta, qlükozid, vitaminlər (çoxlu miqdarda askorbin turşusu), efir yağları (evqenol, azorin aldehid, kalamin, kalamenol) vardır.

İştahartırıcı (iştah stimulyatoru), ödqovucudur.

Kökümsovunda acı qlükozid olan *akorin* vardır ki, bu dad sinirin həssaslığını və mədə şirəsi ifrazını reflektor olaraq artırır, xüsusən xlorid turşusunun artmasına kömək edir. Eyni zamanda qaraciyərin funksiyasını, öd yolunun tonusunu və diurezi artırır. Efiryağlı olduğundan iltihabsorucu və antimikrob xassəyə

malikdir. Bundan başqa parodontoz, stafilakokk, eşerix və funqistik təsirə də malikdir. Komponent efir yağlı olan azaron preparatı qıcolma, antiaritmik, spazmolotik və bronxolitik təsirə malikdir.

Mədə-bağırsaq sisteminin mator funksiyasını artırır, iştahı yaxşılaşdırır, mədə və onikibarmaq bağırsaq xorasında, sinir xəstəliklərində tonuslandırıcı dərman kimi istifadə olunur. Spirtli ekstraktı iltihab əleyhinə, ağrıkəsici, ağciyər xəstəliklərində öskürəkkəsici dərman kimi istifadə edilir. Kökümsovları üyüdülmüş şəkildə hipersekresiyada (mədə turşuluğunda) qusma refleksini artırdığından siqaretin tərgidilməsində istifadə edilir. Elmi təbabətdə «Vikalin» və «Vikair» adlı dərmanların tərkibində turşuluq əleyhinə, yumşaldıcı maddə kimi qəbul edilir. Yağlı məhlulundan enatinin (olimetin, rovatin, rovaxol) tərkibində öddaşı və böyrəkdaşı xəstəliklərində müvəffəqiyyətlə tətbiq edilir.

Dəmləmə: 1 xörək qaşığı üyüdülmüş kökünü 2 stəkan qaynar suda (termosda) 10-12 saat ərzində dəmləyərək, gündə 3 dəfə, hər dəfə yeməkdən 20-40 dəqiqə əvvəl 1/2 stəkan qəbul etmək lazımdır. 10 q kökü 200 ml suda bişirmək lazımdır.

Qaraciyər, öd yolları, böyrək, podaqra, revmatizm, angina, diş ağrısı, saçın uzadılmasında, raxit, mamalıq, görmə və eşitmə xəstəliklərinin pozğunluqlarında geniş istifadə edilir

**Əks göstəriş** - Hamiləlik.

## *Achille*a L. – Boymadərən

*Achillea millefolium* **L. – Adi boymadərən** (Ağaca dönən, ağ başcıqlı, çapıq, qana batmış, yabanı qarabaşaq, boymadərən, əsgər otu, orağaoxşar, ətirli ot).

**Botaniki xarakteristikası:** Çoxillik, ot bitkisi olub, gövdəsinin hündürlüyü 20-50 sm, düzqalxan, budaqlanan, dəyirmi, nazikşırımlı, yuxarı budaqcığındakı yarpaqları qısalmışdır. Yarpaqları növbəli, xətti-neştərvari, ikiqat ləlәkşəkilli yarılmış, iki-üçqat kəsilmiş seqmentli və demək olar ki, kürəkşəkilli, sonluğu xətti formalıdır. Kökümsov yarpaqları saplaqlı uzunluğu 35-50 sm-dir. Kökləri nazik, sürünəndir. Çiçəkqrupu kiçik , çoxsaylı olub, gövdənin zirvəsində mürəkkəb çiçəkqrupunda formalaşan,



kənarları ağ dilşəkilli (bəzən çəhrayı) daxili çapıqlı olmaqla, sarı rənglidir. Qalxanşəkilli çiçəklərinin uzunluğu 4 sm-ə (çiçək səbətciyinin əsası) bərabərdir. Hər bir səbətcik kənar dişicikli, (əsasən sayı 5 olan), orta boruşəkilli, ikicinsli (3-30 qədər sayı olan), 5 erkəkcikli və aşağı yumurtalıqlı çiçəklərdən ibarətdir. Çiçəyin əsası qabarıq olmaqla, çiçək yatağı bölünmüşdür. Yarpaqları kirəmitəbənzər uzunsov-yumurtaşəkilli və aydın-qonur rənglidir. Çiçək tacı burulan, yaşılımtıl, dilşəkilli çiçəkləri sarımtıl-ağ və ya çəhrayı, boruşəkilli çiçəkləri isə sarımtıldır. Tünd aromat iyli və ədviyyəli acı dadlıdır.

Quru dərələrdə, çəmənliklərdə, çaybasar çəmənliklərin yüksək yerlərində, meşə kənarlarında, talalarda, yol kənarlarında, təzə salınmış meşə zolaqlarında, parklarda yaşayış məntəqələrində yayılmışdır.

Bitkini çiçəkləmə fazasında (iyun və avqustun birinci yarısı) yarpaq və gövdələrini 15 sm uzunluğunda səliqəli şəkildə yarpaq və gövdədən məhrum etmədən kəsmək lazımdır. Yaşayış məntəqələrinə yaxın yerlərdə adi boymadərən olarsa onu əkin sahələrinə köçürmək məsləhətdir. Onun qalxanşəkilli çiçəkqrupu və səbətciyi 2 sm uzunluğunda kəsilməklə toplanılmalıdır. Bitkinin kökünü və pöhrələrini qazaraq çıxarmaq qətiyyən olmaz. Bitkinin toplanıldığı sahələrin təkrar istismarı 1-2 ildən sonra mümkündür. Xammalı quru hava şəraitində, qalaq-qalaq yığmamaq şərti ilə toplayaraq dərhal qurutmağa başlamaq lazımdır. Xammalın qurudulması havası yaxşı dəyişələn açıq çardaxlarda, naveslərdə, kağız və ya parça üzərəndə 5-7 sm qalınlığında sərməklə, qurutmaq lazımdır. Bu halda çıxım 20-25 % olur.

Efiryağlı bitki olduğundan xammal toplanan əşyalar yaxşı tıxanmalı və bağlanmalıdır. Bütöv və doğranmış xammalının saxlanılma müddəti 3 il, tozununku isə 2 ildir.

**Tərkibi və təsiri:** Otun və çiçəklərin tərkibində 0,8% efir yağı, başlıca komponent olan millefolid, xamazulen, acı maddə olan (axillin), aşı maddələr, K vitamani və flavonoidlər vardır.

Hemostatik, iltihabəleyhinə və spazmolitik dərmandır.

Keyfiyyətli xammalı onun yarpaqları və çiçəkləridir. Çiçəkləyən zaman bitkinin tərkibində efir yağı, mürəkkəb efir, azulen, tuyol, sineol, kamfora, kariofillen, qarışqa və izovalerian turşuları olur. Tərkibində eyni zamanda qatran, aromatik acı və aşı maddələr, vitaminlər, fitonsidlər və digər maddələr vardır.

Bitkinin tərkibində ümummöhkəmləndirici, iltihabəleyhinə, antispastik, büzücü və zəif yerli keyləşdirici maddələr vardır. Boymadərən uşaqlıq, ağ ciyər, mədə-bağırsaq, burun qanaxmalarında, yanıq, trofik yara, xronik furunkulyoz və dəri xəstəliklərinin müalicəsində istifadə edilir. Bitki və çiçəkləri müvəffəqiyyətlə qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, enterkolit, nefrit, spesifik olmayan kolit, mədə və bağırsağın spastik ağrılarında işlədilir. Boymadərən maddələr mübadiləsini aktivləşdirir və normallaşdırır. Hipertoniya, ateroskleroz və piylənmədə qarışıqların tərkibinə daxildir. Bu bitkinin qəbulu zamanı qanda trombositlər artır. Xüsusilə *trombozda* boymadərənin qəbulu yolverilməzdir. Qanın laxtalanmasını artırır. Antiallergik xüsusiyyətinə görə diatez, ekzema, qızılyel və bronxial astma xəstəliklərində müvəffəqiyyətlə istifadə edilir. Qanaxmalarda xüsusən ağciyər, bağırsaq, burun, uşaqlıq və böyrək qanaxmalarında xüsusən əvəzedilməzdir. Nevrozlarda (spastik parametropatiya), süd vəzinin iltihabında, mensturasiya pozğunluqlarında, qıcolma və qusma hallarında olduqca faydalıdır. Ümummöhkəmləndirici, astenik vəziyyət, nevroz və isteriya xəstəliklərində istifadə olunan qarışıqların tərkibinə daxildir. 2 çay qaşığı bitkini 250 ml qaynar suda 15 dəqəq dəmləmək (termosda) lazımdır (sutqalıq doza). Gündə 2-3 fincan qəbul etmək məqsədəuyğyndur.Dəmləməsini xaricə tətbiqi zamanı 3 xörək qaşığı bitkini 1,5-2 stəkan qaynar suda dəmləmək lazımdır. Öd, mədə və bağırsaq xəstəliklərində

boymadərən 30,0, çobanyastığı 50,0, nanə 50,0 dəmləyərək qəbul etmək lazımdır.Boymadərənin vannası zamanı 50-75 q bitki 1litr qaynar suda 20 dəqiqə ərzində dəmlənərək süzülür. Bu qədər məhlul bir vanna üçün yetərlidir.Yağ və ət məhsullarının (kolbasa) hazırlanmasında boymadərəndən geniş istifadə edilir.

Ekstrakt maddə kimi 70% spirtdə çıxımı 17%, nəmliyi 13%, ümumi kül 15%, efir yağı 0,1%, qaralmış hissəciklər 2%, 4 sm ölçüdə olan gövdə hissələri 5%, 0,5mm diametrində olan çiçək, gövdə və digər hissəciklər 3%, üzvi maddələr 0,5%, mineral maddələri isə 1%-dən çox deyildir. Daxilə qəbul etmək üçün vanna və antiseptik vasitə kimi təyin edilir. Ağciyər xəstəliklərində tərlədici dərman kimi də faydalıdir. Bitki və çiçəklərinin tərkibində acı maddələr olduğundan iştahartırıcı, ödqovucu, babasil əleyhinə və yumşaldıcı tərkiblərdə istifadə edilir.

Xalq təbabətindən yaxşı məlumdur ki, qankəsici və yara sağaldıcı dərman kimi tətbiq edilir. Qaraciyər, podaqra, revmatizm, limfa vəzilərinin vərəmində və eyni zamanda qurdqovucu, ayaqların qıcolmalarında, irinli yaralarda, anemiya və ağciyər vərəmi xəstəliklərində və menstruasiyada müvəffəqiyyətlə tətbiq edilir. Qədim tarixdə Axill, Patrokl, Xiron, Telef və Dioskorid bu bitkini «ecazkar bitki» adlandırmışlar.

**Əks göstəriş**– Hamiləlik.

## *Artemisia* L. – Yovşan

***Artemisia absinthium* L.** – Acı yovşan ( Boğazotu (yabanı ərik), yovşan, yavşan, qarsalayan)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, hündürlüyü 2 m-ə qədərdir. Kökümsovları çoxşaxəli, qısa, şaquli və oduncaqlıdır. Bütün yerüstü hissələri sarımtıl-gümüşü rəngli olmaqla, sıx tükcüklərlə örtülmüşdür. Yovşanın özünəməxsus kəskin iyi vardır. Gövdəsi çoxsaylı, qabırğalı, yuxarı tərəfdən süpürgəvari-budaqlanan yarpaqlardan ibarətdir. Kökətrafı yarpaqları bitki çiçəkləyən zaman adətən ölüşkəyir. Çətirləri və gövdənin aşağı



yarpaqları saplaqlı olub, uzunluğu 20 sm, yumurtaşəkilli, girdə üçbucaqşəkilli və ya neştərvari-uzunsov, zərif itiuclu, bütövkənarlı olub, uzunluğu 1-5 mm-dir. Gövdə yarpaqları saplaqlı və növbəlidir. Zirvə yarpaqları oturaq, bütövkənarlı və üçbölümlüdür. Boruşəkilli çiçəkləri sarımtıl, şarabənzər, səbətciyi sallanmış olmaqla, diametri 4 mm-ə qədərdir. Çiçəkləyən zaman keçəyəbənzər, daha sonra çılpaq olub, yarpağın xarici tərəfi xətti, daxili tərəfi isə ellipsvari kütdür. Süpürgəvari çiçəkləri geniş çiçək qrupunda formalaşmışdır.

Alaq bitkisi hesab olunur. Yumşaq torpaqlarda, yaşayış yerlərində, yol kənarlarında, bostanlarda, çöllərdə və bağlarda yaşayır.

Alaq otları ilə birlikdə yol kənarlarında, təzə salınmış bağ və meşələrdə rast gəlinir. Bitki və yarpaqları çardax, naveslərdə kölgəli şəraitdə doğranaraq nazik halda (3-5 sm) kağız və ya parça üzərində sərilərək, qurudulmalıdır. Eyni zamanda 40°C-də quruducu şkafda qurutmaq olar. Yaxşı hava şəraitində 5-7 gün, yarpaqları isə 3-5 gün qurudulmalıdır.

Gövdənin zirvəsindəki çiçək qruplarının uzunluğu 25 sm-ə qədərdir. Çiçəklərin oturduğu gövdə azacıq qabırğalı, sonunda qol-budaqlı, yarpaqlarla yanaşı, mürəkkəb çiçək qrupu olan diametri 2,5-4 mm olan kiçik çiçəkləri vardır. Bitki çiçəkləyən zaman (iyun-avqust) gövdənin zirvəsində yerləşən hissələr oraqla 20-25 sm kəsilməklə götürülür. Adətən tədarük 10-15 gün ərzində aparılmalıdır. Otlar toplandıqdan sonra qurudulur. Bu zaman onların rəngi tünd-sarı olmaqla, çiçək çətiri qonurlaşır və dağılır. Yarpaqları çiçəkləməyə qədər (iyun-iyul) yığılmalıdır. Xammal quru hava şəraitində, qalaq-qalaq yığılmamaq şərti ilə toplayaraq dərhal qurutmağa başlanılmalıdır. Yığılmış xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə və ya 40-45$^{O}$C temperaturda, quruducu şkafda qurudulmalıdır.

Bu zaman nazik doğranmış xammal 3-5 sm qalınlığında sərilməlidir. Bu halda çıxım 24-25% olur. Yuxarı çəçəkaltlığının yarpaqları oturaq, uzunsov, bütövkənarlı, aşağı çiçəkləri

üçbölümlü qovuşuqdur. Kök üstündə olan yarpaqlarının saplaqları üçbucaqlı-dairəvi olmaqla, iki-üç qanada bölünmüşdür. Yarpaqları xətti-uzunsov, küt-sivri, bütövkənarlı və yumşaq olmaqla, üstündə çoxlu sayda tükcüklər olur. Yarpaqların yuxarı tərəfinin rəngi sarımtıl-yaşıl, aşağı tərəfinin rəngi gümüşü-sarı, çiçəklərinin rəngi isə yaşıldır. Özünəməxsus kəskin aromat iyli və acı-ədviyyəli dadlıdır. Gövdənin zirvəsindəki çiçək qruplarının uzunluğu 25sm-ə qədərdir. Çiçəklərin oturduğu gövdə azacıq qabırğalı, sonunda qol-budaqlı, yarpaqlarla yanaşı, mürəkkəb çiçək qrupu olmaqla yanaşı, diametri 2,5-4 mm olan kiçik çiçəklər də olur. Yuxarı çəçəkaltlığının yarpaqları oturaq, uzunsov, bütövkənarlı, aşağı çiçəkləri üçbölümlü qovuşuqdur. Kök üstündə olan yarpaqlarının saplaqları üçbucaqlı-dairəvi olmaqla, iki-üç qanada bölünmüşdür. Yarpaqları xətti-uzunsov, küt və bütövkənarlıdır. Yarpaqları yumşaq olduğuna görə üstündə çoxlu tükcüklər çıxmışdır. Yarpaqların yuxarı tərəfinin rəngi sarımtıl-yaşıl, aşağı tərəfinin rəngi gümüşü-sarı, çəçəklərinin rəngi isə yaşıldır. Özünəməxsus kəskin aromat iyi, ədviyyəli-acı dadılıdır.

Efiryağlı xammal olduğundan kisə və taylarda qablaşdırılaraq düzgün saxlanılmalıdır. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Yabanı çoxillik ot bitkisi olan acı yovşanın qurumuş otu (zirvə yarpaqları və çiçəkləri) və yarpaqları keyfiyyətli xammal və dərman bitkisidir. Ot və çiçəklərinin tərkibində 2% efir yağı, başlıca komponent olan tuyon, tuyol, fellandren, seksiviterpen laktonlar - absintin, anabsintin, artabsin, acı dadlı xammal olan flavonoidlər və aşı maddələr vardır. Bitkinin tərkibində aşı maddələr, artemizin flavonoidi, üzvi turşular, karotin və askorbin turşusu vardır. Kökünün tərkibində inulin olur.

Acı yovşanın xüsusi iyini onun tərkibindəki efir yağı, tuyol spirti, hidrogen peroksid (tuyon, pinen, kadinen, fellandren,

bizabolen, β kariofillin, sepinen), 10 ədəd seskviterpen lakton (absintin, anabsintin, artabsin) maddələri yaradır.

İştahın artırılmasında istifadə edilir. Bitki (bütöv və bölünmüş) və çiçəkləri keyfiyyətli iştahartırıcı, mədə-bağırsaq sistemini gücləndirici kimi dəmləmə və qarışıqların tərkibində istifadə edilir. Xammal olaraq dəmləmə və bişirmə kimi faydalıdır. Elmi təbabət öyrənmişdir ki, başlıca olaraq tərkibində olan acı maddə iştahanı artırmaqla, enerjini bərpa edir. Dəmləməsi olduqca acı olduğu üçün onu xininlə müqayisə etmək olar. Yovşanın tərkibindəki acı maddə (absintin) və digər maddələr mədə-bağırsaq, xüsusən mədəaltı vəzin funksiyasını stimullaşdırır. Yovşan mərkəzi sinir və qanyaradıcı sistemin fəaliyyətini artırır, asteniya, zəiflik, anemiya və epilepsiya xəstəliklərin tam müalicəsinə zəmanət yaradır. Tərkibində hərarətsalıcı və öskürəkkəsici maddələr olduğundan teperaturla müşayət olunan malyariya, qripp və kəskin respirator xəstəliklərin profilaktika və müalicəsində istifadə edilir. Xüsusən hipersekresiya ilə müşayət olunan mədə xəstəliklərində müvəffəqiyyətlə təyin edilir. Eyni zamanda kəskin və xroniki hepatit, xolesistit, öddaşı xəstəliklərinin müalicəsində də tətbiq edilir. Yovşan həm də müxtəlif qaraciyər və ödyolu xəstəliklərini müalicə etmək üçün qarışıqların tərkibinə daxildir. Tərkibi diuretik və iltihabəleyhinə maddələrlə zəngindir. Preparat meteorizm, dismenorreya, böyrək, böyrəkdaşı və qurdqovucu xəstəliklərin profilaktika və müalicəsində istifadə edilir. Son illərdə yovşan yüngül işlədici kimi bağırsaq xəstəliklərində də tətbiq edilir. Yovşanının dəmləməsindən xaricə işlədilən preparat kimi kompres və islatmalar, bağırsaqlardan askarid və bizquyruq helmintlərinin qovulmasında imalə kimi istifadə edilir. 1 çay qaşığı bitkini 250 ml qaynar suda dəmləyərək, 10 dəqiqə soyudaraq gündə 3 dəfə yeməkdən 1,5 saat əvvəl və ya sonra içmək lazımdır (sutqalıq doza). Müalicə kursu 2-3 həftədir.

Yovşanın (T-ae Absinthii). 1:5 nisbətində 70% spirtli məhlulu:

Rp.: Herbae Absinthii 100,0
D.S. 1 çay qaşığı bitkini 2 stəkan qaynar suda 20 dəqiqə dəmləyərək, gündə 3 dəfə 1/4 stəkan yeməkdən əvvəl içmək lazımdır.
Rp.: T-ae Absinthii 25ml
D.S. 15-20 damcı gündə 3 dəfə yeməkdən 15-20 dəqiqə əvvəl içmək lazımdır.

**Əks göstəriş** – Hamiləlik və enterkolit hesab olunur. Yüksək dozası sinir sisteminin çox oyanmasına səbəb olur. Hətta yüksək olmayan dozası belə anemiya, təngnəfəslik və qusma halları yaradır.

***Artemisia vulgaris* L.** – Adi yovşan (Boğazotu, yovşan, qalmaqal, yavşan)

**Botaniki xarakteristikası:** Yarımkol bitkisi olub, birinci il vegetasiya zamanı, hündürlüyü 50-100 (120) sm, çoxsaylı oduncaqlı budaqlara malik olur. Çiçəkləmə və meyvə zamanı gövdəsi yarpaqlarla tamamilə örtülü olur. Gövdəsi 10-20 qədər sarımtıl və ya qırmızımtıl-qonur, nazik, düzqalxan və ya budaqlanan, yuxarı hissəsi daha çox budaqlı, aşağı hissəsi isə budaqlanmayan, çılpaq və hamardır. Budaqları nazik, uzun, demək olar ki, gövdəsi sıxılmışdır. Yarpaqları kiçik, küt, uzunsov-xətti (1mm) və ikiqanadlı-bölünmüş vəziyyətdədir. Gövdədə yarpaqları açıq-yaşıl, kök



üstündə olanları isə sarımtıl-yaşıldır. Çiçək səbətciyi çoxsaylı, boruşəkilli, sarı, dikduran, kiçik, şarşəkilli, diametri 2,5-4mm olub, mürəkkəb süpürgəşəkillidir. Çiçəkləri ikicinsli, 3-5 səbətcikli, sarı və ya purpurşəkilli tacdan ibarətdir. Səbətcikləri kiçik olub, uzunluğu 2-4mm, eni 1-1,5mm, yumurtaşəkilli, sonu itiuclu və sarımtıl-yaşıl rənglidir. Kirəmitəbənzər 10-20 ədəd yarpaqcığı və 3-5 ikicinsli boruşəkilli və daxili qapalı sarınmış çiçəkləri vardır. Sarınmış yarpaqları hamar, parlaq, qayığabənzər, orta hissəsi sarımtıl-yaşıl, kənar hissələri isə bölünməklə, tükcüklərdən ibarətdir. Çiçəkləri sarımtıl-yaşıl və ya qonur-yaşıldır. Spesifik kəskin iyli və ədviyyəli-acı dadlıdır.

İyun-avqust aylarında çiçəkləyir, sentyabr-oktyabr aylarında isə meyvələri yetişir.

Alaqotu olan yerlərdə, yeni pöhrəliklərdə, rütublətli torpaqlarda, yaşayış məntəqələrinə yaxın yerlərdə, yol ətraflarında, bostan və bağlarda yaşayır.

Yovşanının çiçək və yarpaqları avqust və sentyabrın ortalarına qədər – çiçək açana kimi toplanılır. Xammal əl ilə toplanılır. Xammal çardax və naveslərdə, kölgədə havası dəyişilən yerlərdə, kağız və parça üzərində 3-5 sm qalınlığında sərilməklə qurudulmalıdır. Quruducu şkafda 40ºC temperaturada qurudulmalıdır. Quru havada otu 5-7 gün, yarpaqları isə 3-5 gün ərzində sərilərək qurudulur.

Quru, sərin və havası tez-tez dəyişilən yerlərdə saxlanılmalıdır. Aptekdə yeşiklərdə, anbarda isə taylarda saxlanılmalıdır. Saxlanılma müddəti 4 ildir.

**Tərkibi və təsiri:** Ot və yarpaqlarının tərkibində 0,5-2% efir yağı, bitsiklik monoterpenoidlərdən tuyol (10-25%), tuyon (10%), azulen tərkibli seskviterpenli laktonlar, acı dad olan artabsin və absintin vardır. Çiçəklərinin tərkibində 7% santonin, 2% efir yağı, başlıca komponenti sienoldan (70-80%) ibarətdir. Yağının yaşıl-göy rəngli olması tərkibindəki azulenin olması ilə bağlıdır.

Bundan başqa flavonoidlər, üzvi turşular, aşı maddələri, karotinoidlər və digər maddələrdən ibarətdir.

İştahartırıcı dərmandır. Acı maddələr ağızdakı reseptorlara təsir edərək, reflektor olaraq mədə-bağırsağın sekretor funksiyası güclənir. Bu başlıca olaraq absintiumdan asılıdır. Absintium öd, pankreas və öd şirəsinin ifrazını artırır. Mərkəzi sinir sisteminə kardiotonik təsir edir. Yüksək dozaları qıcolmalar yaradır. Azulen antiallergik, spazmolotik, iltihabsorucu və analgetik təsir edir.

Çiçəkləri qurdqovucu dərman kimi askaridozda bal, şəkər və mürəbbə ilə qatmaqla qəbul edilir. Bütün vasitələr üçün yeməkdən əvvəl qəbul edilməlidir. Normadan artıq qəbul edildikdə "*yovşan epilepsiyası*" yaranır.

## ***Humulus*** **L. – Mayaotu**

***Humulus lupulus*** **L.** - Adi mayaotu (Mayaotu, acıtəhər, lian).

**Botaniki xarakteristikası:** Çoxillik, ikievli, lian olub, uzunluğu 3-6m-dir. Gövdəsi boş oduncaqlı, altıüzlü, içiboş, kələ-kötür olub, qarmaqlıdır. Yarpaqları bütövkənarlı və ya üç-beş kürəkli, əsasından ürəkşəkilli dərin oyuqlu, qarşı-qarşıya dayanan, metal parıltılı, itiuclu, kənarları dişcikli və uzun saplaqlıdır. Bircinsiyyətli çiçəkləri zirvədə dikinə istiqamətdə yerləşir. Beşüzvlü çiçək yatağı sarımtıl-yaşıl rəngli



olub, süpürgə çiçək qrupunda toplanan, dişicikləri şişkin uzunsov-ellipsşəkilli, açıq-yaşıl, nisbətən əyilmiş olmaqla sırğaşəkillidir. Pulcuqlu, şişkinlikli olub, daxili tərəfində kiçik vəzicikləri vardır.

Rütublətli yerlərdə, çay sahillərində, enliyarpaqlı meşələrdə, kollu pöhrəliklərdə yayılır.

Xammalı toplamaq olduqca çətindir. Pivə sənayesində oldaqca qiymlətlidir. Çicəkqrupunu (dişi çiçəkləri) iyul-avqust aylarında sarımtıl-yaşıl olduqda toplamaq lazımdır. Çiəkqrupu saplaqla birlikdə toplanıldıqda dağılmır. Xammalı quru hava şəraitində, qalaq-qalaq yığılmamaq şərti ilə toplayaraq dərhal qurutmağa başlanılmalıdır. Toplanılmış xammal açıq, kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə, 55-65$^{O}$C temperaturda quruducu şkafda qurudulmalıdır. Nazik doğranmış xammal 30-40 sm qalınlığında sərilməlidir.

Xammalında nazik saplaqlı, pulcuqlu, möhkəm meyvələri olur. Çiçəkləri açıq-yaşıldan, qızılı-yaşıla kimi dəyişır. Daxili hissəsi sıx səpinti şəklində çoxsaylı qızılı-parlaq metalabənzər hissəciklərdən ibarətdir. Acı dadlı və özünəməxsus xoş iyli olmaqla, aromatlıdır.

Acı dadı qeyri-sabit olub, uzun müddətli saxlanılmır.

**Tərkibi və təsiri:** Otunun və çiçəklərinin tərkibində 0,1-1,8% efir yağı, əsasənmirsen, heranilol, linalool, aşı maddələr, flavonoidlər və digərüzvi maddələr vardır.

Sedativ, yuxugətirici, iştahgətirici və ağrıkəsicidir. Mədəni və yabanı çoxillik ot bitkisi olan adi mayaotunun şişkin meyvələri yetişən zaman keyfiyyətli xammal və dərman bitkisidir. Kombinəedilmiş dəmləmə və ekstrakt kimi «Volosedan», «Novo-Passit», «Sanason», «Urolesan» və «Nervofluks» preparatları hazırlanır.

Çiçəkləri (bütöv və bölünmüş) keyfiyyətli sedativ və ümumi bədən möhkəmləndirici dətman kimi istifadə edilir.

## *Menyanthes* L. – Su yoncası

***Menyanthes trifoliata* L. – Üçyarpaq su yoncası** (Üçyarpaq, su suyoncası, paxlakol, paxladən, paxla, üçpəncəli, qaranquşotu, dərz, qızğınot)

**Botaniki xarakteristikası:** Üçyarpaq yonca çoxillik ot bitkisi olub, su-bataqlıq bitkisidir. Kökümsovu uzun və sürünəndir. Kökümsovun zirvəsi azacıq qalxmış, üç hissədən ibarət qovuşuq uzun saplaqlı yarpaqlardan ibarətdir. Saplağın uzunluğu 20 sm, əsası genişlənmiş və uzun zarlı qını vardır. Yarpaqları bütövkənarlı, çılpaq, tərsyumurtaşəkilli və ya ellipsşəkillidir. Yazda çiçək oxunun uzunluğu 30 sm olur.



Çiçəkləri tutqun-çəhrayı olub, diametri 1 sm-ə qədərdər. Çiçəklərdə toplanmış sıx fırçanın uzunluğu 3-7 sm-dir.

Yarpaqları yaşıl, nazik, adətən bürüşük, çılpaq, qısa üçbölümlü olub, saplağın uzunluğu 3 sm-ə qədərdir. Ümumi saplaq 3 qısa gövdəciyə bölünmüşdür. Yarpaqları ellipsşəkilli və ya uzunsov-tərsyumurtaşəkilli, bütövkənarlı və ya bərabər olmayan kənarlara malik olmaqla, uzunluğu 5-8 sm, eni isə 3-5 sm-dir. Kənarları dərin olmayan girintili-çıxıntılı, görünən ağımtıl və ya qəhvəyi rəngli qabarıq (sulu ağızcıq) olub, damarlıdır. Zəif iyli və olduqca acı dadlıdır.

Bu bitki mamır bataqlıqlarında, bataqlıqlaşmış çay kənarlarında, çəmən və meşələrdə,göl və sututarlarda yaşayır.

Keyfiyyətli xammal kimi yarpaqları toplanılır. İsti havada toplamaq lazımdır. Xammalın toplanılması əvvəlcə yarpaq sonra isə çıçək açan zaman iyul-avqust aylarında aparılır. Qısa saplaqlı yarpaqları toplanılmalıdır. Bitkilər toplanıldıqdan 2-3 il sonra təkrar toplanıla bilər.Toplanılan xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə və ya 45-50$^{O}$C temperaturda quruducu şkafda qurudulmalıdır. Nazik doğranmış xammal 3 sm qalınlığında sərilməlidir.

Havası quru, təmiz və sərin yerdə saxlanılmalıdır. Saxlama müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Yarpaqların tərkibində acı qlükozidlər (loganin və sverezil), aşı maddələr və flavonoidlər vardır.

İştahartırıcı, ödqovucu və sedativ dərmandır. Yabanı çoxillik ot bitkisi olan üçyarpaq su yoncası yetişən zaman yarpaq vəmeyvələri keyfiyyətli xammal və dərman bitkisidir. Tərkibində meliantin qlükozidi vardır.

Tərkibindəki acı maddələr mədə-bağırsaq sistemi zəifliyində, xüsusən xroniki qastritlərdə, mədənin sekrektor hipofunksiyasında, iştahasızlıqda, ödqovucu və sidikqovucu, ümumi halsızlıq zamanı islədilir. Xüsusilə öddaşı xəstəliyində yaxşı səmərə verir. Orqanizmin möhkəmləndirilməsində vərəm

əleyhinə müalicənin tərkib hissəsinə verilir. 2 xörək qaşığı quru yarpaqlarını 0,5 litr qaynanmış suda (sutqalıq doza) dəmləyib (termosda), gündə 2-3 dəfə yeməkdək 20-40 dəqiqə əvvəl qəbul edilir. Ödqovucu və acı tərkiblərə daxildir. Yarpaqları (bütöv və bölünmüş) keyfiyyətli iştahartırıcı, məhlulu yaxşı həzmedici, acı məhlulu isə ödqovucu və orqanizmi möhkəmləndirici dərmandır.

Sinir sistemini möhkəmləndirir, taxikardiya əleyhinə, hərarət salıcı, qurdqovucu, qanazlığı, malyariya, oynaq və dərinin iltihabi xəstəliklərində xalq təbabətində istifadə edilir.

**Əks göstəriş** – Yoxdur.

## *Centaurium* Hill – Qızılçətir

***Centaurium pulchellum* (Sw.) Druce – Qəşəng qızılçətir** (Kiçik qızılçətir, qızılçətir, kentavr, yerotu, kiçik peyğəmbərçiçəyi, ödotu, gözəlçiçək, ürəkotu, çöltərəsi, gözəl qızılçətir)

***Centaurium erythraea* Rafn. – Qırmızı qızılçətir** (Qırmızı qızılçətir, kiçik qızılçətir, qızılçətir, adi qızılçətir).

**Botaniki xarakteristikası:** İkiillik ot bitkisi olub, hündürlüyü 35-40 sm-dir. Kökü böyük olmayan, zəif inkişaf edən, gövdəsi düzqalxan, tək və ya bir neçə saylı, dördtilli, yuxarı hissəsi çəngəlşəkilli budaqlanaraq yuxarıya doğru istiqamətlənmişdir. Gövdədə yarpaqları qarşı-qarşıya, oturaq, uzunsov-neştərşəkilli, uzunluğu 3 sm, damarları yaxşı görünən, kök



üstündə olan yarpaqları və çətiri vardır. Çiçəyin uzunluğu 1,5 sm, tünd-çəhrayı rəngli olub, çətirçəkilli-süpürgəvari hamaşçiçəkdir. Adətən ömrünün 2-3 ilində çiçəkləyir.

Gövdəsi yarpaqlı və çiçəkli olmaqla, düzqalxan, tək və ya budaqlanan, yaşıl və ya sarımtıl-yaşıl, çılpaq, oyuqlu, qabırğalı, uzunluğu 10-30 sm, qalınlığı isə 2mm-dir. Kökətrafı yarpaqları uzunsov-tərsyumurtaşəkilli, küt, əsasından daralmış, uzunluğu 4 sm, qalınlığı isə 2sm-dir. Yarpaqları oturaq, qarşı-qarşıya, uzunsov-neştərvari, itiuclu, bütövkənarlı, çılpaq, qalxanşəkilli-süpürgəvari, çiçəkləri isə çəhrayı-bənövşəyidir. Kəskin iyli və acı dadlıdır.

Quru dərə və çəmənlərdə, suayrıcı sahələrdə rast gəlinir. Cənub zonaların subasar göl kənarlarında, bataqlıq, gölməçə, kiçik çay və kanal ətraflarında yayılır. Bəzən pöhrəliklərdə kiçik qruplar şəklində də rast gəlinir.

Sənaye əhəmiyyətinə görə ən çox toplanıldığı yer Ukraynanın Karpat bölgəsi hesab edilir. Xammalın toplanılması çiçəkləmə ilə eyni vaxtda (iyul-avqust) aparılmalıdır. Bitki bıçaq və ya oraqla kökətrafının yuxarı yarpaqlarının toplanılması məqsədəuyğun sayılır. Toplanılan xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə, çardaxda və ya 45-50$^{O}$C temperaturda, quruducu şkafda qurudulmalıdır. Bu zaman nazik doğranmış xammal 3-4 sm qalınlığında sərilməlidir. Yağışlı havada qurudulma quruducu şkafda aparılmalıdır. Bu halda çıxım 25%-ə qədər olur.

Havası quru, təmiz, sərin yerlərdə saxlanılmalıdır. Saxlama müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Yarpaqlarının tərkibində acı qlükozidlər (hensiopikrin və eritrosentaurin), 1%-ə qədər alkaloidlər (hensinin), flavonoidlər, askorbin turşusu və ksanton vardır.

Həzmi yaxşılaşdırır, iştahartırıcı və ödqovucu dərmandır.

Cövhəri iştahsızlıq zamanı mədə-badırsaq traktının sekretor və motor funksiyasını artırır, müxtəlif dispepsiya

pozğunluqlarında (ürək bulanması, qusma, gəyirmə, qıcqırma), kolit, dezenteriya zamanı kompleks terapiya üçün təyin edilir.

## *Taraxacum* Wigg. – Zəncirotu

***Taraxacum officinale*** Wigg. – Dərman zəncirotu (Aptek zəncirotu, dazotu, zəncirotu, pərğu, südotu, dərdsiz-qəmsiz, tüklücə, südləyən, dişkökü)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, qısa və lətli, kiçikbudaqlı olub, mil köklüdür. Yarpaq və kökətrafı çətiri çılpaq və ya dalğın-tükcüklü, uzunluğu 10-25 sm, dərin qayığabənzər-lələkli, tədricən daralan, uzun qanadlı saplaqdan ibarətdir. Çiçəkqruplarının uzunluğu 30 sm, silindrik, içiboş, kənarları çılpaq və yuxarıdan hörümçək toruna bənzər yumşaq tüklüdür. Çiçəkləri iri səbətdə toplanmaqla, diametri 5 sm-dir. Çiçəkləri ikicinsli, dilşəkilli və açıq-sarı rənglidir.



Çəmənlik, örüş, yol kənarlarında, küçə, imarət, park ətrafındakı alaq bitkiliyində və əkin sahələrində yaşayır.

Kökünün uzunluğu 2-15 sm, eni 0,3-3 sm, sadə və ya az budaqlanan, uzununa qırışıq, bəzən spiralşəkilli, həddən artıq burulmuş, sıx və ağırdır. Kökün mərkəzi böyük olmayan sarı və ya sarımtıl-qonur oduncaqdan ibarət olmaqla, ətrafı nəzərəçarpacaq dərəcədə gümüşü-ağ rəng əhatə etmişdir. Digər qatı qonur konsentrasiyalı və südəbənzər rəngli olur. Xaricdən rəngi açıq və ya tünd-qonur, iysiz, xoş tamlı və acı dadlı olur. Kökləri yazda bitkilər cücərən zaman (aprel və mayın əvvəli) və ya payızda (sentyabr-oktyabr) toplanılır. Kökləri şumun15-25 sm dərinliyində olur. Bərkimiş torpaqlarda, incə kökləri xeyli çox olub, müxtəlif süxurlar tərəfindən ovxalanır. Toplanılan sahələrdən təkrar tədarük edilməsi 2-3 ildən bir mümkündür. Köklərini torpağı qazaraq çıxarmaq lazımdır. Toplanılan nazik yan kökləri dərhal soyuq suya qoyulmalıdır. Toplanılan xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə, çardaxda və ya 40-50$^{O}$C temperaturda quruducu şkafda qurudulmalıdır. Bu zaman nazik doğranmış xammal 3-5 sm qalınlığında sərilməli və mütəmadi olaraq çevrilməlidir. Bu halda çıxım 33-35%-ə qədər olur.

Anbar zərərvericilərindən qorumaqla, quru, havası yaxşı dəyişilən yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 5 ildir.

**Tərkibi və təsiri:** Köklərinin tərkibində acı qlükozidlər (taraksaçin və taraksaçepin), triterpen birləşmələr, 24%-ə qədər inulin, qatran və piyli yağlar vardır.

İştahartırıcı və ödqovucu stimulyatordur. Yabanı çoxillik ot bitkisi olan zəncirotunun kökü keyfiyyətli xammal və dərman bitkisidir.

Köklərindəki (bütöv və bölünmüş) keyfiyyətli acı maddələri iştahartırıcı, həzmedici və ödqovucu təsirə malik olan dərman maddələridir. Bişirmə, həb və qarışıqların tərkibində istifadə edilir.

## *Digitalis* L. – Üskükotu

****Digitalis purpurea*** L. – Purpur üskükotu (Paslı, şişkin üskükotu, qırmızı üskükotu).

**Botaniki xarakteristikası:** İkiillik ot bitkisidir. Yaşayışının birinci ili kökətrafı yarpaqlar, ikinci il isə hündürlüyü 1 m-ə qədər olan yarpaqlı gövdəsi və zirvədə iri çiçək salxımı daşıyan budaqcıqlar əmələ gəlir. Çətir yarpaqları uzunsov-yumurtaşəkilli və ya oval, uzun qanadabənzər saplaqdan ibarətdir. Yarpaqlarının uzunluğu 30 sm, eni isə 15 sm-ə bərabərdir. Gövdənin aşağı



yarpaqlarının uzunluğu 12-20 sm yumurtaşəkilli, qanadabənzər saplaqdan ibarətdir. Orta yarpaqları qısa saplaqlı, yuxarı yarpaqları oturaq, yumurtaşəkilli və yumurtaşəkilli-neştərvaridir. Kənar yarpaqları bərabər olmayan çəpərlidir. Yuxarı yarpaqları qırışıq, tünd-yaşıl, aşağı yarpaqlarında isə damarlanma, çoxkünclü

tor və üzərində çoxlu tükcükləri olan sarımtıl çiçəklərdən ibarətdir. Çiçəkləri birtərəfli fırçalıdır. Çiçək tacının uzunluğu 3-4 sm, xarici tərəfi purpur, daxili tərəfi isə purpurşəkilli ağ ləkəlidir.

Yarpaqları uzunsov-yumurtaşəkilli və ya yumurtaşəkilli formaya malik olub, kənarları bərabər olmayan çəpərlidir. Kökətrafı yarpaqları sərbəst saplaqdan, gövdəsində isə qısa saplaqlı yarpaqlardan tutmuş, oturaq yarpaqlara qədər mövcuddur. Yarpaqları kövrək, davamsız, tezsınan, yuxarı tərəfi tünd-yaşıl, aşağı tərəfi isə sarımtıl olub, sıx tükcüklərlə örtülmüş və yarpaq üzərində inkişaf etmiş xırda damarlar görünür. Uzunluğu 10-30 sm, eni isə 11sm-ə bərabərdir. Quru yarpaqları zəif iylidir.

Əsasən enliyarpaqlı və qarışıq meşılərin açıq sahələrində, kolluqlarda və yol kənarlarında yaşayır. Təbii ehtiyatı azdır, ona görə də yabanı növlər toplanılmır. Birinci il çox inkişaf etmiş çətiri, saplaqsız yarpaqları 2-3 dəfə toplanılır. Ikinci il çiçəkləmə dövründə yarpaqları yığılır. Xammal yalnız quru havada, günün ikinci yarısında günəşli gündə toplanılaraq, 50-60°C temperaturda quruducu şkafda qurudulmalıdır.

Bütün xammal yaxşı qablaşdırılmalıdır. Kip qablaşdırılma zamanı tərkibindəki bioloji aktiv maddələr uzun müddət saxlanılır. Bütün xammal quru yerə saxlanılmaqla, işıqdan qorunmalıdır. Tozları ampul və ya flakonlarda kip bağlanmış şəraitində saxlanılmalıdır. Təmiz qlükozid A, preparat və xammalı isə B siyahısında saxlanılır. Bioloji aktiv xammalı hər il kontrol edilməlidir.

**Tərkibi və təsiri:** Zəhərlidir Yarpaqlarının tərkibində əsas təbii qlükozidlər: purpureya qlükozid A, purpureya qlükozid B, qlükogitaloksin vardır. Fermentativ proseslərin getməsi üçün qlükozadan molekulun qopması zamanı ikinci qlükozidlər: digitoksin, gitoksin və gitaloksin yaranır. Digitanol qlükozid, flavonlar diuretik xassəlidir. Toxumlarında steroid saponinlər, digitonin və gitonin tapılmışdır. Bütün orqanlarında ürək qlükozidləri vardır. Yarpaqlarında purpurea A qlükozidi, digilanid

A, digilanid B, a və b asetildigitoksin, digitoksin, lantozid, gitozid, gitorin, qlükoza, aqlikon, yarpaq və toxumlarında steroid saroninlər (digitonin, tigonin), flavonoidlər (lyuteolin və onun qlükozidi), kofein, xolin maddələri tapılmışdır.

İkiillik bitkinin tam inkişaf etmiş gövdə yarpaqları və çətiri xammal kimi keyfiyyətli dərman bitkisidir. Ürək xəstəliklərində təyin edilir. II və III dərəcəli qan dövranı pozğünluqlarında və hipertoniya xəstəliyində işlədilir. Ödemlərdə diurezi artırır, ürək əzələsini möhkəmləndirir. Artıq qəbul etdikdə qusma, ürəkdöyünmə (aritmiya) və kumlyasiya törədir. Hətta ürək dayanmasına və ölümə səbəb ola bilər. Yarpaqları keyfiyyətli ürək (kardiotonik) dərmanlarıdır. Toz və sulu məhlul şəklində digitoksin, gitoksin və kordigit dərman maddələridir. Bu dərmanlarla xroniki ürək-damar çatmamazlığında (dekompensasiya), mitral qüsurlarda, karonaroskelerozda, hipertoniya xəstəliyində, miokardın distrofiyasında, səyiridici aritmiyada, paroksizmal taxikardiyada və ürək ritminin digər pozğunluqlarında müvəffəqiyyətlə işlədilir. Bu bitkinin kumulyativ təsiri olduğundan müalicə ixtisaslı həkim nəzarəti altinda aparılmalıdır.

***Digitalis grandiflora*** **Mill.** – İriçiçək üskükotu (yaşıl üskükotu, üskükotu).

**Botaniki xarakteristikası:** Yabani çoxillik ot bitkisi olub, inkişafının birinci ilində çətir və kökətrafı yarpaqlar, ikinci ildə isə hündürlüyü 1 m-ə qədər düz, budaqlanmayan gövdə və çiçək fırçaları əmələ gətirir. Yarpaqları itiuclu zirvəsi ilə neştərşəkilli və ya uzunsov-neştərşəkilli, kənarları bərabər olmayan dayaz dişcikli, uzunluğu 7-25 sm, eni isə 2-6,5 sm-ə bərabərdir. Aşağı



yarpaqları daralan iri qanadlı saplaqdan, yuxarı hissəsi isə oturaq, kənarları uzunu iri damarlardan ibarətdir. Çiçəkləri iri, sarı, başı aşağı əyilmiş olub, uzunluğu 3-3,5 sm-ə bərabərdir.

Yarpaqları neştərşəkilli və ya uzunsov-neştərşəkilli zirvəsi itiuclu və seyrək kiçik dişli kənarlara malik, kökətrafı və gövdənin aşağı yarpaqları daralmış, qısa qanadabənzər saplaqlı, yuxarı yarpaqları isə oturaqdır. Ancaq mərkəzi və yan damarları aşağı səthdə daha yaxşı görünürlər. Zəif iylidir.

Çoxillik ot bitkisi olub, yabanı halda Qafqaz, Ural və Karpat meşələrində yaşayır.

Xammal kimi birinci il kökətrafı yarpaqları, çiçəkləmə fazasında gövdə yarpaqları və çiçəkləri toplanılır. Xammalın qurudulması 55-60$^{o}$C temperaturda aparılır.

Bütün xammal yaxşı qablaşdırılmalıdır. Kip qablaşdırılma zamanı tərkibindəki bioloji aktiv maddələr uzun müddət saxlanılır. Bütün xammal quru yerdə saxlanılmaqla, işıqdan qorunmalıdır. Tozları ampul və ya flakonlarda kip bağlanmış şəraitində saxlanılmalıdır. Təmiz qlükozidi A, preparat və xammalı isə B şkafında saxlanılır. Bioloji aktiv xammalı hər il kontrol edilməlidir.

**Tərkibi və təsiri:** Yarpaqlarının tərkibində 23 əsas təbii qlükozidlər: başlıca olaraq lantozid A, B, C olur. Ən çox lantozid A vardır. İkinci qlükozid digitoksin və gitoksindən ibarətdir. Ümumi miqdarına görə lantozid A, B, C – 0,07%-0,8% miqdarında olur. Tərkibində saponinlər, flavonoidlər, aşı maddələri, fenol-karbon turşusu və alkaloid izlərinə rast gəlinir.

İkiillik bitki iriçiçək üskükotunun tam inkişaf etmiş gövdə yarpaqları və çətiri xammal kimi keyfiyyətli dərman bitkisidir. Ürək xəstəliklərində təyin edilir.

Yarpaqları keyfiyyətli ürək (kardiotonik) dərmanlarıdır. Toz və sulu məhlul şəklində digitoksin, gitoksin və kordigit dərman maddələridir. Bu dərmanlarla xroniki ürək-damar çatmamazlığında (dekompensasiya), mitral qüsurlarda, karonaroskelerozda, hipertoniya xəstəliyində, miokard

distrofiyasında, səyiridici aritmiyada, paroksizmal taxikardiyada və ürək ritminin digər pozğunluqlarında müvəffəqiyyətlə işlədilir. Bu bitkinin kumulyativ təsiri olduğundan müalicə ixtisaslı həkim nəzarəti altinda aparılmalıdır.

***Digitalis lanata*** **Ehrh. – Enliyarpaq üskükotu (**Üskükotu, cadugər üskükotu, ağ üskükotu)

**Botaniki xarakteristikası:** Çoxillik və ya ikiillik ot bitkisi olub, hündürlüyü 50-80 sm-ə bərabərdir. Birinci il çətiri, kökətrafı neştərşəkilli yarpaqları, ikinci il isə düzqalxan gövdəsi – aşağı hissəsindəki çılpaq, yuxarı hissəsində isə sıx, qalın tükcüklü budaqları inkişaf edir. Kökətrafı və gövdənin neştərşəkilli aşağı yarpaqları, tükcüklü bütövkənarlı, uzunluğu 6-12 sm, eni isə 1,5-3,5 sm olub, yuxarı yarpaqları oturaq, neştərşəkilli, zirvəsi itiuclu, tədricən azalaraq çiçək altlığına keçir. Zirvədəki çiçək fırçası uzun, çoxtərəfli, çox qalın və sıxdır. Çiçək tacının uzunluğu 20-30 mm, şarşəkilli, orta ölçülü qanadlı, aşağı dodağı kürəyəbənzərdir. Çiçəyi qonur-sarı rəngdən, göyümtül rəngə qədər olmaqla, damarlıdır. Kasacığı zəngşəkilli və 5 bölümlüdür.



Yarpaqları kip, dolğun, azacıq dəricikli, uzunsov-neştərşəkilli, küt və ya itiuclu, adətən kənarlı, az tükcüklü və ya xırda dişcikli, aydın görünən iri damarının uzunluğu 6-12(20) sm, eni isə 1,5-3,5 sm-dir. Yarpaqların yuxarı hissəsi çılpaq, parlaq, yaşıl rəngli, aşağı hissəsi isə açıq-yaşıl, sarımtıl-qonur damarlı, əsası isə qırmızımtıl-bənövşəyi rənglidir. Özünəməxsus zəif iylidir.

İnkişafının birinci ilində yarpaqları və çətiri, ikinci ilində isə çiçəkləmə dövrünə qədər 2-3 dəfə toplanılır. Toplanılmış

xammalın qurudulması quruducu şkafda 50-60°C temperaturda aparılır.

Tibbi məqsədlə Şimalı Qafqaz, Ukrayna vəMoldaviya ölkələrində becərilir.

**Tərkibi və təsiri:** Yarpaqlarının tərkibindəürək qlükozidləri: başlıca olaraq lantozid A, B, C olur. Ən çox rast gəlinən təbii qlükozid – lantozid (digilanidlər), qlükoza və asetil qrupu, ikinci rast gəlinən qlükozidlər digitoksin, gitoksin və diqoksindir. Az miqdarda qlükozid lantozid D, lantozid E və strospezidə rast gəlinir. Toxum və yarpaqlarında steroid tərkibli saponinlər də vardır. Ürək xəstəliklərində təyin edilir.

Bütün orqanları istifadə olunur. Xammalı yarpaq və çiçəkləri hesab olunur. Inkişafinın birinci ilində çoxillik mədəni bitki olan tüklü üskükotunun yarpaqlarının tərkibində selanid, abisin və lantozid vardır.

Diqoksin (Lanikor, Novodigal), inyeksiya üçün 0,025%; həbləri 0,00025 və 0,0001q. Kardiotonik qlükoziddir.

Selanid (İzolanid, Lantozid C), həbləri 0,00025q, inyeksiya üçün 0,02%. Kardiotonik qlükoziddir.

Lantozid C, damcı. Kardiotonik qlükoziddir.

Medilazid həbləri 0,0001q. Sintetik yolla alınır. Kardiotonik qlükoziddir.

Zəhərli bitkidir. Bütün orqanlarında ürək qlükozidləri vardır. Yarpaqlarında purpurea A qlükozidi, digilanid A, digilanid B, a və b asetildigitoksin, digitoksin, lantozid, gitozid, gitorin, qlükoza, aqlikon, yarpaq və toxumlarında steroid saroninlər (digitonin, digitonin, tigonin), flavonoidlər (lyuteolin və onun qlükozidi), kofein, xolin maddələri tapılmışdır. II və III dərəcəli qan dövranı pozğünluqlarında və hipertoniya xəstəliyində işlədilir. Ödemlərdə diurezi artırır, ürək əzələsini möhkəmləndirir. Artıq qəbul etdikdə kumulyasiya törədir, qusma, ürəkdöyünmə (aritmiya) yaradır. Hətta ürək dayanmasına və ölümə səbəb ola bilər. Yarpaqları keyfiyyətli ürək (kardiotonik) dərmanlarıdır. Xammaldan

aşağıdakı preparatlar – selanid, digitoksin, gitoksin, asetil diqoksin, yeni Qalen preparatı olan lantozid alınır. Bu preparatlar xroniki ürək-damar çatmamazlığının I dərəcəsində aritmiya, paroksizmal taxikardiyalarda və ürək ritminin digər pozğunluqlarında müvəffəqiyyətlə işlədilir. Bu bitkinin kumulyativ təsiri olduğundan müalicə ixtisaslı həkim nəzarəti altinda aparılmalıdır.

## *Strophanthus* DC. – Strofant

***Strophanthus kombe*** **Oliv. – Kombe strofantı** (Strofant)

**Botaniki xarakteristikası:** Yarpaqları qarşı-qarşıya, ellips formalı olub, itiuclu zirvəyə malikdir. Çiçəkləri yarımçətir, çiçək tacı yaşıl, düzgün, boruşəkilli, 5 ləşəkli olmaqla, lentşəkilli sonluğu həddindən artıq burulmuşdur. Meyvəsi mürəkkəb, uzununa kəsilmiş, üfüqi istiqamətdə aralanmış, yetişdikdə açılan, sərbəst olub, çoxsaylı kəkilli toxumlara malikdir. Toxumları uzunsov, yastılaşmış olub, aşağı sonluğu itiucludur. Uzunluğu 12-18 mm, eni 3-6 mm, qalınlığı isə 2-3 mm-ə bərabərdir. Tükcüklü olub, sıxılaraq itiuclu sonluqla qurtarır. Çiçəkləri zəif iyli, gümüşü-sarı və ya yaşılımtıl-sarıdır. Yuyulduqdan sonra tükcüklü toxumları istifadə edilir.



Tropik meşə və meşə kənarlarında yaşayır. Yetişmə dövründə meyvə və toxumlarını qılçıqlarından azad etməklə toplanılmalıdır. Kölgədə qurudulmalıdır. Xammalın aid olduğu bir növün digərinə qarışmaması üçün xüsusi olaraq ciddi şəkildə banka, yeşik və bağlamalarda saxlanılmalıdır. A siyahısına daxildir. Toxumların tərkibindəki bioloji aktiv maddələr hər il analiz edilərək yoxlanılmalıdır.

**Tərkibi və təsiri**: Toxumlarında təbii şəkildə strafantozid qlükozidi, çimarol qlükozidi və digər qlükozidlər yerləşir. Ümumi miqdarı 8-10% təşkil edir.

Kardiotonik olub, ürək xəstəliklərində təyin edilir. Farmakologiyada dərman məqsədilə strofantın *Strophanthus gratus* Franch. və *Strophanthus hispidus* DC növləri işlədilir. Toxumları xammal olaraq tətbiq edilir. Strofantin K (inyeksiya 0,025%), kardiotonik dərmandır.Strofantidin asetat (0,025%) kardiotonik dərmandır.

Xammal kimi toxumundan keyfiyyətli dərman olan strofantin K alınir. Bu dərman maddəsi kəskin ürək-damar çatmamazlığında və kəskin miokard infarktında tətbiq edilir. Yüksək effektli olub, təsiri 5-10 dəqəqədən sonra başlayır və 15-30 dəqiqə maksimum miqdara çatır.

## *Adonis* L. – Xoruzgülü

***Adonis vernalis* L. - Bahar xoruzgülü** (Dərman xoruzgülü, qaradağlı, dərman bahargülü, xoruzgülü, ağ hərif, pörtmə otu, dovşan laləsi, tüklü, xovlu, liflicə, dovşan laləsi, ovçu otu)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Kökümsovları qısa, tünd-qəhvəyi olub, sıxtükcüklü kökləri vardır. Gövdəsinin hündürlüyü 20-50 sm, budaqlanan, bəzən sadə, yan budaqları əsas gövdədən inkişaf edir. Gövdənin aşağı hissəsində qoltuq tumurcuqlarının pulcuqları vardır. Gövdənin yuxarı hissəsində oturaq yaşıl yarpaqlar, güclü şaqqalanmış çox kiçik (1 mm-ə qədər) yarpaqcıqları vardır. Gövdəsinin qurtaracağında iri çiçəkləri (diametri 2-7 sm) vardır. Kasayarpağı 5, yaşıl, bəzən çəhrayı və ya qəhvəyi çalarlı olmaqla, azacıq tükcüklüdür. Birtoxumlu mürəkkəb meyvələrdən ibarətdər. Gövdənin yuxarı hissəsindəki meyvələri tor qişadan ibarətdir. Yetişmiş meyvələri qonur və ya sarımtıl-yaşıl rəngli, yüngül olub, ətrafa səpələnəndir. Yazda çiçəkləyir. Çiçəkləmə zamanı bitkinin gövdə və yarpaqları inkişaf etdikcə, yan budaqları getdikcə saralaraq quruyur.



İşıqlı enliyarpaq meşələrdə, talalarda, kolluqlarda, dərə və dağlıq yerlərdə, çəmənliklərdə, çöllük ərazilərdə yaşayır.

Xammalı çiçəkləmə fazasının sonunda və meyvələri yetişən zaman toplanılır. Gövdəsi yuxarıdan qəhvəyi pulcuqları olan yerdən (5-10 sm yuxarı hissədən) oraq, bıçaq və digər vasitələrlə kəsilir. Gövdələr səbir və təmkinlə kəsilməlidir. Bitkinin toplanıldığı ərazilərdən məhsulun təkrar toplanılması 4 ildən bir aparıla bilər. Xammalın qurudulması sürlətli olmaqla, 55-60ºC temperaturda aparılmalıdır. Quru yerdə saxlanılmaqla, işıqdan mühafizə edilməli, temperatur 15ºC-də rütubət 30-50%-dən yüksək olmamaqla, B siyahısında saxlanılır. Tərkibindəki bioloji aktiv maddələr hər il yoxlanılmalıdır. Çiçəklərini tədarük edən zaman çiçəkqrupları və çiçəkləri fırça ilə birlikdə 3 sm ölçüdə kəsilir. Düzgün istismar üçün toplandıqdan 3-4 ildən sonra təkrar toplamaq lazımdır. Qurudulma zamanı xammalın bioloji aktivliyi azalır. Xammal nazik qatlı kəsilməli (1sm), işlənməli, daha xirdalanmanın qarşısı alınmalıdır. Xammalın qurudulması 55-60ºC temperaturda aparılmalıdır.

**Tərkibi və təsiri**: Bitkinin tərkibində 0,6-0,7% 20 qədər ürək qlükozidləri - başlıca olaraq konvallotoksin, konvallozid, konvallazid təşkil edir. Bundan başqa çiçəklərin tərkibində digər ürək qlükozidləri olan farnezol və likopin, flavonoidlər və kumarin vardır. Bitkinin bütün orqanlarında ürək qlükozidləri vardır.

Kardiotonik dərmandır. Yerüstü hissələri və çiçəkləri zəhərlidir! Tərkibi saponinlər (5-10%), efir yağı, flavonoidlər, silikat turşusu, aşı maddələr və fenol qlükozidlərindən (primulaverozid və primverozid) ibarətdir.

Bitkinin cövhəri apteklərdə hazırlanır. Bextereyev miksturasının tərkibinə daxildir. Kardiotonik dərmandır.

Bitkinin ekstraktı, həb və dəmləməsi işlədilir. Kardiotonik dərmandır.

Adonizid damcısı (təmizlənmiş ekstrakt). Kardiotonik dərmandır.

Adonizid quru həb 0,00075q (təmizlənmiş ekstrakt). Kardiotonik dərmandır.

Adonis-brom həb, (ekstrakt komponenti). Kardiotonik və sedativ dərmandır.

Adonizid kompleks preparat (Kardioviolen – inciçiçəyi, valerian və adonizid)

Tərkibi çoxlu miqdarda askorbin turşusundan ibarət olduğu üçün yazda salat kimi qəbul edilir. Qurumuş bitkisindən qripp, angina, bronxit, pollinoz və rinosinusitlərin müalicəsində istifadə edilir. Bahar xoruzgülünün zəif sedativ və yuxugətirici xüsusiyyətinə görə miqren, nevroz və zəiflik hallarında istifadə edilir. Kökləri yaxşı öskürəkkəsici maddədir. Tərkibindəki saponinlər xüsusən quru öskürəyi kəsmək üçün çox faydalıdır. Ürək döyünməni azaldaraq ürək və ağciyərin qanla təchizini yaxşılaşdırır. Tərkibinə bu bitkidən başqa əməköməci daxil etdikdə soyuqdəymə və öskürək hallarında işlətmək məqsədəuyğun sayılır. Ürək qan dövranını təchizini yaxşılaşdırır və ürəkdöyünməni azaldır. Qalxanabənzər vəzinin hiperfunksiyasını normallaşdırır. Böyrək və sidik yollarının daş və qumlarını (konkriment) təmizləyir. Gündə 2-3 dəfə hər dəfə 5-10 damcı, güclü tutmalarda isə 20 damcı qəbul etmək olar. Yüksək dozada və ya uzun müddət qəbulu təngnəfəslik və qusma verir. Qalen preparatlarına daxildir.

2 çay qaşığı 250,0 qaynanmış suda 10 dəqiqə həll edərək isti halda bal ilə qəbul etmək lazımdır. 2-3 xörək qaşığı bitkini 0,5 l qaynar suda dəmləyərək (termosda), içmək lazımdır (sutqalıq doza).

Xalq təbabətində miqren, nevralgiya, podaqra, revmatizmdə işlədilir.

**Əks göstəriş** - Yoxdur.

## *Convallaria* L. – İnciçiçəyi

***Convallaria majalis* L. – May inciçiçəyi**

**Botaniki xarakteristikası:** Yabanı çoxillik bitkidir. Yarpaqları cüt-cüt yerləşən, qından, oval-neştərvari və ya uzunsov-ellipsvari, zirvəsi itiuclu, bütövkənarlı, çılpaq, yaşıl, qövsəbənzər damarlı olub, uzunluğu 10-20 sm, eni isə 3-8 sm-ə bərabərdir. Çiçəkləri (çiçəkqrupları) 5-10 (20) ədəd sarımtıl-ağ rəngli olub, açıq-yaşıl rəngli govdə üzərində birtərəfli yumşaq fırça ilə qurtarır. Çiçək saplağı üzərində əyilmiş çiçəkləri bölünmüş çiçək altlığının əsası ilə əhatə olunmuşdur. Çiçək yatağı sadə, çiçək tacına bənzər, zəngvarı olub, 6 dişlidir. Erkəkciklərin sayı 6, qısa saplaqlı, yuxarı yumurtalıqlı, genişlənmiş dişicik ağızcığından ibarətdir. Zəif iylidir.



Əsas olaraq orta rütublətli torpaqlarda iynəyarpaqlı və enliyarpaqlı meşələrdə yaşayır.

Əsasən 3 növü xammal olaraq toplanılır. Düzgün toplanılmalı və qurudulmalıdır. Yarpaqları butonizasiya dövründə toplanılmalı,

bitki və çiçəkləri çiçəkləmə dövründə, günəşli günlərdə, quru havada toplanılmalıdır. Çiçəklərinin uzunluğu 20 sm, yarpaq və otları 3-5 sm, torpaqdan hündürlükdə iti oraq və bıçaqla kəsilməlidir. Xammalı tez bir zamanda qurutmağa çalışmaq lazımdır. Qurudulma üçün gecikmədən yaxşı olar ki, quruducu şkafda 50-60°C-də və ya naves, çardax və dəmir örtüklü yerlərdə aparılmalıdır. Xammal nazik doğranmalı 1 sm qalınlığında sərilməlidir. Qurumanı sürətləndirmək üçün xammal tez-tez çevrilməlidir. Xammal tez qurudulmadıqda onun keyfiyyəti çox aşağı düşür. Quru yerdə saxlanılmaqla, rütubətdən mühafizə edilməli, temperatura 15ºC-də, rütubət 30-50%-dən yüksək olmamaqla B siyahışında saxlanılır. Çiçəkləri yeşiklərdə, yarpaq və otları isə kisələrdə saxlanılmalıdır. Yarpaq və otları 2 il, çiçəkləri isə 1 il saxlanıla bilər. Tərkibindəki bioloji aktiv maddələr hər il yoxlanılmalıdır.

**Tərkibi və təsiri:** İncicicəyinin yerüstü hissəsində 20 qədər kardiotonik glikozidlər-strofantidin və strofantidol: konvallotoksin, konvallotoksol, konvallozid maddələri vardır. Bu maddələrin əsasını konvallotoksin və konvallozid təşkil edir. Konvallotoksinin hidrolizi zamanı strofantidin aqlikonu və L-ramnoza, konvallozidin hidrolizi zamanı konvallotoksin və qlükoza əmələ gəlir. Bundan başqa tərkibində steroid saponinlər, flavonoidlər, kumarinlər, efir yağı izləri və polisaxaridlər vardır.

Kardiotonik dərmandır (ürək qlükozidi). Yabanı çoxillik bitki olan may inciçiçəyinin toplanılması və onun növmüxtəlifliyi olan - Qafqaz inciçiçəyi və Uzaq Şərq inciçiçəyi xammal kimi keyfiyyətli dərman bitkiləri vardır. Yarpaq, çiçək, toxum və bitkilərinin tərkibində başlıca olaraq ürək qlükozidləri - konvallotoksin, dezqlükoxeyrotoksin və konvallozid vardır. Qlükozidlər tez, lakin kumlyativ təsir edirlər. Yəni orqanizmdə çöküntü əmələ gətirirlər. Ona görə də qlükozidlərlə uzun müddət müalicə aparmaq olmaz, çünki orqanizm zəhərlənə bilər. Toxumlarında konvallozid, köklərində isə kovallamarin vardır.

İncicicəyi cövhəri 70%-li etil spirtində (1:10) nisbətində. Kardiotonik dərmandır.
İncicicəyinin kombinəedilmiş dərman maddələri. «Valokormid», «Kardiotron».

Korqlikon inyeksiya üçün 0,06% məhlul (çiçək, yarpaq və otundan alınmış ekstrakt). Kardiotonik dərmandır.

Konvaflazin həb 0,01 q. Ödqovucu və spazmolotik dərmandır.

Tərkibi bioloji aktiv maddələrdən qlükozidlərindən ibarətdir. Çiçəklərində isə bu 5%-dən çox deyildir. Rütubət 12%, yarpaq və digər hissəcikləri 5%, gövdə, meyvə və digər hissəcikləri 4%, sınmış, xarab olmuş çiçəklər və gövdələr 1%, üzvi maddələr 0,5%, mineral maddələr isə 0,5%-dən çox deyildir.

Bu bitki Qərbi Avropada orta əsrlərdən tətbiq edilir. Kardial tipli neyrosirkulyar distoniyada, isteriya, yüngül formalı toksiki zobun müalicəsidə tətbiq edilir. Müalicəni valerian və yemişanla birlikdə apardıqda daha çox səmərəli olur. 1 xörək qaşığı bitkini 200 ml qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (sutqalıq doza). Gündə 1-2 xörək qaşığı 3-4 dəfə olmaqla, yeməkdən əvvəl qəbul edilməlidir. Xammal kimi may inciçiçəyinin çiçək, yarpaq və otunda ürək-damar xəstəliklərində tətbiq edilən və güclü təsiredici *korqlikon* vardır.

Preparat - İnciçiçəyi məhlulu (T-ae Convallariae). 1:10 nisbətində 70% spirtdəki məhluludur. Gündə 2-3 dəfə böyüklər 15-20 damcı, uşaqlar isə 1-12 damcı qəbul edilir.

Xalq təbabətində bir çox xəstəliklərin müalicəsində: ürək, müxtəlif etiologiyalı ödemlərdə sidikqovucu kimi, nevroz, epilepsiya, temperatur, göz və xaricə islatma şəklində istifadə edilir.

**Əks göstəriş** -Zəhərləyici bitki olduğundan həkim məsləhəti ilə təyin edilməlidir.

## *Erysimum* L. - İsitməotu

***Erysimum diffusum* Ehrh. – Qolbudaqlı sarılıqotu** (boz sarılıqotu, dağınıq sarılıqotu sarılıqotu)

**Botaniki xarakteristikası:** İkiillik ot bitkisi olub, hündürlüyü 80 sm olub, bozumtul qısa sıx tükcükləri vardır. Gövdəsi bir və ya bir neçə olub, budaqlanandır. İnkişafının birinci ilində yalnız kökətrafı çətir əmələ gətirir. Çətir yarpaqları uzunsov daralmış saplaqdan ibarət olub, kiçik dişciklidir. İnkişafının ikinci ilində çoxlu qısa və nazik, tədricən azalan gövdələri üzərində xətti-neştərşəkilli və ya xətti, qısasaplaqlı və bütövkənarlı yarpaqları olur. Sonluqda yerləşən çiçəkləri oldaqca uzun fırçadan, kiçik, düz, sərbəst ləçəkləri, dördölçülü limonu-sarı rənglidir. Meyvələri uzun və nazik, uzunluğu 4 sm, olub, ağımtıl tükcüklərdən ibarətdər. Toxumları kiçik, kürəni-qonur rənglidir.



Bitkinin yerüstü hissələri, budaqlanan gövdəsi, yarpaqları, çiçəkləri və yetişməmiş meyvələri bərabər dərəcədə inkişaf edir. Gövdəsi azacıq qabırğalı, nazik şırımlı olub, uzunluğu 30 sm-ə qədərdir. Yarpaqları növbəli, xətti-uzunsov və ya xətti-neştərvari, əsasından daralmış, tədricən qısa saplağa keçən, kənarları dayaz

dişcikli və ya bütövkənarlı olub, uzunluğu 3-6 sm, eni isə 0,5 sm-ə bərabərdir. Çiçəkqrupları yumşaq fırçadan ibarətdir. Çiçəkləri düz, kasacığı uzunsov və ya neştərvari, 4 kasayarpağından ibarətdir. Ləçəkləri 4 ədəd olub, tutqun-sarı rənglidir. Meyvələri dörd dənli qından ibarət, yastılaşmış, uzunluğu 7 sm, eni isə 1 mm-ə qədərdir. Xammalın rəngi sarımtıl-yaşıl olub, zəif iylidir.

Çöllərdə, quru çəmənliklərdə, küknar meşəliklərində, meşə kənarlarında, talalarda, dəmiryol və şose yolu kənarlarında yaşayır.

Çiçəkləmə dövründə hündürlüyü ən azı 10 sm olduqda otbiçənlə biçmək lazımdır. Toplanıldıqdan 48 saatdan gec olmayaraq qurudulmalıdır.

B siyahısına daxildir. İki sutqadan gec olmayaraq qurudulmalıdır.

**Tərkibi və təsiri:** Bitkinin tərkibində başlıca olaraq toxumlarında 6%-ə qədər, yarpaqlarında 1-1,5%, gövdəsində isə 0,5-0,7% ürək qlükozidləri vardır.

Kardiotonik dərmandır (ürək glikozidi). Çiçəkləmə dövründə toplanılır. Mədəni ikiillik bitki olan qolbudaqlı sarılıqotu xammal kimi keyfiyyətli dərman bitkisidir.

Kardioviolen damcısı (şirəsinin komponenti və ya ekstraktı). Kardiotonik və sedativ dərmandır.

Xammal kimi qolbudaqlı sarılıqotundan alınan sokdan *kardioviolen* alınır. Kardioviolen kompliks preparat olub, ürəyin revmatik qüsurlarında, kardioskelerozda, ürək qan dövranı çatmamazlıqlarında, hətta stenokardiyada və vegetativ nevrozlarda istifadə edilir.

1ml konservləşdirilmiş spirtdə olan sokunda (1:1) nisbətində bioloji aktiv maddə olur. Rütubət ən azı 65%, kül 10%, yarpaq və digər hissəcikləri 3%, üzvi maddələr 1%, mineral maddələr isə 1%-dən çox deyildir.

## *Drimia* Jacq. – Dəniz Soğanı

***Drimia maritima*** **(L.) Stearn** (= Urginea maritima (L.) Baker) - Dəniz soğanı, Amerika soğanı, Kaliforniya soğanı, Suriya soğanı

**Botaniki xarakteristikası -** Çoxillik ot bitkisi olub,100-150 sm hündürlüyündədir. Soğanağı iri olub, 2-8 kq olur. Gövdəsi yerüstü hissədən kökyanı yarpaqlara və yarpaqsız çiçəklərə malikdir. 10-20 ədəd yarpaqları ensiz yumurtaşəkilli və ya neştərvari, bütövkənarlı, çılpaq, qövsşəkilli damarlanma olmaqla, uzunluğu 30-60 sm-dir.



Düzgün yerləşən çiçəkləri sadə tacabənzər, altı üzvlü çiçək yatağı iri (40sm) fırçayabənzər çiçək qrupunda formalaşmışdır. Qutucuq meyvədir. Ağ və qırmızı növmüxtəlifliyində rast gəlinir. Ağ növünün çiçəkləri yaşılımtıl-ağ rəngli çiçək yatağından, soğanağın daxili hissəsi ağ və ya azacıq sarımtıl (Avropada və Aralıq dənizi zonası) rənglidir. Qırmızı növünün çiçəkləri çəhrayı çiçək yatağından, soğanağın daxili hissəsi purpur və ya çəhrayı (Afrika, Aralıq dənizi və Cənubi Amerika) rənglidir. Sentyabr-oktyabr aylarında çiçəkləyir, noyabr ayında isə meyvələri yetişir.

Dəniz soğanağı 8-10 illik vaxtı may-iyun aylarında çıxarılır, xarici quru pulcuqları kəsilir. Şirəli pulcuqları günəş altında qurudulur. Qurudulan yerdə respiratorla işləmək (soğanaq zəhərli

olduğundan) lazımdır. Kəskin iyli olmasını tərkibindəki efir yağının disulfid törəmələri yaradır.

Tibbi məqsəd üçün dəniz soğanının ağ növünün soğanağından istifadə edilir. Bu sarımtıl-ağ, yastı və ya müxtəlif formalı bükülmüş, qatlanmış hissəciklərdən ibarət, sərt, buynuzabənzər, 1-8 sm uzunluğunda və 5-10 mm qalınlığında olur. Zəif iyli və hiqroskopikdir. Dadına qətiyyən baxmaq olmaz!

**Tərkibi və təsiri:** Ağ növ dəniz soğanının tərkibində 10 ədəd maddə - *bufadienolid* vardır. Başlıca olaraq 2/3 hissəsində qlikosillaren A qlükozidləri vardır. Qlikosillaren A ilkin maddəsi triozid, əsası aqlikon çillaren, ramnoza, ikinci molekulu isə qlükozadır. Hidroliz zamanı biozid çillaren A, sonra isə ramnozid prosillaridin A əmələ gəlir. Soğanağın tərkibindəki bufadienolidinin əsası 4-11% selik, acı maddə olan çillipikrin və efir yağı izləri vardır. Qırmızı növ dəniz soğanağının tərkibində monoqlükozid çillarozid, çillarozidin sonradan isə çillaren hidroksilamin $C_6$ və$C_8$ qrupları saxlayır. Çillarozid olduqca toksikidir.

Meprosçillaren (Klift), kardiotnik dərmanlar hazırlanır.

Tərkibi strofanta yaxındır. Qəbul edildikdə güclü diurez yaradır. Daha bir acı qlükozid olan çillipikrinin də sidikqovucu təsir yaradır. Ağ növ dəniz soğanı Avropa ölkələrinin farmakopeyasına (Fransa, Böyük Britaniya) daxildir. Kardiotnik və sidikqovucu təsirə malikdir. Qırmızı növ dəniz soğanından gəmiricilərin məhv edilməsində istifadə edilir. Dəniz soğanının *Drimia indica* növü (Hindistan, Pakistan), “Hindistan dəniz soğanı” adı ilə kommersiya məqsədilə istifadə edilir. Bu növ “Ayurveda” adı ilə tibbi məqsədlə işlədilir.

## *Glycyrrhiza* L. – Biyan

***Glycyrrhiza glabra* L. - Tüksüz biyan (**Çılpaq biyan, hamar biyan, dəmirli, biyan, biyan kökü)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, hündürlüyü 50-200 sm-dir. Gövdəsi çılpaq, çoxsaylı, düzqalxan, sadə və budaqlanandır. Yarpaqları cüt olmayan mürəkkəb lələyəbənzər olub, hündürlüyü 5-20 sm-dir. Yarpaqları parlaq, möhkəm, uzunsov-yumurtaşəkilli və ya neştərşəkilli olub, yapışqanlıdır. Çiçəklərinin uzunluğu 12 mm, çiçək tacı ağımtıl-çəhrayı, kasacığı itidişciklidir. Meyvəsi uzunsov düz və ya azacıq əyilmiş formalı olur. Yeraltı sistemi ana kökdən, üfüqi və şaquli kökümsovlardan (stolonlar) hörülmüş çox yaruslu sistemdən ibarət olmaqla, kökləri ilə torpağa möhkəmlənir. Kökləri ilə torpağın 8 m dərinliyinə qədər gedə bilir. Kök və gövdələri silindrik formalı, müxtəlif uzunluqlu, qalınlığı 0,5-5 sm və daha çox ola bilər. Yaxşı inkişaf etmiş kök və kökümsovları hamar olub, qalınlığı 15 sm-ə çatır. Təmizlənmiş xammalı xaricdən açıq-sarı rəngdən, qonur-sarı rəngə qədər dəyişir. İysiz, tünd şirin dadlı, azacıq qıcıqlandırıcıdır.



Yerüstü gövdə ana kökdən inkişaf edir. Çiçəkləmə may-iyun aylarında, meyvələrin yetişməsi isə sentyabrda olur.

Çayın kənarlarında, dərin olmayan kiçik yarğanlarda, əkin sahələrində rast gəlinir.

Çoxillik yabanı çılpaq biyan ilin müxtəlif vaxtlarında kök və gövdələri toplanılır və keyfiyyətli dərman bitkisi xammalı kimi istifadə edilir. Xammal 70-75% köklərdən, vegetativ orqanlardan - demək olar ki, bərpa olunmuş pöhrəliklərdən ibarətdir. Qazaraq kök və kökümsovları, yerüstü hissələri toplanılır. Xammalın toplanılması bıçaq və xüsusi maşınla toplanılır. Xammalın təkrar toplanılması 8 ildən bir aparıla bilər. Qurudulma çardaxda, yüksək temperaturda aparılır.

Quru yaxşı havalı yerlərdə saxlanılmalıdır. Məntəqələrdə xammal doğranmış halda faner yeşiklərdə, tozu isə şüşə bankalarda qablaşdırılmalıdır. Saxlanılma müddəti 10 ildir.

**Tərkibi və təsiri:** Köklərində 23% qliçirrianin, 4% flavonoidlər, steroidlər, efir yağları, askorbin turşusu, acı maddələr, piqmentlər və qatran vardır. Şirin dadlı biyan köklərndə saponinlər - qliçirrazin (23%, şəkərdən dəfələrlə şirin), flavonoidlər (4%-ə qədər) (likviratin, likviritigenin, izolikviritin), qliçerritin turşusu, askorbin turşusu, steroidlər, efir yağı, şəkər, piqment, qatran, aspargin və selik maddələri vardır. Bitkinin yerüstü hissəsində aşı maddələri, flavonoidlər, efir yağı, şəkər, piqmentlərdən ibarətdir. Kök və kökümsovlarında triterpenli saponinlər, qatran, üzvi turşular və piyli yağlar vardır.

Öskürəkkəsici, iltihabsorucu və spazmolotik dərmandır.

Bütün yeraltı hissələri keyfiyyətli dərman xammalı hesab olunur. Qliçirrizin və qliçirritin turşusu dezoksikortikosteronun tənzimləyir.

Mədə-bağırsaq, babasil, öskürək əleyhinə yumşaldıcı üçün «Elekasol», «Mirfazin», «Kasmin», «Roqlidis» preparatları vardır. Toz kimi kompleks qarışıqlara «Kodelak» misaldır.

Kökündən hazırlanan quru və qatı ekstrakt (0,25% ammonyak) sinə eleksiridir.

Biyan siropu. Öskürəkkəsici dərmandır.

Qliçiram həb 0,05 q, uşaqlar üçün 0,025 q. Zəif iltihabsorucu dərmandır. Böyrəküstü vəzi hormonunu stimullaşdırır. Bronxial astmanın yüngül formalarında, ekzema və allergik dermatitlərdə tətbiq edilir.

Kökündən hazırlanan ekstrakt. Qliderin 1% və 2%-li məlhəmi (qliderin 18 dehidro-qliçerid turşusu).

İltihabsorucu və antiallergik dərman. Neyrodermit, allergik dermatit və ekzemada təyin edilir.

Likviriton həb 0,1 q. İltihabsorucu, spazmolotik və antisekretor dərman maddəsidir.

Flakarbin qranula. İltihabsorucu və spazmolotik dərman maddəsidir. Mədə və 12 barmaq bağırsağın xora xəstəliyində təyin edilir.

Epigen aerozol. Virus əleyhinə dərman maddəsidir.

Bitkinin istifadə orqanı kökü və gövdələridir. Bitkinin tərkibində olan flavonoidlər iltihab əleyhinə və spazmolotik, selik, qatran isə işlədici və öskürəkkəsici təsir göstərir. Kökləri güclü bürüyücü, öskürəkkəsici, yumşaldıcı, iltihab əleyhinə, sidikqovucu, desensiblizasiyaedici və spazmolotikdir. Yuxarı tənəffüs yollarının iltihabı, allergik rinit, faringit, difteriya və bronxial astma xəstəliklərində istifadə edilir. Eyni zamanda qəbizliklə müşayət olunan qastrit, mədə xorası və qida zəhərlənmələrində, uşaq xəstəlikləri praktikasında yüngül işlədici kimi, böyrək və sidik yolları hətta böyrəkdaşı xəstəliyində təyin edilir. Bundan başqa diatezlərdə, allergik dermatit və ekzemalarda işlədilir. Tərkibində olan qliçirrazin turşusu steroid hormonların yaranmasında iştirak edir. Qastrit və mədə xorasında 1ml biyan soku 100ml qaynanmış suda həll edərək, 2-3 dəfəyə isti halda qəbul edilməlidir.2-çay qaşığı xammal 1,5 stəkan qaynar suda dəmləyərək (termosda) içmək lazımdır (sutqalıq doza). Kökündən (bütöv, kəsilmiş) öskürəkkəsici dərman, bişirmə və işlədici kimi qarışıqların tərkibində tətbiq edilir.

*Likviriton* adlı dərman preparatı hazırlanır ki, iltihabsorucu, spazmolotik və antiseptik dərman kimi mədə və onikibarmaq

bağırsağın xorasında, qastrit, hiperqastritlərdə, yeni alınan *flakarbin* preparatı isə mədə və onikibarmaq bağırsağın xorasında, qliçiram preparatı buynuz təbəqəsinin iltihabında, bronxial astmada, allergik dermatitdə, ekzemada və böyrəküstü vəzi funksiyasının artmasında istifadə edilir. Sinə eleksiri hazırlanır. Çoxillik ot bitkisi olub, kökümsovları yoğun, şişman, üfüqi, sıx və saçaqlı kök sisteminə malikdir. Gövdəsi tək, bəzən bir neçə olub, hündürlüyü 40-100 sm, düzqalxan, daxili içiboş, yuxarı hissəsi sadə və ya budaqlanandır. Yarpaqları növbəli, aşağı yarpaqları saplaqlı, yuxarı yarpaqları isə oturaq, ləlәkvari, 17-21 ədəd olub, uzunsov-yumurtaşəkillidir. Gövdənin yuxarı hissəsindəki çiçəkləri süpürgəvaridir. Kasacığı zəngşəkilli metalparlaqlı-tükcüklüdür. Çiçək tacı mavi rəngli, 5 ləçəkli, zəngşəkilli-şinəbənzərdir. Avropa və Sibirin meşə və meşəbozqır zonalarında yayılmışdır. Çoxlu pöhrəlik və qruplar halında rast gəlinir. Rütubətli çəmənliklərdə, talalarda, kolluqlarda və çay vadilərində yayılmışdır. Keyfiyyətli dərman xammalı kimi kökümsov və kökləri vegetasiya müddətinin sonunda (avqust-sentyabr) toplanılır. Xammal yalnız quru havada, günün ikinci yarısında günəşli gündə toplanılaraq, çardaxda, ventiliyasiyalı yerlərdə və 50-60°C temperaturda quruducu şkafda qurudulmalıdır.

Müalicə müddəti 3-4 həftədir. 1-1,5 aydan sonra müalicə təkrar edilə bilər.

Preparat: Sinə eliksiri (Elixir pectoralis). Tərkibi biyan ekstraktı - 20,7q, rektifikasiya olunmuş zirə efiri 0,34q, naşatır spirtinin sulu məhlulu - 1,38q, etil spirti 90% - 20,41 ml, distillə olunmuş su 100 ml. Öskürək zamanı 20-40 damcı gündə bir neçə dəfə qəbul etmək mümkündür. Uşaqlarda bu doza yaşa görə (3-12 damcı) təyin edilməlidir. Flakonlarda 25ml miqdarında buraxılır.

Tərkibində ekstraktiv maddələr 0,15%, ammonyak 25%, rütubət 14%, kül 8%, yarpaq, kök və qonur-sarı gövdə hissəcikləri 4%, üzvi maddələri 1%-dən çox deyildir. Təmizlənmiş xammalda kül 6%, yaxşı təmizlənməmiş yarpaq, kök və gövdə hissəcikləri

15%, qaralmış, bozarmış, qonurlaşmış və açıq rəngli hissəcikləri 20%, üzvi maddələri 0,5%, mineral maddələri 0,5%-dir.

Xalq təbabətində öküräklə müşayət olunan soyuqdəymə xəstəliklərində 0,5 çay qaşığı biyan kökü 1 çay qaşığı bal ilə qarışdırılaraq gündə 3 dəfə qəbul etmək lazımdır. Mədə yarası və müxtəlif öd xəstəliklərində kökünü gün ərzində 5-7 dəfə çeynəmək lazımdır.

Uzun müddət qəbulu zamanı orqanizmdə, xüsusən üzdə və oynaqlarda şişkinlik əmələ gətirir. Müalicə müddəti 4-6 həftədir. Biyan kökünü uzun müddət orqanizmdən kalium ionunu itirən diuretiklərlə birlikdə işlətmək məsləhət görülmür. Belə bir hal yarandıqda ürək qlükozidlərinin təsiri güclənə bilər. Bu zaman xəstə kaliumla bol olan qidalar (banan, kişmiş, ərik) qəbul etməlidir.

**Əks göstəriş** - Hamiləlik. İshal yarandıqda ehtiyatla işlətmək lazımdır.

## *Polemonium* L. – Göyümçiçək

***Polemonium caeruleum* L. – Mavi göyümçiçək** (Göy arıquşu, dava otu, yunan valerianı, göy dazı, göyərmiş)

**Botaniki xarakteristikası:** - Çoxillik ot bitkisi olub, hündürlüyü 35-120 sm, horizontal qısa yoğun, şişkin kökləri olmaqla, sıx, açıq bozumtul-sarı saçaqlı köklərə malikdir. Gövdəsi düzqalxan, aydın olmayan qabırğalı olub, yuxarı hissəsi budaqlanan olmaqla, içiboş oyuqludur. Yarpaqları növbəli, lələyəbənzər, çılpaq, aşağı hissəsi uzunsaplaqlı, yuxarı hissəsi oturaqdır. Yarpaqları 15-27 ədəd, yumurtaşəkilli-neştərvari, bütövkənarlı, iti olmaqla, oturaqdır. İri gözəl, beşüzvlü göy çiçəkləri seyrək fırçalı, metalabənzər tükcüklü olub, süpürgəvarı çiçək qrupunda toplanmışdır. Həyatının birinci ilində yalnız kökətrafı yarpaqları, ikinci ilində gövdə, çiçək və meyvə əmələ gəlir. Meyvəsi üçlaylı, şarşəkilli qutucuqlu olub, çoxlu toxumları olur. İyun-iyul aylarında çiçəkləyir, avqust-sentyabr aylarında meyvələri yetişir.



Bütöv və ya doğranmış kökümsov və kökləri işlədilir. Özünəməxsus zəif iyli və acı dadlıdır.

Xam meşələrdə, kifayət qədər zəngin torpaqlarda və zəif kölgəliklərdə yayılır. Tipik ekoloji şəraiti – çay sahilləri, çəmənliklər, pöhrəlik, kolluq və cəngəlliklər hesab olunur.

Məhsul xüsusi təchiz edilmiş kotanla və ya kartofçıxaran maşınla toplanılmalıdır. Məhsul yığımı sentyabrda başlanılmaqla, bitkinin yerüstü hissələri toplanılmağa başlayır. Kökümsov və kökləri toplanıldıqdan sonra soyuq suda dərhal yuyulur.Xammal təmizləndikdən sonra küləkli havada və ya 50-60°C-də quruducu şkafda qurudulmalıdır.

Xammal toplanıldıqdan 5-7 il sonra təkrar toplanılmasına icazə verilir.

Əczaxanalarda yeşiklərdə, anbarlarda isə kisə və ya torbalarda saxlanılır. Saxlama müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Başlıca olaraq triterpen pentatsiklik saponinlər, xüsusən 20-30%-ə qədər beta-amirin qrupu (polemoniozid) vardır. Tərkibində aqlikon, efirlər, yüksək hidroksilli triterpen spirtlər-sirkə, tiqlin, angelin və digər turşulardan ibarətdir. Tərkibində saponinlərdən başqa qatran (1,2%), üzvi turşular, kumarinlər, flavonoidlər, nişasta, piy və efir yağları vardır.

Kökümsov və kökləri öskürəkkəsici və sedativ dərmandır.

Mavi göyçiçək öskürəkkəsici, sedativ, qankəsici, yarasağaldıcı, sidikqovucu və dezinfeksiyaedici təsirə malikdir. Antibakterial xüsusiyyətinə görə kokk qrup mikroblara təsir edir. Mavi göyçiçək xalq təbabətində valerian kimi yuxusuzluqda və epilepsiyada, eyni zamanda orqanizm möhkəmləndirici kimi istifadə edilir. Bu bitki həm də öskürəkkəsici xüsusiyyətinə görə bronxitlərdə istifadə edilir. İlk dəfə olaraq bu bitkinin müalicəvi təsiri Tomski Tibb İnstitutunda vərəm, kəskin və xroniki bronxit, ağciyər absesi və pnevmoniyalı xəstələr üzərində öyrənilmişdir. Böyük əksəriyyətlə müalicənin 2-3 günü müsbət effekt görünməyə başlamışdır. Tərkibindəki saponinlər aterosklerozun inkişafını dayandırmışdır. Eksperimental heyvanların qanında

xolesterinin miqdarını və bununla yanaşı arterial təzyiqi də aşağı salmışdır. Terapevtik dozada az toksikidir.

Bu bitki əsasən öskürəkkəsici və sedativ dərmandır. Ona görə də bu bitkini üstün tutaraq, xroniki bronxitin müalicəsində öskürəkkəsici dərman olaraq bəlğəmçıxarıcı vasitə kimi istifadə edilir. Mərkəzi sinir sisteminin patologiyalarında sedativ təsir edir.

## *Oplopanax* Miq. – Oplopanaks

***Oplopanax elatus* (Nakai) Nakai** (=Echinopanax elatus Nakai) - Hündür oplopanaks

**Botaniki xarakteristikası:** Yatıq kol bitkisi olub, az budaqlanan və ya tək gövdəli olur. Cavan gövdələrindən tez sınan kövrək iynəcikli çıxıntılar çıxır. Yarpaqları azsaylı, növbəli, uzun saplaqlı, yuxarı gövdəyə bərabər səviyyədə yerləşir. Yarpaqlarının diametri 15-35 sm, 5-7 iri, çoxlu dişcikli-pərli və saplaqlı olub, uzunluğu 6-18 sm, qısa və sıx tikancıqları vardır. Çiçəkləri kiçik, görkəmsiz, az budaqlanan, kiçik çətirli, və metal parlaqlığı olan tükcükləri vardır. Lətli meyvələri qırmızı-çəhrayı olub, çəyirdəklidir.



Xammal kimi bitkinin kök və kökümsovlarından istifadə edilir. Kökümsovları oduncaqlı olub, uzunluğu 35 sm, eni isə 2 sm, silindrik, əyilən, hətta budaqlanandır. Kökümsovu xarıcdən dairəvi, mərciməyəbənzər, həlqəvi qalınlaşan, əlavə köklərdən ibarətdir. Eyni zamanda xarıcdən uzunsov-qırışıq, qonur-bozumtul, bəzən isə narıncı ləkəli sekretor kanallara rast gəlinir. Oduncağın rəngi sarımtıl-qonur, geniş ürəkşəkilli, yumşaq ağ rəngdən ibarətdir. Kökü azsaylı, oduncaqlı olub, qalınlığı 1sm,

silindrik olmaqla, çox qatlanandır. Kökün yuxarı hissəsi uzunsov-qırışıq və qonur-qəhvəyidir. Özünəməxsus iyli, acı dadlı və yandırıcıdır.

Yüksəkdağlıq küknar, şam ağacı, tozağacı meşələrində, başlıca olaraq çürüntülü torpaqlarda və çox rütublətli yerlərdə rast gəlinir.

Bitkinin xammal kimi toplanılması payız fəslində meyvələr yetişdikdən sonra aparılır. Kökünü torpağın altından 35 sm-ə qədər dərinlikdən çıxarmaq lazımdır. Nazik doğrayaraq çardax və naves altında tor üzərində sərərək qurutmaq lazımdır.

Havası dəyişilən quru yerlərdə, stelaj və kisələrdə saılanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri**: Kökümsov və köklərində saponinlər – exinoksozid (7%), liqnanlar (2,7-5%), efir yağı, kumarinlər (0,2%) və flananoidlər (0,9%) vardır.

Ümumitonuslandırıcı dərmandır. Keyfiyyətli dərman xammalı kimi cavan pöhrələrindən istifadə edilir. Oplopanaksın cövhəri 70%-li spirtdə (1:5) nisbətində işlədilir. Adaptogen və tonuslandırıcı dərmandır. Cövhəriarterial təzyiqi artırır, maddələr mübadiləsinin bütün komplekslərinə müsbət təsir edir.

Kök və kökümsovlarının tərkibində (bütöv, kəsilmiş) triterpen qlükozidlər, exinoksozid vardır. Bundan başqa tərkibində fenol birləşmələri, kumarinlər və efir yağları olur. Kök və kökümsovlarının tərkibində mərkəzi sinir sistemini sakitləşdirən, hipotoniya zamanı məhlul şəklində qarışıqların tərkibində işlədilir.

## *Panax* L. – Jenşen

Jenşen şəfalı bitki kimi yüz ildən çoxdur ki, istifadə edilməkdədir. Çin ölkələrində becərilsə də vətəni Çənubi Amerikanın qərb hissəsi hesab edilir. XIX əsrdən bu bitkinin kökləri və yarpaqları ABŞ-da ağdərililər tərəfından müalicə məqsədilə Çin və Hong-Konglu tacirlərə satılır. Nyu-York və Kanadanın Ontario bölgəsində yayılmışdır. Ancaq məşhurluğu və şəfalı bitki kimi tez-tez istifadə edilməsinə məruz qalması, çox toplanması səbəbindən məhvolma altındadır. Artıq ABŞ ilə Kanadanın bir çox sahələrində çətin rast gəlinən hala gəlmişdir. Yeni şəhərsalma, marallar tərəfindən istehlak edilmə də həyat sahələrinin daralmasına gətirib çıxarmışdır.

***Panax ginseng* C.A. Mey. – Adi jenşen (**Panaks jenşen, həqiqi jenşen, adam-kök, "adamaoxşar", "şen-çao", ilahi ot, jenşen, kök-həyat)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, hündürlüyü 70 sm-ə bərabərdir. Gövdəsi tək, incə, zərif, dairəvi, daxili içiboş, oyuqlu, tutqun və ya qonur-qırmızı, demək olar ki, qara rəngli olub, sonluğu 2-6 yarpaqdan ibarətdir. Yarpaqları uzun saplaqlı mürəkkəb beşərdir. Mərkəzdəki çiçək qruplarının hündürlüyü 10 sm-ə qədər olub, çətir çiçək qrupunda formalaşmışdır. Çiçəklərinin





diametri 2 mm, ləçəkləri tutqun-yaşıldır. Meyvələri 2 yuvalı qırmızı və 2 toxumludur.

Dağ yamaclarında, drenaj üsulu ilə qurudulmuş torpaqlarda, enliyarpaqlı sidr - küknar meşəliklərində rast gəlinir.

Mil köklü olub, uzunluğu 25 sm, diametri 0,7-2,5 sm, 2-5 ədəd iri budaqlardan ibarətdir. Kökləri yoğun, demək olar ki, silindrik, yuxarı hissəsində aydın görünən dairəvi qalınlaşma vardir. Kökün xarici tərəfi uzunsov olub, seyrək spiralvari-qırışıqlıdır. Çiçəkləri sarımtıl-ağ olub, bərabərdir. Kökləri islanaraq şişdikdə qırışıqlılıq itir. Köklərin yuxarı hissəsi daralmış köndələn-qırışıq olub, kökumsovu boyuncuqludur. Kökumsovu qısa, bir neçə dişcikli, gövdəsinin yuxarı hissəsi başcığabənzərdir. Kökumsovun boyuncuğunda bir və ya bir neçə əlavə köklər olur. Spesifik iyli, acı və yandırıcı dadlıdır.

Meyvələri avqust ayında yetişməyə başlayır. Köklərini xüsusi alətlərlə maksimal dərəcədə ehtiyatla çıxarmaq lazımdır. Bu zaman əsas və əlavə kökləri zədələnməkdən gözləmək lazımdır. Toplanılma vaxtı payızda 5-6 illik ot bitkinin kökləri yuyularaq qurudulur və keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir.

Toplanılmış xammal 3 kq-dan artıq olmamaq şərti ilə qutulara yerləşdirilməli və az rütublətli meşə torpaqları ilə birlikdə qablaşdırılmalıdır. Xammalın nisbətən aşağı temperatur şəraitində toplanılması məqsədəuyğundur. Yaxşı olar ki, köklər bircərgədə sfaqnum mamırları ilə birlikdə yerləşdirilsin. Xammalın saxlanılma müddəti 2,6 il hesab olunur.

**Tərkibi və təsiri:** Köklərində triterpenli saponinlər, - panaksozid A, B, C, D, E, F və efirli yağlar, şəkər, nişasta, pektinli maddələr, fermentlər, B qrup vitaminlər, mikroelementlər, fitoesterogen və daukosterin vardır. Köklərinin tərkibində triterpen tetrasklik saponinlər - panaksozidlər, protopanoksidol,

protopanokstirol olur. Efir yağı (0,25-0,5%), piyli yağlar, fitosterinlər, qatran, pektin maddələri (23%), nişasta, vitaminlər, yağ turşuları, çoxlu mikroelementlər – dəmir, manqan, gümüş vardır. Hemolitik aktivliyi yalnız qlükozidlərlədir. Qəbul etdikdən sonra hidroliz edərək, mədə-bağırsaq traktında aqlikona parçalanır, saponinləri itirərək hemolitik aktivlik yaradır. Saponinlər soyuqqanlı heyvanlar üçün toksiki hesab olunur. Bu maddə qəlsəmələrin və tənəffüs sisteminin işinin pozulmasına səbəb olur.

Kök və kökümsovları birlikdə xammal kimi keyfiyyətli dərman bitkisidir. Kököndə triterpen saponinləri - panaks, panakvisin, efir yağları, panasen, panaks turşusu (yağ turşularının qarışığı: palmitin, stearin, olein, linol), fitosterin, selik, nişasta, şəkər, alkoloid, mikroelementlər (fosfor, dəmir, manqan, alüminium və s.), qatran, estrogen və vitaminlər ($B_1$, $B_2$) vardır.

Bitkinin yalnız kökündən istifadə edilir. Kimyəvi tərkibi tədqiqat üçün olduqca maraq doğurur. Belə ki, bu bitki öyrənilməkdədir, lakin müalicəvi tərəfləri hələ də tam aydın deyil. Qədim şərq əfsanəsində jenşeni «bitki-adam», «yeradamı» adlandırırdılar. Əfsanələrdə deyilirdi ki, qocalığı geri qaytararaq cavanlaşdırır, xəstələri sağlamlaşdırır, müdrikləşdirir, bir çox epidemiyaları: taun, çiçək və vəba xəstəliklərinin müalicə olunmasına kömək edir. Jenşen Çin və Cənub-Şərqi Asiyaya məlum idi. Avropa ölkələrinə XVII əsrdə məlum oldu. Sinir sistemini stimullaşdırır, sinir və psixi narahatçılığı götürür, hipotenziv təsir göstərir, nevroz və impotensiyaların müalicəsində olduqca müsbət təsir göstərir, səbəbi məlum olmayan narahatlıqlarda, orqanizmin müdafiə qabiliyyətinin zəifləməsində, stresli stuasiyalarda, infeksion xəstəliklərdə istifadə edilir. Orqanizmi ümumi tonuslandırır, mərkəzi sinir sistemini stimullaşdırır və yüngül depressiyanı aradan götürür. Xroniki ağ ciyər xəstəliklərində, qanazlığı, şəkərli diabet, hipo və hiper qastritlərdə olduqca yaxşı təsir göstərir. Mədə yarasını tezliklə sağaldır, iştahı artırır, bağırsaq fəaliyyətini normallaşdirir. Ürək

qan dövranını nizama salır. Müxtəlif səbəblərdən əmələ gələn seksual zəifliyi aradan götürür. Lakin yerli-yersiz bu preparatı işlətmək yolverilməzdir. Bu preparatı vitaminlərlə birlikdə işlətmək onun səmərəsini xeyli artırır. Jenşen toksiki deyil və uzun müddət tətbiq edilə bilər. Xəstəyə bu preparatı zəif dozalarla təyin etmək məsləhətdir. Köklərinin tərkibində mərkəzi sinir sistemini sakitləşdirən, hipotoniyada, nevrasteniyada stimullaşdırıcı və fiziki yorğunluqda əvəzedilməzdir.

Köklərindən hazırlanan məhlul, dəmləmə, toz, məlhəm, çay, ekstraktlar göstərilən xəstəliklərin müalicədə tətbiq edilir. Məsləhət görülür ki, ilk dəfə zəif doza ilə başlamaqla, tədricən artırmaq lazımdır. Müalicə müddəti 1-3 aydır.

Rp.: T-ae Ginsengi 30,0

D.S. 15-20 damcı gündə 3 dəfə yeməkdən 30 dəq. əvvəl

Rp.: Tabul. rad Ginsengi 0,15

S. 1-2 həb gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl

**Daxili göstəriciləri** – Tərkibində 70% spirtdə çıxarılan ekstraktiv maddələr 20%, rütubət 13%, kül 5%, qaralmış, bozarmış və açıq rəngli hissəcikləri 10%-dir.

**Əks göstəriş** - Hipertoniya xəstəliyi, taxikardiya, 16 yaşına qədər uşaqlara və yay vaxtı təyini məsləhət görülmür.

# *Bryonia* L. – Küstümşam (Adamotu)

## *Bryonia alba* L.- Ağ küstüşam

**Botaniki xüsusiyyəti:** *Bryonia alba* lian tipli, zərif görünüşlü olsa da, kökləri insanı xatırladır. Gövdəsi zərif və incə olmaqla 1-2 m uzana bilir. Yumru yarpaqları 3-4 bölümlüdür. Meyvləri qara rəngli və yumrudur.

Ədəbiyyat mənbələrinə görə kökündə kişi cinsi orqanı görünən fərdlərinin dərman əhəmiyyəti daha güclü sayılır. Slovyan xalqlarının "maqiada" bu bitkidən istifadəsi barədə məlumatlar vardır.



Bizim ekspedisiya zamanı tapdığımız bitkinin kökü məhz bu qəbildəndir.

**Təsiri və tərkibi:** Adamotunun köklərində qülkozidlər, aşı maddəsi, kumarin, karbohidrat, efir və piyli yağ, brinolov turşusu, alkaloidlər, saponin, qətran, fitosterin , triterpenoidlər, kukurbitasinlərdən D (elaterin A) və B, E(elaterin B), C, K vitaminləri tapılmışdır. Bu bioloji fəal maddələrdən alınmış preparatlar revmatizmada, qankəsici, ağrı kəsici, iflic vuran insanlara təyin edilir.

Tibbi məqsəd üçün köklərindən istifadə olunur. Kökündə və başqa hissələrindən iki amorf zəhərli qlükozid-brionin və brionidin, aşı məddəsi, nişasta, qətran, polisaxaridlər və s. vardır.

Eksperimental tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, bu bitkilərdən alınan qlükozidlər ürək əzələsinin tonusunu artırır

və arterial təzyiqi yüksəldir. Spirtli ekstraktından alınan maye isə yüngül işlədici təsirə malikdir.

Bu bitki zəhərli olduğuna görə xaricə sürtməklə oynaq revmatizmində istifadə olunur.

Xalq təbabətinə görə əsasən kökunü qaynadıb içdikdə tutulan oynaqlar açılır, epilepsiyalı xəstəliklərin müalicəsiiində effektiv təsir vasitəsi kimi tətbiq edilir.

## *Astragalu*s L. – Gəvən (astraqal)

***Astragalus dasyanthus*** **Pall. – Tükcükçiçəkli gəvən** (hündür ilkçiçək, alçaq ilkçiçək, gəvən)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Gövdəsi çoxsaylı, yatmış, düzqalxan və ya azca qalxan olub, uzunluğu 40 sm-dir. Yarpaqları növbəli, cüt olmayan lələkyarpaqlı, saplaqlı, uzunluğu 12-20 sm olmaqla, 12-14 cüt yarpaqcıqlardan ibarətdir. Yarpaqcıqları demək olar ki, oturaq, uzunsov-oval və ya uzunsov-neştərşəkilli,



uzunluğu 15-20 mm, eni isə 6 mm-dir. Yalançı zoğu neştərşəkilli və itiucludur. Hamaşçiçəkləri sıx, başcıqlı, adətən 15-20 mm, açıq sarı, kəpənəkçiçək taclı olmaqla, zəngvari kasacığı vardır. Bitkinin çiçək tacının bütün hissəciklərində ağımtıl və ya sarımtıl tükcüklər vardır.

Yuxarı və orta dağlıq ərazilərində, bozqır zonalarda və pöhrəliklərdə yayılmışdır.

Kütləvi çiçəkləmə dövründə (iyun-iyul), oraq və ya bıçaqla kəsmək lazımdır. Yabanı tükcüklü gəvən tam çiçəkləmə dövründə xammal olaraq bütöv çiçəkləri çiçək altlığı ilə birlikdə toplanılır.Xammal kölgəli yerlərdə brezent və çadır üzərində 5-7

sm qalınlığında sərilməli, yaxşı ventiliyasiyalı çardax və naveslərdə və ya 50-55°C-də quruducu şkafda qurudulmalıdır.

Yarpaqlı gövdəsinin uzunluğu 20 sm olub, çiçəklidir. Bitkinin bütün hissələri, xüsusən kasacığı uzun, yumşaq, ağımtıl tükcüklərdən ibarətdir. Gövdəsi qabırğalı, qalınlığı 3 mm-ə qədər olub, içiboş, oyuqdur. Yarpaqları cüt olmayan mürəkkəb ləlәkyarpaqlı, uzunsaplaqlı, uzunluğu 12-20 sm olmaqla, 12-14 cüt yarpaqcıqlardan ibarətdir. Yarpaqcıqları demək olar ki, oturaq, uzunsov-oval və ya uzunsov-neştərşəkilli, uzunluğu 15-20 mm, eni isə 6 mm-dir. Yalançı zoğu neştərşəkilli və itiucludur. Hamaşçiçəkləri sıx, başcıqlı, adətən 20 mm, açıq sarı, kəpənəkçiçək taclı olmaqla, zəngvari kasacığı vardır. Bitkinin çiçək tacının bütün hissələri ağımtıl və ya sarımtıl tükcüklərdən ibarətdir. Yuxarı və orta dağlıq ərazilərində, bozqır zonalarda və pöhrəliklərdə rast gəlinir. Kütləvi çiçəkləmə dövründə (iyun-iyul), iti oraq və ya bıçaqla kəsmək lazımdır. Çiçəkləri qonur-gümüşü, yarpaqları gümüşü-yaşıl olub, özünəməxsus iyli və şirin dadlıdır. Kasacığı zəngvari, 5 ədəd bizvarı dişciklidir. Çiçək tacı kəpənəkçiçək, erkəkciyi 10 ədəd olmaqla, 9-u bitişik, 1-i isə sərbəstdir.

**Tərkibi və təsiri:** Tərkibində flavanoidlər (kempferol, kverçetin, izoramnetin, astraqalozid), aşı maddələri, kumarinlər, aminturşular, vitaminlər, α-tokoferol (vitamin E) və triterpenli qlükozidlər - daziantozid, daziantogen törəmələri (tsikloartan sırası) tapılmışdır. Selen 1,5mq% olur. Makro və mikroelementər (kalsium, silisium, alüminium, dəmir, maqnezium, kobalt, sink, mis, manqan, molibden, xrom) vardır.

Hipotenziv, sedativ dərmanlar. Farmakoloji təsirə malik bioloji aktiv maddələrlə zəngindir. Bu bitkidən alınan preparatlar möhkəmləndirici, hipotenziv, damargenişləndirici, kardiotonik və diuretik təsirə malikdir. Kardiotonik qlükozidlər koronar damarları və böyrək damarlarını genişləndirərək diurezi artırır. Eksperimental yolla öyrənilmişdir ki, gəvən beyin qan dövranını yaxşılaşdırır. Hipotenziv effekti diurezin çoxalması böyrək

hemodinamikasının yaxşılaşmasına və yumaqcıqlarda filtrasiyanın artması hesabına baş verir. Tərkibində α-tokoferol (vitamin E) və selen çox olduğundan əzələlərin iş qabiliyyətini artırır və qanın laxtalanma sistemini normallaşdırır.

Bitkinin dəmləməsindən hipertoniyada, xroniki ürək-damar çatmamazlıqlarında, koronar damarların spazmında, kəskin və xroniki nefritlərdə tətbiq edilir.

## *Dioscorea* L. – Diskoreya

***Dioscorea nipponica*** **Makino - Nippon dioskoreyası (**Çoxsalxımlı dioskoreya, şamdanabənzər, dioskoreya)

**Botaniki xarakteristikası:** Çoxillik ikievli ot bitkisi - lian olub, gövdəsinin uzunluğu 4 m-ə qədər,kökümsovları isə üfüqi, 2-3 sm diametrlidir. Çiçəkləri qəhvəyi-qonur olmaqla, kökləri sərtdir. Yarpaqlarının uzunluğu 6-12 sm, növbəli, saplağı geniş yumurtaşəkilli, ürəkvari əsasa malik olmaqla, 3-7 pərlidir. Yarpaqları dəricikli və qövsşəkilli damarlanmaya malikdir. Çiçəkləri bircinsli, ikievli, kiçik, tutqun-yaşıl rənglidir. 3-7 yarımçətir və qoltuq tumurcuqları olan çiçəkləri, dişicikli çiçəklərinin sadəcə fırçaları toplanılır. Meyvələri 3 yuvalı qutucuqda yerləşir. İyul-avqust aylarında çiçəkləyir və avqust-oktyabr aylarında isə toxumları yetişir.



Kökümsovların uzunluğu 30 sm, diametri isə 2 sm, silindrik, azacıq bükük və ya həddindən artıq burulmuş, budaqlanmayan, zəif uzununa-qırışıq olub, xarici qatı nazik mantar qatından ibarətdir. Yuxarı tərəfdəki kökümsovları liflərdən təşkil olunmuşdur. Kökümsovları bir neçə saylı elastiki nazik olmaqla, uzunluğu 40 sm, əlavə köklərin diametri isə 1 mm-ə bərabərdir. Kökümsovları düz, bərabər, ağ və ya abı rəngində olur.

Yuxarı kökümsovları açıq-qəhvəyi və ya sarımtıldır. Zəif iyli, spesifik acı dadlı olub, azacıq yandırıcıdır. Enliyarpaqlı meşələrdə, xüsusən yanğın olmuş meşələrdə, daha tez inkişaf edir.

Keyfiyyətli xammal kimi kökümsov və kökləri toplanılır. Primorye vilatətində yay-payız aylarında yetişmiş toxumları toplanılır. Pöhrələri və bütünlüklə yeraltı orqanları qiymlətli xammal hesab olunur. Xammalın düzgün tədarükündən 20 il sonra ekosistem bərpa oluna bilir. Bütün vegetativ dövrlərdə (aprelin sonundan payızın sonuna qədər) çoxillik yabanı və mədəni bitki olan nippon dioskoreyanın kökümsovları, kökləri, gövdələri toplanılır, təmizlənir və keyfiyyətli dərman bitkisi xammalı kimi istifadə edilir.Kökümsov və köklərin çardax altında qurudulması keyfiyyətli xammala zəmanət yaradır. Qurudulma açıq havada və yaxşı ventiliyasiyalı yerlərdə aparılmalıdır. Yaxşı olar ki, süni qurudulma $80^0$C temperatur şəraitində "BO"aparatında nazik qatla (10sm) sərilməklə aparılsın. Optimal temperatur və ya 50°C-də quruducu şkafda qurudulmalıdır. Xammalın keyfiyyəti yaxşı qurudulmasından daha çox asılıdır.

**Tərkibi və təsiri:** Kökümsov və köklərində 8% steroid saponinlər, başlıca komponent olan dioscin (1,2%) vardır.

Steroid saponinlər ateroskleroz, arterial hipertenziya və qıcolmanın qarşısının alınmasında yaxından iştirak edir.

Kökümsov və köklərindən *polisponin* preparatı alınır. Bu preparat xolesterinin miqdarını azaldır.

Furostanol qlükozidlər ən azı 3%, rütubət 13%, kül 3,5%, yarpaq və digər hissəcikləri 1%, üzvi maddələri 0,5%, mineral maddələri isə 0,5%-dən çox deyildir.

## *Tribulus* L. - Dəmirtikan

***Tribulus terrestris*** **L. - Sərilən dəmirtikan (**Yayılıan dəmirtikan, astraqal, yer çiləyi)

**Botaniki xarakteristikası** – Birillik ot bitkisi olub, nazik, düz kökləri olur. Gövdəsi budaqlanan olub, uzunluğu 10-60 (120) sm-dir. Yarpaqları qarşı-qarşıya, cüt-cüt, mürəkkəb lələkvari, 6-8 olmaqla, cüt-cüt yerləşən uzunsov yarpaqcıqdan ibarət, uzunluğu 3-8 sm, eni isə 1,5-2 sm-dir. Çiçəkləri qoltuq yarpaqlarından ibarət, qısa ayaqcıqlı, tək, azsaylı, kiçık, 1,2 sm diametrində çiçək tacından ibarətdir. İkiqat çiçək yanlığı, düzgün, beşüzvlü olmaqla, 10 erkəkcikdən ibarətdir. Yetişən zaman meyvələri 5 ulduzşəkilli künclü və 4 ədəd uzun və sərt tikan və çoxsaylı qabarcıqlardan ibarətdir. Çiçəkləri yaşıl-sarı, yarpaqları yaşıl, meyvələri isə açıq-yaşıldır. Özünəməxsus zəif iylidir.



Alaq otu kimi məndəcər yerlərdə, yolların ətrafında, çay boyunca, qumsal torpaqlarda, alaq, bostan bitkiliyində, qumsal çimərlik balıqqulağı qarışıq torpaqlarda, şose və dəmiryol ətraflarında rast gəlinir. Mədəni şəkildə yaxşı inkişaf edir.

Bütün yay ərzində toplanılır. Kök və yerüstü hissələri torpaqdan çıxarılaraq təmizlənir. Toplanılmanın əl ilə aparılması zamanı tikanların ələ batmasından qorunmaq lazımdır. Xammal 20 sm qalınlığında kağız və ya parça üzərində sərilməlidir. Qurudulmanın quruducu şkafda aparılması daha yaxşıdır.

Sürünən gövdəsi xammaldır.

Xammalın toplamasından bir neçə il sonra təkrar aparıla bilər. Bu tədbir bitkinin özünübərpa prosesinə yönəldilir. Quru, havalı yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 5 ildir.

**Tərkibi və təsiri:** Tərkibində steroid saponinlər (trillin, diosçin, qraçillin, protodiosçin), flavonoidlər, alkaloidlər və aşı maddələri vardır. Bikidən «Tribusponin» preparatı hazırlanır.

«Tribusponin» preparatı. Bu preparat 0,1 q olub, tərkibi steroid saponinlərdən ibarətdir. Antiaterosklerotik dərman maddəsidir. Bütöv və ya xırdalanmış yarpaq, gövdə, kök və meyvələrindən qarışıq hazırlanır. Ekstraktından kompleks preparat olan «Fitovit», «Speman», «Speman forte» adlı dərmanlar hazırlanır.

Hipolipidemik, hipoxolesteremik və hopotenzivdir.

Bitkidən hazırlanan ekstrakt ödqovucu, diuretik, mədə şirəsini və bağırsağın peristaltikasını artırır.

Farmakoloji tədqiqatlarla aşkar edilmişdir ki, tərkibində olan *tribusponin* eksperimental olaraq qanda xolesterinin miqdarını azaldır. Antisklerotik təsiri tərkibində olan steroid saponinlərin lipid mübadiləsinə təsiri ilə izah edilir. Tribusponin eyni zamanda ürək-damar sisteminə təsir edərək ürək vurğularını yavaşıdır, miokardın qanla təchizini yaxşılaşdırır, diastolanı uzadır və koronar qan dövranı normallaşdırır.

Tribusponin antikoaqulyant təsir edərək, protrombin indeksini aşağı salaraq, qanın laxtalanmasını azaldır.

Tribusponin profilaktik və müalicəvi məqsədlə, ateroskleroz, ürəyin işemik və hipertoniya xəstəliyində tətbiq edilir. Bu preparatla aterosklerozun müalicəsində lipoproteinlərin miqdarını

aşağı düşürməklə, arterial təzyiqi azaldır, baş ağrısı və qulaqlarda küy yox olur. Ateroskleroz fonunda gedən şəkərli diabet zamanı bu preparat lipid və karbohidrat mübadiləsini nizama salaraq qanda şəkərin miqdarını azaldır. Periferik damarların genişlənməsinə kömək edir.

## *Rhaponticum* Ludw. - Levzey

***Rhaponticum carthamoides*** (Willd.) İljin (=Leuzea carthamoides (Willd.) DC.) -Saflorabənzər levzeya (Saflorabənzər iribaşcıq, iribaşcıqlı, levzeya, maral kök, maral otu, alp böyükbaşlıq otu).

**Botaniki xarakteristikası:** Böyükbaşcıqlı saflorabənzər levzeya çoxillik ot bitkisidir. Kökümsovlu, üfüqi istiqamətdə yerləşən, kökləri incə, zərif olub, çoxsaylıdır. Gövdəsi sadə, hündürlüyü 0,5-1,8 (2,2)m içiboş, oyuqlu, kiçik şırımlı, hörümçək toruna bənzəyən naxışlı formasındadır. Yarpaqları zəif görünən hörümçək toruna və dərin lələyəoxşar bölümlü, uzunluğu 12-40 sm, eni isə 5-20 sm, iri ucluqlu, aşağı yarpaqları saplaqlı, zirvədəki yarpaqları isə oturaq, bütöv və iridişciklidir. Gövdənin zirvəsində tək, iri (diametri 3-8 sm) bənövşəyi rəngli səbətciyi vardır.



Subalp, alp çəmənliklərdə, yuxarı meşə qurşaqlarında (pöhrəliklərdə), enliyarpaqlı-sidr meşəliklərində, hündürotluq meşə çəmənliklərdə, göl və çay sahillərində yayılmışdır.

Kökümsov və kökləri toxumları yetişdikdən sonra avqust-sentyabr aylarında toplanılır. Toplanıldıqdan 15-20 il sonra təkrar bərpa prosesi gedir. Xammal yaxşı ventiliyasiyalı yerlərdə 4-6 gün ərzində və ya 50-60$^{o}$C temperaturda quruducu şkafda qurudulmalıdır.

Özünəməxsus zəif iyli, azacıq şirintəhər olub, qatranlıdır.

Havası yaxşı dəyişilən quru yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Kökümsov və köklərinin tərkibində qatranlı maddələr, efir yağları, aşı maddələri, alkaloidlər, karotin, askorbin turşusu, fitoektizonlar, triterpenli qlikoziqlər, flavonoidlər və antosian qlikoziqlər vardır.

Ümumtonuslandırıcı dərmanlar. Mərkəzi sinir sistemini oyadır, ürək ritmini azaldır, periferik damarları genişləndirir, qanın axın sürətini artırır, ürək əzələlərini gücləndirir və tənəffüsü tezləşdirir. Eninəzolaqlı əzələlərin iş qabiliyyətini artırır, qan dövranını sürətləndirir və enerjini bərpa edir. Hipoqlikemik təsir edir, qlükozanın toxumalarda mənimsənilməsini yaxşılaşdırır, orqanizmin immunitet qabiliyyətini yüksəldir və damar reaksiyasını normallaşdırır.

Sulu ekstraktı 70% etil spirtində (1:1) hazırlanır. Ümumtonuslandırıcı və adaptogen dərmanlar.

Ekdisten həb 0,005 q. Ümumtonuslandırıcı və anabolik dərmandır.

Lauzeya (sulu ekstrakt). Ümumtonuslandırıcı və adaptogen dərmandır.

Sulu-spirtli eliksir. «Evalar». Ümumtonuslandırıcı dərmandır.

Kökümsov və köklərindən maye ekstrakt hazırlanır ki, bu sinir sistemini stimullaşdırıcı, fiziki və əqli gərginliyi azaldaraq iş qabiliyyətini artırır. Xammalından tonuslandırıcı alkoqolsuz içki hazırlanır.

Meyvələrindən hazırlanan dəmləmə tərqovucu dərman qarışıqlarının tərkibinə daxildir. İlk dəfə bu bitkidən hazırlanan ekdizon (zooekdizon) hormonu həşəratlarda metamorfoz əmələ

(1966) gətirmişdir. Zooekdizon steroidin tərkibində 17 fərqli səkkiz karbon atomları bir alifatik zincirdə bir neçə (5-6) hidroxinon qrupları olur. Əsasən stimullaşdırılması və adaptasiyaedici təsir göstərir

## *Rhodiola* L.- Radiola

*Rhodiola rosea* L. - Çəhrayi radiola (Radiola, qızıl kök, çəhrayı kök)

**Botaniki xarakteristikası:** Çəhrayı radiola (qızıl kök) çoxillik ot bitkisidir. Kökümsovları qalın olub, kökləri nazik çıxıntılardan ibarətdir. Kəsilmiş kökü və kökümsovu müxtəlif cür olur. Kökümsovların uzunluğu 9 sm, eni isə 2-5 sm, sərt, qırışıq, yuxarı hissəsi parlaq olub, pulcuqlu yarpaqlardan ibarətdir. Köklərinin uzunluğu 2-9 sm, eni isə 0,5-1 sm-ə bərabərdir. Xarici qatı qaşınan zaman limonu-sarı rəngli olur. Gövdəsi çoxsaylı, bəzən tək, düzqalxan, budaqlanmayan, adətən hündürlüyü 10-40 sm-ə bərabərdir. Yarpaqları oturaq, uzunsov-yumurtaçəkilli, ellipsçəkilli demək olar ki, neştərşəkilli, itiuclu, yuxarı hissəsi yabayabənzər-dişcikli olub, hündürlüyü 0,7-3,5 sm, eni isə 0,5-3 sm-ə bərabərdir. Çoxçiçəkli olub, qalxan çiçək qrupunda formalaşmışdır. Çiçəkləri bircinsiyylətli, 4 bəzən 5 saylı, kasacığı sarımtıl-yaşıl, ləçəkləri isə sarı rənglidir.



Sidr seyrək meşələrdə və rütublətli çəmənliklərdə yaşayır.

Yabanı çoxillik çəhrayı radiolanın kökümsovu və kökü vegetasiya dövrünün sonunda toplanılır. Bitki toplanıldıqdan 10-15 il sonra bərpa olunur. Xammal toplandıqdan sonra çardax və digər qapalı yerlərdə, günəşli havada və ya 50-60°C temperaturda quruducu şkafda aparılmalıdır.

Çiçəkləri xaricdən bozumtul-qəhvəyi, daxili isə çəhrayı-qəhvəyi və ya açıq-qəhvəyi olur. Spesifik qızılgül iyli və acı, büzücü dadlıdır.

Quru, havası yaxşı dəyişilən yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri**: Yarpaqlarında 4-9% arbutinin, hidroxinon, metilarbutinin, qall, ellaq, xinin və ursol turşuları, flavonoidlər və aşı maddələri vardır. Yeraltı orqanlarında fenolspirt və qlikoziqlər, 1% salidrozidlər (rodiolozid), 20% flavonoidlər, aşı maddələri, üzvi turşular və efir yağları vardır.

Ümumtonuslandırıcı dərmandır. Ekstraktı mərkəzi sinir sistemini stimullaşdırır, beyni enerji ilə təmin edir, intensiv şəkildə oksidləşdirmə-sintez, makroergik fosfat proseslərini həyata keçirir. Maddələr mübadiləsi proseslərini də normallaşdırır. Eyni zamanda adaptasiya proseslərini, orqanizmin müxtəlif faktorlara qarşı (səs, infeksiya) həssaslığın yüksəlməsinə qarşı rezistentlik yaradır.

Xammalından məhlul və ekstrakt hazırlanır ki, stimullaşdırıcı vasitə kimi yüksək həssaslıqlarda, astenik vəziyyətlərdə, fiziki və psixi yorğunluqlarda və nevrasteniyada müvəffəqiyyətlə işlədilir.

## *Paeonia* L. – Pion

***Paeonia anomala* L. - Meyillənmiş pion (** Meylli pion, pion)

**Botaniki xarakteristikası:** Meyllənmiş pion iri olub, hündürlüyü 1 m-ə qədər çoxillik ot bitkisidir. Kök sistemi güclü, çoxbaşcıqlı, milşəkilli və lətlidir. Gövdəsi düzqalxan, budaqlanmayan, qabırğalı, əksərən yuxarı hissəsi yarpaqlıdır. Yarpaqları lələyə oxşar, neştərşəkilli, yarpağın aşağı hissəsi ikiqat qovuşuq olmaqla, yarılmışdır. Yarpaqları növbəli, çılpaq, güclü büzüşmüş, qırışmış, yarpaq lövhəciklərinin uzunluğu 3-13 sm olub, uzun saplaqlıdır. Seqmentləri dərin qovuşuqlu və ya lələyəoxşar ikiyə bölünmüş, orta seqmenti 3 pərli, yan tərəfi isə neştərşəkillidir. Yarpağının ayrı-ayrı seqmentləri dağılma qabiliyyətlidir. Çiçəklərinin diametri 13-18 sm, adətən bir gövdəsində 5 kasayarpaq və 5 açıq çəhrayı-qırmızı rəngli ləçək yerləşir. Meyvənin uzunluğu 2,5 sm olub, ətrafı lətlidir.



Kökümsov və kökü müxtəlif formalı olub, uzunluğu 1-9 sm, qalınlığı 0,2-1,5 sm-ə bərabərdir. Xaricdən tünd-qəhvəyi və ya sarımtıl-qonur, uzunsov-qırışıqdır. Sınmış halda ağımtıl-sarımtıl

olmaqla, bəzən kənarları bənövşəyi rəngli olur. Xaricdən nazik qatlı periderma, sonra ağımtıl qabıqlı, kəskin dəyişən sarımtıl, oduncağı pazşəkilli və aydın görünən ürəkşəkilli şüalıdır. Şirin-yandırıcı dadlı, azacıq büzücü və özünəməxsus güclü iylidir. Gövdəsi şırımlı və ya iriqabırğalı, çılpaq, uzunluğu 35 sm, qalınlığı 2 sm, dəriciyinin əsası pulcuqlu və ya onsuz, aşağısı yumşaq özəkli, bəzən, içiboş oyuqlu, yuxarısı isə sıx, qalın və möhkəmdir.

Zəif acı dadlı və iylidir.

Seyrək yarpaqlı, tozağacı, sıx iynəyarpaqlı və qarışıq meşələrdə, tayqa çəmənliklərində, meşənin kənarında və talalarda yayılır. Adətən səpələnmiş halda lək halında, eyni zamanda böyük pöhrəliklərdə rast gəlinir.

Çoxillik ot bitkisi olan pionun kökümsov və kökü çiçəkləmə müddətində toplanılır. Yerüstü hissələrinin toplanılması bitki çiçəkləyən vaxt (may-iyun) aparılmalıdır. Xammal yaxşı ventiliyasiyalı çardaxlarda sərilməli və ya 45-60°C temperaturda quruducu şkafda qurudulmalıdır.

Quru, havası yaxşı dəyişilən yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Xammalın tərkibində salisil və benzoy turşuları, efir yağları, askorbin turşusu, aşı maddələri, qlükozidlər, nişasta və digər maddələr vardır.

Sedativ xassəli və mərkəzi sinir sistemini sakitləşdirici dərmanıdır.

Kökümsov, kök və otundan istifadə olunur. Xammaldan hazırlanan 40%spirtli məhluldan nevrasteniya, nevroz, ipixondriya, zəiflik, müxtəlif etiologiyalı vegetativ-damar çatmamazlıqlarının müalicəsi üçün təyin edilir.

## *Echinacea* Moench – Exina

***Echinacea purpurea*** **(L.) Moench. – Purpur exina** (exinacea, orta exina).

**Botaniki xarakteristikası** – Çoxillik ot bitki olub, köklə torpağa bərkiyir. Gövdəsi düzqalxan, hündürlüyü 80-100 sm-ə qədər olmaqla, iri qalxanşəkilli səbət qrupuna malikdir. Gövdəsi yaşıl, sarımtıl-yaşıl, bəzən moruğu və ya purpur ləkəli olur. Yarpaqları saplaqlı, uzunsov-yumurtavari, yumurtavari-neştərvari və ya neştərvari, itiuclu, bərabərolmayan-iridişli, bəzən bütövkənarlı, sərt, 3-5 uzununa damarlı olub, qısa tükcüklüdür. Gövdəsi silindrik, qabırğalı, çılpaq və ya bəzən sərt tükcüklü olmaqla, diametri 1 sm-ə qədər olur. Səbətinin diametri 10 sm-ə qədər, qabarıq, konus yataqlı, hamaşçiçəkli, kənar çiçəkləri yalançı dilcikşəkilli, purpur-çəhrayı, başı aşağı, orta borulu, çəhrayı və ya tutqun-çəhrayı rənglidir. Çiçək səbəti içiboş, oyuq, çiçək altlığının yanları seyrək tükcüklüdür. Səbəti nəlbəkiyəbənzər, üçsıralı, yarpaqcıqları kirəmitəbənzər, neştərvari, itiuclu, bükülmüş, xarici hissəsi tükcüklü və kənarları çılpaqdır. Çiçək altlığı ensiz neştərvari, sonu bizəoxşar, uzunsov boruyabənzər çiçəkləri olur. Kənar çiçəkləri



yalançı dilcikvari, uzunluğu 6 sm-ə qədər, 2-3 dişcikli, bükük olub, xarici hissəsi tükcüklüdür. Orta çiçəkləri boruşəkilli və 5 dişcikli çiçək tacından ibarətdir. Meyvə və toxumları düzgün olmayan dişlidir. Bütün yay boyu iyun ayında çiçəkləyir, iyul-sentyabr aylarında isə meyvələri yetişir. Al-qırmızı (purpur) exinanın yarpaqları ilə yanaşı, ensiz exinanın (*E. angustifolia* DC.) da yarpaqları istifadə olunur. Zəif iyli və azacıq acı dadlıdır.

Çayların qumlu sahillərində rast gəlinir.

Bitki iyul-avqust ayında toplanılır, gövdəsinin uzunluğu 25-35 sm, kökü payızda olan kökləri toplanılır. Bitkilər açıq havada, naves altında və ya30-35°C temperaturda qurudulur.

**Tərkibi və təsiri:** Bitkinin bütün orqanlarında polisaxaridlər (heteroksilan və arabinoramnoqallaktan), efir yağı (çiçəklərində - 0,5%-ə qədər, otu – 0,35%, kökü – 0,25%-0,05%) vardır. Efir yağının əsas tərkib hissəsi asiklik seskviterpenoidlərdən ibarətdir. Köklərində exinakozid qlükozidi, betain (0,1%), qatran (təxminən 2%), yağ turşuları (palmitin, linolein), həmçinin fitosterinlər vardır.

Dərman vasitələri

1.Exina cövhəri (ot, yarpağı). İmmunosimullaşdırıcı dərmandır.

2.Exinabene, damcı daxilə (ekstraktı otlardan ensiz exinasei yarpağından hazırlanır) qəbul üçün. İmmunosimullaşdırıcı dərmandır.

3.Exina Heksal, məhlul (al-qırmızı exinanın təzə otlarının şirəsi). İmmunosimullaşdırıcı dərmandır.

4.Exinasin məhlulu (al-qırmızı exinanın otlarının təzə şirəsi). İmmunosimullaşdırıcı dərmandır.

5.İmmunal, daxilə (al-qırmızı exina otlarının təzə şirəsi) qəbul üçün damcı. İmmunostimullaşdırıcı, virusəleyhinə, temperatursalıcı vasitədir.

6. Prostanorm, daxilə qəbul etmək üçün maye ekstraktı, həb. 0,2 q (komponent olaraq al-qırmızı bitkinin köklərinin ekstraktı). Prostatrop və diuretik dərmandır.

Exina bitkisinin preparatları orqanizmin təbii müdafiə qüvvələrinin artırılması hesabına müxtəlif patoloji vəziyyətlər zamanı müalicəvi təsir göstərir. Farmakoloji tədqiqatlarla sübut edilmişdir ki, exinanın təsiri nəticəsində hüceyrə daxilində immun sistemə təsir edən amillərin qeyri-spesifik fəallığı yüksəlir. Nəticədə sümük iliyinin qanyaradıcı təsiri yüksələrək retikulo-endotel sistemdə, bağırsaqda, dalaqda, leykositlərin makrofaq faqositar fəallığı stimullaşır. Orqanizmin qeyri-spesifik reaktivliyi artırır. Bu həm böyüklərdə və həm də uşaqlarda immun sistemdə özünü göstərir. Eləcə də bu sistemin funksiyaları ilə əlaqədar orqanizmin qocalması ümum sisteminin aşağı olmasında özünü göstərir. İmmun sisteminin funksional vəziyyətinin olması ilə bağlı xroniki iltihabi xəstəliklər, ionlaşdırıcı radiasiya, kimyəvi terapevtik preparatların ultrabənövşəyi şüaların təsiri nəticəsində uzunmüddətli terapiya zamanı istifadə edilir. Müxtəlif kimyəvi birləşmələrin təsiri, təbiətdə zəhərli maddələr nəticəsində (şəkərli diabet, qaraciyər xəstəlikləri) mübadiləsinin pozulması ilə bağlı exina preparatların qəbulu zamanı, havada və qida məhsullarında (ağır metallar, pestisidlər, insektisidlər, göbələk xəstəlikləri) stimulyasiya olunur. Exina preparatları antibakterial və göbələk əleyhinə tərkibli preparatlara daha çox xasdır. Ekstraktları herpes, bağırsaq çöpləri, stomatit, stafilokokk, qrip viruslarına qarşı davamlı təsir edir. Exina preparatları iltihabi xəstəliklər zamanı effektiv, (poliartrit, revmatizm, prostatit, ginekoloji pozulmalar) yuxarı tənəffüs yollarının xəstəlikləri, trofik xora, osteomielit və mikrob ekzemasının müalicəsində əvəzedilməzdir.

Purpur və ensizyarpaq exina infeksion və septik xəstəliklərdə, xaricə karbonkul, abses zamanı, yoluxmuş yaralarda, abseslərdə, I-III dərəcəli yanıqların ağır hallarında təyin edilir. Yanıqlarda ağrıkəsici kimi istifadə edilir. Preparata qarşı yüksək həssaslıqda - vərəm, leykoz, dağınıq skeleroz,

kollagenozlarda və 1 yaşına qədər uşaqlara təyini yolverilməzdir. Exina preparatları toksiki deyildir. Yüksək dozası tüpürcək ifrazını artırır. Çiçəklərinin təzə sirəsi qanın laxtalanmasını sürətləndirir.

## *Eleutherococcus* Maxim. – Eleuterokokk

***Eleutherococcus senticocus*** (Rupr. et Maxim.) Maxim. - Tikancıqlı eleuterokokk (Tikanlı eleuterokokk, tikanlı sərbəstmeyvə, şeytan kolu, eleuterokokk, sərbəstmeyvə, əl dəyməmiş, tikanlı kol)



**Botaniki xarakteristikası** – Birillik kol bitkisi olub, çoxsaylı gövdəsinin hündürlüyü 2-2,5m, bəzən isə 3-5 m-ə bərabərdir. Gövdəsi düz, qabığı açıq-boz rəngli, qalın, aşağı tərəfdən sıx yerləşmiş tikanlardan ibarətdir. Kökümsov və əlavə kökləri güclü budaqlanmışdır. Kökləri çoxsaylıdır. Eleuterokokkun yaxşı inkişaf etmiş yeraltı və yerüstü hissələrinin birlikdə cəmi 30 m-ə çatır. Yarpaqları uzun saplaqlı, beşbarmaqlı bölümlü, tərsyumurtaşəkilli və ya ellipsvari, əsasından dimdikli və zəif damarlıdır. Çiçəkləri uzunsaplaqlı, çiçək saplağı sarşəkilli çətirəbənzər və ikicinsli olub, tutqun-bənövşəyi və ya sarımtıl rəngli olur. Meyvəsi 5 toxumlu, demək olar ki, şarşəkilli, şirəli, diametri 8 mm, qara rəngli qabıqlı, parlaq olmaqla, çətir çiçək qrupunda toplanmışdır. Meyvələri sentyabr-oktyabr aylarında yetişir. İki ildə bir dəfə meyvə verir.

Sidr-enliyarpaq meşəliklərdə və dağlıq ərazilərdə yaşayır. Meşənin sıx yerlərində, seyrək meşələrin pöhrəlikləri arasında rast gəlinir.

Payızın sonunda yarpağı tökülən tayqa meşələrində eleuterokokk öz gözəl meyvələri ilə təbiətə füsünkar gözəllik verir. Bitkinin kök sistemi külüng və balaca linglə qazılaraq toplanılır. Eyni zamanda qara meyvələri də toplanılır. Xammalı 70-80$^{0}$Ctemperaturda qurutmaq lazımdır.

Aromatik zəif iyli olub, dadı azacıq yandırıcıdır.

Yeraltı orqanlarının tərkibində liqnan və digər fenol qlükozidləri, pektinli maddələr, qatran, antosian birləşmələri və efir yağları vardır. Quru yerdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Kimyəvi tərkibi az öyrənilmişdir. Kök və gövdələrinin tərkibində eleuterozid, kumarin və flavonoid törəmələri vardır.

Eleuterokokkun kök və kökümsovu keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir. Tibb praktikasında gəncləşdirici kimi yarpaq, gövdə və meyvələrinin tərkibində çoxlu miqdarda aktiv maddələr vardır. Mərkəzi sinir sistemini oyadır, hərəkət, əzələlərin funksional aktivliyini və sinir-əzələ reliksiyasını fəallaşdırır. Görmə itiliyini, eksterimal vəziyyətlərdə adaptasiyanı və stresə həssaslığını azaldır. Eleuterokokk immuniteti artırır, ağır infeksiyalarda orqanizmi əvvəlki vəziyyətinə qaytarır, karbohidrat mübadiləsini normallaşdırır, qanda şəkərin və xolesterinin miqdarını aşağı salır. Orqanizmə anabolik təsir edir.

Eksperimental təcrübələrdə eleuterokokk mərkəzi sinir sistemini oyadır, hərəkət aktivliyini artırır, şərti refleks, zehni, görmə qabiliyyətini, qanda şəkəri və maddələr mübadiləsini gücləndirir. Jenşen kimi psixi yorğunluq zamanı tonuslandırıcı, nevrasteniyanın ağır formalarında tətbiq edilir. Kök və kökümsovundan alınan ektraktdan tonuslandırıcı maddə kimi müvəffəqiyyətlə istifadə edilir.  Insanda fiziki və zehni iş qabiliyyətini artırır.

Rp.: Extr. Eleuterococci 50,0
D.S. 25-30 damcı yeməkdən 30 dəqiqə əvvəl qəbul etməli.
**Əks göstəriş** - Arterial hipertenziya və halsızlıq.

## *Podophyllum* L. – Podofil

***Podophyllum peltatum*** **L. – Qalxanabənzər podofil**



**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, düyünlü üfüqi istiqamətdə olan kökümsovunun uzunluğu 1 m, diametri 1,5 sm xaricdən qırmızımtıl-qonur, sındıqda isə ağ rəngli olur. Kökümsovunda çoxsaylı lətli çıxıntılar vardır ki, bunların uzunluğu 35sm, eni isə 5mm-ə bərabərdir. Kökümsovu xaricdən açıq-qonur, sınıq halda isə sarımtıl-ağ olub, xoşagəlməz iylidir.

Gövdəsi düzqalxan, hündürlüyü 50sm, diametri isə 1,5 sm olub, xaricdən çəhrayı, daxili içiboş, oyuq, əsasında 1-3 ədəd qınlı yarpaqları, yuxarı hissəsində isə 3 ədəd qarşı-qarşıya dayanan yaşıl yarpaqlardan ibarətdir. Gövdəsinin sonunda uzun saplaqlı əyilmiş təksaylı çiçəkləri vardır. Yarpaqları uzun saplaqlı, dairəvi, qalxanvarı, diametri 20sm-ə qədər, dişli-bölünən, 7-9 ədəd ikiqanadlı, kənarları isə bərabər olmayan dişlidir. Çiçəyi ağ, əyilmiş, iri, diametri 7sm-ə qədər ətirli (qovun iyli), çiçək yatağı ikiqat yanlıqlı, 3-6 ədəd kasayarpaqlı və 6-9 ləçəkdən, çoxsaylı erkəkcikdən və yuxarı yumurtalıqlı oturaq dişicik ağzından

ibarətdir. Meyvələri dairəvi və ya yumurtavari, limonu-sarı rəngli olub, uzunluğu 7 sm, aromatlı, yumşaq lətli və çoxsaylı qırışıqlı açıq-qəhvəyi rəngli toxumları vardır. İyunda çiçəkləyir, avqust-sentyabrda isə meyvələri yetişir.

Rütublətli, məhsuldar və maili meşə torpaqlarında, bulaq və çay kənarlarında yaşayır. Dekorativ bitki kimi və dadlı meyvələrinə görə becərilir. Dərman bitkisi kimi Sankt-Peterburq və Ukraynanın Lvov vilayətində becərilir.

Mədəni şəkildə əkilən qalxanvari podofillin 3-5 illik plantasiyalarında kök və kökümsovları erkən yazda yerdən 10 sm hüdürlükdə və payızda toplanılır. Xammal havası dəyişilən naves və çardaxlarda və 40ºC temperaturda quruducu şkafda qurudulur. Saxlanılma müddəti 5 ildir.

Quru, yaxşı havalı yerlərdə saxlanılır. Güclü təsirə malikdir. Podofillin maddəsi A siyahısına daxildir.

**Tərkibi və təsiri:** Kökümsov və köklərində 8% qatran-podofillin, əsas komponent olan liqanlar: podofillotoksin (40%), peltatin (α-peltatin, β-peltatin) və flavonoidlər vardır. Bu maddələrin qlikolizindən podofillotoksin və peltatin alınır.

İşlədici və ödqovucu dərmandır. Kökümsov və köklərindən alınan ekstraktından xalq təbabətində keyfiyyətli qusma və helmint əleyhinə preparatlar alınır. Etibarlı işlədici kimi bağırsağın selikli qişasına təsir edərək, reflektor olaraq peristaltikasını artıraraq tez boşalmasına səbəb olur. Bu bitki toksiki olduğundan istifadə edilmir.

Podofillin tozu, Etopozid (2% yarımsintetik podofillin məhlulu), Tenipozid (1 % yarımsintetik podofillin məhlulu) və Kondilin (0,5% podofillin məhlulu)sitostatik dərmandır.

Kök və kökümsovundan alınan podofillin ektraktdan qırtlağın və sidik yollarının popillomatozunda müvəffəqiyyətlə istifadə edilir. Podofillin sitostatik aktivliyə malik olduğu üçün mitozu və demək olar ki, metafaza stadiyasını blokada edir. Eyni zamanda bu ektrakt insanda öd ifrazını artırır, xroniki qəbizliyi, öd və qaraciyər xəstələklərini müalicə edir. Elmi təbabətdə qırtlağın

papillamatozunda, müxtəlif formalı kandiom və limfangitlərdə, sidik yollarının papillomalarının müalicəsində istifadə edilir. Papillomaların cərrahi müdaxiləsindən sonra tətbiqi yaxşı effekt verir. Podofillin amorf toz olub, sarı-qəhvəyidən, sarı-yaşıl rəngə qədər dəyişən, spesifik iyli maddədir.

## *Silybum* Vaill. – Alaqanqal

***Silybum marianum*** **(L.) Gaertn. – Xallı alaqanqal (**Qəlsəmə-ot, avarlı qayıq, süd otu, qanqal, alaqanqal)

**Botaniki xarakteristikası** – İkiillik ot bitkisi (mədəni şəkildə birillik) olub,düzqalxan gövdəsi60-150 sm hündürlüyündə olmaqla, nişasta tərkiblidir. Yarpaqları növbəli, iri, uzunsov-ellipsşəkilli, lələkvari və ya lələkvari-bölünmüş, dəricikli, tünd-yaşıl, parıltılı, ağ ləkələrlə örtülü parlaq, zolaqlı və ləkəli, damarları, kənar lövhəcikləri və aşağı tərəfi tikanlı, saplaqlı, yuxarı tərəfi isə oturaqdır. Hamaşçiçəklərinin zirvəsi şarşəkilli olub, səbət çiçək qrupuna toplanmışdır. Yarpaqları yaşıl, xarici və orta hissəsi bizşəkilli tikanlardan ibarətdir. Bütün çiçəkləri boruşəkilli, purpur, bənövşəyi-moruğu, çəhrayı və ya ağ rənglidir. Meyvəsi mərməri-xallı, tünd-qəhvəyi və ya qara uzunsov açıq lətli, çılpaq ellipsvari toxumlarının uzunluğu 7 mm-ə qədər olmaqla, kəkilləri toxumlarından 2-3 dəfə uzun olur. Çiçəkləri iyuldan başlayaraq payıza qədər, meyvələrinin yetişməsi isə avqust-sentyabrda olur. Toxumlarla çoxalır.



Quru yerlərdə, yol kənarlarında, nəzarətsiz buraxılmış yerlərdə, məndəcər və zibilliklərdə, bostan, dekorativ və dərman

bitkiləri, alaq və yaşayış məntəqələrinin yaxınlığında olan mədəni bitkilərinin arasında rast gəlinir. Xammalın toplanılması xüsusi təsərrüfat qaydalarına əməl edilməklə aparılmalıdır.

Avqustun sonu və sentyabrda, yan səbətləri qurumağa qurumağa başladıqda, eyni zamanda toxumlarının kəkilləri azca quruduqda meyvələri toplanılmalıdır. Meyvələri tam quruyana qədər quruducu şkafda qurudulmalıdır.

İysiz və azacıq acı dadlıdır. Havası dəyişilən və quru anbarlarda saxlanılmalıdır. Saxlama müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Meyvələrinin tərkibində flavoliqnan maddələri (2,8-3,8%): silibin, silidianin, silixristin, 32%-ə qədər piyli yağlar, qatran, selik və biogen aminlər (tiramin, histamin) vardır.

Flavoliqnan maddələri hepatoprotektor təsir göstərirlər: qaraciyərin metobolik proseslərini nizama salır, arzu edilməyən halları aradan qaldırır, qaraciyərin fermentativ proseslərini aktivləşdirir, eyni zamanda hüceyrələrin regenerasiyasına kömək edir, toksikiliyi aradan götürür.

Tərkibində flavoliqnan maddələr qaraciyərin toksiki zədələnmələrində, kəskin və xroniki hepatitdə, qaraciyər sirrozunda, lipid mübadiləsi pozğunluğunda və qaraciyər distrofiyasında istifadə edilir.

Dərman preparatları: Leqallon, draje, kapsul, suspenziya (flavoliqnanalar). Hepatoprotektordur.

Sileqon, draje. Silibor, həb 0,04 (flavoliqnanalar). Hepatoprotektordur. Silimar, həb 0,1 (flavoliqnanlar). Hepatoprotektor dərmandır.

Silimarin, həb (flavoliqnanlar). Hepatoprotektor dərmandır.

Karsil, draje, kapsul, sirop (flavoliqnanlar). Hepatoprotektor dərmandır.

## *Melilotus* Hill. - Xəşənbül

***Melilotus officinalis*** **(L.) Pall. - Dərman xəşənbülü** (Hündür xəşənbül, xəşənbül, sarı yapıncı, qəşəng qız).

**Botaniki xarakteristikası** – İkiillik ot bitkisi olub, mil kökə, düzqalxan və budaqlanan gövdəyə malik olmaqla, hündürlüyü 0,5-1,3 (2) m-dir. Yarpaqları növbəli, üç hissədən ibarət qovuşuq, mürəkkəb, neştərşəkilli yalançı zoğlu, uzunsov-tərsyumurtavari və ya uzunsov yuxarı hissəsi kənarları boyunca qırağı dişciklidir. Çiçəkləri kiçik, sarı, çiçək tacının başı aşağı əyilmiş, kəpənəkçiçək olmaqla, sıx, qoltuq tumurcuqları fırçayabənzər uzunluğu 4-10 sm-dir. Meyvəsi kiçik, yumurtavari, 1-2 toxumlu paxlalı, çılpaq, azsaylı, köndələn qırışıqlıdır. Tərkibindəki kumarinlərə görə həddən çox aromatlıdır. Xəşənbüldə bol nektar olduğundan balverən bitkilərə daxildir. İyun-sentyabrda çiçəkləyir, iyundan payızın sonuna kimi meyvələri yetişir. Xəşənbül ucaboylu, ikiillik, mil köklüdür. Bizəoxşar-xətti yalançı zoğları vardır.



Əsasən çöl və meşə-çöl zonalarının quru çəmənliklərində, əkin sahələrində alaq otu ilə birlikdə, meşə ərazilərində, yol kənarlarında, məndəcərlərdə yatmış vəziyyətlərdə rast gəlinir. Balverən və qida əhəmiyylətli bitkidir. Bundan başqa rütublətli

çəmən və otlaqlarda, pöhrəliklərdə da yayılır. Xəşənbüllə birlikdə digər dərman bitkiləri və otlar da rast gəlinir. Bu bitkinin digər bir növünə - ağ xəşənbülə (*Melilotus albus* Medik.) də rast gəlinir. Çiçəkləri kiçik, yarpağın əsası dişcikli və bütöv bizəoxşar olmaqla, yalançı zoğları vardır. Digər bir növü – dişcikli xəşənbül (*Melilotus suaveolens* Ledeb.) açıq-sarı çiçəkləri çox kiçik, aydın olmayan torşəkilli-qırışlı paxlameyvəli olub, güclü aromatlıdır. Bu növ şərqdən Yeniseyə qədər ərazilərdə yayılmışdır.

Keyfiyyətli dərman bitkisi xammalı kimi zirvə çiçəkləri (30 sm), yarpaqları. Bütün bitkini toplayır, lakin qurutma zamanı onları ayırırlar. Havası yaxşı dəyişilən çardax və naveslərdə və ya quruducu şkaflarda 40ºC-dən yüksək temperaturda qurudulmalıdır.

Aromatlı (kumarin) və acı dadlıdır. Xammalı gövdə, yarpaq, çiçək və 8 mm ölçülü meyvələridir. Bitki güclü iyə malikdir. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Xəşənbül otunun tərkibində kumarinlər (0,4-0,9% kumarin, dihidrokumarin (melilotin), dikumarol və qlükozid olan orto kumarin melilotozid turşusu vardır. Bundan başqa tərkibi efir yağı, polisaxaridlər (selik), saponinlər və aminturşulardan ibarətdir.

Bitki və xırdalanmış xammalı. Qıcolma və antikoaqulyant dərmandır. Sakitləşdirici, venatonik və angioprotektiv dərmandır.

Yerli yumşaldıcı dərmandır. Dəridə olan iltihabi proseslərə yumşaldıcı kimi qoyulur. Xalq təbabətində öskürək, yumşaldıcı, tərqovucu, ağrıkəsici dərman maddəsi olaraq istifadə edilir. Tənəffüs orqanlarının xəstəliklərində və orqanizmin yüksək həssaslığında təyin edilir.

## *Ammi* L. – Dişqurtlayan

***Ammi majus* L. – Böyük dişqurtlayan**

**Botaniki xarakteristikası:** Birillik ot bitkisi olub, kiçik ağ çiçəkləri olmaqla, iri çiçəklərinin diametri 15 sm, çiçək qrupu isə mürəkkəb çətirdir. Düz, çılpaq, şırımlı gövdəli, hündürlüyü 100-140 sm-dir. Yuxarı hissəsi budaqlanan, gövdə budağındakı yarpaqları orta saylıdır. Yarpaq lövhəcikləri iki, hətta üç ləlәkvari bölünmüş olur. Meyvəsi sallaq, kiçik, uzunluğu 2-3 mm, eni isə 1 mm-dir.



Yetişmiş və qurudulmuş mədəni birillik ot bitkisi olan böyük amminin meyvələri  xammal olaraq toplanılır.  Meyvələrini bitki ölüşkəyən zaman toplanılır.Mərkəzi çətirindəki meyvələri yetişməyə başladıqda bitki toplanılmalı və qurudulmalıdır. Qurudulma digər bikilər kimi aparılır.

Spesifik iyli, acı dadlı və azacıq yandırıcıdir. Havası dəyişilən quru anbarlarda saxlanılmalıdır. Saxlama müddəti 5 ildir.

**Tərkibi və təsiri:** Meyvələrinin tərkibində furokumarinlər (2,2%), psoralen və angeliçin törəmələri: ksantotoksin, imperatorin, izipimpinellin, berqapten və marmezin vardır.

Fotosensiblizasiyaedici dərmandır. Əsas təsiredici maddəsi furokumarinlər olub, ultrabənövşəyi şüanın təsirindən dəridəki

melanin piqmentini stimullaşdırır. Ammifurinin və ultrabənövşəyi şüanın kombinasiyası ilə dəridəki piqmentasiya bərpa olur. Furokumarinlər kapilliyarları möhkəmləndirir, sedativ, ödqovucu, sidikqovucu təsir edir, uşaqlıq və bağırsağı tonuslandırır.

Bitkidən alınan ammifurin preparatı fotosensiblizasiyaedici maddə kimi vitiliqo və allopesiyalarda müvəffəqiyyətlə təyin edilir. Həbi 0,02 q, spirtlə birlikdə 2% olmaqla təyin edilir. Bu bitkinin müalicəvi təsiri XIII əsrdən məlum idi. Ərəb təbibləri leykodermanı və şüalanmanı bu bitki ilə müalicə edirdilər. Xammalından «Ammifurin» və «Anmarin» alınır. «Ammifurin»lə psorioz, neyrodermit, qırmızı dəmrovun, «Anmarin»lə isə göbələkəleyhinə vasitə kimi dermatomikozların müalicəsində istifadə edilir.

Tərkibində forokumarinlər (izopimpinellina, berqapten, ksantotoksin) ən azı 0,6%, rütubət 10%, kül 8%, üzvü birləşmələr 5% mineral birləşmələr 1%-dir.

***Ammi visnaga* (L.) Lam. (*Visnaga daucoides* Gaertn.) - Kökəbənzər dişqurtlayan**

**Botaniki xarakteristikası:** İkiillik güclü budaqlanan ot bitkisi olub, hündürlüyü 1m-ə qədərdir. Mil köklü, zəif oduncaqlıdır. Gövdəsi düzqalxan, dairəvi və zəifşırımlıdır. Yarpaqları növbəli iki və ya üçlələkli bölünmüş olur. Çiçək qrupu mürəkkəb çətir olub, diametri 6-10 sm, çoxsaylı, çiçəkləyən zaman sərilən, meyvələri üst, sıxılmış olmaqla, sərtdir. Çiçəkləri kiçik olub, xoşiyli deyildir. Meyvələri yumurtavari, uzunsov-yumurtavari, uzunluğu 2-2,3mm olub, 2 merikarpdan ibarətdir.



Bozqırlarda, dağlarda, alaq otlu əkin sahələrində yaşayır.

Böyümə və yetişmə dövründə çoxillik mədəni ot bitkisi olan kökəbənzər dişqurdlayanın meyvəsi xammal olaraq toplanılır və keyfiyyətli dərman bitkisi kimi istifadə edilir. Meyvələri 65-70% yetişmiş və 30-35% yetişməmiş yaşıl olan zaman toplanılır. Havası dəyişilən və ya temperaturu 60ºC qədər olan quruducu şkaflarda qurudulmalıdır.

Zəif iyli, acı dadlı və azacıq yandırıcı dadlıdır.

**Tərkibi və təsiri:** Meyvələrinin tərkibində puranoxromonlardan: kellin, visnaqin, kellol, kellol qlükozid, piran ekumarinlərdən isə visnadin, samidin və dihidrosamidin rast gəlinir.

Spazmolotik və vazomator dərmandır. Saya əzələlərin spazmını aradan götürür, sidik yollarının, bağırsaq, bronx və koronar damarların spazmını götürür. Tərkibində furanoxromon və kellin maddəsi vardır. Kellin spazmolotik təsir göstərərək damarların tonusunu aşağı salaraq, bağırsaq, sidik və öd yollarının, bronxları və ürəyin tac arteriyalarını genişləndirir. Kellinin ağızla qəbulundan 10-15 dəqiqə sonra qana sorulur.

Avisan həb 0,05q (furanoxromon, piranokumarinlər və flavonoidlər). Spazmolotik dərmandır.

Kellin kompleks preparat olan «Vikalin» və « Marelin».

Bitkinin meyvələrindən avisanakellin dərmanı alınır. Avisan sidik axarı əzələlərinin tonusunu aşağı salaraq effektliv spazmolitik təsir göstərir. Buna görə də böyrək və sidik axarlarının iltihab və daş xəstəliklərində təyin edilir. Kellin – spazmolitik dərman kimi xroniki ürək çatmamazlıqlarında, bronxial astma, mədə və bağırsaq spazmında işlədilir.

## *Psoralea* L. – Psoralea

***Psoralea drupacea*** **Bunge - Çəyirdəkli psoralea** (Psoralea, bağ bıçağı)



**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Gövdəsi çoxsaylı olub, hündürlüyü 40-150 sm, yuxarı hissəsi budaqlanan, azca qabırğalı, sadə, sıx tükcüklü və metalabənzər nöqtələr şəklində olan tükcüklərdən ibarətdir. Yarpaqları sadə və ya üç hissədən ibarət qovuşuq, yarpaq lövhələri demək olar ki, dairəvi, kənarları irioyuqlu dişli, əsası isə bütövkənarlı olub, uzunluğu 1,5- 5 sm, eni isə 2-5 sm, aşağı hissəsi isə sıx tükcüklüdür. Saplağı 0,5-1(4) sm-dir. Yalançı zoğları xətti-neştərşəkilli, itiuclu və tükcüklüdür. Çiçəyin uzunluğu 4-7 sm, çoxçiçəkli olmaqla, sünbül çiçək qrupunda cəmlənmişdir. Çiçək altlığının uzunluğu 2,5-3mm, metalabənzər tükcüklü, yumurtavari və itiucludur. Kasacığı zəngşəkilli və 5-yarpaqlıdır. Çiçək tacı kəpənəkçiçəkli və ağımtıl-bənövşəyi rənglidir. Meyvəsi təktoxumlu, sıx xovlu tükcüklü, ağımtıl-qonur rəngli paxlameyvədir.

Başlıca olaraq, meşə, dağətəyi, ön və aşağı dağlıq zonalarının pöhrəliklərində daha çox rast gəlinir.

Tibbdə istifadə etmək üçün paxla meyvəsini iyun-avqust aylarında toplamaq lazımdır. Əsasən zirvəsində olan paxla

meyvələri toplamaqla günəş altında tədricən qurutmaq lazımdır. Meyvənin toplanılması zamanı dəri yanıqlarının qarşısını almaq üçün əlcəkdən istifadə edilməlidir.

Qabığında furokumarinlər, gövdə və yarpaqlarında isə az öyrənilən steroid birləşmələr olan drupaçin və drupanin maddələri tapılmışdır.

Havası dəyişilən quru anbarlarda saxlanılmalıdır. Saxlama müddəti 3 ildir.

**Tərkibi və təsiri**: Fotosensiblizasiyaedici dərmandır. Furokumarinlər ultrabənövşəyi şüanın təsiri ilə dəridə olan melanin piqmentini stimullaşdırır. Bundan başqa sonsuzluq və piylənmələrin müalicəsində tətbiq edilir.

- Bitkinin meyvəsinin tərkibində psoralen və izopsoralen preparları vardır. Fotosensiblizasiyaedici maddə kimi 0,01q həbi, xaricə 0,1% məhlulu (70% spirtlə çıxarış) vitiliqo və allopesiyalarda təyin edilir.

Forokumarin maddələr (psoralen və izopsoralen) ən azı 0,9%, rütubət 10%, kül 8%, inkişaf etməyən və onun hissəciklər 5%, gövdə, yarpaq və çiçək hissəciklər 10%, üzvü birləşmələr 4%, mineral birləşmələr isə 2%-dir.

## *Pastinaca* L. – Xımı (Cırhavuc)

* ***Pastinaca sativa*** **L. – Əkin xımısı** (Xımı, cırhavuc, tumac, maral kök, çöl akoniti).

**Botaniki xarakteristikası:** Əkilən mədəni bitki (yabanı rast gəlinmir) olub, çoxəsrlik seleksiya nəticəsində əmələ gəlmişdir. İkiillik bitkidir. Birinci ili kökətrafı yarpaqları əmələ gəlir. Yoğun və şirin kökü olub, hündürlüyü 2m-ə bərabərdir. İri yarpaqlarının uzunluğu 20 sm, mürəkkəb lələkvari olmaqla, uzun saplaqdan ibarətdir. Çiçəkləri yaşılımtıl-sarıdan, tünd-qonur rəngə qədər dəyişir. Arxa hissəsi azacıq qabarıq, 5 qabırğalıdır (3 dar, ensiz, nazik, ayaqcıqlı və 2 kənarı yastı olmaqla, azacıq qalınlaşmış haşiyəyə malikdir). Çiçəkləri mürəkkəb çətir qrupunda formalaşmışdır. Meyvələri dairəvi-oval, mərciyəbənzər yastılanmış, asılan, adətən 2 merikarpdan ibarətdir. Meyvəsi yastı, əsası böyük olmayan oyuqlu olub, uzunluğu 4-8 mm, eni isə 3-6 mm-dir. Meyvələri sarımtıl-qonur, asılan, yetişdikdə iki hissəyə bölünəndir. İyun-iyul aylarında çiçəkləyir, iyul-avqust aylarında isə meyvələri yetişir.



Alaq və mədən bitkiləri arasında daha yaxşı inkişaf edir.

Yetişmiş və qurudulmuş mədəni ikiillik ot bitkisi olan əkin cırhavucunun meyvələri xammal olaraq toplanılır və keyfiyyətli dərman bitkisi kimi istifadə edilir. Döyüldükdən sonra çiçək və meyvələri ayrılır, kölgə şəraitində havalı yerlərdə 4-5 sm qalınlığında sərilərək qurudulur.

Qarıncıq tərəfi uzunsovdur. Meyvəsi açıq qonur-samanı rənglidir. Zəif iyli, özünəməxsus şirin dadlı və yandırıcıdır. Xüsusi şəraitdə saxlanılmalıdır. Saxlanılma müddəti 4 ildir.

**Tərkibi və təsiri**: Meyvələrinin tərkibində furokumarinlər: berqapten, ksantotoksin, sfondin, izopimpinellin, imperatorin, sfondin, efir yağları, polin və flavonoidlər – rutin, pasternozid, hiperin və 3,6% efir yağı vardır. Ədviyyəli iyi tərkibində olan heptil, heksil və oktil-butil efirlərinə görədir. Meyvələrinin tərkibində K, Ca, Mg, Fe, Mn, Zn, Cr, Al, Cu ionları vardır. Bu bitki Se akkumlyasiya edir.

Beroksan həb 0,02q. 0,25% və 0,5% xaricə tətbiq üçün məhlul və Oksoralen ultra kapsul 0,01q fotosensiblizasiyaedici dərmandır.

Bitkinin meyvələrindən beroksanipastinasin alınır. Beroksan adlanan bu maddə ksantotoksin və berqapten maddələrindən ibarət olub, dəridə melanin piqmentini stimulyasiya edir. Fotosensiblizasiyaedici maddə kimi vitiliqo və allopesiyalarda müvəffəqiyyətlə təyin edilir.

Polyaroqrafik metodla forokumarin maddələri ən azı 1%, rütubət 10%, kül 6%, üzvü birləşmələr 10%, bitkinin müxtəlif hissəcikləri 10%, üzvi maddələr 2%, mineral birləşmələr isə ən azı 1%-ə qədərdir.

## *Phlojodicarpus* Turcz. ex Ledeb. – Şişmeyvə

***Phlojodicarpus sibiricus*** **(Steph. Ex Spreng.) K. Pol. – Sibir şişmeyvəsi** ( Sibir köpmeyvəsi, şişmeyvə, köpmeyvə)



**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Yeraltı orqanları qısa, şaquli, çoxsaylı kökümsov və mil köklərə malik olmaqla, uzunluğu 15-25 (50) sm-ə bərabərdir. Gövdəsinin hündürlüyü 15-70 sm, sadə və ya budaqlanan, qabırğalı, çılpaq və qısa tükcüklüdür. Kök üstündə olan yarpaqları çoxsaylı, ləlәkvari 3 bölümlü, göyümtül-yaşıl rәnglidir. Yarpaq lövhəcikləri uzunsov-yumurtaşəkilli və ya yumurtaşəkilli olub, uzunluğu 5-30 sm, eni isə 2-10 sm olub, xətti-neştərşəkilli və itiucludur. Gövdə yarpaqları olduqca az, (2-4 ədəd) əksəriyyəti kiçik, güclü genişlənmiş və uzunsov qınlı olub, bənövşəyi rənglidir. Mürəkkəb çətir çiçək qrupuna malik olmaqla, 10-25 şüadan ibarətdir. Yarpaqları nisbətən burulan olmaqla, 5-8 ədəd, erkən tökülən, ağımtıl-pərdəli və xətti-neştərvaridir. Ləçəkləri ağ rəngli olub, uzunluğu 1,5-2,0 mm-dir. Meyvələri uzun yumurtavari, uzunluğu 6-8 (10) mm, çılpaq və ya tükcüklüdür.

Dağ-bozqır bitkisi olduğundan, dağlıq ərazilərində, yamaclarda, şabalıd meşəliklərində və çınqıllı torpaqlarda rast gəlinir.

İyun-sentyabr aylarında kökümsovu və kökü külünglə qazılıb çıxarılmaqla toplanılır. Bu işi ehtiyatla etmək lazımdır ki, bitkinin yeraltı hissələri məhv olmadan bərpa ola bilsin. Böyümə və ya meyvə yetişmə dövründə çoxillik ot bitkisi olan Sibir şişmeyvəsinin kökümsovu və kökü xammal olaraq toplanılır və keyfiyyətli dərman bitkisi kimi istifadə edilir. Xammal kölgəli yerlərdə sərilməli, yaxşı ventiliyasiyalı çardax, naveslərdə gündə 2-3 dəfə çevrilməli və ya quruducu şkafda qurudulmalıdır.

Sındırılmış kökümsov və kökləri sarımtıl-ağ rəngli olur. Aromatlı, dadı əvvəlcə şirin, sonra isə acı ədviyyəli olur.

Havası dəyişilən, yerlərdə 15kq kisələrdə saxlanılır (5 il).

**Tərkibi və təsiri:** Meyvələrinin tərkibində piranokumarinlər: dihidrosamidin və visnadin vardır.

Spazmolotik, vazomator dərmandır. Tərkibindəki piranokumarinin təsiri spazmolotik olmaqla periferik qan damarlarına genişləndirici təsir edir.

Bitkinin kökümsov və kökündən floverin alınır. Floverin adlanan bu maddə spazmolotik təbiətli olub, qeyri spesifik angiospazm və müxtəlif etiologiyalı endoarteritlərdə istifadə edilir. Həb şəklində 0,05 q dozada buraxılır.

## *Lagochilus* Bunge - Dovşandodaq

### *Lagochilus inebrians* Bunge - Məstedici dovşandodaq

**Botaniki xarakteristikası -** Çoxşaxəli yarımkol bitkisi olub, gövdəsinin hündürlüyü 20-50 sm-dir. Oduncaq gövdəli, sadə və ya budaqlanan, yuxarı hissəsi sıx yarpaqlı, aşağı hissəsi parlaq ağ gövdəlidir. Yarpaqlarının üzəri tükcüklərlə örtülü olub, geniş yumurtavaridir. Əsası pazşəkilli, 3-5 bölümlü, geniş yumurtavari bütövkənarlı və ya dişcikli-kənarlıdır. Aşağı yarpaqlarının uzunluğu 1,5-2 sm, yuxarısı 2,5 mm-dir. Çiçəyi oturaq, kasayarpağı möhkəm, horizontal, üçtərəfli-bizəbənzər olub, tüklüdür. Kasacığı uzunsov-zəngşəkilli, geniş qıfabənzərdir. Tacı ağ və ya solğun - çəhrayı olmaqla qəhvəyi damarlanmışdır.



Quru yerlərdə, çınqıllı yamaslarda, quru yovşanlı-taxıllı, yovşanlı-müxtəlifotlu öndağlıq bozqırlarda bitir.

Bitki çiçəkləyən zaman toplanılmalıdır. Xammalın müəyyən ərazilərdən toplanılması 2-3 ildən bir həyata keçirilir.

Toplanılmış xammal hava dəyişilən kölgə yerlərdə və ya 45-50$^0$C temperaturda ventilyasiya şəraitində quruducu şkafda dərhal qurudulmalıdır.

Xammal kimi bitkinin çiçək, yarpaq, nazik gövdəsi götürülür. Zəif iyli, acı dadlıdır.

Quru ventilyasiyalı yerlərdə (stellayda) saxlanılalıdır. Saxlama müddəti 3 ildir.

**Tərkibi və təsiri**: Xammalın tərkibində laqoxilin spirti, efir yağı, aşı maddələri (10-14%), üzvi turşu, karotin, filloxinon, askorbin turşusu və s. vardır.

Qanaxma vəhemorragik diatezlərdə dərmandır. Tərkibində laqoxilin spirti, efir yağı, aşı maddələri (10-14%), üzvi turşular, karotin, filloxinon, askorbin turşusu və karatinoidlər vardır.

Maye və sulu ekstraktı hemorragik diatez, burun və digər qanaxmalarda tətbiq edilir.

## *Leonurus* L. – Şirquyruğu (Damotu)

***Leonurus cardiaca*** **L. – Ürək damotu** (Tüklü məndəcərotu, beşbölümlü şirquyruğu, məndəcərotu, ürək damotu, ürəkotu, daşotu, ağ qıvrımsaç, damotu, kar gicitkən, ürəkotu, it gicitkəni)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Gövdəsi düzqalxan, yuxarı hissəsi budaqlanan, dördtilli, qalın tükcüklü, hündürlüyü 100-150 sm-ə bərabərdir. Yarpaqları ürəyəbənzər, qarşı-qarşıya, saplağı dairəvi-yumurtaşəkilli və ya yumurtaşəkillidən, enli neştərşəkilliyə qədər olub, uzunluğu 14 sm qədər, eni isə 10 sm olmaqla, demək olar ki, barmağabənzər 5 pərli və çoxdişlidir. Yarpaqları yumşaq tükcuklü olmaqla, qonur rənglidir. Orta və aşağı yarpaqları iri barmağabənzər 5 pərli, yuxarı yarpaqları isə nazik, qısa və 3pərlidir. Çiçəkləri demək olar ki, oturaqdır. Çiçək altlığı bizvarı itiucludur. Kasacığın xarici hissəsi tükcüklü, üçbucağabənzər dişcikli olmaqla, küt sonluqla qurtarır. Meyvələri qutucuqlu, zirvəsi tükcüklü, zeytunu-yaşıl olub, uzunluğu 2 mm-ə bərabərdir. İyun-iyul aylarında (15-25 gün) çiçəkləyir. Meyvələri avqust-sentyabr aylarında yetişir.  Zəif iyli və acı dadlıdır.



Xüsusən səhralarda, köhnə parklarda və yaşayış məntəqələrinə yaxın yerlərdə rast gəlinir.

Yabanı və mədəni ot bikisi olan adi şirquyruğu bitki çiçəkləyən dövrdə gövdə, çiçək və yarpaqları keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir. Xammal bıçaq və ya oraqla gövdənin uc hissəsindən 30-40 sm uzunluğunda kəsilərək götürülür. Bikinin kök və cavan pöhrələrini kəsmək olmaz. Xammalın təkrar toplanılması 1-2 ildən sonra aparıla bilər. Xammalın qurudulması çardax və naveslərdə, yaxşı ventiliyasiyalı yerlərdə və ya 50-60$^0$ C temperaturda quruducu şkafda aparılmalıdır.

Quru yerlərdə saxlanılır. Apteklərdə əsasən yeşiklərdə, anbarlarda isə taylarda saxlanılır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Bitkinin tərkibində flavonoidlər (rutin, kverçetin, kverçitrin, hiperozid), qlükozidlər, aşı maddələri, saponinlər və efir yağları vardır.

Sedativ dərman maddəsi olmaqla, qan təzyiqini aşağı salır və ürəyin ritmini azaldır. Karbohidrat və yağ mübadiləsini yaxşılaşdırır, zülal mübadiləsini normallaşdırır.

Ürək damotunun məhlulu (1:5) 70 % etil spirtində. Sedativ dərmandır.

Ürək damotunun ekstraktı. Sedativ dərmandır.

Ürək damotunun həbi 0,014 q. Sedativ dərmandır.

Ürək damotundan alınan preparatlar nevroz, hipertoniya, ürəyin işemik xəstəliyi, tireotoksikoz, yuxusuzluq və vegetativ damar distoniyasında işlədilir. Bundan başqa mədə-bağırsaq nevrozunda, meteorizmdə spastik kolitlərdə də təyin edilir.

## *Sophora* L. – Sofora

***Sophora pachycarpa* C. A.Mey.** (=*Vexibia pachycarpa* (C. A.Mey.) Yakovl.) - İrimeyvə sofora (Sofora, irimeyvə ferula, yapon akasiyası)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Yeraltı hissəsi güclü inkişaf edərək, kökləri üfüqi istiqamətdə böyüyür. Gövdəsinin hündürlüyü 60 sm, yuxarıya doğru böyüyərək düzgün budaqlanan, ipəkvari tükcüklərdən və güclü inkişaf edən yarpaqlardan ibarətdir. Cüt olmayan yarpaqlarının uzunluğu 18 sm, ellipsşəkilli yarpaqlarının uzunluğu 1-2 sm, eni 0,3-0,9 sm sıx tükcüklü olub, bitki bütünlüklə sarımtıl-yaşıl rənglidir. Uzunsov-sümbülşəkilli çiçək qrupuna aid olub, zirvədə yerləşən çiçəklərin uzunluğu 7-25 sm-ə bərabərdir. Kəpənəyəbənzər çiçəklərin uzunluğu 1,5 sm, tacı sarımtıl və ya ağımtıl rəngli olur. Dolğun, şişman meyvələri qara rəngli, silindrik, uzunluğu 2-5 sm, eni 0,7-0,9 sm olmaqla, demək olar ki, gərilmişdir. Toxumları böyrəkvari-yumurtaşəkilli, diametri 0,1-0,5-0,6 sm, tünd-qəhvəyi və ya qara rəngli olub, hamar və parlaqdır.



Yovşanlı, efemerli assosiasiyalarda, uçurum, yarğan, sıldırım yerlərdə, hündürlüyü 1600 m olan dağlarda və alaqotu olan yerlərdə yayılmışdır.

Bitkini bütün yay vaxtı - mayın sonundan, sentyabra qədər butonizasiyanın sonuna kimi toplamaq mümkündür. Hündürlüyü 5-10 sm olduqda oraq və ya bıçaqla toplanılmalıdır. Nazik təbəqə edilərək günəş altında qurudulmalıdır. Zəhərli olduğundan xammal ilə işlədikdə ehtiyatlı olmaq lazmdır.

Xammal kimi yarpaq, gövdə, buton və çiçəkləri keyfiyyətli dərman bitkisidir. Özünəməxsus iyli, qeyri-müəyyən dadlı olmaqla, zəhərlidir (!).

Ot və toxumu B siyahısına daxildir. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Tərkibi 2-3% xinolizid sırası alkaloidlərdən ibarətdir. Başlıca alkaloid xinolizidin törəmələrindən: paxikarpin, sofokarpin, matrin, sofomatrin və flavonoidlərdən təşkil olunmuşdur.

Qanqlioblokatr, hipotenziv, vazodiliator dərmandır. Butonizasiya zamanı yabanı çoxillik ot bitkisi olan irimeyvə sofora otu keyfiyyətli xammal və dərman hesab edilir.

Paxikarpin hidroyodid 3%-li məhlul, 0,1q həb. Qanqlioblokatr dərmandır. Uşaqlığın əzələ tonusunu yüksəldir.

xikarpin hidroxlorid kimi tanınan dərman maddəsindən mamalıq və genekoloji praktikada miopatiyada istifadə edilir.

## *Helichrysum* Mill. – Solmazçiçək (Quruçiçək)

***Helichrysum arenarium*** **(L.) Moench.- Qumluq solmazçiçəyi (**Qumluq solmazçiçək, solmazçiçək, sarı pişikayağı, pişikayağı, qabaq, quruçiçək, şaxta-ot, timin, qızıl çalarlı, qızılı günəş)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Kökümsovundan çoxlu miqdarda vegetativ gövdə və çiçəklər çıxır. Yarpaqları növbəli, gövdəsi isə keçəyəbənzər-tükcüklüdür. Aşağı yarpaqları uzunsov saplaqlı, orta və yuxarı yarpaqları isə oturaqdır. Çoxsaylı səbətciyi qalxanşəkilli çiçək qrupunda formalaşmışdır. Səbətciyin diametri 7-9 mm olur. Yarpaqları limonu-sarı rəngli, quru və kənarları bölünmüüş olur. Bütün çiçəkləri boruşəkilli, 5 dişcikli, yumşaq tükcükdən ibarət çəhrayı kəkillidir. Çiçək yatağı kiçik oyuqludur.



Aromatik zəif iyli olub, tünd-acı dadlıdır.

Quru qumsal, hətta daşlı torpaqlarda, bəzən qaratorpaq və gilli yerlərdə yayılır.

Bitkinin yan çiçəklərini təzə çiçəkləyən dövrdə toplayırlar. Çiçəklərini iti bıçaqla 1 sm ölçüdə kəsmək lazımdır. Çiçəkləri toplanılan sahədən təkrar toplanılma 7 gündən bir aparıla bilər. Gövdə və köklərin tamamilə və ya qismən qoparılması qadağandır. Eyni sahədən xammalın təkrar toplanılması 1-2 ildən sonra aparılmalıdır. Xammal çardax və naveslərdə, yaxşı ventiliyasiyalı yerlərdə kağız və parça üzərində 2-3 sm sərilərək və ya $40C^0$ temperaturda quruducu şkafda qurudulmalıdır. Metal şifrdən ibarət olan yerdə qurudulması yolverilməzdir.

Qaranlıq havalı yerlərdə, anbarlarda kisədə, apteklərdə isə yeşik və dəmirdən ibarət bağlı yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 4 ildir.

**Tərkibi və təsiri:** Çiçəklərinin tərkibində kifayət qədər flavonoidlər (kempferol), aşı maddələri, efir yağları, filoxinon, qatran, üzvü turşular, karotinoidlər, polisaxaridlər və digər maddələr vardır.

Ödqovucu və yerli iltihabsorucu dərmandır. Çiçəklərinin cövhəri öd, mədə və mədəaltı vəzi sekresiyasını artırır, öd yolunu tonuslandıraraq ödemini aradan qaldırır, saya əzələlərə spazmalotik təsir edərək öd ifrazını yaxşılaşdırır, ödün özlülüyünü və xolatoxolesterin koeffisentini yüksəldir. Tərkibindəki flavon və fenol turşularını aktivləşdirir, bilrubini normallaşdırır. Mədədə qidanın həzm olunma qabiliyyətini yüksəldir, eyni zamanda evakuator təsir edərək qidanın bağırsağa keçməsini asanlaşdırır, mədəaltı vəzin saya əzələlərinə antispastik təsir edərək, bağırsaq divarındakı vena sistemini genişləndirir, hipoxolesterin təsir edir, sərbəst xlorid turşusunu aktivləşdirir, parazit əleyhinə təsir göstərir.

Təbabət praktikasında müxtəlif məqsədlər üçün istifadə edilir. Qumsal solmazçiçəyi bitkisinin çiçəyinin dəmləmə və quru ekstraktından ödqovocu dərman kimi öddaşı, xroniki xolesistit, hepatit və öd yollarının diskenziyasında, eyni zamanda çiçəklərinin qranulasından geniş şəkildə iştifadə edilir. Çiçəyindən həm də flavonoidlərlə zəngin həb şəklində (0,05q) “flamin” adlı

preparat hazırlanır. Pereperatları keyfiyyətli ödqovucu olduğundan öd yolları xəstəliklərində - xolesistit, xolangit, öddaşı xəstəliyi və öd yollarının diskenziyasında istifadə edilir. Qaraciyər xəstəliklərində xüsusən müxtəlif etiologiyalı kəskin hepatitlərdə daha çox səmərəlidir. Həzm zəifliklərində, iştahın pis olmasında, mədə-bağırsaq fermentlərinin çatmamazlığında, ateroskleroz, yağ mübadiləsi pozğunluqlarında, piylənmədə, şəkərli diabetdə, hipolipidemik dərman kimi ürəyin işemik xəstəliyində, orqanizmdən xolesterin və ona yaxın birləşmələrin çıxarılmasında yaxından iştirak edir. Ləmbilyoz zamanı kompleks terapiyanın aparılmasında bu bitkidən müvəffəqiyyətlə istifadə edilir. “Arenarin” adlı 1% məlhəmindən gözün kimyəvi və termiki yanıqlarında istifadə edilir. Bu məlhəm eyni zamanda iltihabsorucu və antibakterial antibiotik kimi qrammüsbət bakteriyalayalara təsir edir və toxumaların regenerasiya qabiliyyətini stimullaşdırır.

## *Tanacetum* L. – Dağtərxunu

***Tanacetum vulgare*** **L. – Çal dağtərxunu (**Adi dağ tərxunu, dağ tərxunu, yabanı üvəz, quşarmudu, çöl quşarmudu, doqquzyaşar, doqquzqardaş, düymə, cənnət-çiçəyi)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, gövdəsinin hündürlüyü 50-150 sm, çoxsaylı, düzqalxan, şırımlı, budaqlanan, çiçəkli, çılpaq olub, azacıq tükcüklüdür. Yarpaqları növbəli, ellipsvari, uzunluğu 20 sm, ləlәkvari yarılmış və ya ləlәkvari bölünmüş olub, çılpaqdır. Boyu uzunu uzunsov-neştərvari, ləlәkvari bölünmüş və ya kənarları dişciklidir. Çiçək səbətciyi yarım şarşəkilli, yuxarı hissəsi yastı, diametri 5-8 mm-dir. Əsasən zirvədəki qalxanşəkilli çiçəkləri xammal kimi toplanılır. Bütün çiçəkləri sarı, boruşəkilli, yarpaqları isə tərs yumurtavari-neştərşəkillidir. Meyvələri uzunsov toxumludur.



Çiçəklərinin rəngi sarı, pərdəli qonur-yaşıl, spesifik iyli, ədviyyəli və acı dadlıdır.

Bikinin köklərinin toplanması qadağandır. Müəyyən massivlərdən bitkinin toplanılmasına ildə bir dəfə icazə verilir. Meşə və meşə-çöl zonalarının açıq yerlərində yaşayır. Çəmənlik,

çöl kənarlarında, meşə talalarında, pöhrəliklərdə daha çox rast gəlinir.

Çiçəkləyən zaman toplanılmalıdır. Avtomobil və dəmiryolu kənarlarında olan bitkilər çirkləndiyindən toplanılması məsləhət görülmür. Xammalı çardax və naveslərdə, yaxşı ventiliyasiyalı yerlərdə və ya $40^0$Ctemperaturda quruducu şkafda qurudulmalıdır.

Xammal və digər hissələri quru, havalı yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Çiçəklərinin tərkibində kifayət qədər flavonoidlər (apigenin, lyuteolin, kverçetin, akaçetin, izoramnetin və onun qlükozidləri), efir yağları və başlıca komponent olan tuyon və izotuyon, aşı və acı maddələri vardır.

Ödqovucu və antihelmint dərmandır. Çiçəkləri antihelmint (askarid və bizquyruq), antiləmbilə, ödqovucu, spazmalotik və büzücü xassəyə malikdir. İştahın artmasında, hipersekresiyada, hepatitdə qaraciyər funksiyasının artması zamanı, insektisidlərlə mübarizədə bakterisid və bakterostatik təsirin artması zamanı işlədilir.

Xammal çiçək səbəti hesab olunur. Bitkini çiçəkləyən zaman toplamaq lazımdır. Tərkibində efir yağları (0,3%), çoxlu miqdarda β tuyon, aşı maddələri, qlükozid, vitaminlər, kamfora, borneol, pinen, α tuyon və tuyol maddələri vardır. Çiçəkləyən zaman tərkibində efir yağları, acı, aşı maddələr, flavonoidlər (lyutenolin, kversetin), üzvi turşular, C vitamini (8mq%), az miqdarda alkaloidlər, terpenlər daha çox toplanılır.

Bir xörək qaşığı bitkini 0,5 litr qaynar suda dəmləyərək (termosda), içmək lazımdır (sutqalıq doza). 5%-li məhlulu (70-105 ml) gündə 2-3 dəfə mədə və onikibarmaq bağırsaq xorasında qəbul edilir. 5q çiçəkləri 1 litr qaynanmış suda dəmlənilir və gündə 1-2 dəfə qəbul edilir. Revmatizmdə 50 q çiçəklərini 1 litr çaxırda 8 gün saxlamaq lazımdır. Hər dəfə 30-40q günorta və axşam qəbul etmək lazımdır. Qurd əleyhinə hər birindən 8q - yovşan, çobanyastığı və dağtərxunu 250 ml qaynanmış suda dəmləyib, imalə edirlər. Amerikada dağtərxunu və qozla birlikdə

likyor hazırlanır və ətin konservləşdirilməsində istifadə edilir. Təbabət praktikasında çiçəyinin dəmləməsindən askaridoz, enterebioz qara ciyər xəstəliklərində ödqovocu dərman kimi, xroniki xolesistit, hepatit, öd yollarının diskenziyasında, qurdqovucu və ləmbilə əleyhinə, askaridoz, enterebioz və bağırsaq xəstəliklərində geniş şəkildə iştifadə edilir.

Xalq təbabətində sinir xəstəlikləri, epilepsiya, miqren, kəskin infeksion respirator xəstəliklər, ağciyər vərəmi, öd, hepaxolesistit və xolangit xəstəliklərində geniş şəkildə tətbiq edilir. Qan təzyiqini yüksəldir. Dağtərxunu yaxşı qurdqovucu təsirə malikdir. Əsasən askarid və bizquyruq qurdlarını salır. Bitkinin həm də insektisid xüsusiyyəti olduğundan müxtəlif həşəratların qovulmasına kömək edir. Ödqovucu bitki kimi hepatit, xolesistitdə və spazmələyhinə dərman kimi istifadə edilir. Bundan başqa nevroz, epilepsiya, tənəffüs yollarının iltihabı, vərəm, baş ağrısı, öd xəstəliklərində istifadə edilir. Zəhərli olduğundan hamiləlik zamanı istifadə etmək olmaz. Antihelment və insektisid dərmandır.

Elmi təbabətdə bitkinin tərkibində olan efir yağı ən yaxşı qurdqovucudur. Bizquyruq və askarid helmintlərinin qovulmasında effekli dərman sayılır. İngilis təbabətində miqrenin profilaktikasında istifadə edilir. Eksperimental olaraq dağtərxunu hepatitlərdə sekresiyanı artırır, seliyiyin və ödün miqdarını azaldır. Mədə-bağırsaq əzələsinin tonusunu normallaşdırır, Dəmləməsi ürək amplitudasını qısaldır, ürək ritmini azaldır, arterial təzyiq və öd ifrazını isə artırır. Efir yağı qurdqovucu və antimikrob xassəyə malik olmaqla, son dərəcə zəhərlidir. Bolqar təbabətində antiseptik, spazmolotik və qurd əleyhinə dərmandır. Az dozaları mədə-bağırsaq xəstəliklərində işlədilir.

**Əks göstəriş**– Hamiləlik. Bitki zəif toksiki xüsusiyyətə malikdir. Bolqar təbabətində əsəb, mədə spazmında, sidik yollarının iltihabında, böyrəkdaşı, baş ağrısı, podaqra, malyariya xəstəliklərində tətbiq edilir. Fransa təbabətində çiçəkləri

qurdəleyhinə, temperaturasalıcı, tonuslandırıcı və antiseptik xüsusiyyətinə əsasən tətbiq edilir.

## *Bupleurum* L. – Öküzboğan

***Bupleurum multinerve* DC. – Çoxdamarlı öküzboğan** **(**Tamyarpaq öküzboğan, öküzboğan)

**Botaniki xarakteristikası -** Çoxillik, sadə və ya budaqlanan olub**,** gövdəsinin hündürlüyü 70-100 sm olançoxillik ot bitkisidir. Yarpaqları dar, ensiz, neştərvari və ya xətti, aşağı hissəsi saplaqlı, yuxarı hissəsi isə oturaq və həcmlidir. Çiçəkləri mürəkkəb çətir, sarı, sarğı yarpaqları iri olmaqla, enli neştərşəkillidir. Meyvələri tünd-qəhvəyi, sallaq meyvəli, iki merikarpdan ibarət olub, uzunluğu 3-4 mm-dir. İyun-iyul aylarında çiçəkləyir və avqustda isə meyvələri yetişir.



Özünəməxsus iyli olub, dadı müəyyən olunmamışdır.

Bozqırlı çəmənliklərdə, açıq yerlərdə, daşlı yamaclarda, meşə kənarında, enliyarpaqlı və küknar meşələrində, müxtəlifotluq və yüksəkdağlıq bozqırlarda, yüksəkdağlıq alp çəmənliklərində və dağ-tundra ərazilərində yaşayır.

Sənaye əhəmiyyətinə görə Altay, Tuva və Xakassi ərazilərində daha çoxdur. Xammalından daha çox flavonoid almaq üçün istifadə edilir.

Bu bitki çiçəkləmə dövründə, yəni iyunun ikinci yarısından bir aya qədər toplanılır. Bitkinin yerüstü hissəsi, gövdə və kökləri kəsilərək toplanılır**.** Toplanılan xammal kəsilməli, nazik qatlarla sərilməli,yaxşı havası dəyişilən çardax və naveslərdə və ya 50-70ºC temperaturda quruducu şkaflarda qurudulmalıdır.

Xammalın toplanılma düzgünlüyünə riayət edilməli, beləki, toplanılan massivlərdən təkrar toplanılma 2-3 ildən bir aparılmalıdır.

Xammal havası dəyişilən quru yerlərdə, standarta uyğun qablaşdırılaraq, stelajlarda saxlanılır. Saxlama müddəti 5 ildir.

**Tərkibi və təsiri:** Yerüstü hissəsinin tərkibində flavonoidlər (6-8%), kverçetin və izoramnetin (rutin, izoramnetin-3-rutinozid, izokverçitrin) törəmələri vardır. Bundan başqa tərkibində saponinlər, aşı maddələri, efir yağı, karotin və askorbin turşusu vardır. Altay ərazisində olan bu növdə flavonoidlərin miqdarı Avropa hissəsində olan növlərdən 2-5 dəfə çox olur.

Bitkinin dəmləməsi keyfiyyətli ödqovucu dərmandır. Bitkidən alınan «Buplerin» adlı preparatın tərkibində 90%-dən çox flavonoidlər, başlıca olaraq izoramnetin-3-rutinozid (40-55%) olur. Bu preparat kapilliyarotoksikoz, hemorragik diatez, burun qanaxmaları və damar ödemlərinin profilaktikası və müalicəsində tətbiq edilir.

## *Persicaria* Hill – Qırmızıbaş (bibər)

***Persicaria hydropiper* (L.) Spach- (=Polygonum hydropiper L.) – Acı qırmızıbaş subibəri (**Acılıq, istiot-bibər, acı kəkrə, qadın-qurbağa otu, kəkrə)

**Botaniki xarakteristikası:** Birillik ot bitkisi olub, gövdəsi hamar, hündürlüyü 20-50 (70) sm, qırmızımtıl, adətən düzqalxan, əsasından zəif budaqlanan və çox vaxt azacıq buğumlu-əyilmiş olur. Yarpaqları növbəli, uzunsov-neştərvari, itiuclu və ya küt, əsası dar pazşəkilli olmaqla, uzunluğu 3-9 sm, eni isə 0,7-2 sm-dir. Gövdənin sonundakı



çiçəkləri qıfaoxşar, pərdəli, qırmızımtıl, silindrik, yuxarı tərəfi hamar olub, kənarları kirpikciklərlə əhatə olunmuşdur. Çiçək yatağı 4-5 ədəd xətti, 3-4,5 mm uzunluqdadır. 6-8 ədəd erkəkciyi vardır. Meyvələri ikiüzlü qabarıq və ya üçüzlü qara-qonur rəngli, xırda fındıqcıq olmaqla, 2,2-3,0 mm uzunluqdadır. İyun-sentyabr ayında çiçəkləyir, avqust-oktyabr aylarında isə meyvələri yetişir. Təzə yarpaqları yandırıcı dada malikdir. Çiçəklərinin uzunluğu 3-5 mm, sadə, yaşıl-çəhrayı olub, üzərində qonur nöqtələr olur.

Çiçəkləri incə, zərif, yumşaq, sünbüllü fırçalı olub, 4-6 sm uzunluqdadır.

İysiz və yandırıcı dadlıdır. Qurudulduqda çəkisini çox itirir.

Əsas toplandığı ərazilər Şimali Qafqaz, Ukrayna və Belorusiyadır. Rütublətli sututarların sahillərində, çəmənliklərdə, seyrək meşələrdə və meşəkənarı yollarda yayılmışdır.

Bitki çiçəkləmə dövründə torpaqdan 4-5 sm hündür olmaqla, iti alətlə kəsilməlidir. Xammalı nazik qatla sərilməli, çardaxda, yaxşı ventiliyasiyalı yerlərdə və ya 40-50$C^0$ temperaturda quruducu şkafda qurudulmalıdır. Xammal və digər hissələri quru, havalı yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Bitkinin yerüstü hissəsində efir yağı (0,5%), qlükozid, 2-2,5% poliqopiperin, flavonoidlər (ramnetin, izoramnetin, rutin, kverçetin, hiperozid, kempferol), aşı maddələri 4%, üzvü turşular (qarışqa, sirkə valerian və alma), K, E vitaminləri, karotin, askorbin turşusu 0,2%, erqosterin, tokoferol, naftoxinon, asetilxolin, dəmir, şəkər və mikroelementlər vardır. Köklərində antroqlükozidlər və aşı maddələri vardır.

Qankəsici (hemostatik) xassəyə malikdir. Hemostatik dərmandır. Ekstraktının uşaqlıq əzələsinə təsiri heç də çovdar mahmızından zəif deyil. Ağrıkəsici xüsusiyyəti də vardır.

Su bibərinin sulu ekstraktı. 70% etil spirtində (1:1) nisbətində.

Anestezol, hemarroy əleyhinə şam (komponent-ekstrakt).

Bitkinin yerüstü hissəsindən ədviyyəli salat, şorba, souslar hazırlanır. Bir dərman bitkisi kimi qədim yunan və romalılara büzücü, malyariya əleyhinə və qankəsici maddə kimi məlum idi. Müasir tibbdə hemoroy, xroniki endometrit, uşaqlıq fibromioması və ağır aybaşı qanaxmalarda istifadə edilir. Yarpaqlarının tərkibində poliqopiperin qlükozidi, flavonoidlər 2,0-2,5% (kverçetin, kverçitrin, kempferol, rutin, ramnazin), kalium duzu, aşı maddələri, pirokatexin qrupu 3,8%, efir yağı 0,005%, qarışqa, fitoserin, filloxinon, tokofepol, valerian, sirkə turşuları, K vitamini

0,78%, karotin 42,35 mq%, C vitamini 200 mq% və 13% küldən ibarətdir. Maye ekstraktını 30-40 damcıdan gündə bir neçə dəfə, dəmləməsi (12:200) xörək qaşığı ilə gündə 3 dəfə uşaqlıq və hemoragik qanaxmalarda, qadınlarda aybaşı ağrılarında işlədilir.

Təbabət praktikasında bitkinin dəmləməsindən və sulu ekstraktından qankəsici dərman kimi uşaqlığın menopagiya və dismenorreya funksiyalarının pozğunluqlarında və hemorradial qanaxmalarda tətbiq edilir. Çovdar mahmızı ilə birlikdə ağrıkəsici kimi təyin edilir. Dəmləməsi 12:200 nisbətində hazırlanaraq, xörək qaşığı ilə gündə 3 dəfə qəbul edilir.

Xalq təbabətində büzücü ağrıkəsici, hemostatik maddə kimi istifadə edilir. Bundan başqa böyrək daşlarının, ödem, mədə xoraları, ekzema, astma, və tiroid xəstəliklərində müalicəsində istifadə edilir. Yaxşı balverən bitkidir.

**Əks göstəriş** – Qaraciyər xəstəlikləri.

## *Polygonum* L. – Qırxbuğum

***Polygonum aviculare* L. (P. Heterophyllum Lindm.) – Quş qırxbuğumu (**Quş qarabaşağı, quş qızılcığı, quşdili, yaşıl-ot, qazotu, bağayarpağı, quğuotu, ququ quşu, şəfəq, sporış, qaz (quş) qarabaşağı, cənazə arabası, məndəcər otu)

**Botaniki xarakteristikası:** Birillik ot bitkisidir. Gövdəsi budaqlanan, düyünlü, adətən sərilən bitkidir. Yarpaqları çoxsaylı, növbəli, ellipsşəkilli və ya neştərşəkilli, bütövkənarlı, uzunluğu 1-3 sm olub, daralmış qısa saplaqla birləşmişdir. Çiçəkləri kiçik olmaqla, 2-5 ədəd qoltuq tumurcuqları ilə əhatə olunmuşdur. Çiçək yatağı 5 bölümlü, yaşılımtıl olub, kənarları çəhrayı və ya ağ rənglidir. Erkəkciyi 8, dişiciyi qısa sütuncuqlu, az görünən dişicik ağzından ibarətdir. Meyvəsi üçtilli fındıqcıqdır. İyuldan payızın sonuna qədər çiçəkləyir.



Zəif iyli olub, azacıq büzücüdür.

Yaşayış sahələrinə yaxın yerlərdə, yol boyunca, çöllərdə, bostan və örüşlərdə yayılır. Talalarda, çəmənlərdə, kiçik yarğanlarda, yolkənarı kanallarda, dəmiryol və şose yollarına yaxın yamaclarda, meşə və meşə-çöllərdə rast gəlinir. Turş

torpaqların indikatoru sayılır. çətin sağalan yaralarda (trofik yara) tətbiq olunur.

Çoxillik yabanı quşdili bitkisi çiçəkləyən dövrdə çiçəkləri və otu toplanılır və keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir. Çiçəklərini yay ayında toplamaq lazımdır. Yaşayış sahələrinə yaxın, çox çirklənmiş yerlərdən bitkinin toplanılması məsləhət görülmür. Gövdə çiçək və yarpaqları iti oraq və digər kəsici alətlərlə torpaqdan 4-5 sm yuxarı hündürlüyündə toplanılır. Xammal çardax və naveslərdə, yaxşı ventiliyasiyalı yerlərdə nazik qatla sərilməli və ya 40-50$^0$C temperaturda quruducu şkafda qurudulmalıdır.

Qaranlıq, yaxşı havalı yerlərdə stellaj və yeşiklərdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Bitkinin tərkibində flavonoidlər (0,2-1%), xüsusən də avikulyarin və kverçetin, aşı maddələri (1,8-4,8%), askorbin turşusu (900mq%), fenol, karotinoidlər (39mq%) və 1% silikat turşusu törəmələri vardır.

Diuretik və urolitik dərmandır. Tərkibində silikatlar (1,2% həllolmayan və 0,25% həllolan), aşı maddələri (4% qədər), selik, qatran, flavonoidlər, saponinlər, piy və şəkər vardır. Qədim xalq təbabətinə və elmi təbabətə görə keyfiyyətli qankəsici, diuretik və urolitik dərman olmaqla, sidik konkrimentlərini orqanizmdən kənarlaşdırır.Eyni zamanda büzücü, sidikqovucu, iltihabsorucu və antimikrob xassəsi vardır. Avikulyarin qlükozidi qanın laxtalanma qabiliyyətini artırır, uşaqlıq əzələsini tonuslandırır. Xammalından sidik konkrimentlərini çıxaran vasitə kimi tətbiq olunur. M.N.Zdrenko metodu ilə ödqovucu, hepatoprotektor dərman «Hepavit» adlanır.

Ekstrakt. Qarışıq tərkibli preparat «Fitolizin» adlanır.

Quşdili sidikqovucu, iltihabsorucu, büzücü, möhkəmləndirici, qankəsici və ödqovucu təsir göstərir. İshalla müşayət olunan enterkolitdə təyin edilir. Quşdili xüsusilə böyrək və sidikyolu, nefrit, pielonefrit, sistit xəstəliklərində qastrit, qaraciyər, ödyolu

(öddaşı) xəstəliklərində, iltihab etiologiyalı genekoloji xəstəliklərdə, şonsuzluqda, podaqra, vərəm, malyariya, difteriya, raxit və diatez xəstəliklərdə tətbiq edilir. Bir çox qanaxmalarda (mədə-bağırsaq, böyrək, ağciyər və uşaqlıq) və öskürəklə müşayət olunan ağciyər xəstəliklərində tətbiq edilir.

2-3 xörək qaşığı bitkini 2 stəkan qaynanmış soyuq suda qaynayana qədər qızdırmaq lazımdır (sutqalıq doza). Yaz və payızda profilaktik məqsədlə hər gün 2-3 dəfə, hər dəfə 1 fincan qəbul etmək olar. Müalicə kursu bir neçə həftədir. İshal zamanı gündə 3 fincan qəbul etmək məsləhətdir. Bundan başqa revmatizm, podaqra, sidik yolu və böyrək xəstəliklərində, sidik tutulmalarında və babasildə istifadə edilir. Xaricə dəri səpkilərində işlədilir. Bitkinin dəmləməsindən böyrək konkrimentlərinin tökülməsində və iltihabi proseslərdə tətbiq edilir. M.N.Zdrenko miksturası kimi bədxassəli şişlərdə təyin edilir.

Xalq təbabətində maddələr mübadiləsini normallaşdıran bitki kimi böyrək və öddaşı xəstəliklərində tətbiq edilən tərkiblərə daxildir. Bitkidən hazırlanmış təzə sokdan əsasən yanıqların müalicəsində istifadə edilir.

**Əks göstəriş** – Hamiləlik.

## *Ononis* L. - Ononis (Paxlakolu)

***Ononis arvensis* L. - Əkin ononisi (**Möhkəm (polad kimi) paxla, əkin paxlası, paxlakol ononis, buğa kökü, öküz otu)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Gövdəsinin hündürlüyü 40-80 sm düzqalxan, budaqlanan, tikanlı, bəzən tikansız olur. Kökü oxabənzər, 100 sm-ə qədər uzunluğunda, budaqlanan, yuxarıya doğru keçici olmaqla, qısa çoxbaşcıqlı kökümsovdan ibarətdir. Yarpaqları üç hissədən ibarət qovuşuq, metalabənzər parıltılı, kənarları dişcikli, oval və ya uzunsov-ellipsşəkilli, uzunluğu 1,5-3 sm, eni isə 0,5-1,5 sm, yapışqanlı, özünəməxsus iyli olmaqla, saplaqlıdır. Yuxarı yarpaqları aşağı yarpaqlarından xeyli kiçikdir. Çiçəkləri qısa, yan budaqlarında sıx sünbül çiçəkqrupu vardır. Kasacığının uzunluğu 10 mm, 6 ləçəkli, kəpənəkçiçəkli, uzunluğu 15-20 mm, çəhrayı, çəhrayı-ağ və ya ağ, enli yumurtavari, tükcüklü, azacıq şişkin, uzunluğu 7mm, eni isə 5-6mm-dir. Zəif iyli, şirin-acıtəhər dadlı və büzücüdür.



Çəmənliklərdə, çay kənarlarında şumlanmış yerlərdə, kanal ətrafında və kolluqlarda yayılmışdır. Ukrayna və Krasnodar vilayətində mədəni şəkildə becərilir.

Kökləri payızdan çiçəkləmənin sonuna qədər toplanılır və keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir. Xammalı çardax və naveslərdə, yaxşı ventiliyasiyalı yerlərdə nazik qatla sərilməklə 1-2 sutqa ərzində qurudulmalı və ya 40-50$^{0}$ Ctemperaturda quruducu şkafda qurudulmalıdır.

Qaranlıq, yaxşı havalı yerlərdə stelaj və yeşiklərdə saxlanılmalıdır. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Köklərinin tərkibində izoflavonoid qlükozidlər – ononin (aqlikon-formononetin) və onospin (aqlikon-onogenin), tetrasklik triterpen spirti onoçirin vardır. Köklərində aşı maddələri (0,4%), limon turşusu, efir yağı (0,02-0,1%), qatran və mineral duzları 10%, kalium, natrium, kalsium, maqnezium, dəmir, xlor, kükürd, fosfor və silisium vardır.

Hemostatik,diuretik və işlədici dərmandır. Bitkinin kökündə izoflavonoidlər (ononin, formononetin, onogenin), aşı maddələri və efir maddələri vardır. Köklərindən hazırlanan spirtli məhlulun diuretik, hipotenziv, kardiotonik, qankəsici, sidikqovucu, ödqovucu, kapliyar möhkəmləndirici və iltihabsorucu xüsusiyyətləri vardır. Tərkibindəki flavonoidlərin, triterpen spirti onserin və izoflavonoid qlükozidi ononinin təsirindən yandırıcı əleyhinə xüsusiyyəti vardır.

Təbabət praktikasında babasildə bitkinin dəmləməsindən qankəsici və iltihabi proseslər zamanı tətbiq edilir. XVI əsrdən Avropa ölkələrində və Rusiyada farmakopeyaya daxildir. Adətən hemorroyda, düz bağırsaq çatlarında, postdezinteriya və proktoloji qəbizliklərdə, dəmləmə və cövhər şəklində işlədilir. Düz bağırsağın yüksək tonusunda, hemorriadal venalarda, ağrılı defekasiya aktlarında təyin edilir. Tromboflebitdə, varikoz genişlənmiş flebotrombozlarda müvəffəqiyyətlə işlədilir.

## *Equisetum* L. – Qatırquyruğu

***Equisetum arvense* L.- Çöl qatırquyruğu** (Şam ağacına oxsar, tez böyüyən, tez uzanan at quyruğu, təkançı)

**Botaniki xarakteristikası:** Çoxillik sporlu ot bitkisidir. Kökümsovu incə, zərif olmaqla, horizontal istiqamlətdə dayanır. İki tip gövdəsi vardır. Erkən yazda qonur, boz və ya qırmızımtıl, şirəli, budaqlanmayan gövdəsinin hündürlüyü 20sm-ə qədər olmaqla, zirvəsində sporlar daşıyan sünbülcükləri olur. Sporlar yetişdikdən sonra gövdəsi tədricən məhv olurlar. Əvəzində yaşıl budaqlı, hündürlüyü 50-60sm olan vegetativ gövdə əmələ gəlir. Vegetativ gövdəsi qaba, silindrik, qabırğalı, buğumlu budaqlardan ibarət olur. Qol-budaqları buğumlu, yuxarıya doğru istiqamlətli olub, 4-5 qabırğalıdır. Yarpaqları kifayət qədər inkişaf etməyən, boruşəkilli və dişcikli qından ibarətdir. Dişcikli qını üçbucaq-neştərşəkilli, qara-qonur rəngli, 2-3 ədəd olub, bitişikdir. Budaqları yaşıl və uzun itiucludur. Alaq otu kimi geniş yayılmışdır.



Zəif iyli olub, özünəməxsus azacıq turş dadlıdır.

Mədəni çöl qatırquyruğunun yerüstü vegetativ orqanları toplanılır və keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir.

Yaşıl vegetativ gövdəsi torpaq səthindən 5-10 sm hündürlükdə toplanılmalıdır. Xammal yayda quru havalarda rəngi qaralmağa başladıqda toplanılır. Toplanıldıqdan sonra nazik qatla kölgəli yerlərdə sərilməli, çardax və naveslərdə, yaxşı ventiliyasiyalı yerlərdə və ya 40-50$^{0}$Ctemperaturda quruducu şkafda qurudulmalıdır.

Yaxşı preslənmiş ot tayları şəklində 50kq çəkidə quru, yaxşı hava keçirən yerlərdə saxlanılır. Xammalda 15-16%-dən çox nəmlik olduqda özünəməxsus iy hiss olunur. Saxlanılma müddəti 4 ildir.

**Tərkibi və təsiri**: Bitkinin tərkibində apigenin törəmələri, aşı maddələr, flavonoidlər (lyuteolin, kempferol, kverçetin), acı, qatran, akonit, quzuqulağı və alma turşuları, saponin (ekvizetrin, izokverçitrin, lyuteolin, silikat turşusu (10%), kempferol 7-diqlükozid), karotin, askorbin turşusu (190mq%), az miqdarda alkoloidlər, silikat turşusu (10%) sitosterin və dimetil sulfat vardır.

Diuretik və urolitik dərmandır. Bitkinin kökündə flavonoidlər (kemperol, apigenin, saponaretin, naringenin, dihidrokempferol, dihidrokverçetin), fenol-karbol turşusu, askorbin turşusu, karotin maddələri vardır. Külünün tərkibi 80% silikat turşusundan ibarətdir. Yaxşı sidikqovucu, qankəsici və orqanizmdən qurğuşunu çıxaran dərman bitkisidir. Silikat turşusu və onun duzları sümük toxuması olan kollagenin yaranmasında iştirak edir.

Vegetativ gövdə və budaqları istifadə edilir. İltihabsorucu, dezinfeksiyaedici, sidikqovucu, qankəsici, kardiotonik, orqanizm möhkəmləndirici, yara sağaldıcı və büzücü xüsusiyyətləri vardır. Qatırquyruğu su-duz mübadiləsini normallaşdırır, xolesterini azaldır və orqanizmdən toksiki şlakları (xüsusən qurğuşunla zəhərlənmələrdə) kənar edir. Hipertoniya xəstəliyi, ateroskleroz, podaqra və çətin sağalan yaraların müalicəsində, revmatizm, göz, öddaşı və böyrəkdaşı xəstəliklərində, mədə və bağırsağın şişində, daxili və xarici qanaxmalarda, aşağı ətrafların ödemlərində,

istifadə edilir. Xaricə təyini dərinin xroniki çətin sağalan xorasında və şaçın kəpək verməsində (seborreya) göstəriş sayılır. Sidikqovucu çayların tərkibinə daxildir. Orqanizmin çoxlu ödemli hallarında (plevrit, ürək, böyrək, vərəm, qurğuşunla xronik zəhərlənmələrdə) və podaqrada istifadə edilir. N.A.Traskova və M.N.Zdrenkonun tədqiqatlarına görə bu bitkidən hazırlanan mikstura astma və xərçəng əleyhinə qarşı ən yaxşı vasitədir. 1-2 xörək qaşığı bitkini 2 stəkan qaynar suda dəmləyərək (termosda) qəbul etmək (sutqalıq doza) lazımdır. Təbabət praktikasında bitkinin dəmləmə və bişirməsindən ürək xəstəliklərində sidik kisəsi və sidik yollarının iltihabında yaxşı dərman vasitəsi hesab edilir. Böyrəyin qlomerulonefrit xəstəliyində qəbul edilməsi əks göstərişdir. Dəri səpkilərində, piylənmələrdə, mikrohematuriya, xüsusən vərəm etiologiyalı qanhayxırmada və ağciyər-ürək çatmamazlıqlarında tətbiqi göstəriş sayılır.

Qatırquyryğu 10q, neştərşəkilli bağayarpağı 10q, razyana 5q, kəndalaş çiçəkləri 5q və kəklikotu 5q.

2 çay qaşığı 250 ml suda 15 dəqiqə ərzində dəmləyərək hər gün 2-3 fincan içmək lazımdır.

Xaricə tətbiq etmək üçün məhlul: 4-5 xörək qaşığı bitki 2 stəkan qaynar suda dəmlənilir.

Qatırquyruğu bitkisi: 1,5 qablaşdırılmış bitki suya əlavə edilərək qaynadılır (30 dəqiqə) sonra isə soyudulur və 1 xörək qaşığı gündə 3-4 dəfə qəbul edilir.

Qatırquyruğunun qranulası: 10q qranul (1 xörək qaşığı) qaynar suya əlavə edilərək zəif od üzərində 15 dəqiqə ərzində qızdırılır. 1 xörək qaşığı gündə 3-4 dəfə qəbul edilir.

Xalq təbabəti böyrək və sidikyolu xəstəliyində, müxtəlif etiologiyalı ödemlərdə, podaqra və ağciyər xəstəliklərinin (plevrit, vərəm) müalicəsində işlədilir.

## Dryopteris Adans. s. str. - Ayıdöşəyi

***Dryopteris filix-mas* (L.) Schott - Erkək ayıdöşəyi**

**Botaniki xarakteristikası** - Çoxillik sporlu bitkidir. Kök üstündə olan iri yarpaqlarının uzunluğu 1-2 m-ə çatır. Yerüstü gövdəsi yoxdur. Kökümsovu möhkəm, çəpinə qalxan və ya üfiqi, saplaqlı köhnə (keçən ilki) yarpaqlara malikdir. Kökləri incə, zərif, azbudaqlanan, sərt, qonurumtul seyrək kökümsovdan ibarətdir. Yarpaqlarının saplaqları sıx, qatı, kəsif olub, kürəni-qonur pulcuqlardan ibarətdir. Yarpaq lövhəcikləri tünd-yaşıl, ikiləlakli-bölünmüş, ellipsşəkilli-uzunsov, itiuclu, birinci cərgədə qarşı-qarşıya olmayan, xətti-neştərşəkilli, ikinci cərgədə, kənarları dişcikli kəsilmiş kənarlara malikdir. Sporangiləri (sorus) ikinci cərgənin aşağı yarpaqları bərabərliyində çıxır.



Zəif iyli, şirin-büzücü-dadlı, azacıq xoşagəlməz qıcıqlandırıcıdır.

Kökümovları sentyabr-oktyabr aylarında, vegetasiyası isə aprel-may aylarında yarpaq və kökləri iti bışaqla kəsilərək götürülür. Yeni pöhrələri 20 ildən sonra toplanıla bilər.

Xammal toplandıqdan sonra qurudulur və ya 40°C temperaturda quruducu şkafda aparılmalıdır.

Quru, sərin və havası tez-tez dəyişilən yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri**: Kökümsovun tərkibində floroqlyusin törəmələri (filiksol turşusu, aspidinol, albaspidin, flavospidin turşusu), 7-8% aşı maddələri, nişasta, saxaroza və piyli yağlar vardır.

Antihelmint, böyrək və sidikyolu xəstəliklərindəistifadə edilir. Tərkibindəki filiksan lentşəkilli qurdların qovulmasında iştirak edir.

Kökümsovundan alınan ektraktdan antihelmint kimi müvəffəqiyyətlə tətbiq edilir. Bitkinin bəzən artıq qəbul edilməsi təngnəfəslik, qusma, ishal, baş ağrısı, ürək-damar narahatlığı və tənəffüs çətinliyi yaradır.

## *Centaurea* L. – Güləvər

***Centaurea cyanus* L. – Əkin güləvəri (**Göyçiçək-peyğəmbərçiçəyi, güləvər, göyümçiçək, cadugər, cındırçı, sinoviya, göyümtül)

**Botaniki xarakteristikası:** Birillik və ya ikiillik nazik ox və ya milşəkilli ot bitkisi olub, düz kökləri, topaşəkilli tükcüklü gövdəsi olmaqla, hündürlüyü 30-80 sm-ə bərabərdir. Kök üstündə olan yarpaqları bozumtul-yaşıl rəngli, topaşəkilli-tükcüklü, çiçəkləyən zaman ölüşkəyən, gövdə yarpaqları iridişcikli, üst yarpaqları bütövkəkarlı, oturaq və xətti quruluşludur. Gövdənin sonunda yerləşən çiçək səbəti yaxşı inkişaf edir. Çiçək səbəti yarpaqlarla bir-birini kirəmit kimi əhatə edir. Çiçək yatağı yastı, uzun qılçıqlardan ibarətdir. Kənar çiçəkləri cinsiyyətsiz, göyümtül, qıfabənzər, beşbölümlü olub, uzunluğu 2 sm-ə qədərdir. Boruşəkilli (daxili) çiçəkləri ikicinsli, göyümtül-bənövşəyi, olub, uzunluğu 1 sm-ə qədərdir.



Meşə və meşə-çöl zonalarında, buğda və digər taxıl bitkilərinin (payızlıq və yazlıq) əkin yerlarində və zibilli yerlərdə yaşayır.

Birillik ot bitkisi olan yabanı peyğəmbərçiçəyinin borşəkilli çiçəkləri toplanılır və keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir. Çoxillik yabanı və mədəni şəraitdə əkilən göyçiçəyin yaz və ya payız aylarında kök və gövdələri toplanılır. Qurudulma tez bir zamanda – çiçəklərin qalınlığı 1-2 sm olmaqla kağız üzərində sərilməklə kölgədə aparılmalıdır. Qurudulma günəş altinda aparılarsa, xammalın rəngi avazıyır və keyfiyyəti aşağı düşür. Quruducu şkafda 50-60°C temperaturda tez bir zamanda aparılması daha yaxşıdır. Bu halda quru xammalın çıxım faizi 20% olur. Zəif iyli, özünəməxsus ədviyyəli dadlıdır.

Yaxşı havalı qaranlıq yerlərdə stellaj və yeşiklərdə saxlanılmalıdır. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Tərkibində antosian qlükozidi (sianin) və sentaurin maddələri vardır. Kimyəvi tərkibi tam öyrənilməmişdir. Tərkibində sentauren glikozidi, sianin antosian glikozidi, efir yağı, acı, aşı maddələri, saponinlər, mineral duzlar və digər maddələr vardır.

Diuretik dərmandır. Xammal, əsasən kənar çiçəkləri və çiçək yatağı hesab olunur. Bitkinin çiçəklərində antosian (sianin, sianidin-3,5 dihidroqlükozid), pellarqonidin qlükozidi, flavonoidlər (apigenin, lyuteolin, kverçetin və kempferol) aşı maddələri, pirokatexin qrupu, kumarin (çikornin), acı qlükozidlər, efir yağı, polisaxaridlər və askorbin turşusu vardır. Çiçəklərinin dəmləməsi yüksək diurez yaratmaqla, ödqovucu, antimikrob və spazmalotik xüsusiyyəti də vardır. Klinik-eksperimental təcrübələrdə böyrəkdaşı xəstəliklərində diurezi artıraraq qanda maddələrin konsentrasiyasını aşağı salır, daşabənzər kristalların (kalsium, qeyri-üzvi fosfor, sidik turşusu konkrimentləri) böyüyərək daşa çevrilməsinin qarşısını alır və sidik turşusunun qatılığının azalmasına kömək edir.

Bitkinin kənar çiçəkləri istifadə edilir. Sidikçıxarıcı yolların xəstəliklərində, xüsusən qlomerulonefrit (böyrək parenximasını qıcıqlandırmır) xəstəliyinin müalicəsində tətbiq edilir. Bitkinin

çiçəkləri sidikqovucu çayın tərkibində olur. Göyçiçəyin tərkibində acı qlükozidlər vardır ki, bu qaraciyər xəstəliklərinə ödqovucu və spazmolotik təsir göstərir. Tibb praktikasında dəmləməsi və ekstraktı nefrit, sistit, uretrit xəstəliklərində sidikqovucu, qaraciyər və ödyolları xəstəliklərində ödqovucu, difteriyada öskürəyə qarşı, əsəb və mədə xəstəliklərində, uşaqlarda ishal və uşaqlıq qanaxmalarında tətbiq edilir. Qaraciyər və ürək xəstəliklərində yaranan ödemlərdə sidikqovucu kimi istifadə edilir. 1 xörək qaşığı çiçəklərini 0,5 litr qaynanmış suda (sutqalıq doza) dəmləyib, gündə 2-3 dəfə yeməkdən 30 dəqiqə əvvəl qəbul edilir. Təbabət praktikasında bitkinin çiçəklərindən sidik yollarının iltihabında diuretik dərman kimi istifadə edilir. Kök və kökümsovundan (bütöv, kəsilmiş) öskürəkkəsici dərman, bişirmə kimi və işlədici qarışıqların tərkibində tətbiq edilir. Ürək və böyrək xəstəlikləri səbəbindən yaranan ödemlərdə sidikqovucu kimi, sidikyolu xəstəliklərində (pielonefrit, sistit, uretrit), prostat vəzi xəstəliyində diuretik olaraq, iltihab əleyhinə və spazmalotik dərman kimi, maddələr mübadiləsi pozğunluqlarında (böyrəkdaşı və öddaşı) diuretik və duz mübadiləsinin tənzimlənməsində işlədilir. Bundan başqa xolesistit, xolangit, öd yollarının diskenziyasında və hepatitdə təyin edilir.

Xalq təbabətində Göyçiçəyin çiçəkləri və ya yarpaqları digər bitkilərlə qarışıq şəklində göz praktikasında, uşaqlıq qanaxmalarında, xroniki dəri xəstəliklərində - frunkulyoz, ekzema, trofik yaraların müalicəsində müvəffəqiyyətlə istifadə edilir. Malyariya, istisqa (ödem), konyuktivit, təzə yarpaqları dəri yaralanmalarında işlədilir. Bolqar təbabətində dəmləməsindən mədəni tonuslandırıcı və iştahartırıcı dərman kimi istifadə edilir.

**Əks göstəriş**– Hamiləlik. Çiçəkləri az toksikidir.

## *Bidens* L. – Yatıqqanqal

***Bidens tripartita* L.- Üçbölümlü yatıqqanqal** (Üçbölümlü üçbarmaq, pişikdili, keçi buynuzu, bağlama, itcik, üçbarmaqotu, xənazir otu, pişikdili)

**Botaniki xarakteristikası:** Birillik, mil köklü, budaqlanan, nazik və sarı-samanı rəngli bitkidir. Tək gövdəli, düzqalxan, silindrik, qabırğalı olub, seyrək tükcüklüdür. Yarpaqları növbəli, dərin bölümlü, bəzən 6 bölümlü olmaqla, əsasından daralmış, saplağı qanadlı və üst yarpaqları bütövdür. Kənar yarpaqları qeyri-düzgün dişciklidir. Üst



tərəfi demək olar ki, çılpaq, alt tərəfi isə dik tükcüklərdən ibarətdir. Əsas və yan gövdələrdə tək hamaşçiçək-səbətciklər yerləşir. Səbətcikləri yastı və ya yarımşarşəkilli, maili istiqamlətli, yaşıl, sıx, uzunsov-ellipsşəkilli, itiuclu, kənarları kirpikli, daxili cərgədə olan yarpaqları isə sarımtıl-qonur, neştərvari olub, nazikdir. Xarici cərgədəki yarpaqlarının uzunluğu 8 mm, eni isə 3,6 mm-dir. Çiçək altlığı ensiz neştərvari və ya demək olar ki, xətti enli dişli kənarlara malikdir. Bütün çiçəklərinin səbətciyi boruşəkilli və ikicinslidir. Çiçək tacı sarı rənglidir. Meyvələri

yaşıl-qonur, tərsyumurtavari, uzunsov, dördtilli, 2-3 bəzən 4 iti yastılaşmış toxumları vardır.

Özünəməxsus iyli, acı dadlı olub, büzücüdür.

Rütubətsevən bitkidir. Nəmişli, rütublətli yerlərdə, bataqlıq, çay kənarları, sututar və bostanlarda alaq bitkiləri arasında yaşayır. Krasnodar və Ukraynanın Lvov vilayətlərində mədəni şəkildə becərilir.

Yabanı və mədəni birillik ot bitkisi olan üçbarmaq otunun zirvə yarpaqları toplanılır və keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir. Bitkiləri çiçəkləmə fazasında yarpaqla örtülmüş zirvəsi və yan budaqları 15-20 sm uzunluğunda kəsilməlidir. Xammalı nazik 5-7 sm olmaqla, brezent və çadır üzərində kölgəli, yaxşı ventiliyasiyalı çardax və naveslərdə sərilməli və ya 35-40$^{0}$Ctemperaturda quruducu şkafda qurudulmalıdır. Bu halda quru xammalın çıxım faizi 25% olur.

Yaxşı havalı qaranlıq yerlərdə stelaj və yeşiklərdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Tərkibində karotinoidlər (50mq% karotin) aşı maddələr (4,46%), polisaxaridlər acı, selik, flavonoidlər (butein, sulfurein, lyuteolin, çinarozid), kumarin, lakton, aminlər, efir yağları və askorbin turşusu (60-70%) vardır. Bitkidə əsasən manqan ionu toplanır.

Antiseptik,diuretik, ödqovucu və iltihabsorucudur. Bitkidə flavonoidlər, kumarinlər, aşı maddələri, efir yağı, karotinoidlər və polisaxaridlər vardır. Sidikqovucu və antiallergik xassəsi mövcuddur. Tərkibindəki kompleks flavonoid və polisaxaridlər qaraciyəri müdafiəedici və öd stimullaşdırıcı, iltihabsorucu və kapilliyar möhkəmləndirici komponentlərdir. Ferment sisteminə təsir edərək qaraciyər hüceyrəsinin qan dövranı yaxşılaşdırır və müdafiə qabiliyyətini yüksəldir. Ekstraktı antimikrob təsir edərək qrammüsbət bakteriyaları və patogen göbələkləri məhv edir. Bitkidən hazırlanan preparatlar toxumaların trofik qidalanmasını

yaxşılaşdırır, termiki yanıqların sağılmasını tezləşdirir, iltihabsorucu təsir etməklə müdafiə qabiliyyətini yüksəldir.

Bitkinin zirvə çiçəklərindən istifadə edilir. Zəif sedativ, ödqovucu, tərlədici, sidikqovucu, yarasağaldıcı, antiallergik və hipotenziv xüsusiyyəti vardir. İştahasızlıq, qara ciyər, öd yolları, raxit, podaqra, yanıq, çətin sağalan yara, müxtəlif etiologiyalı xora və yolxucu xəstəliklərin müalicəsində işlədilir. Bitki xüsusi dairəvi briketlərdə (*Bricetus herbae Bidentis*) 7,5q buraxılır. Bir paket 1 stəkan qaynar suda 10 dəqiqə müddətində dəmlənilir və hər dəfə 1 xörək qaşığı qəbul edilir. Uşaq praktikasında bitkinin dəmləməsindən diatezlərdə, dəri səpkilərində, seborreyalarda müvəffəqiyyətlə işlədilir. Eyni zamanda sidik və tərqovucu dərman kimi podaqrada tətbiq edilir. Daxilə qəbul etdikdə sidikqovucu, tərqovucu, temperatursalıcı xassəyə malikdir. Psorioz, ekzema, epidermofitiya xəstəliklərində istifadə edilir. Bütün qaşınan dermatozlarda yerli vanna kimi qəbul edilir. Xaricə irinli, trofik yaralarda işlədilir.

Xalq təbabətində yaxşı qantəmizləyici və antiallergik dərmandır. Uşaq və yeniyetmələrin dəri, ekzema, diatez və qızılyel xəstəliklərində tətbiqi yüksək effektlidir. Üçbarmaq bitkisinin uşaq xəstəlikləri praktikasında xaricə tətbiqi olduqca səmərəlidir. Diatez, raxit və ekzema xəstəliklərinin müalicəsi zamanı yaxşı səmərə verir. Yarpaqları ilan sancması zamanı dəriyə qoyulur. Qanın təmizlənməsi, dəri xəstəlikləri və raxitdə: üçbarmaq - 10q, yunan qozu - 5q, üçrəng bənövşə - 20q, pıtraq kökü - 15q, gicitkan çiçəyi - 10q, qara qaraqat yarpağı - 10q və çiyələk yarpağı - 15q olmaqla qarışıq hazırlanır. Bu qarışığın 20 qramını 1 litr suda zəif od üzərində 10 dəqiqə qaynatmaq lazımdır. Gün ərzində böyüklər hər saatda 30q, uşaqlar isə 1 xörək qaşığı qəbul edə bilərlər. Xroniki böyrək xəstəliklərində bu tərkibə ayıqulağı 30q, tozağacı qozası 15q əlavə edilməlidir.

**Əks göstəriş** – Məlum deyil.

## *Calendula* L. – Gülümbahar

***Calendula officinalis* L. - Dərman gülümbaharı**

**Botaniki xarakteristikası:** Mədəni şəkildə yetişdirilən birillik ot bitkisi olub, hündürlüyü 30-50 sm-dir. Əsas kökü budaqlanandır. Gövdəsi düzqalxan, çox vaxt budaqlanan, qısa tükcüklüdür. Yarpaqları növbəli, aşağı hissəsi uzunsov, tərsyumurtavari, yuxarı hissəsi uzunsov-neştərvari və oturaqdır. Səbətciyi tək, zirvəsi böyük olub, çoxçiçəklidir. Zəif iyli, sortəhər-acı dadlıdır.



Gülümbaharın çiçəklərini tam çiçəkləyən zaman horizontal istiqamətdə düzülmüş dilşəkilli çiçəkləri toplanılmalıdır.

Toplanılmış xammal hava dəyişilən kölgə yerlərdə və ya $45^0$C temperaturda ventilyasiya şəraitində quruducu şkafda dərhal qurudulmalıdır.

Quru hava dəyişən yerlərdə (stellayda) saxlanılalıdır. Saxlama müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Çiçəklərinin tərkibində 3% karotinoidlər, askorbin turşusu, flavonoidlər, qatran, selikli maddələr və üzvi turşular vardır.

Sinir xəstəliklərində, şişəleyhinə və hipotenziv dərmandır.

Tərkibində efir yağı, saponinlər, qlükozidlər, karotinoid, kçantofil, acı maddələr, selik, flavonoidlər, ferment və üzvi turşular vardır. Elmi və xalq təbabətində geniş istifadə edilir. Sinir sistemini möhkəmləndirir, arterial qan təzyiqini aşağı salır, ürəyin iş qabiliyyətini artırır, ürək ritmini yavaşıdır, çiban və digər iltihabi xəstəliklərdə müvəffəqiyyətlə işlədilir. Nevrozda, hipertoniyada, stenokardiyada, ateroskleroz və klimaksda təyin edilir. Gülümbahar bakterisiddir. Xüsusən stafilakok və streptokok infeksiyalarına qarşı yüksək fəallıq göstərir. Dərinin şişləri, xərçəngi və ziyillərin müalicəsində tətbiq edilir. Qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi və ödyolları xəstəlikləri xüsusən sarılıq, bağırsaq xəstəlikləri, mensturasiya pozulmalarında, böyrək və sidikyollarının daş xəstəlikləri və xoralı kolitdə istifadə edilir. Mensturasiyadan sonra bir həftə ərzində hər gün 1 fincan bu bitkinin çaynı içmək lazımdır. Məhlulunu hazırlamaq üçün 2 xörək qaşığı çiçəyi 2 stəkan qaynanmış suda dəmlənilir (termosda). 1/2 stəkan gündə 3 dəfə yeməkdən əvvəl qəbul edilməlidir. Qarışıq şəklində gülümbahar, gicitkan, bulaqotu və dəmrovotu ilə birlikdə dəmləməsi mədə yarasının müalicəsində olduqca effektli təsir göstərir. Xarici vasitə kimi 4 xörək qaşığı bitki 2 stəkan qaynanmış suda həll edilib istifadə edilir.

Tinkturasını vəspirtli məhlulunu hazırlamaq üçün 1:10 nisbətində çiçəkləri 70%-li etil spirtində həll edilməlidir. İrinli yaralar, yanıqlar, boğaz xəstəliklərində, anginada qarqara, yuxarı tənəffüs xəstəliklərində 1 çay qaşığı 1 stəkan suda həll edilərək, ödqovucu dərman kimi isə 10-20 damcı qəbul edilir.

Məlhəm «Gülümbahar» (Ung. «Calendula»).

Gülümbahar 20 q, vazelin 90 q. Məlhəm sarımtıl rəngli olur. Yanıqlarda xaricə qəbul edilir. Çiçəklərindən hazırlanan

keyfiyyətli məhlulu antiseptik və iltihabsorucu dərman kimi angina, burun-boğaz xəstəliklərində, məlhəmi isə parez və yanıqlarda təyin edilir. Məhlulu eyni zamanda ödqovucudur.

Xalq təbabətində Şişəleyhinə dərman kimi istifadə edilir. Gülümbahar eyni zamanda ağız və boğaz xəstəliklərində, zədələnmələrdə və trofik yaralarda, genekologiya, eroziyalarda, trixomonad kolpidlərdə işləlilir. İltihab əleyhinə olduğundan göz praktikasında da istifadə edilir.

## *Hypericum* L. - Dazı

***Hypericum perforatum* L. - Yırtılmış dazı (**Yırtıq dazı, qoyunqıran, çobansüzgəci, qaxotu, dəbəlik dazıotu, qana batmış (qanlı), dovşan qanı, dovşan otu, yaralı otu, qırmızı ot, dəliqanlı qanı)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, gövdəsinin hündürlüyü 30-80 sm, ikitərəfli qabağa çıxan qabırğalı, yuxarı tərəfində qarşı-qarşıya düzülmüş yarpaqları vardır. Qarşı-qarşıya düzülmüş yarpaqlarının uzunluğu 1-3 sm, eni 2-8 mmolub, çoxsaylıdır. Çoxsaylı çiçəkləri gövdənin zirvəsində süpürgəvarı və ya qalxanşəkilli çiçəkqupunda toplanmışdır. Səbətciyi 5 bölümlü, tacı 5-ləçəkli olub, uzunluğu 12-15 mm, qızılı-sarı olmaqla, kənarları qara nöqtəlidir. Meyvəsi çoxtoxumlu, 3-yuvalı qutucuqludur.



Subasar çəmənliklərdə, meşə, meşə kənarlarında və pöhrəliklərdə rast gəlinir.

Yabanı və mədəni çoxillik ot bitkisi olan adi dazıotu tam çiçəkləmə dövründə (iyul-avqust) xammal olaraq toplanılır və keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir. Topladıqda zirvəsindən 25-30 sm aşağı kəsmək lazımdır. Xammal kölgəli yerlərdə brezent və çadır üzərində 5-7 sm qalınlığında sərilməli, yaxşı ventiliyasiyalı çardax və naveslərdə və ya 40-60°C-də quruducu şkafda qurudulmalıdır.

Yaxşı havalı qaranlıq yerlərdə stellaj və yeşiklərdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Tərkibində aşı maddələr 10-12%, qatran 10%, katexin, leykoantosianidin, karatinoidlər 55mq%, antrasen 0,4%, hiperisin, psevdohiperisin, protopsevdohiperisin), efir yağları, flavonoidlər, hiperozid (otda - 0,7%, çiçəkdə - 1,1%), rutin, kversitrin, izokversitrin, kversetin), vitaminlər (C, PP, karotin, nikotin turşusu), antosian, spirt, alkaloid, qatran və piqmentlər vardır.

Büzücü, antiseptik, iltihabsorucu və antidepressant dərmandır. Tərkibində flavonoidlər (hiperozid, rutin, kverçitrin, izokverçitrin, miriçetin) antrosen törəmələri (hiperesin, psevdohiperesin), aşı maddələri, efir yağları, karotinoidlər və askorbin turşusu vardır.

Dazıotu xammalı. Büzücü, iltihabsorucu, antiseptik dərman.

Dazıotu qarışığı. Antidiabetik qarışıq - «Arfazetin», «Mirfazin».

Sidikqovucu qarışıq - «Brusniver», «Brusniver-T».

Ödqovucu - hepatoprotektor qarışıq - «Hepavit».

Dazıotu cövhəri. 40% etil spirtdə (1:5) nisbətində büzücü, iltihabsorucu dərmandır.

Novaimanin 1% məhlul. Antibakterial dərmandır.

Deprim həb. Ümumtonuslandırıcı və adaptasiyaedici.

Doppelgerç məhlulu. Antidepressant dərmandır.

Helarium draje. Antidepressant dərmandır.

Heqrustin kapsul. Antidepressant dərmandır.

Yarsin 300, draje (ekstrakt). Antidepressant dərmandır.

Dazıotu kompleks preparatlar. «Sibektan», «Novo-Passit», «Farinqall», «Prostanorm». Ümummöhkəmləndirici eliksir.

Bitkinin yerüstü hissəsi (gövdə, çiçək və yarpaqları). Çox istifadə edilən dərman bitkisidir. Orqanizm möhkəmləndirən, iltihab əleyhinə olub, qankəsici xüsusiyyəti vardır. Miokardit və endokarditdə stimulaedici və spazmolotik maddə kimi işlədilir. Astenik hallarda, nevroz, nevrasteniya, baş ağrısı, halsızlıq zamanı istifadə edilir. İltihabsorucu və ağrıkəsici vasitə kimi tətbiq edilir. Dazıotu mədə-bağırsaq traktı xəstəlikləri (qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, enterkolit, ishal, hemorroy (babasil), xoralı kolit), qaraciyər, ödyolları (xolesistit, öddaşı xəstəliyi, sarılıq, xroniki hepatit) xəstəliklərində işlədilir. Qlomerulonefrit, pielonefrit, sistit, revmatizm, lümbaqo və prostatitdə diuretik, antidipressant, iltihabsorucu dərman maddəsi kimi tətbiq edilir. Bitkinin dəmləmə və bişirməsindən bağırsaqlarda kolit, dəridə yanıq, gingivit və stomatitlərdə təyin edilir. Dazıotu ilə qarışığı qrammüsbət mikroorqanizmlərin və stafilokokkların müalicəsində antibiotiklərlə birlikdə tətbiq edilir. Bundan başqa abses, fleqmona və infiltrativ proseslər zamanı da tətbiq edilir. Son zamanlar dazıotunun antidepressant effekti meydana çıxmışdır. Bundan başqa yüksək psixoemosional həssaslığın və stressin aradan göturülməsində və fotosensiblizasiyaedici kimi xüsusiyyətləri də olduğu təsdiq edilmişdir. Bioloji aktiv maddələrlə (spirt, karotinoidlər, tokoferol) dazıotunun qarışığı iltihabsorucu effekt yaradır. Dəmləməsi keyfiyyətli spazmalotik, büzücü, dezinfeksiyaedici və iltihabsorucu dərmandır. Qastrit, kəskin və xroniki enterit və kolitlərdə, öd yollarının diskenziyasında, xolesistit, öddaşı xəstəliyi, hepatit və meteorizmdə işlədilir. Tonzillit, angina, gingivit və stomatitlərdə dəmləməsi ilə qarqara edilir.

1 xörək qaşığı bitki 1,5 stəkan qaynanmış suda dəmlənilməklə məhlulu hazırlanılır (termosda). Gündə 3 dəfə yeməkdən 20-40 dəqiqə əvvəl 1/3 stəkan qəbul edilməlidir.

Xarici vasitə üçün 2-3 xörək qaşığı bitki 2 stəkan qaynanmış suda dəmlənərək məhlul şəklində qəbul edilir.

2 çay qaşığı bitki 250ml qaynanmış suda dəmlənilir. Gündə 2-3 fincan qəbul edilir. Bir neçə həftə ardıcıl qəbul edilməlidir.

Spirtli məhlulunu hazırlamaq üçün 1:10 nisbətində 70-96%-li etil spirtində 10 gün ərzində saxlanılmalıdır. 30-50 damcı məhlul 1/3 stəkan su ilə qarışdırılır və qarqara edilir.

Yağ (Oleum Hyperici). 2-3 stəkan dazıotu çiçəkləri 200 q günəbaxan yağında həll edilir. Saxlama müddəti qaranlıq yerdə, otaq temperaturunda 2 həftədir.

Rp.: İnf. Herbae Hyperici 10,0 : 200,0
D.S. 1 xörək qaşığı gündə 3-4 dəfə

Rp.: T-ae Hyperici 100 ml
D.S. Qəbul etmək üçün

Xalq təbabətində oynağın mübadilə, infeksion və revmatik etiologiyalı xəstəliklərində, yara, xora və müxtəlif travmalarda, kəskin yolxucu xəstəliklər: vərəm, qızdırma və xoşxassəli törəmələrində işlədilir. Mastopatiyalarda - mastit, qadın cinsiyyət orqanlarının iltihabi xəstəliklərində müalicə üçün yararlıdır. Bitkinin fotosensiblizasiyaedici xüsusiyyətinə görə *vitiliqo* xəstəliyinin müalicəsində, ağız və boğaz xəstəliklərinin müalicəsində, yanıq və yaralanmalarda işlədilir.

**Əks göstəriş** - Qaraciyər nahiyyəsində xoşagəlməz duyğular, ağızda acılıq hıssi, qəbizlik, iştahın pozulması. Qan təzyiqini qaldırdığından hipertoniyaya meyillik zamanı qəbul edilməsi məsləhət görülmür.

## *Gnaphalium* L. – Quruca

***Gnaphalium uliginosum*** **L. – Bataqlıq qurucası (**Qurudulmuş, quruca, qaranquşotu, kəsikot)

**Botaniki xarakteristikası:** Birillik bitkidir. Kökləri nazik və mildir. Gövdəsi nazik (1 mm) hündürlüyü 5-15 (30) sm, adətən əsasından budaqlanan, azca qalxan, topaşəkilli, keçəyəbənzər sarımtıl tükcüklüdür. Yarpaqları sarımtıl tükcüklü, növbəli, kürəkşəkilli-xətti olub, əsası daralmışdır. Səbət çiçək qrupunda toplanmaqla, uzunluğu 4 mm, eşilmiş möhkəm dəstələrdən ibarət olub, budağın sonunda yerləşmişdir. Burulmuş yarpaqları qonur, kənarları pərdəyəbənzər haşiyəlidir. Bütün çiçəkləri borulu, sarımtıl olub, 8-10 səbətdən ibarətdir.



Zəif iyli olub, şortəhər dadlıdır.

Yolların, kanalların kənarlarında, gilli çay kənarlarında, alaqotu olan yerlərdə, göl və bataqlıqlarda yayılmışdır.

Bitki çiçəkləyən dövrdə (iyul-avqust) yetüstü, kök hissələri toplanılmalıdır. Xammal kölgəli yerlərdə 3-5 sm qalınlığında sərilməli, yaxşı ventiliyasiyalı çardax, naveslərdə və ya 40$^{o}$C temperaturda quruducu şkafda qurudulmalıdır. Quru xammalın çıxım faizi 25-30%-dir. Quru yerlərdə, qablaşdırılmış kisələrdə saxlanılır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Tərkibində flavonoidlər 0,2%, karotinoidlər (55 mq%), aşı maddələri, rütubət 13%, kül 20%, üzvü birləşmələr 2%, efir yağı və mineral birləşmələr isə 2%-dir. Əsas bioloji aktiv maddələri flavonoidlərdir: qnafalozid A və B, 7-O-skutelyarin qlükozid, 6-metoksiqlüteolin və onun qlükozidləri aiddir.

Hipotenziv və yarasağaldıcı dərmandır.

Tərkibində flavonoidlər (qnaflazoid A və B) aşı maddələri, efir yağları və karotinoidlər vardır. Hipotenziv təsir göstərərək, periferik damarları genişləndirir və ürəyin ritmini seyrəldir. Yağından yanıq və yaraların epiteli toxumasını tez bir zamanda bərpa etmək üçün istifadə edilir.

Bitkinin dəmləməsindən hipertoniyanın başlanğıc dövrlərində damar genişləndirici vasitə kimi tətbiq edilir. Cövhər və dəmləməsi hiperkinetik tipli qan dövranında yüksək nəticə göstərir. Hipertoniya xəstəliyində β-adrenoblakatr təsir göstərərək yüksək təzyiqi endirir. Mədə və onikibarmağın xora xəstəliyində, qastritdə cövhərindən istifadə edilir. Kəskin və xroniki enteritdə, kolitdə, bakterial və amöb dezinteriyasında çox yaxşı kömək edir. Postdezinterial disfunksiyalarda, proktogen qəbizliklərdə və tenezmlərdə müalicəvi imalə edilir.

## *Viola* L. - Bənövşə

***Viola arvensis* Murr. - Çöl bənövşəsi (**Ətirli bənövşə, ingilis bənövşəsi)

*Viola tricolor* L. - Üçrəng bənövşə (Üççiçəkli bənövşə, alabəzək bənövşə, alabəzək gözlər, ivan-damarya)



**Botaniki xarakteristikası:** Bir və ya ikiillik bitkidir. Gövdəsi sadə budaqlanan, dikduran və ya azacıq əyilmiş, qabirğalı və tükcüklü olub, hündürlüyü 10-45 sm-ə bərabərdir. Yarpaqları qısa yumurtavari-üçbucaqşəkilli və ya uzunsov-yumurtavari, dişcikli, dairəvi, pazşəkilli əsasa malik olmaqla, uzun saplaqlıdır. Yuxarı yarpaqları uzunsov-neştərvari, künclü, kənarları düyünlü, qısasaplaqlı olmaqla, demək olar ki, oturaqdır. Yarpaqları lələkşəkilli-bölünmüş olub, iri paycıqla qurtarır. Çiçəkləri tək, düzgün olmayan əyilmiş uzun çiçək ayaqcığından ibarətdir. Kasacığı 5, xətti-neştərvari yarpaqcıqlardan, əsası fırlı dişciklərdən, 2 yuxarı yumurtaşəkilli, 2 yan ellipsşəkilli, göyümtül-bənövşəyi, aşağı

hissəsi isə iri, dairəvi tozcuqdan tərs üçbucaqşəklli sarı və kənarları bənövşəyi rənglidir. Çöl bənövşəsinin çiçəyinin kənarları kiçik, kasacıq ləçəkləri uzun olmayan, yuxarı ləçəkləri ağ, ortasındakılar isə parlaq-sarı olur. May ayından sentyabr ayına qədər çiçəkləyir.

Zəif iyli, özünəməxsus şirin dadlı və seliklidir.

Meşə və talalarda, çəməklik və çöllərdə, təpəciklərdə, pöhrəliklərdə, alaqotu olan bostanlarda, yol kənarlarında rast gəlinir.

Çiçəkləmə zamanı (may-iyun) toplamaq lazımdır. İti bıçaq və oraqla 5-10 sm hündürlükdə kəsilərək toplanılır. Xammal toplandıqdan sonra günəşli havada çardax və digər qapalı yerlərdə qurudulmalıdır. Süni qurudulma 40°C temperaturda quruducu şkafda aparılmalıdır. Quru xammalın çıxım faizi 20-22% olur. Quru yerlərdə, qablaşdırılmış kisələrdə (3 il) saxlanılır.

**Tərkibi və təsiri:** Tərkibində askorbin turşusu, salisil turşusu (0,087%), selik (9,5%), ursol turşusu, karotinoidlər, saponinlər, acı maddələr, qan təzyiqini aşağı salan maddələr, flavonoidlər (rutin, violantin, C qlükozidlər: viteksin, izoviteksin, orientin, izoorinetin, vionaltin, viçetin-2, antosian: salisil turşusunun metil efiri, karotinoidlər, saponinlər və selik (25%) vardır. Çiçəklərində efir yağı və antosian qlükozidləri (vionaltin, delfidinin 3-qlükozid, peonidin 3-qlükozid), köklərində isə az miqdarda alkoloidlər vardır.

Öskürəkkəsici və sidikqovuvu dərmandır. Otunun tərkibində karotinoidlər, askorbin turşusu, selik, salisil, ursol turşuları, flavonoidlər, saponinlər və digər fenol birləşmələri vardır. Kökündə vieloemadin alkaloidi olduğundan qəbulu zamanı qusma yaradır.

Xammalı bitkinin yerüstü orqanlarıdır. Xammalından məhlul və ekstrakt hazırlanır ki, öskürəkkəsici və sidikqovucu maddə kimi müvəffəqiyyətlə tətbiq edilir. Ağciyər və yuxarı tənəffüs yollarının iltihabı xəstəliklərində, burun-udlaq xəstəlikləri, xüsusən difteriyada öskürəkkəsici dərman kimi istifadə olunur.

Böyrək və sidikçıxarıcı yollarının xəstəliklərində, sidikqovucu və iltihabsorucu dərman kimi müvəffəqiyyətlə istifadə olunur. Tərqovucu və «qan təmizləyici», oynaq, dəri xəstəliklərində, frunkulyoz, səpki, diatez və ekzema xəstəliklərində tətbiq edilir. Oynaq və dəri xəstəliklərində vanna kimi xaricə tətbiq edilir. Otunun dəmləməsi öskürəkkəsici, sidikqovucu olduğundan difteriya və bronxit zamanı istifadə edilir. Son zamanlar bitkinin farmakoloji tədqiqatında onun allergiya əleyhinə aktivliyi aşkar edilmişdir. Tərkibində bioloji aktiv maddələrin çox olması onun kosmetologiya sahəsində də müvəffəqiyyətlə istifadə olunmasına zəmanət verir. Belə ki, dəmləməsini üzə islatma şəklində qoymaqla, sifətdə və saçda yağlı seborreyanı, sıyrıntıları və irinli yaraları müalicə etmək mümkündür.

1-2 xörək qaşığı bitkini 500 ml qaynar suda dəmləyərək (termosda) qəbul etmək lazımdır (sutqalıq doza). Məhlulu (10,0 : 200,0) 1 xörək qaşığı gündə 3 dəfə qəbul edilməlidir.

2 çay qaşığı bitkini 250ml suda 5 dəqiqə ərzində dəmləmək lazımdır. Fincanla gündə 2-3 dəfə (öskürək olarsa tərkibinə bal qarışdırmaq lazımdır) qəbul etmək lazımdır. 24 saatdan çox müddətə içmək məsləhət deyil.

Xalq təbabətində nevroz, ürəkdöyünmə və halsızlıqda istifadə olunur.

**Əks göstəriş** - Qlomerulonefrit, hepatit.

## *Hedysarum* L. -Qəpikotu

***Hedysarum alpinum* L. - Alp qəpikotu** (Sarılıq qəpikotu, qaymaqçiçək qəpikotu, qəpikotu)



**Botaniki xarakteristikası –** Alp qəpikotu çoxillik ot bitkisi olub, hündürlüyü 40-120 sm, yarpaqlı, düzqalxan olmaqla, çılpaq gövdəyə malikdir. Yarpaqları tökülən, cüt olmayan, tək, lələkli-mürəkkəb, 5-9 ədəd qısasaplaqlı, uzunsov-yumurtavari və ya uzunsov-ellipsvari olub, bütövkənarlı yarpaqlardan ibarətdir. Yarpaqları çılpaq və ya kənarları tükcüklü, əsas damarının uzunluğu 3 sm-ə bərabərdir. Yalançı zoğları iridir. Hamaş çiçəkləri 20-30 (60) ədəd, uzun fırçalı, başlıca olaraq uzun yarpaqlıdır. Çiçəkləri tünd-çəhrayı və ya bənövşəyi, bəzən ağ, qısa saplaqlı və xətti çiçək altlıqlıdır. Kasacığı zəngşəkilli olub, çiçək tacı kəpənəkçiçək tipindədir. Meyvələri 1-4 üzvlü paxla, dairəvi və ya dairəvi-ellipsşəkilli, çılpaq və ya açılan sıx tükcüklü, torvari olmamaqla, kənarları yoxdur. İyul-avqust aylarında çiçəkləyir, avqustun sonunda meyvələri yetişir. Sarılıq qəpikotunun hündürlüyü 150 sm olan

çoxillik ot bitkisidir. Yarpaqları 3-5 cüt iri yarpaqcıqlı olub, uzunluğu 4 sm və daha çox olur. Çiçəkqrupu seyrək, birtərəfli fırçalı, 15-35 ədəd sarımtıl ləçəkli iri çiçəkləri vardır. Meyvələri paxlalı 2-4 yastı, uzunsov-ellipsvari, naziktorlu və bütöv kənarlıdır.

Xammal toplanılmış massivlərin təkrar bərpası aqrotexniki tədbirlərə əməl etməklə 1 il çəkir.

İyul-avqust aylarında yarpaqlı gövdəsi 10-20 sm torpaqdan hündür oraqla biçilməlidir. Yerüstü hissələrini topladıqdan sonra kölgədə mütəmadi olaraq qurudulmalıdır. Sonra bitkini döymək, qaba, kobud, yoğun gövdələrini dırmığın köməkliyi ilə toplamaq lazımdır.

Zəif iyli və büzücü dadlıdır.

Xammalı yeşiklərə qablaşdırılmalı və yaxşı hava dəyişilən quru yerlərdə saxlanılmalıdır. Saxlama müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Hər iki növün tərkibində ksantonlar (mangiferin, izomangiferin, qlyükomangiferin), flavonoidlər (hiperozid, polistixozid, avikulyarin), monosaxaridlər (qalaktoza, qlükoza, arabinoza, ksiloza), pektin maddələri, polisaxaridlər və askorbin turşusu vardır. Alp qəpikotu bitkisinin tərkibində makro və mikroelementlər K, Ca, Mn, Mo, Cu, Se tapılmışdır.

Alipizarin həb 0,1 q, məlhəmi 2%, 5% fərdi mangiferindən ibarətdir. Virusəleyhinə dərmandır. «Roqlidis» (ot komponenti).

Virusəleyhinə dərmandır. Ksanton qlükozid manqiferini ingibitasiya etməklə, virus reproduksiya olunaraq onun inkişafına səbəb olur. Virusa qarşı hazırlanan qamma interferon qan hüceyrələrində bakterostatik təsirlə qrammüsbət və qrammənfi bakteriyalara, ibtidailərə və vərəm mikrobakteriyalarına təsir edir.

Alp qəpikotundan hazırlanan «Alpizarin» preparatı fərdi xüsusiyyətə malik manqiferin qlükozidinə görə təsir edir. «Alpizarin» preparatından hazırlanan məlhəm və həblər virusəleyhinə dərman kimi keratit və dermatitlərdə herpes virusu ştammlarını məhv edir. «Roqlidis» (ot komponenti) yaz və payız

dövrlərində respirator xəstəliklərində, xroniki xəstəliklər zamanı ahıl yaşlı orqanizmin zəifləməsində əvəzsiz dərmandır.

## *Cassia* L. - Səna

***Cassia acutifolia* Delile (=Senna alexandrina Mill.)** - İtiyarpaq (Aleksandriya səna, Afrika sənası, itiuclu səna, Misir sənası, səna, kassiya)

**Botaniki xarakteristikası:** Çoxillik yarımkol bitkisi olub, hündürlüyü 1-1,5 m-ə bərabərdir. Gövdəsi budaqlanandır. Yarpaqları cüt lələkvari, növbəli, yalançı zoğu əsasından bizəoxşardır. Yarpaqcıqları demək olar ki, oturaq, neştərvari, bütövkənarlı, zirvəsi itiuclu, əsasından bərabər olmayan, uzunluğu 20-30 mm, eni isə 5-9 mm-ə bərabərdir. Hamaşçiçəkləri qoltuq tumurcuqları fırçayabənzərdir. Çiçəkləri ziqomorf olub, diametri 8 mm, kasacığı 5 kasa yarpağından, çiçək tacı 5 bərabər olmayan sarı rəngli ləçəkdən ibarətdir. Meyvəsi yastı, dəricikli, azacıq əyilmiş olub, uzunluğu 3-5 sm, eni isə 1,5-2,5 sm-ə bərabərdir. Toxumları yası, ürəkşəkilli və sarılımtıl-yaşıl rəngli olur.



Yarpaqları mövsüm ərzində 2-3 dəfə əl ilə toplanılır. Sonuncu dəfə bütün bitki yığılır və yarpaqları çeşidlərə ayrılır.

Plantasiyalarda meyvə və toxumları yetişdikdən sonra əl ilə toplanılır. Xammal naves altında kölgə şəraitində qurudulmalıdır.

**Tərkibi və təsiri:** Yarpaq və meyvələrinin tərkibində antrasen törəmələri, qlükozidlərin sadə monomerləri, sennozid A, B, C və D vardır. Bundan başqa tərkibində flavonoidlərdən kempferol və izoramnetin, selik və qatran olur.

Tərkibində aqlikon ən azı 1,4%, rütubət 12%, kül 12%, gövdə hissəcikləri 10%, üzvi maddələr 3%, mineral maddələri isə 1%-dən çox olmur. Yarpaq və meyvələrinin saxlanılma müddəti 3 ildir.

İşlədici dərmandır. Bitkinin bütün hissələrində flavonoidlər, qatranlı maddələr, selik və digər maddələr vardır. Tərkibində qlükozidlər - qlikoaloemodin, qlikorein, sennozid A və B, sərbəst aqlikon, rein, xrizofanol tapılmışdır. Mədəni yarımkol bitkisi olan sivri yarpaqlı qurudulmuş və döyülmüş səna yarpağı keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir. Yarpaqlarının tərkibindəki işlədici maddələr yoğun bağırsağa təsir edərək reseptorları oyadır, reflektor olaraq peristaltikanı gücləndirir, bağırsaqların funksiyasını normallaşdırır. Qəbul etdikdən 6-12 saat sonra təsir edir. Eyni zamanda bağırsaq vəzilərinə də təsir edir.

Sənanın itiuc yarpaqlı meyvələri müxtəlif vaxtlarda yetişərək və quru halda keyfiyyətli dərman bitki xammalı kimi istifadə edilir. Xammalı keyfiyyətli işlədici dərmandır. Sulu məhlulu xırdalanmış yarpaqlardan hazırlanır. Yarpaqları işlədici və babasil əleyhinə qarışıqların tərkibinə daxildir. İlkin olaraq qəbizlikdə, cərrahi əməliyyatdan sonra bağırsaq atoniyasında tətbiq edilir. Hamiləlik və südvermə (laktasiya) dövründə işlədilməsi əks göstərişdir. Yarpaqları quru ekstrakt və həb şəklində buraxılır. Yarpaqlarının tozu biyan kökü, razyana kökü və şəkərlə birlikdə babasildə işlədilir. Səna bitkisinin Hindistanda hazırlanan preparatı *senadeiqlaksena* adlanır. Tərkibi sennozid A və B-dən ibarətdir.

## *Aloe* L. – Əzvay (aloe)

***Aloe arborescens*** **Mill. - Ağacşəkilli əzvay** (Ağacabənzər aloe, yüzillik aloe, yüzillik, sabur, əzvay)



**Botaniki xarakteristikası:** Çoxillik həmişəyaşıl, sukkulent bitki olub, 4 m-ə qədər hündürlüyə malik olur. Gövdəsi budaqlanan seyrəkyarpaqlıdır. Yarpaqları lətli, növbəli, gövdənin yuxarı hissəsi çətirəbənzər, qılıncabənzər, kənarları dişcikli və tikanlı, yuxarı hissəsi çökük, aşağı hissəsi isə qabarıq olub, uzunluğu 20-65 sm, eni 3-6 sm, qalınlığı isə 1,2-5 sm-ə bərabərdir. Çiçəkləri iri (4 sm-dən böyük), çəhrayı, əyilmiş, sadə tac olub, silindrik fırçadan ibarət, uzunluğu 20-40 sm olur.

Gürcüstanda çöl şəraitində aprel-noyabr aylarında becərilir. Soyuqlar düşdükdə üstü örtülür.

Yayda mütəmadi olaraq gövdəsi, orta və aşağı yarpaqları toplanılaraq şirəsi çıxarılır. Toplanılan gövdənin qalınlığı 12 mm, uzunluğu isə 3-15 sm olmalıdır. 3-4 saatdan gec olmayaraq şirəsi çıxarılmalıdır. Təzə yarpaqları və yan gövdələri yeşiklərə yığılaraq bağlanılır. Təzə çəkilmiş şirəsi tünd rəngli şüşə qablarda saxlanılmalıdır.

Zəif iyli və özünəməxsus acı dadlıdır. Yarpaqları qırışıq, deşik-deşik, bozumtul-sarı qınlı, kənarları dişcikli olmaqla, zərif və tezsınandır. Çiçəklərinin rəngi yaşılımtıl-sarıdan, bozumtul-qəhvəyiyə qədər dəyişir. Özünəməxsus zəif iyli olub, acı dadlıdır.

Toplanılan xammal 24 saatdan gec olmayaraq zavoda göndərilməlidir. Quru yarpaqları işıqdan qorunmalıdır. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri**: Köklərində antrasen törəmələri 3%, rütubət 13%, kül 10%, digər orqanlarla birlikdə yarpaq və gövdə hissəcikləri 1,5%, üzvi və mineral birləşmələr isə 1%-dən çox deyildir.

Toxumaların regenerasiya stimulyatorudur. Adaptasiyaedici və ümumi stimullaşdırıcı dərmandır.

Aloedən hazırlanan dərman biostimulyator və immunitet əmələgətirici kimi orqanizmin funksiyalarını yüksək səviyyədə müdafiə edir, toxumaların təminat proseslərini gücləndirir. Xaricə tətbiq etdikdə yarasağaldıcı, iltihabsorucu, radioprotektor xüsusiyyətlərini normallaşdırır. Aloenin dəmirlə birlikdə şərbəti qanyaradıcı xüsusiyyətiə malikdir. Yarpaqlardan hazırlanan şirə bakteriostatik və bakterisid təsir etməklə, müxtəlif qrup mikrobları (stafilokokk, streptokokk, bağırsaq çöpü, difteriya) məhv edir. Dərman məqsədilə 2-4 illik bitkidən istifadə edilir. Bitkidə antrasen törəmələri, başlıca olaraq aloe-emodin qlükozidləri – aloin, naqoloin, aloinovil A və B maddələri vardır. Tərkibində antraqlükozidlər, aqlikon, qatran, efir yağları, ferment və vitaminlər vardır. Aloenin təzə dərilmiş yarpaqlarından hazırlanmış sok “*sabur*” adlanır.

Hələ 3000 il bundan əvvəl qədim Misir və Yunanıstanda irinli yaraların müalicəsində istifadə edilirdi. Biostimulyator kimi hüceyrənin yenilənməsində iştirakı ilk dəfə rus alimi V.P.Filatov tərəfində sübut edilmişdir. Eyni zamanda mədə və onikibarmaq bağırsağın xorasında tətbiq edilir. Linimenti dərinin şüa xəstəliyində bədxassəli törəmələrində, dermatit, ekzema, neyrodermit, yanıq, trofik yara, infiltrasiyalaşmış yaralarında,

osteomielitin açıq irinli ocaqlarında, abses və fleqmonalarda işlədilir. Alimin hazırladığı biogen stimulyator oftolmologiya sahəsinə böyük uğur gətirmişdir. Aloe bitkisi geniş şəkildə göz (miopatiya, blefarit, konyuktivit, keratit, irit) və burun-boğaz xəstəliklərində, yanıq, infiltrativ yaralarda, dərinin infeksion, şüa və qurdeşənəyi xəstəliklərinin müalicəsində istifadə edilir. Çox geniş şəkildə mədə-bağırsaq xəstəliklərinin - xroniki qastrit, kolit, onikibarmaq bağırsağın xora xəstəliyində, mədə-bağırsağın spazmında, qəbizlikdə müvəffəqiyyətlə tətbiq edilir.

Təbabət praktikasında müxtəlif məqsədlər üçün istifadə edilir. Tərkibində spazmolotik və sidikqovucu maddələr, fosfat, kalsium və maqnezium olduğundan sidiyin tərkibindəki konkrimentlərin çıxarılmasına olduqca yaxşı təsir göstərir. “Sistenal” adlı preparatından böyrəkdaşı və podaqra xəstəliyində tətbiq edilir. Ən çox istifadə edilən dəmir-əzvay şərbətidir. Əsasən Dağıstanda, Azərbaycanın şimali-şərq (Quba, Qusar) zonalarında kökümsov və kökləri xammalı kimi toplanılır.

Qarışıq sok (kaqor) bal və çaxırla birlikdə (200q sok, 300q bal, 350q çaxır) hazırlanır. Qarışıq 5-7 gün otaq temperaturunda qaranlıq otaqda saxlanılır. 1-2 çay qaşığı gündə 3 dəfə yeməkdən əvvəl qəbul edilir. Müalicə kursu 3-4 həftədir.

Preparat - Tibb praktikasında məhlul, sok və sirop səklində işlədilir. Məhlul aloe (sabur) - 10-20 damcı gündə 3 dəfə, sok səklində 1 çay qaşığı gündə 2-3 dəfə yeməkdən əvvəl, aloe şirəsi dəmirlə 30 damcı gündə 2-3 dəfə, quru ekstrakt şəklində isə 1 həbi gündə 2 dəfə qəbul edilir.

Xalq təbabətində nevroz, etiologiyası məlum olmayan baş ağrılarında istifadə edilir. Sokunun bal və çaxırla qarışığı xroniki bronxit, pnevmoniya, patoloji klimaksda, amonoreyada, iltihabi xəstəliklərdə və ağciyər vərəmində müvəffəqiyyətlə işlədilir. Sokunun qəbulundan 8-10 saat sonra zəif islədici təsir göstərir.

**Əks göstəriş** - Qara ciyər, öd, böyrək və sidik yolları xəstəlikləri, ishal, qanaxma, hamiləlik və ağır ürək-damar xəstəlikləri.

## *Rheum* L.–Rəvənd

***Rheum palmatum*** **L.- Ovucabənzər Tanqut rəvəndi** var. tanguticum Maxim (Tanqut rəvəndi, rəvənd)



**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, hündürlüyü 1,5-2,5m-ə bərabərdir. Gövdəsi düzqalxan zəif budaqlanan, dolğun (4-5 sm diametrli), çılpaq, şirəli, silindrik, daxili içiboş oyuqlu olub, yuxarı hissəsi kiçik şırımlıdır. Kökətrafı yarpaqları iri, yumurtaşəkilli, 5-7 pərli, uzun saplaqlı olub, uzunluğu 1m-ə bərabərdir. Saplağı lətli olub, uzunluğu 30 sm-dir. Gövdə yarpaqları kiçik, növbəli, saplaqlı, yumurtavaridir. Çiçəkləri düzgün, kiçik, yaraşıqsız, düzqalxan, piramidal, çoxçiçəkli olmaqla, süpürgə çiçəkqrupunda toplanmışdır. Çiçək yatağı sadə, tacabənzər, 6 bölümlü, ağımtıl-çəhrayı və ya qırmızı rənglidir. Meyvələri 3 tilli, uzunluğu 6-9 mm, qırmızı-qonur rəngli olub, qabırğalıdır. İyun ayında çiçəkləyir, iyul ayında isə meyvələri yetişir.

Açıq və gübrələnmiş yerlərdə daha çox rast gəlinir.

Kökləri Tyan-Şanda erkən yazda və ya payızda 4-5 yaşında, Çində isə 8-12 yaşında toplanılır. Bu halda 4-9 kq xammal (kök)

toplamaq mümkündür. Kökləri soyuq suda yuyulur, odunlaşmış, xarab olmuş, korlanmış, zədələnmiş hissələri təmizlənilir və uzunluğu 15 sm, qalınlığı isə 3 sm olan hissələrə bölünərək, yaxşı havalı yerlərdə və ya 60°C temperaturda quruducu şkafda qurudulur.

Özünəməxsus iyli, acı dadlı və büzücüdür. İşıqdan qorumaqla quru, havalı yerlərdə saxlanılmalıdır. Saxlanılma müddəti 5 ildir.

**Tərkibi və təsiri:** Tərkibində antraxinon, antraqlükozidlər (6%), sərbəst aqlikon (reumemodin, xrizofenol, rein), aşı maddələr (6,7-10,6%), qatran, tannoqlükozidlər (10%), rutin, üzvi turşular və katexin maddələri vardır. Tərkibində antrosen törəmələri rein, aloeemodin, franqulaemodin, xrizafanol, fisçion, antron, antronol, hetero və diantronlar (palmidin A, B, C, D, reidin A, B, C, sennidin C) tapılmışdır. Bundan başqa köklərində flavonoidlər, acı qlükozidlər, pektin maddələri, qatran və nişasta vardır.

İşlədici (büzücü) dərmandır. Tərkibindəki antrasen törəmələri işlədici kimi bağırsaq peristaltikasını artırır, aşı maddələri isə büzücü, iltihabsorucu və ishaləleyhinə, qatranlı maddələr də işlədici təsir göstərir. Kökləri yüksək dozalarda (0,5-2 q) keyfiyyətli işlədici dərman kimi, kiçik dozalarda (0,05-0,2 q) büzücü və iştahartırıcı dərman kimi işlədilir. İşlədici vasitə kimi təsiri qəbulundan 8-10 saat sonra başlayır. İşlədici təsir başlıca olaraq antrasen törəmələrinin təsirinə görə yaranır. Köklərinin sulu ekstraktında çoxlu miqdarda antraqlükozidlər, spirtli çıxarışında zəngin aşı maddələri vardır.

Rəvənd kökü xammalı. İşlədici dərmandır.

Rəvənd siropu işlədici dərmandır.

Rəvənd həbi və poroşoku 0,3 və 0,5q. İşlədici dərmandır.

Rəvəndin quru ekstraktı toz və həb.

Bitkinin istifadə orqanı kök və kökümsovlarıdır.

Tərkibində antraqlükozidlər olduğundan qəbul olunduqdan 8-10 saat sonra yoğun bağırsağın peristaltikasını artıraraq işlədici

təsir göstərir. Tannoqlükozidlər büzücü və antiseptik təsir göstərir. Rəvəndı az dozada tətbiq etdikdə büzücü, yüksək dozada isə işlədici təsir edir. Başlıca olaraq güclü sakitləşdirici təsir göstərir. İltihabsorucu, antiseptik, ödqovucu, yelqovucu, möhkəmləndirici və büzücü təsir edir. Xroniki qəbizlik və hemorroyda qəbul edilməsi əks göstəriş sayılır. Adətən spastik qəbizlikdə, bağırsaq atoniyasında, menstruasiya və hamiləlikdə, düz bağırsağın çat və hemorroyunda tətbiq edilir. Hazırlanması yalnız apteklər tərəfindən aparılır.

Rəvənd həbi (Tab. Radicis Rhei) 0,3-0,5 q olub, gündə 2-3 dəfə qəbul edilir.

Quru rəvənd ekstraktı (Extr. Rhei siccum). 0,1 -1,0 dozada qəbul edilir.

Rəvənd tozu (*Pulv. Radicis Rhei*). Böyüklər üçün 0,5-2q, uşaqlar isə 0,1 q dozada qəbul edirlər.

Kökətrafı yarpaqlarının tərkibində franqulaemodin-antranol və xrizofan turşusu, meyvələrinin tərkibində p aminoçitrin, ksantoramnetin, kverçitrin, ramnetin, kverçetin, kempferol, triterpen törəmələri, qatran, üzvi turşular, pektin və digər maddələr vardır.

Fotoelektrokolorimetrik metodla tərkibində antrasen törəməsi olan istizin ən azı 2%, rütubət 12%, ümumi kül 8%, 10% xlorid turşusunda həllolunmayan kül 1%, yetişməyən və inkişaf etməyən meyvələri və kökləri 5%, üzvi maddələri 0,5%, mineral maddələri isə 0,5%-dən çox deyildir.

Tərkibində antrasen törəməsi olan istizin 2%, rütubət 9%, ümumi 8%, 10% xlorid turşusunda həllolunmayan kül 1%, sınmış meyvələri və 0,16 mm ölçüsündə olan hissəcikləri 3%-dən çox deyildir.

**Əks göstəriş** – Yoxdur. Uzun müddət bu bitki ilə müalicə apardıqda bitkiyə qarşı adaptasiya yaranır və müalicəvi təsiri aşağı düşür.

## *Rumex* L. – Əvəlik

***Rumex confertus* Willd.-At əvəliyi** (Turşəng quzuqulağı, quzuqulağı, turşəng, bostan turşəngi, dovşan kələmi, əvəlik)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, hündürlüyü 60-150 sm-ə bərabərdir. Gövdəsi çılpaq, şırımlı olub, yuxarı hissəsi budaqlanandır. Yarpaqları saplaqlı, çətirşəkilli, gövdənin aşağı hissəsinin yarpaqları uzunsov üçbucağabənzər-yumurtaşəkilli, əsası ürəkşəkilli, künclu, uzunluğu 2,5 sm, eni isə 12-13 sm, yuxarı hissəsinin yarpaqları isə yumurtavari-neştərşəkilli olub, əksər yarpaqları kiçikdir. Yarpaqlarının əsasən aşağı hissəsi damarlı və xırda tükcüklüdür. Çiçəkləri demək olar ki, yarpaqsız, sıx, ensiz silindrik, 6 bölümlü olmaqla, yaşıl rənglidir. Meyvələri 3 bölümlü, oval, qəhvəyi fındıqcadır. Qısa şişkinlikli kökümsovları yastı, zəif budaqlanan kökə çevrilir.



Çəmənliklərdə, otlu çay kənarlarında, meşə talalarında, otlaq, əkin yerlərindəki alaq otları içərisində rast gəlinir.

Keyfiyyətli xammal kimi kökləri payız fəslində (avqust-sentyabr) toplanılmalıdır. Xammal yalnız quru havada, günün ikinci yarısında günəşli gündə toplanılaraq, çardaxda, ventiliyasiyalı yerlərdə və ya 50-60°C temperaturda quruducu şkafda qurudulmalıdır.

Zəif iyli, özünəməxsus acı və büzücü dadlıdır.

Quru halda yaxşı havalanan, qaranlıq və işıqdan qorunan yerlərdə saxlamaq lazımdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Köklərində antrasen törəmələri, aşı maddələri, flavonoidlər, üzvi turşular, duzlar, fenol-karbol turşusu, vitaminlər, karbohidrat və digər maddələr vardır. Antrasen törəmələri 0,83-3,16% təşkil edir ki, bunlar da franqulaemodin və onun qlükozidləri şavelin, aloe-emodin, xrizofan turşusu, fisçion, xrizofanein təşkil edir. Aşı maddələri 8-12%, katexin, epikatexin, epikatexinqallat və katexin dimerləri olmaqla, 4,6-16,9% təşkil edir. Flavonoidlərdən isə hiperin, rutin, antosian, leykoantosian, leykosianidin, leykodelfinidin, leykopelaarqonilin, oksalat, limon, alma, qall turşuları və K, C vitaminləri, qlükoza, fruktoza, saxaroza və nişastadan təşkil olunmuşdur.

İşlədici xassəli dərmandır. Tərkibindəki antrasen törəmələri işlədici kimi bağırsaq peristaltikasını artırır, aşı maddələri, büzücü, iltihabsorucu və ishaləleyhinə, qatranlı maddələr də işlədici təsir göstərir.

Rəvənd kökü xammalı. İşlədici (büzücü) dərmandır.

Rəvənd miksturası. M.N.Zdrenko metodu ilə hazırlanan miksturadır.

Yabanı çoxillik bitki olub, kökləri payızda toplanılaraq M.N.Zdrenko metodu ilə mikstura hazırlanır. Kökləri büzücü olduğundan az dozalarla mədə-bağırsaq xəstəliklərində kolit, enterkolitdə, yüksək dozalarda isə işlədici vasitə kimi istifadə edilir. Baytarlıq praktikasında bağırsaq və dəri xəstəliklərində tətbiq edilir. Məhlul və bişirmələr hazırlanır.

## *Rubia* L. – Boyaqotu

***Rubia tinctorum* L. – Boyayıcı boyaqotu (**Qırmızı boyaqotu, boyaqotu)

***Rubia iberica* (Fisch. Ex DC.) C. Koch ( = Rubia tinctorum L. var. Iberica C. Koch) –Gürcü boyaqotu (**Tibet boyaqotu, boyaqotu, krap (boya), marzan, boyayıcı kök, çilli, marzan).

**Botaniki xarakteristikası** – Çoxillk ot bitkisi olub, az və ya çox dərəcədə tüklü, güclü kök sisteminə malik, torpağın dərinliyinə qədər üfqi xətt boyunca gedə bilən kökümsovlardan ibarətdir. Gövdəsi budaqlanan, zəncir halqasına bənzər, dördtilli, kənar hüdudu boyunca tikanlı nahamar olub, uzunluğu 2 m-ə qədərdir. Buğumarası qısa yarpaqlar arasında yerləşir. Çiçək köbəsində olan yarpaqları 4-6 ədəd, neştərşəkilli, ellipsvari və ya yumurtavari olub, əsasından daralmış qısa, saplaqlı, kənarları boyunca damarlı və tikanlıdır. Çiçəkləri kiçik, yaşılımtıl-sarı, 5 dişcikli, çiçək tacı düzgün, yarpaqla örtülmüş çoxlu çiçəkləri süpürgəvari çiçək qrupunda toplanmışdır. Meyvəsi şirəli, bir və ya ikitoxumlu, qara rəngli olub, soku qırmızı rənglidir. İyun-iyul aylarında çiçəkləyir, avqust-oktyabr aylarında meyvələri yetişir. Gürcü boyaqotunda boyayıcı maddələrın miqdarı nisbətən azdır.



Cavan gövdə üzərindəki yarpaqları oturaq, yaşlı yarpaqları isə saplaqlı olur. Yarpaqlarının aşağı hissələri bozumtul tükcüklü, damarlı, kənarları isə qarmaqşəkilli dişciklidir.

Çay sahillərində, kanalların kənarlarında, rütublətli sahillərdə və kolluqlarda bitir.

Toplanılan xammal erkən yazda (mart-aprel) və ya vegetasiyanın sonunda (avqust ayından şaxta düşənə qədər) əllə 20-30 sm dərinlikdə olan kökümsov və kökləri toplanılır. Bütün bu xammalların ən üstünü kökümsovları hesab edilir. Mədəni halda əkilən zaman üçillik kökümsovlarından istifadə edilir. Toplanılan xammalı torpaqdan çıxararaq hissəcilərə bölmək, nazik qatlarla yaxşı havası dəyişilən yerlərdə qurudulmalıdır. Quruducu şkafda 45°C-ə qədər temperaturda qurudulmalıdır. Xammal qurutma zamanı tez-tez çevrilməlidir.

Əkilən plantasiyalarda xammal 2-3 ildən bir toplanılır. Üzümlüklərdə və bağlarda alaqotu bitən yerlərdə hər il toplamaq mümkündür.

**S**pesifik zəif iyli, şirin dadlı olmaqla, azacıq acı və büzücüdür.

İşıqdan qorunmaqla, quru havası dəyişilən yerlərdə saxlanılır.

Quru halda yaxşı havalanan, qaranlıq və işıqdan qorunan yerlərdə saxlamaq lazımdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Boyaqotunun kökümsov və köklərində 5-6% antrasen qrupu törəmələri alizarin, əsas olaraq 2-ksiloqlükozid-rubetitrin turşusundan ibarətdir. Bundan başqa tərkibində flavonoidlər, iridoid və üzvi turşular vardır.

Boyaqotunun quru ekstraktı və həbi (0,25q) istifadə edilir. Spazmolotik, urolitik və diuretik dərmandır. Konbinəedilməş preparat «Marelin» və «Sistenal» adlı tinkturası hazırlanır.

Spazmolotik, urolitik (böyrək və sidik yollarının kiçik daşlarının salınmasında təyin edilir) və diuretik dərmandır.

**Famakoloji tərkibi -** Boyaqotu sidik turşusu konkrimentlərini tədricən kövrəkləşdirərək xırdalanmasına kömək edir. Bu prosesin getməsinə əsasən ruberitrin turşusu təsir edərək,

sidikdə olan fosfor, kalsium və maqnezium duzlarını kövrəkləşdirərək onların parçalanmasını kömək edir. Əsasən bitkinin tərkibindəki boyayıcı maddələr daş və duzların üzərinə çökərək onları kövrəkləşdirir və xırdalayırlar. Bundan başqa bakterisid təsir edərək, kokk florasını məhv edir, əzələ tonusunu azaldır, əksinə eninəzolaqlı əzələlərin tonusunu artırır, böyrək və sidik yollarında olan daş, qum və konkrimentlərin çıxarılmasına kömək edir.

Boyaqotunun quru, həbi 0,25q. Spazmalotik, urolitik və diuretik dərmandır.

Boyaqotunun kombinəedilmiş ekstraktı «Marelin», cövhəri isə «Sistenal»dır.

Böyrəkdaşı xəstəliyində kiçik konkrimentlərin, xüsusən fosfor, kalsium və maqnezium duzlarınının əridilməsində, çıxarılmasında və spazmın götürülməsində istifadə edilir. Qlomerulonefrit, böyrək çatmamazlığı və mədə xorasında bu dərman bitkisi əks göstərişdir.

## *Potentilla* L. – Qaytarma

***Potentilla erecta*** **(L.) Raeuschel (=Potentilla tormentilla Stokes) - Düzqalxan qaytarma (**Dikduran qaytarma, meşə qaytarması, bağlama kök, sarınma, ensiz qaytarma, göbək ot, ishal otu, qaytarma)



**Botaniki xarakteristikası:** Düzqalxan qaytarma çoxillik ot bitkisidir. Gövdə yarpaqları oturaq və ya çox qısa saplaqlı, üç hissədən ibarət qovuşuq, iri, dərin bölünmüş yalançı zoğları, uzunsov-tərsyumurtavari və ya neştərşəkilli, damarlı, sıxtükcüklü, bəzən çılpaq və kənarları bölünmüş dişciklidir. Rozetəbənzər yarpaqları üç hissədən ibarət qovuşuq, bəzən yarılmış, şaqqalanmış, ikiyə bölünmüş, 4 və ya 5-ə çatan, uzun saplaqlı olub, çiçəkləmə zamanı ölüşkəyir və quruyur. Nazik, incə və zərif olan çiçəkli gövdəsi aprel və ya may ayında inkişafa baslayır. Yuxarı hissəsi budaqlanan və azca tükcüklüdür. Çiçəkləri sarı, diametri 1sm-ə qədər olub, ləçəkləri 4 ədəddir. Kökümsovu adətən 5-10 sm, əyri və ya düz formalı olub, silindrik, demək olar ki, şarşəkilli, uzunluğu 2-15 sm, yoğunluğu isə 1-3 sm-ə bərabərdir.

Dağ-meşə, meşə-çöl, meşə kənarı və bataqlıq kənarlarında bitir.

Düzqalxan qaytarmanın 5-10 sm dərinlikdə kökümsovu çiçəkləmə zamanı, xüsusən yazda və son baharda toplanılır. Sonra toplanılan gövdə və kökü soyuq suda yuyularaq tamamilə qurudulur. Xammal havalı yerlərdə, yaxşı ventiliyasiyalı çardaxlarda parça və ya brezent üzərində sərilməli və ya 60°C temperaturda quruducu şkafda qurudulmalıdır.

Zəif iyli, aromatlı olub, güclü büzücüdür.

Quru, havalı yerlərdə saxlanılır. Saxlanılma müddəti 4 ildir.

**Tərkibi və təsiri:** Kökümsovunun tərkibində 15-30% aşı maddələri, kondensləşmiş tannin, sərbəst fenol (pirokatexin və floroglusin), fenol (qall, kofein, para-kumarin) ellaq turşuçu, flavonoidlər, triterpen saponinlər, nişasta, qatranlı maddələr vardır. Çiçəkləmə qurtardıqdan sonra tərkibindəki aşı maddələr azalır. Kökümsovunda çoxlu miqdarda nişasta, qatran və kitrə olur.

Büzücü dərmandır. Tərkibində əsasənkondensləşmiş tannin, flavonoidlər və triterpen saponinlər vardır. Kökümsovu büzücü, bakterisid, iltihabsorucu və qankəsici təsirə malikdir. Yerli iltihabsorucu təsiri tərkibindəki aşı maddələrə görədir ki, bu da toxumalara kimyəvi, bakterial və mexaniki təsir edərək onları iltihabdan qoruyur. Kapilyarların və digər damarların keçiriciliyini azaldır. Bu xassəyə görə orqanizm faringit, stomatit, gingivit, qastrit və enterit xəstəliklərindən qorunur. Orqanizmin iltihaba qarşı müqavimət xüsusiyyətini flavonoidlər qarşılayır.

Kökümsovundan bişirmə şəklində büzücü dərman kimi ishal və burun-qulaq-boğaz xəstəliklərində - gingivit, stomatit, enterit, enterkolit, dispepsiya, dezinteriya, qanaxma yaradan xoralı kolit, qida borusu, qırtlaq, həzm, tənəffüs və digər orqanların xəstəliklərində keyfiyyətli dərman bitkisidir. Bundan başqa angina, xroniki tonzillit, hemarroy, yanıq, ekzema, neyrodermit, dəri və selikli qişaların zədələnmələrində və ayaqların çox tərləməsində işlədilir.

## *Bistorta* Hill – Bistort

***Bistorta major* S.F. Gray** (= *Polygonum bistorta* L.) – İriyarpaq bistort (İriyarpaq bistort, ilankök, ilan kəkrəsi, qumru, xərçəng boynu, ilanaoxşar, dəyənək, düyünlü kök, qarabaşaq-ilanaoxşar, bistort)

***Bistorta carnea* (C.Koch) Kom.** (=*Polygonum carneum* C. Koch) – Ətrəng bistort (İlankök, ilan kəkrəsi, qumru, xərçəng boynu, bistort)



**Botaniki xarakteristikası:** Ətrəng bistorta çoxillik ot bitkisi şişman, dolğun, kökümsov və kökləri çoxsaylı əlavə törəmələrdən ibarət olub, ilanabənzər əyilmələrdən ibarətdir. Adətən bir neçə gövdəsi olur ki, bunlar düz, çılpaq və budaqlanmayan olub, hündürlüyü 30-150 sm-ə bərabərdir. Yarpaqları uzunsov-yumrtavari və ya enli-neştərşəkilli, əsası dairəvi və ya pazşəkilli olmaqla, kənarları tükcüklü, kökümsovu və gövdənin aşağı yarpaqlarının uzunluğu 4-30 sm, eni isə 1-2 sm, saplaqları uzunsov qanadabənzər, gövdənin yuxarı yarpaqları kiçik və ensiz, növbəli, saplaqlı, neştərşəkillidən xətti formaya qədər dəyişir. Qıf kimi ağzı geniş qoltuq tumurcuqları qonur rəngli olub, daxili qarışıqlıdır. Çiçəkləri 3-4 mm, erkəkcikləri 8 olub çəhrayı, çiçək yatağı 5-bölümlüdür. Gövdəsi iri, oval və ya silindrik, sıx, qalın, sünbül

çiçək qrupunda toplanmışdır. Meyvəsi 3-tilli, tünd-qonur rəngli olub, fındıqcadır. Mayın sonunda çiçəkləyir, iyul-avqust aylarında isə meyvələri yetişir.

Sututarların sahillərində, orta dərəcəli yayılan kolluqların pöhrəliklərində, bozqır yerlərdə və meşələrdə bitir. Çəmənlik və otlu bataqlıqlarda, kanal, meşə və kolluq yerlərdə yayılmışdır.

Yayda çiçəklədikdən sonra və ya yazda kökümsovunun ətrafı bel və ya külünglə qazılaraq çıxarılmalıdır. Gövdə və nazik kökləri kəsilərək toplanılır. Xammal kimi kökümsovları və nazik kökləri ventiliyasiyalı çardaxlarda və ya 40°C-də quruducu şkafda qurudulmalıdır.

Quru havası olan və yaxşı mühafizə olunan anbarlarda kisələrdə, apteklərdə isə yeşiklərdə saxlanılır. Saxlama müddəti 6 ildir.

**Tərkibi və təsiri:** Kökümsovunun tərkibində 30% aşı maddələri, fenol və onun törəmələri (qall turşusu, 6 qallqlükoza, 3,6 diqall qlükoza), katexinlər (D katexin, epikatexin və katexin) və ellaq turşuları, para-kumarin və digər maddələr vardır. Çiçəkləri tünd, qırmızımtıl-qonur, sınan zamanı çəhrayı və ya bozumtul-çəhrayı olur. İysiz, güclü büzücü dada malikdir.

Büzücü xassəli dərmandır. Büzücü və orqanizm möhkəmləndirici dərmandır. Təsiri zamanı büzücü, iltihabsorucu və qankəsici xassə göstərir.

Kökümsovundan bişirmə şəklində büzücü dərman kimi bağırsağın xroniki xəstəliklərində, ishal və burun-qulaq-boğaz xəstəliklərində keyfiyyətli dərman bitkisidir. Kökümsovu büzücü, iltihabsorucu və qankəsici xassəyə malikdir. Kəskin və xroniki bağırsaq xəstəliklərində, xüsusən ishalda işlədilir. Stomatologiya praktikasında stomatit, gingivit, xroniki tonzillit və digər ağız-boğaz xəstəliklərində təyin edilir.

## *Sanguisorba* L. – Sincanotu (qaraçörəkotu)

***Sanguisorba officinalis* L. - Dərman sincanotu (**Dərman qaraçörəkotu, əczaçı, qarabaşlıq, qırmızıbaşlıq, qaraot **)**

**Botaniki xarakteristikası:** Dərman sincanotu (qaraçörəkotu) çoxillik ot bitkisi olub, gövdəsinin hündürlüyü 20-100 sm, qabırğalı, çılpaq, düzqalxan olub, daxili içiboş və oyuqludur. Kökümsovu yoğun, üfiqi və oduncaqlıdır. Şişman, dolğun kökləri çoxsaylı əlavə törəmələrdən ibarət olub, ilanabənzərdir. Kök üstündə olan yarpaqları 7-25 ədəd, iri, uzunsaplaqlı, cüt olmayan lələkli, gövdə yarpaqları isə oturaq, tədricən yuxarıya doğru getdikcə azalır. Yarpaqlarının uzunluğu 2,6-6 sm, uzunsov yumurtaşəkilli, itidişcikli, bəzən çəpərli, yuxarı tərəfi tünd-yaşıl, parlaq, aşağı tərəfi isə tutqun-göyümtüldür. Çiçəkləri tünd-qırmızı və ya tünd-purpur, oval uzunsov başcıqlı, oturaq olub, uzunluğu 1,5-3 sm olan bitkidir.



Quru çöllərdə, çaybasar çəmənliklərdə, seyrək meşələrdə, talalarda, kolluq pöhrəliklərdə, bataqlıq və sututarların sahillərində rast gəlinir.

Əsasən Sibir, Ural, Tatarıstan və Başqırdıstan ərazilərindən meyvələr yetişən zaman tünd-qırmızı olduğu zaman (avqust-

sentyabr) toplanılır. Yabanı çoxillik dərman qaraçörəkotunun kökümsovu və kökləri payızda meyvəvermə dövrü (avqust-sentyabr) başladıqda əl ilə toplanılaraq qurudulur və xammal olaraq keyfiyyətli dərman bitkisi kimi istifadə edilir. Xammal kimi günəş altında sərilməli və sonra yaxşı ventiliyasiyalı çardaxlarda və ya 50-60°C temperaturda quruducu şkafda qurudulmalıdır.

İysiz və büzücü dadlıdır. Quru yerdə saxlanılmaqla (5 il), işıqdan qorunmalıdır.

**Tərkibi və təsiri:** Kökümsov və köklərində polifenol kompleksləri, yeraltı orqanlarının tərkibində 12-13% aşı maddələri, qall, pirroqall, katexin, hallokatexin, flavonoidlər və ellaq turşuları, nişasta (29%), saponinlər – sangvisorbin, askorbin turşusu, efir yağları (1,8%), kalisium oksalat (5%), karotinoidlər vardır.

Büzücü dərmandır. Polifenol birləşmələrə görə büzücü, iltihabsorucu, qankəsici və orqanizmi möhkəmləndirici dərmandır. Ləmbilə, trixomonoz kolpiddə, dezinteriya, qarın yatalağı və paratiflərdə təyin edilir.

Kökümsov və köklərindən bişirmə və maye ekstrakt şəklində büzücü, antiseptik və qankəsici dərman kimi mədə-bağırsağın xroniki xəstəliklərində, enterkolitdə, ishal və dezinteriyada, ağciyər xəstəliklərində qanhayxirmada və uşaqlıq qanaxmalarında təyin edilir.

## *Bergenia* Moench - Bergeniya (Badan)

***Bergenia crassifolia*** **(L.) Fritsch. - İriyarpaq bergeniya** (Bataqlıq bergeniyası, gözəl bergeniya, evgenetik, monqol çayı)



**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, yoğun, şişman, sürünən kökümsovu və çoxsaylı saçaqlı kökləri vardır. Gövdəsinin hündürlüyü 50 sm, yarpaqları bütöv, çılpaq, dəricikli, parlaq, qışlayan və kök üstündə çətir şəklində toplanır. Yarpaq lövhəcikləri enli ellipsşəkilli, demək olar ki, dairəvi, əsası girdələşmiş və ya ürəkvari, küt, aydın olmayan dişli, uzun saplaqlı, uzunluğu 3-35 sm, eni isə 2,5-30 sm-ə bərabərdir. Çiçəkləri 5 üzvlü, gövdənin zirvəsində süpürgəvarı-qalxanşəkilli çiçəkqrupunda formalaşmışdır. Ləçəkləri bənövşəyi-çəhrayı, dairəvi-yumurtavarı, əsası qısa və geniş dırnaqcıqlardan ibarətdir.

300-2600 m yüksəkliyi olan meşə, subalp və alp qurşaqlarda, çay sahillərində və sıx iynəyarpaqlı meşələrdə rast gəlinir.

Yabanı çoxillik badanın kökümsovları iyun-iyul aylarında toplanılaraq qurudulur və xammal olaraq keyfiyyətli dərman bitkisi kimi istifadə edilir. Kökümsovları torpaqdan 20 sm hündürlükdə toplanılır, təmizlənir və qurudulur. Qurudulmadan

əvvəl xammal quru hava axınında saxlanılmalı və ya 50ºC temperaturda quruducu şkafda qurudulmalıdır. Xammalın saxlanılma müddəti 3 həftədir. Quru çıxım faizi 30-35%-dir.

İysiz və güclü büzücü dadlıdır. Quru yerdə saxlanılmalıdır. Saxlanılma müddəti 4 ildir.

**Tərkibi və təsiri:** Kökümsovlarının tərkibində aşı maddələri (25-27%), arbutin, katexin, katexin qallat, izokumarin, bergenin (5%), fenol və onun törəmələri, qall turşusu (0,22%), 3,6-diqalloqlükoza, izokumarin, şəkər, nişasta və digər maddələr vardır. Kökümsovunda bolluca nişasta vardır. Yarpaqlarında aşı maddələri (30%), sərbəst polifenol, qall turşusu (22%), hidroxinon, arbutin (12%), flavonoidlər – kverçetin, kempferol və askorbin turşusu vardır.

Büzücü, iltihabsorucu, qankəsici və antimikrob dərmandır.

Kökümsov və köklərindən bişirmə və maye ekstrakt şəklində büzücü və qankəsici dərman kimi bağırsağın xroniki xəstəliklərində, ishalda, kolitlərdə, enterkolitlərdə, stomatit, gingivit və uşaqlıq boynunun eroziyasında keyfiyyətli dərman bitkisi kimi təyin edilir.

## *Capsicum* L. – Bibər (İstiot)

***Capsicum annum* L. – Birillik bibər (**Türk bibəri, qırmızı bibər)

**Botaniki xarakteristikası:** Birillik mədəni ot bitkisi olub, hündürlüyü 30-60(90) sm-ə bərabərdir. Zəif budaqlanan mil köklü, gövdəsi düz və ya girintili-çıxıntılı, aşağı hissəsi odunlaşan tükcüklü, bəzən isə çılpaqdır. Yarpaqları növbəli, uzun saplaqlı, bütövkənarlı və ya oyuqlu, itiuclu, əsası bizəoxşar, yuxarı tərəfi tünd-yaşıl, aşağı



tərəfi isə açıq rəngli, müxtəlif dərəcəli tükcüklü və ya çılpaq, aşağı yarpaqları isə qarşı-qarşıya dayanır. Çiçəkləri tək, sallaq, kasacığı zəngşəkilli və ya qədəhəbənzər olub, 5 qısa dişcikdən ibarətdir. Meyvəsi konusşəkilli, tünd və ya sarımtıl-qırmızı, lətli, şirəli, çoxtoxumlu meyvəli olub, uzunluğu 15-20 sm-dir. Çiçək tacı laylara ayrılan 5-9 pərli bükük, ağ rəngdən çəhrayıya, hətta sarımtıl rəngə qədər dəyişir. Hamar, yalançı meyvəyanlığından ibarətdir. Toxumları yastı, böyrəkşəkilli olub, tutqun-sarı rənglidir

Vətəni Mərkəzi Amerikadır. Tərəvəz kimi min ildən çoxdur ki, becərilir. Amerika kəşf olunduqdan sonra əksər ölkələrdə yayılmışdır.

Becərilən bibər il ərzində bir vegetasiya dövrü keçirən, tərəvəz kimi lətli meyvələri olan, qida kimi yetişməyən meyvələrindən istifadə edilən, ədviyyəli, acı dada malikdir.

Xammal kimi payızın sonunda soyuqlar düşən zaman (ilk donvurma) yeyişmiş meyvələri əl ilə toplanılır. Günəş altında hava axını olan yerlərdə və ya quruducu şkafda 50°C-də qurudulur.

Xammal kimi yetişmiş quru meyvələri tünd-qırmızı və ya sarı-qırmızı rəngli, konusşəkilli, üst tərəfdən parlaq, uzunluğu 5-12 sm, eni isə 2-4 sm olub, meyvələri azacıq yastılanmış, ucu isə əyilmişdir. Meyvələri yastılanmış, 5 dişcikli yaşılımtıl-qonur kasacıqlıdır. Meyvələri daxildən içiboş, yuxarı hissəsi təkyuvalı, aşağı hissədən iki qovuqlu plasentaya bölünən, möhkəm bitişən çoxtoxumlu, böyrəkşəkilli yastı, toxumları olmaqla, diametri 3-5 mm-ə bərabərdir. Qırmızı bibərin tozu selikli qişaya möhkəm hoparaq, yüksək qıcıqlanma yaradır. Ona görə də respiratorla işləmək lazımdır.

**Tərkibi və təsiri** – Meyvələrinin tərkibində alkaloidlər, aromatk amikapsaiçin, vanillilamid 0,03-0,2% miqdarında vardır. Tərkibində 15% kapsaiçin olur. O cümlədən toxumlarının tərkibində 2%-ə qədər olur. Bundan başqa tərkibində karotinoidlər, 1,5% efir yağı, piyli yağlar (toxumlarında 10%), 200 mq askorbin turşusu vardır. Bəzi sortlarının tərkibində isə steroid saponinlər daha çox olur. Meyvələrinin tərkibində mis, sink və selen ionları vardır.

Yerli keyləşdirici və analgetik dərmanlar.

Xammal kimi əsasən toxumları hesab olunur. Birillik mədəni sortlarında acı dadlı yetişmiş quru meyvələri xammal kimi keyfiyyətli dərmandır.Yerli keyləşdirici maddədir.

Bibər cövhəri90% etil spirtində 1:10 nisbətində. Yerli keyləşdirici və yayındırıcı vasitədir.

Bibərin kompleks preparatları. «Kapsin», «Kapsitrin», «Kamfoçin», «Efkamon».

Bibər plastrı. Yayındırıcı və ağrıkəsici dərmandır.

Ekstraktiv maddə və kapsaiçinin kombinəedilmiş dərman preparatları.«Espol», «Nicofleks», «Kapsikam».

Meyvələrindən hazırlanan məhluldan iştahın artırılmasında və nevralgiya, miozit, nevrit və digər xəstəliklərində tətbiq edilir.

## *Colchicum* L.- Vaxtsızot

***Colchicum speciosum*** Stev. - Gözəl vaxtsızot (Vaxtsızot, kolxisin, gözəl ot, payız otu, zəhərli krokus, it soğanı, şeytan əppəyi)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, özünəməxsus inkişaf dövrü vardır. Avqust-sentyabr aylarında çiçəkləyir. Çiçəkləyən zaman yarpaq açmır. Qış zamanı yeraltı orqanları inkişaf edir. Növbəti il baharda eyni zamanda qutucuğu və yarpaqları inkişaf eməyə başlayır. Toxumları iyunda yetişir. Yeni kökümsovlar əmələ gəldikcə, köhnə ana kökümsovları məhv olmağa başlayır. Çiçəkləri iri, bənövşəyi-çəhrayı, hətta ağ, iysiz, 6-10 sm diametrli 6 oval, bükük çiçəkləri vardır. Çiçək borucuğunun uzunluğu 25-40 sm, yarpaqları 4-5 (bəzən 3-6 ədəd) ədəd iri, oval-uzunsov olmaqla, uzunluğu 25 sm, eni isə 5 sm-ə bərabərdir.



Qafqaz dağı silsiləsində, Qərbi Qafqazda, Şərqi Gürcüstanda və Azərbaycanın Talış ərazilərində yayılmışddır.

Yüksək dağlıq qurşaqlarda, yüksək otluq subalp çəmənliklərdə yaşayır. Subalp meşə və meşə-çöl zonalarından

dağlıq ərazilərə qədər hündürlüyü 1800-3000 m subalp çəmənliklərin hündür otluqlarında rast gəlinir.

Yayın sonu və payızda çiçəkləri və kökümsovları xammal kimi toplanılır. Kökümsovları ehyiyatla toplanılmalıdır. Xammalın toplanıldığı sahələrdən təkrar toplanılma 3 ildən sonra mümkün ola bilər.Xammalı çürümək və kiflənməkdən qorumaq lazımdır.

Xoşagəlməyən zəif iylidir.

Xammalı A siyahısında saxlanılır. Qalınlığı 10 sm olan yaxşı havalanan, quru, yeşik və stelajlarda saxlanılır. Üzərində “Zəhər!” yazılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Kökümsovlarının tərkibində alkaloidlər, xüsusən kolxiçin və kolxamin maddələri vardır. Bundan başqa nişasta, mono və disaxaridlər, fenol-karbon turşusu, flavonoidlər, aromatik sıralı turşular, fitosterin və şəkər vardır. Kolxiçinin miqdarı kökümsovda 0,25%, çiçəklərdə 0,8%, toxumda isə 1,2% olur.

Sitostatik (şişəleyhinə) dərmanlar. Tərkibindəki əsas alkaloid olan kolxiçin və kolxamin ətraflı öyrənilmişdir. Bu maddələr hüceyrə zəhəri sayılırlar.

Kolxiçin həb 0,001 q. Antimitotik, urikozurik və iltihabəleyhinə dərmandır.

Kolxamin həb 0,002 q, kolxamin məlhəmi 0,5%. Antimitotik dərmandır.

Kökümsovlarından kolxiçin və kolxamin maddəsi alınır. Kolxiçin və kolxamin şişəleyhinə aktivliyə malik, az zəhərli olmaqla, müalicəvi təsirə malikdir. 0,5% məlhəmi (omain məlhəmi) dəri xərçəngində və vena daxili yolla leykozun müalicəsində tətbiq edilir. Kolxamin xroniki mieloleykozun, tənəffüs yollarının papillomasında, süd vəzi xərçənginin residivlərində, mədə və düz bağırsağın bədxassəli şişlərində, podaqra və amiloidozda təyin edilir.

## *Atropa* L. – Xanımotu

*Atropa belladonna* L. – Adi xanımotu (Qafqaz xanımotu, xanımotu, bihuşedən, məstedən, yuxu dəlibəngi, tatla, bihuşdarı, ağıl çaşırdan, məstedici, azğın albalı).



**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, çoxbaşlı və çoxsaylı iri qol-budaqlı kökü vardır. Gövdəsi yoğun və şirəli bir və ya bir neçə olub, hündürlüyü 1-2 m-ə bərabərdir. Onun kənarları sadə, yuxarı hissəsi budaqlanan, metal parıltılı tükcüklərlə, bəzən isə bənövşəyi çalarlarla örtülmüşdür. Yarpaqları iri, cüt-cüt, növbəli, ellipsvari, yumurtaşəkilli, bütövkənarlı, əsası daralmış və qısa saplaqlıdır. Çiçəkləri olduqca iri, tək və ya qoşa, oturaq, qısa parıltılı-tükcüklü ayaqcığı və tükcüklü yarpaqları vardır. Ləçəkləri 5-dişcikli, qonur-bənövşəyi rəngli və boruşəkillidir. Meyvələri ikiyuvalı, çoxsaylı, şirəli qara parlaq, gilənar böyüklükdə olmaqla, tünd-bənövşəyi şirəsi vardır. Meyvələrinin dadı şirin-turşməzə olub, bütün orqanları və meyvələri zəhərlidir. Qafqaz xanımotunun iri və böyük çiçəkləri, çılpaq gövdəsi və göyümtül rəngi vardır.

Rütublətli çürüntülü torpaqlarda, dağlıq ərazilərin enliyarpaqlı meşələrdə, kiçik yarğan, çay kənarlarında və meşələrin kəsilmiş yerlərindəyaşayır.

Yarpaqları bitki çiçək açan dövrdə toplanılır. Plantasyadan əl ilə bitkinin barvermə fazasında aşağı yarusdakı iri yarpaqları əgər hava imkan verərsə yarpaq və gövdələrini toplamaq lazımdır. Təkrar toplanılma 3-5 ildən sonra aparıla bilər. Gövdəsi kiçik kəsici alətlərlə kəsilir. Kiçik kökləri torpaqdan çıxarıldıqdan sonra onu silkələyərək torpağını tökməli, iri köklərini isə qurutduqdan sonra uzununa kəsmək lazımdır. Xammal 40-45$^0$C temperaturda dərhal qurudulmalıdır.

Xammalı B siyahısında saxlanılır. Yarpaqları hiqroskopik olduğundan quru yerdə saxlanılmalıdır. Saxlanılma müddəti 2 ildir. Yarpaqları astma əleyhinə qarışığın tərkibinə daxildir.

**Tərkibi və təsiri:** Bütün orqanların tərkibində alkaloidlər (tropan sırası), hiosçiamin, rasemat, atropin tapılmışdır. Tərkibində az miqdarda skopolamin, atropin, apoatropin, belladon bəzən isə uçucu birləşmələr vardır. Köklərində rodobelin alkaloidi vardır. Köklərində alkoloidlərin miqdarı – 0,4 %, yarpaqlarda - 0,14-1,2%, gövdədə - 0,2-0,65%, çiçəklərdə - 0,24-0,6%, yetişmiş meyvələrində isə - 0,7%-dən ibarətdir. Bundan başqa xanımotunun yarpaqlarında kumarin qlükozidi olan metileskulin, yarpaq və köklərində kumarin skopoletin olur. Qafqaz xanımotunun yarpaqlarında da çoxlu alkaloidlər (0,7-1%) vardır. Yarpaqlarında steroidlər, fenol və onun törəmələri, flavonoidlər, kverçetin, kempferol, oksikumarin və alifatik spirtlər olur.

Spazmalotik, M-xolinoblakatr dərmandır. Qurudulmuş mədəni çoxillik ot bitkisi olan adi xanımotu və Qafqaz xanımotunun yarpaq və otları, keyfiyyətli xammal və dərman bitkisidir. Farmakoloji effekti, tərkibindəki hiosçiamin (atropin) və skopolaminin olması ilə müəyyən edilir. Mərkəzi və periferik sinir sisteminə təsir edir. Atropin daxili orqanların və mərkəzi sinir sisteminin M-xolinoreseptorlarını blokada edir. Xanımotu və atropin mərkəzi sinir sistemini oyadır, iş qabiliyyətini, əqli və fiziki qabiliyyəti gücləndirir. Ürəyin azan sinirinə təsir edərək, ürəkdöyünmə yaradır. Tənəffüsü stimullaşdırır, bronxları genişləndirir, vəzilərin sekresiyasını azaldır.

Xammalla işləyən zaman ehtiyatlı olmaq lazımdır (zəhərdir(!). Yarpaqlarından ekstrak, dəmləmə hazırlanır ki, bu da spazmolotik və ağrıkəsici təsir edir. Otundan ekstrakt, köklərindən *atropin-sulfat* hazırlanır. Köklərindən həb kimi "korbella", "belloid", draje kimi "bellaspon" hazırlanır ki, titrəyən iflic xəstəliyinin (Parkinson xəstəliyi) müalicəsində istifadə edilir. Mədə və onikibarmaq bağırsaq xorasında, pilorospazm, xroniki hiperasid qastrit, ağrı sindromu ilə müşayət edilən xroniki kolit, spastik qəbizlik, xolesistit, xolangit, öd yollarının diskenziyası, öddaşı xəstəliyi, spazm ilə müşayət edilən böyrək sancılarında istifadə edilir. M-xolinoblokatr kimi, psixatriyada, orqanizmin rezistentliyini saxlamaq üçün şizofreniyada, manikal-depressiv psixozlarda istifadə edilir. Göz praktikasında müalicəvi və diaqnostik məqsədlərdə istifadə edilir.

Yarpaq. Titrimetrik metodla alkaloidlər (qiosçiamin) 0,3%, nəmliyi 13%, 10% xlorid turşusunds həll olunmayan kül 3%, yalnız saplaqlar, oduncaqlar, qaralmış hissəciklər 4%, diametri 3 mm olan müxtəlif hissəcikləri 4%, üzvi və mineral maddələri isə 0,5%-dir.

Ot. Alkaloidlər (qiosçiamin) 0,35%, nəmliyi 13%, yarpaqları 45%, 10% xlorid turşusunda həll olunmayan kül 4%, diametri 3 mm olan müxtəlif hissəciklər 4%, üzvi maddələr 1%, mineral maddələri isə 1%-dən çox deyildir.

Kök. Alkaloidlər (qiosçiamin) 0,5%, nəmliyi 13%, kül 6%, 1 sm diametrində sınmış köklər 3%, üzvi maddələr 0,5%, mineral maddələri isə 1%-dən çox olmur.

## *Hyoscyamus* L. – Batbat (Bəngotu)

***Hyoscyamus niger* L. – Qara batbat (**Bəngotu, tatla, bihuşdarı, solğun-sarı, toyuq korluğu yaradan)

**Botaniki xarakteristikası:** İkiillik bitkidir, birinci il rozet, uzunsov-yumurtaşəkilli, çoxdişcikli və ya girintili-çıxıntılı, lələkşəkilli-bölünmüş yarpaqlar əmələ gətirir. İkinci il 30-60 sm hündürlüyündə, düzqalxan, budaqlanan, silindrik, sıx, metal parıltılı tükcüklü gövdə əmələ gəlir. Gövdə yarpaqları növbəli, uzunsov-yumurtaşəkillidir. Qara bəngotunun yarpaqlarının yuxarı hissəsi tünd-yaşıl, aşağı hissəsi isə sarımtıl-yaşıl, ən yuxarı yarpaqları oturaq, yarpaq və digər orqanlarının xoşagəlməz iyi vardır. Çiçəkləri kifayət qədər iri, zirvədəki gövdə və budaqları qıvrımdır. Çiçək tacı beşdişli, geniş qıfabənzər, tutqun-sarı rəngli, tünd-bənövşəyi damarları vardır. Meyvələri ikiyuvalı, qutucuğu yumurta formalı, yarımşarşəkilli qapaqcığı vardır. Toxumları kiçik, böyrəkşəkilli, torşəkilli deşik-deşik, sarımtıl-qonur rənglidir. Təzə bitkilər, hətta quruduqdan sonra belə ağır bihuşedici iyə malikdir.



Mədən ətraflarında və alaq otları içərisində, küçələrdə, zibilli yerlərdə, yol, bağ, bostan ətraflarında yaşayır. Ukrayna və Rusiyanın Krasnodar vilayətində becərilir.

**Toplanılması və qurudulması** – Bütün iri yarpaqları və çətiri çiçəkləmə fazasından (iyul-sentyabr) payıza qədər toplanılır. Xammal yalnız quru havada toplanılmalıdır. Yarpaqları şeh olduqda, digər göbələk xəstəliklərində, həşəratlarla çirkləndikdə, tozcuq və çirkli havada toplamaq olmaz. Təkrar toplanılma 2 ildən sonra mümkündür. Bütün orqanları zəhərli olduğundan bitkini topladıqda oldquqca ehtiyatlı olmaq lazımdır. Toplanılan xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə, çardaxda 1-2 sm qalınlığında 5-7 gün və ya 40-45$^{O}$C temperaturda, quruducu şkafda qurudulmalıdır. Quru xammal olan yarpaqlarının çıxım faizi 16-18% olur.

Özünəməxsus kəskin iyli və güclü rütubətalıcıdır.

Xammalı B siyahısında saxlanılır. Yarpaqları quru yerdə kisələrdə saxlanılmalıdır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Bütün orqanlarında tropan alkaloidləri vardır. Köklərində 0,15-0,18%, yarpaqlarında (0,04-0,16%) gövdəsində 0,02%, toxumlarında 0,10% alkaloidlər tapılmışdır. Alkaloidlərin əsasını hiosçiamin və skopolamin təşkil edir. Bundan başqa tərkibində - hiosçikipirin, tiosperin, hiospirezin adlı təbii qlükozidlər vardır. Toxumlarının tərkibində 34% piyli yağ tapılmışdır.

Spazmalotik, M-xolinoblakatr, analgetik və yerli keyləşdirici dərmanlar.

Bağırsağın, bronxların saya əzələlərini iflic edir, ödyolu, sidikyolu əzələlərini boşaldaraq spazmı aradan götürür. Vəzi şirəsinin ifrazını tormozlayaraq selik və mədə şirəsini azaldır.

Köklərindən hazırlanan yağ nevralgiya və nevritlərdə, yarpaqlarından hazırlanan "astmatol" və "astmatin" isə astma xəstəliyinin müalicəsində təyin edilir.

Titrimetrik metodla hiosçiamin alkaloidi 0,05%, nəmliyi 14%, ümumi kül 20%, 10% xlorid turşusunda həll olunmayan kül

10%, qaralmış hissəciklər 3%, digər hissəciklər 5%, 3 mm diametrində olan hissəciklər 8%, üzvi maddələr 1%, mineral maddələr isə 1% -dən çox deyildir.

## *Datura* L. – Dəlibəng

***Datura stramonium* L. – Adi dəlibəng (**Bihuşedən, məstedən, yuxu dəlibəngi, tatla, bihuşdarı, azğın ot, səfehedən, hökmdar, ağıl çaşdıran, dəlisov otu, quduzluq-ot)

**Botaniki xarakteristikası:** Birillik ot bitkisidir. Gövdəsi hündür, şirəli, qifabənzər, çılpaq, daxili içiboş olub, çəngələbənzərdər. Xoşagəlməz iyə malikdir. Kökləri mil və ya budaqlı olur. Yarpaqları qısasaplaqlı, iri, növbəli, yumurtayabənzər, girintili-çıxıntılı-dişcikli demək olar ki, qanadlıdır. Çiçəkləri iri, tək, qısa ayaqcıqlı, haçaşəkilli gövdə və yarpaqları vardır. Çiçək tacı ağ 5 dişcikli, qıfabənzərdir. Meyvəsi 4 yuvalı, 4 laylı və sıx örtüklü qutucuqdan ibarətdir.



Mədən ətraflarında və alaq otları içərisində, küçələrdə, zibilli yerlərdə, yol, bağ, bostan ətraflarında yaşayır. Əsasən ləklərdədağınıq şəkildə yayılır.

Çiçəkləməyə yaxın dövrdə toplanılmış mədəni ot bitkisi olan dəlibəngin yarpaqları keyfiyyətli xammal və dərmandır. Təkrar toplama 1-2 ildən sonra mümkündür. Bu bitki zəhərli olduğundan onu topladıqda oldquqca ehtiyatlı olmaq lazımdır. Rütublətli və

soyuq havada toplamaq olmaz. Yarpaqları çiçəkləmədən meyvə yetişənə qədər, quru, açıq havada toplanılmalıdır. Əlcəklə saplaqsız toplanılmalıdır. Toplanılan xammal açıq, kölgəli, ventiliyasiyalı naveslərdə, çardaxda 2-3 sm qalınlığında 5-7 gün və ya $40^{O}$C temperaturda, quruducu şkafda qurudulmalıdır. Quru xammalın çıxım faizi 12-14% olur.

Spesifik kəskin iyli, yarpaqları rütubət qəbuledici, dadı müəyyən olunmayan, xammalı isə zəhərlidir.

Quruducu şkafda qurudulduqdan sonra yarpaqlar quru havalı saxlanılma məntəqələrində saxlanılmalı, xırdalandıqdan sonra qablaşdırmaq lazımdır. Baxmayaraq ki, bu bitki əlcəklə toplanılır, iş qurtardıqdan sonra əllər diqqətlə yuyulmalıdır. Saxlanılma müddəti 2 ildir. Xammal B siyahısında saxlanılır.

**Tərkibi və təsiri:** Bütün orqanların tərkibində alkaloidlər (tropan sırası), hiosçiamin, aşağı dozalarda atropin və skopolamin tapılmışdır. Tərkibində az miqdarda skopolamin, atropin, apoatropin, belladonin bəzən isə uçucu birləşmələr vardır. Az miqdarda alkoloidlər kök və yarpaqlarında, 0,23-0,35% gövdələrində 0,06-0,2%, köklərində 0,12-0,27% alkoloidlər tapılır. Alkoloidlərdən başqa yarpaqlarında aşı maddələri və karotinoidlər tapılmışdır. Toxumlarında 17-25% piyli yağlar vardır. Çiçəkləri yaşıl, zəif iyli olub, dadı təyin edilməmişdir(!).

Spazmalotik, M-xolinoblakatr və yerli keyləşdirici dərmanlar.

Bağırsağın, bronxların saya əzələlərini genişləndirir, ödyolu, sidikyolu əzələlərini boşaldaraq spazmı aradan götürür. Vəzi şirəsini ifrazını tormozlayaraq tər, mədəaltı və mədə şirəsini azaldır. Tənəffüs mərkəzini oyadaraq tonuslandırır. Azan sinirin fəaliyyətini azaldır.

Yarpaqlarından astma əleyhinə hazırlanan qarışıqdan “astmatol” və siqaret kimi “astmatin” bronxial astma xəstəliyinin müalicəsində yaxşı təsir göstərir.

***Datura inoxia*** **Mil. – Hind dəlibəngi (**Bihuşedən, məstedən, yuxu dəlibəngi, tatla, bihuşdarı, ağıl çaşırdan)



**Botaniki xarakteristikası:** - Çoxillik (kulturada birillik) ot bitkisi olub, yabaşəkilli-budaqlanan, qırmızımtıl-bənövşəyi gövdəyə malikdir. Yarpaqları növbəli, enli yumurtavari, dayaz oyuqlu, sıx tükcüklü, uzun saplaqlı, kəskin məstedici iyi vardır. Çiçəkləri tək, düzgün, beşüzvlü, ikiqat çiçək yatağı vardır. Kasacığı boruşəkilli, yaşıl, tacı boruşəkilli-qıfabənzər, ağ rəngli olub, uzunluğu 20 sm-dir. Meyvəsi başı aşağı əyilmiş, demək olar ki, şarşəkilli qutucuqdan ibarət, sıx yumşaq tikancıqlardan ibarətdir. Toxumları çoxsaylı, yastılaşmış, böyrəkvari olmaqla, açıq-sarı rənglidir. İyuldan oktyabr ayına qədər çiçəkləyir, meyvələri isə avqustda yetişir.

Qutucuqları əl ilə toplanılmalıdır. Yetişməmiş şirəli meyvələri toplanılır.Qutucuğu kəsilir, küləş doğrayan maşınla doğranır, günəşin altında və ya 40-50°C-da quruducu şkafda qurudulur. Qutucuqlarından toxumları ayrılır, texnoloji proseslərlə tərkibindəki alkaloidlər alınır.

Xammalında qutucuğu müxtəlif forma və böyüklükdə olmaqla, sıx, iti, nazik, 1 sm-ə qədər uzunluğunda tikanlı, toxumlu və şirəlidir. Özünəməxsus zəif iylidir. Dadını müəyyən etmək olmaz (!).

Meyvə və toxumları B siyahına daxildir. Meyvələrinin saxlama müddəti 1 il, toxumları isə 3 ildir.

**Tərkibi və təsiri:** Bitkinin bütün hissələri tropan sırası alkaloidlərdən (skopolamin və hiosçiamin) ibarətdir. Alkaloidlərin çox miqdarı meyvə və toxumlarının tərkibində olur. Yetişməmiş qutucuğunun tərkibində 0,55%, toxumlarının tərkibində isə 0,31% yüksək keyfiyyətli alkaloidlər vardır.

Skopolamin hidrobromid, toz(substansiya), 0,05%-li məhlul. Mərkəzi və periferik M-xolinoblakatr və sedativ maddədir.

Aeron, həb, 0,0005 q, (skopolamin kamforat 0,0001 q və hiosçiamin kamforat 0,0004 q), M-xolinoblakatr dərmandır.

Xammalındanskopolamin alınır. M-xolinoblakatr dərmandır.

Tərkibində skopolamin alkaloidi vardır. Skopolaminin kimyəvi tərkibi atropindən mürəkkəb efir olan, skopin spirtindən və tropin turşusundan ibarətdir. Skopolaminin mərkəzi sinir sisteminə sedativ təsir edərək, hərəki aktivliyi azaltmaqla, yuxugətirici təsir edir. Periferik M – xolinoreseptorlara atropindən güclü təsir edərək, qısa müddətli midriatik təsir göstərir, akkomodasiyanı iflic edir, ürəyin yığılmasını azaldaraq, saya əzələlərin tonusunu, mədə-bağırsaq sekresiyasını və tər vəzilərinin ifrazını aşağı salır.

Hind dəlibənginінmeyvə və toxumlarından alınan skopolamin alkaloidi sinir-psixi praktikada keyfiyyətli sedativ dərman maddəsidir. Aeron dərmanının tərkibində olan skopolamin kamforat dəniz və hava xəstəliklərinin müalicəsində, Menyer xəstəliyində, üzdə və yuxarı tənəffüs yolu xəstəliklərində müvəffəqiyyətlə tətbiq edilir.

## *Senecio* L. – Xaçgülü

**S*enecio platyphylloides* Somm. Et Levier (=Adenostyles platyphylloides Somm. Et Levier) – Yastıyarpaq xaçgülü (**Rombyarpaq üçtiyəli xəncər, xaçgülü)



**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, hündürlüyü 50-150 (250) sm, düzqalxan, budaqlanmayan, tək gövdəli və çoxşaxəli köklərdən ibarətdir. Kökətrafı və gövdə ətrafı yarpaqları uzunsaplaqlı, çox iri, üçbucaqvari-böyrəkşəkilli, dərin oyuqlu əsasa malik, kənarları bərabər olmayan dişcikli, sıx, yuxarı hissəsi çılpaq, tünd-yaşıl, alt tərəfdən açıq rəngli, orta və yuxarı yarpaqları tədricən kiçilən, yuxarı yarpaqları yumurtavari və ya yumurtavari-neştərşəkilli, demək olar ki, oturaqdır. Səbətləri kiçik çoxsaylı, zirvəsində qalxanvari-yumurtavari çiçək qrupunda formalaşmışdır. Səbətcikdə yerləşən bütün çiçəkləri (10-15) boruşəkilli, ikicinsli, sarı tacabənzər olur. Toxumları kəkillidir. Kökləri çoxsaylı uzun, sürünən və gümüşü-qonur rənglidir. Gövdəsi düz şaxəli, yarpaqları iri, növbəli, üçbucaq-böyrəkşəkillı, uzunluğu 30 sm-dir. İyun-iyul aylarında çiçəkləyir, iyul-sentyabr aylarında isə meyvələri yetişir.

Pöhrəliklərdə, 1600-2800m yüksəkliklərdə yüksək dağlıq meşələrdə, orta setrək meşələrdə, otluq və subalp çəmənliklərdə rast gəlinir. İndiki zamanda bu bitki təbii məskənlərdə plantasiya şəklində əkilir.

**Toplanılması və qurudulması** – Xammal olaraq ikiillik, üçillik bitkinin kökü və otu hesab olunur. Xammal kimi butonizasiya, çiçəkləmə və meyvənin əmələ gəlməsi zamanı toplanılır. Xammal kimi ən çox yastı yarpaqları yığılır. Yabanı şəkildə bitən xaçgülünü toplamaq qadağandır. Torpaqdan qazıb çıxarararaq, yarpaq, kök və gövdələrini toplamaq məqsədəuyğundur. Bitkinin yerüstü orqanları çiçəkləmə dövründə iti bıçaq və ya oraqla yerüstü hissədən 15-20 sm hündür biçmək lazımdır. Təkrar toplama 2 ildən sonra mümkündür. İlkin olaraq toplanılmış xammalı kölgəli yelçəkən yerlərdə, naveslərdə, çardaxda brezent və digər vasitələrin üzərinə sərməklə və ya 45-50$^{O}$C temperaturda quruducu şkafda qurudulmalıdır.

Xammalı B siyahısında saxlanılır. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Bitkinin bütün orqanlarının tərkibində pirozolin törəməli alkoloidlər (platifillin və seneçifillin) vardır. Yerüstü orqanlarında bişmiş halda alkoloidlər 2-5%, otunda 0,6-3%-ə qədər inulin, qatran və piyli yağlar olur. Platifillin köklərində 1%, bitkidə isə 0,5% olur.

Spazmolotik və M-xolinoblakatr dərmandır. Yabanı çoxillik ot bitkisi olan yastıyarpaq xaçgülü butonizasiya dövründə, eyni zamanda çiçək və meyvələri keyfiyyətli xammal və dərman bitkisidir. M-xolinoblakatr kimi atropin və skopolamindən güclüdür.

Platifillin hidrotartarat toz, həb 0,005 q, 0,2% məhlul. Spazmalotik, sedativ və M-xolinoblakatr dərmandır.

Platifillin hidrotartarat. Kombinəedilmiş dərman «Tepafillin», «Palyufin».

Diplaçin hidroxlorid 2% məhlul. Mioreleksant dərmandır.

Kökümsovlarının və köklərinin tərkibindən platifillin alkaloidi alınır. Platifillin hidrotartarat saya əzələlərin spazmını götürərək, 12 barmaq bağırsaq xorasında, bronxial astmada, qan damarlarının spazmında, hipertoniya xəstəliyi, stenokardiya və göz xəstəliklərində bəbəyin genişləndirilməsində tətbiq edilir.

## *Anabasis* L. – Öldürgən

***Anabasis aphylla* L. – Yarpaqsız öldürgən (**Kirpicik, öldürgən)



**Botaniki xarakteristikası** – Yarpaqsız öldürgənkserofit yarımkol bitki olub, hündürlüyü 25-75 (120) sm, artan, böyüyən, inkişaf edən, yastılaşmış-şarabənzər kolşəkilli olub, diametri 140 sm-ə bərabərdir. Gövdəsi çoxsaylı, aşağı hissəsi oduncaqlaşmış olmaqla, əsasından budaqlanandır. Yarpaqları demək olar ki, inkişaf etməyən, pulcuqlu, ancaq görünən, geniş üçbucaqşəkilli, bitişik, qovuşuq, düyün şəklində gövdəyə cüt-cüt birləşməklə, qını tüklüdür. Çiçəkləri görkəmsiz, yaraşıqsız, kiçik (2,5mm), düzgün, beşüzvlü, sadə çiçək yatağından ibarət olmaqla, sünbül çiçəkqrupuna toplanmışdır. Meyvəsi dairəvi, yan tərəfi yastılanmış, təktoxumlu, qanadlı, şirəli və lətli meyvəyanlığından ibarətdir. İyul-avqust aylarında çiçəkləyir və oktyabrın sonunda meyvələri yetişir.

**Yayılması** – Yarpaqsız öldürgənin Şərqi-Aralıq dənizi növü olmuşdur ki,Qazaxıstan ərazisində, Orta Asiya ölkələrində, Azərbaycanda və Rusiyanın Avropa hissəsinin cənub-şərq

ərazilərində yayılmışdır. Əsas təbii xammal bazası Qazaxıstanın Çimkənd, Cambul və Qızıl-Orda vilayətləri hesab olunur.

**Coğrafi elementləri** – İran-Turan, Kserofil areal tipinə aid olub, Avropa, Atlantik sahilləri, Böyük Britaniya adaları, Şimal dənizinin sahilləri, Fin körfəzi, Baltik dənizinin cənub sahillərini əhatə edir.

**Ekoloji şəraiti** – Gilli və  duzlaşmış torpaqlarda, bozqır və səhralarda yaşayır.

**Toplanılmasıvə qurudulması** – Xammalın toplanılması yayın ikinci yarısında və payızda əl ilə, xüsusi maşınla, birillik yaşıl gövdənin 20-25 sm hündürlüyü toplanılmalıdır. Toplanılmış gövdələr qurudulmadan əvvəl xırdalanmalı, 2-3 gün sonra bir-birinin üzərinə yığmaq, arabir çevirməklə tam qurutmaq, sonra isə ot doğrayan maşınla doğramaq lazımdır. Xammal toplanılan zaman onu döymək lazımdır. Xammal zəhərli olduğundan ağız və burunu tənziflə bağlayaraq kombinizonla işləmək məsləhətdir. topladıqda isə 5m-dən artıq enində olan hissənin yığılması qadağan olunur. Bir massivdən xammalın təkrar toplanılması 3-5 ildən sonra mümkün ola bilər.

Özünəməxsus zəif iyi və təyin olunmayan dadı vardır. Bitkinin bütün hissələri zəhərlidir(!)

Xammal B siyahısında saxlanılır. Saxlama müddəti 2 ildir. **Tərkibi və təsiri:** Oduncaqlaşmayan yaşıl gövdəsinin tərkibində 2-4% alkaloidlər – anabazin, afillin və lupinin vardır. Bundan başqa yerüstü hissələrində saponinlər və flavonoidlər olur.

– Anabazin hidroxlorid həb şəklində 0,003-0,0015 q miqdarında siqaretin tərgidilməsində, vegetativ və digər pozğunluqlarda, fikrən ayırmada və təcrid etmək üçün istifadə edilir.

Öskürəkkəsici dərmandır. Toxumları tənəffüs analeptikidir.

Anabazin hidroxloridin tərkibində olan farmakoloji maddə N-xolinomimetik (qanqlio stimulyator) nikotinə qarşı həssaslığı aşağı salır. Böyük dozaları analeptik təsir edərək, tənəffüs mərkəzini reflektor olaraq tonuslandırır.

Bu bitkinin gövdəsindən alınan “Anabazin hidroxlorid” siqaretin tərgidilməsi zamanı mərkəzi sinir sistemini oyadaraq, N-xolinomimetik (qanqliostimulyator) reseptorlarla asılılığın aradan qaldırılmasına kömək edir. «Anabazin sulfat» insektisid kimi kənd təsərrüfatında tətbiq edilir.

## *Thermopsis* R.Br. - Termopsis

***Thermopsis lanceolata*** **R. Br. - Neştərşəkilli termopsis** (Əyyaş otu, siçana oxşar, arsenli)



**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Yerüstü hissələri üfüqi və şaquli kökləri, çoxsaylı düyünləri, əlavə kökləri, 2m və daha çox dərinliyə gedə bilir. Gövdəsinin hündürlüyü 60sm, düz, şırımlı, aşağı hissələri azacıq odunlaşmış, tükcüklü və budaqlanandır. Gövdəsi sıx örtüklə örtülən yarpaqcıqlardan ibarət uzunsov və ya uzunsov-neştərşəkilli formalı, uzunluğu 2,5-8sm, eni isə 0,5-1 sm-ə bərabərdir. Hər bir yarpağı 2 neştərşəkilli yarpaqcıqdan ibarətdir. Çiçəkləri sarımtıl kəpənəkçiçəklilər tipindən ibarət olan tacdan, uzunluğu 3sm, kiçik kasa yarpaqlarından və sonu 20 sm uzunluğunda fırça ilə qurtarır. Meyvələri xətti, düz və ya azacıq qövsşəkilli, 7-15sm, toxumlarının uzunluğu 1-9 sm, eni isə 1sm-ə bərabərdir. Toxumları yaşılımtıl-qara, uzunluğu 3-5, eni isə 2-3,5 mm-ə bərabərdir.

Bitkinin xammalı butonizasiya başlayan vaxtda (may-iyun) toplanılmalıdır. Eyni zamanda çiçəkli bitki və çılpaq zoğları

toplanılır. Toxumları tam yetişmə zamanı toplanılmalıdır. Toplanılan xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı ($40^{O}C$) naveslərdə, çardaxda 1-2 sm qalınlığında 50-$60^{O}C$ temperaturda, quruducu şkafda qurudulmalıdır.

Ot və toxumu B siyahısına daxildir. Saxlanılma müddəti 2 ildir.

İysiz, qeyri-müəyyən dadlı olub, zəhərlidir.

**Tərkibi və təsiri:** Gövdəsinin tərkibində 1-2,5% alkaloidlər, xinolizidin törəmələri vardır. Bundan başqa termopsin, hemotermopsin, paxikarpin, anaqirin və başqa maddələr vardır. Eyni zamanda tərkibində termopsilançin qlükozidi, saponinlər, aşı maddələri və qatran vardır.

Analeptik dərmandır. Qanda nikotinin qatılığını aşağı salır.

Yabanı çoxillik ot bitkisi olan termopsis otu çiçəkləmə başlayan zaman otu keyfiyyətli xammal və dərman hesab edilir. Keyfiyyətli dərman kimi bitki və toxumlarından istifadə edilir. Toxumlarının tərkibində 2-3% alkaloidlər və çitrizin tapılmışdır.

Neştərşəkilli termopsis toz, cövhər. Öskürəkkəsici dərmandır.

Termopsis həb (termopsis tozu 0,01q, natrium hidrokarbonat 0,25q). Öskürəkkəsici dərmandır.

Kodelak həb. Öskürəkkəsici dərmandır.

Termopsis ekstraktı. Öskürəkkəsici dərmandır.

Termopsis quru ekstraktı, həb 0,05q. Öskürəkkəsici dərmandır.

Yeniyetmələr üçün öskürəkkəsici mikstura. Öskürəkkəsici dərmandır.

Sititon 0,15 % məhlul (sitizin alkaloidi). Analeptik dərmandır.

Tabex həb, 0,0015q (sitizin alkaloidi). Nikotin düşüncəsini təcrid etmək üçün.

Plenki 0,0015q. Nikotin düşüncəsini təcrid etmək üçün.

Otundan öskürək əleyhinə keyfiyyətli məhlul, ekstrakt və toz hazırlanır. Toxumlarından alınan çitizin maddəsindən hazırlanan *çitito* preparatı tənəffüs mərkəzini qıcıqlandıran keyfiyyətli

dərman maddəsidər. Çitizindən eyni zamanda *tabeks* adlı dərman hazırlanır ki, bu dərmandan siqaretin tərgidilməsində istifadə edilir.

## *Nuphar* Sibth. & Sm. - Nelufər (Su zanbağı)

***Nuphar luteum* (L.) Smith - Sarı nelufər** (Dırmaşan, sarı suzanbağı)

**Botaniki xarakteristikası:** Çoxillik su bitkisidir. Sürünən, möhkəm, çoxsaylı ağ qaytanabənzər köklərdən ibarətdir. Kökləri silindrik, bir və ya bir neçə yan şaxələnən köklərə malik, uzunluğu 1-1,5 m (bəzən 3-4m), eni isə 13sm, xaricdən sarı-yaşıl, daxili ağ, tünd rombabənzər-dairəvi dişlidir. Zirvədə yerləşən yarpaq və çiçəklərin saplaqları möhkəmdir. Yarpaqları iki tiplidir: üzən-sıx, zəif dərili, yumurtayabənzər-ellipsvari, uzunluğu 15-17 sm dairəvikənarlı, əsası dərin oyuqlu, nazik və büküşlüdür. Çiçəkləri sarı, tək, uzun qaytanabənzər olub, suyun üzərinə sərilərək şarabənzər görünməklə, diametri 4-5 sm olur. May-avqust aylarında çiçəkləyir, iyul-sentyabr aylarında isə meyvələri yetişir. Toxumla və vegetativ yolla çoxalır.



Yavaş axan sularda, göllərdə, köhnə nohurlarda, sakit axan çaylarda, dərinliyi 0,5-1 m və hətta 3-5 m olan sularda, körfəz və sahillərdə rast gəlinir.

Xammal kimi köklərini may-oktyabr aylarında, çiçək və meyvələri toplanılır. Dərin olmayan sututarlarda köklərini iti

bıçaqla kəsmək tövsiyyə olunur. Kəsilmiş orqanlar tezliklə pöhrələyirlər.

Köklərində çoxlu rütubət olduğundan əvvəlcə təbii qurutmaya (hava-günəş) üstünlük (10-15 gün) verilməlidir. Xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə, çardaxda 2-3 sm qalınlığında $60^{O}$C temperaturda, quruducu şkafda 3 gün ərzində qurudulmalıdır.

Zəhərli olduğundan dadı təyin olunmayandır(!).

Xammal B siyahısına daxildir. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Köklərində 0,3-0,8% xinolizidin sırası alkaloidləri, nuftein, tiobinufaridin, neotiobinufaridin, nufarin, nişasta (20%), steroidlərdən – sitosterin, stiqmasterin, sitosterin qlükozidi, sitoterinin palmitin efiri, askorbin turşusu, karotinoidlər, aşı maddələri (2,3%), ali yağ turşuları – palmitin və araxin vardır.

Trixomonad əleyhinə dərmandır.

Yabanı çoxillik ot bitkisi sarı suzanbağı otunun kəsilmiş və qurudulmuş kökləri keyfiyyətli mikrobəleyhinə, göbələkəleyhinə dərmandır.

Kökündən trixomonad kolpit xəstəliyində müvəffəqiyyətlə işlədilən *lyuternurin* adlı preparat hazırlanır.

## *Huperzia* Bernh. – Huperziya (Qurdayağı)

***Huperzia selago* (L.) Bernh. ex** Schrank et C. Mart. (=Lycopodium selago L.) Quzu plaunu (Qoyunabənzər plaun, plaun, qurdayağı, ağacabənzər)

**Botaniki xarakteristikası:** Çoxillik sporlu həmişəyaşıl ot bitkisidir. Zəif inkişaf edən kök sistemi vardır. Gövdəsi yabaşəkilli budaqlanan, düzqalxan, hündürlüyü 5-30 sm, yarpaqlarının eninə ölçüsü 0,6-0,8 sm-dir. Yarpaqları kiçik, çəpinə, xətti-neştərşəkilli, itiuclu, bütövkənarlı və ya zəif, kiçik dişli, dəricikli, parıldayan olub, uzunluğu 2,5-10mm, eni isə 0,7-1,5mm-dir. Sporangisi kiçik, böyrəkşəkilli, uzunluğu 1mm-ə bərabərdir. Gövdənin yuxarı hissəsində uzunluğu 4 mm xüsusi vegetativ orqan olan tumurcuq inkişaf edir. Aprel-iyun aylarında spor əmələ gətirir, iyul-avqust aylarında isə meyvələri yetişir.



Tundra, meşə-tundra və meşə zonalarında kölgəli küknar, qarışıq qızılağac meşələrində, şibyə, kol və yarımkol, qranit qayalarında rast gəlinir.

İyun-sentyabr aylarında spor əmələ gətirən zaman toplanılır. Xammalı toplayan zaman iti bıçaqla yaşıl və sarımtıl gövdələrini, tumurcuqlarını və zərər vurmadan kök sistemini toplamaq

lazımdır. Təkrar toplama 6-10 ildən sonra aparılmalıdır. Quruducu şkafda qurutmaq üçün ən optimal temperatur 50°C, yaxşı ventiliyasiyalı şəraitdə və bitki nazik doğranmış halda ola bilər. Bundan başqa küləkli yerlərdə (stelajda) tənzif üzərinə sərməklə qurutmaq olar.

Havası dəyişilən stelajlarda qalmalıdır. B siyahısına daxildir.

**Tərkibi və təsiri:** Bitkinin tərkibində xinolizid sırası alkoloidləri 0,4-1,1%, annotinin, likopodin və psevdoselagin vardır. Eyni zamanda tərkibində karotinoidlər (25mq%), qatranlı maddələr və flavonoidlər tapılmışdır. Spor əmələ gətirəndən sonra toplanılan və qurudulan plaun keyfiyyətli dərman xammalı hesab olunur.

Qusma və antialkoqol dərman maddəsidir.

Sakitləşdirici, ağıkəsici, işlədici, qusma törədən olmaqla, toksiki dərman maddəsidir. Xroniki alkoqolizmin müalicəsində istifadə edilir.

Bitkidən hazırlanan bişirmə xroniki alkoqolizmin müalicəsində tətbiq edilir. Bitkini qəbul etdikdə ümumi ağırlıq, təkrar qusma yaradır, qan təzyiqini aşağı salır, aritmiya, əzələlərin fibrillyasiyası və tənəffüsün qısalmasını yaradır. Alkoqolizmdə və siqaretin tərgidilməsində tətbiq etdikdə simptomlar daha da güclənir. Analoji mənzərə nikotinizmdə də yaranır.

## *Echinops* L. – Toppuztikan

***Echinops ritro* L.- ( = *E. ruthenicus* Bieb.) – Adi toppuztikan** (Toppuztikan, qara südotu)

**Botaniki xarakteristikası** – Toppuztikan kökümsovulu çoxillik ot bitkisi olub, hündürlüyü 2 m-ə qədərdir. Gövdəsinin yuxarı hissəsi budaqlanan, ağımtıl-hörümçək toruna bənzəyən naxışlıdır. Yarpaqları növbəli, yuxarı hissəsi yaşıl, enli-neştərşəkilli, dərin ləlɘkvari-bölümlü, uzunluğu 25 sm, eni isə 6 sm-ə qədər kənarları tikanlı və tikanlı-dişcikli, aşağı yarpaqları saplaqlı olub, əsası oturaqdır. Şarabənzər başcıqlı növünün yarpaqları hər tərəfdən kələ-kötür, nahamar, metalabənzər tükcüklü olub, yapışqanlıdır. Təkçiçəkli səbətciyi sıx, şarabənzər başcıqlı, 4-6 sm diametrində olub, gövdənin və budaqcıqların təpəsində yerləşir. Səbətciyi çoxcərgəli, üç formalı yarpaqcıqlı: xarici yarpaqcıqları qılaoxşar, ölçüsü daxildəkindən bir neçə dəfə qısa, orta yarpaqcıqları yarpağabənzər, demək olar ki, xarici yarpaqcıqlarla bərabər, daxili yarpaqcıqları isə neştərvari, tacın uzun borucuğuna bərabər olur. Adi toppuztikanın daxili yarpaqcıqları göyümtül, şarabənzər başcıqlı digər yarpaqları isə açıq-mavidir. Bütün çiçəkləri boruşəkilli, kasacığı kəkilli adi toppuztikanın tacı isə



göyümtül, şarabənzər başcıqlı növündə isə ağdır. Meyvələri tükcüklü, silindrik toxumlu olub, 7-9 mm, eni isə 2 mm olmaqla, kasavari kəkildən ibarətdir. İyun-avqustda çiçəkləyir, avqust-sentyabr ayında isə meyvələri yetişir.

Müxtəlifotluq çöllərdə, çınqıllı, dağlıq, yamac və dağın döş ərazilərində yaşayır. Dərman məqsədilə böyük olmayan meydançalarda əkilir və əsasən ikiillik bitkilərdən istifadə edilir.

Çiçəkləri və yetişmiş meyvələrini payızın sonunda təkbarmaqlı əlcəklə toplamaq lazımdır. Xammalın yetişməyən meyvələri 10%-dən çox olur.

Xammal havası dəyişilən yerlərdə brezent üzərində sərilərək və ya 60-80°C-də quruducu şkafda qurudulmalıdır.

**Tərkibi və təsiri:** Meyvələrinin tərkibində 1-2% xinolin alkaloidləri başlıca olaraq exinopsin olur. Xammalda exinopsinin miqdarı 1%-dir. Alkaloidlərdən başqa 26-28% efir yağı olur.

Analeptik (ümumitonuslandırıcı) dərmanlar.

Exinopsindən *strixinin* alınır. Exinopsin onurğa beyninin reflektor fəaliyyətini artırır, skelet əzələlərini tonuslandırır. Az zəhərli olduğundan geniş terapevtik müalicəvi effektə malikdir.

Xammaldan «Exinopsin nitrat» alınır ki, bu dərmandan da "Strixinin nitrat"da olduğu kimi sinir sistemi impulslarını tonuslandırıcı kimi istifadə edilir. Exinopsin mərkəzi sinir sisteminin mərkəzi və periferik şöbələrinin zədələnmələrində - üz sinirinin parezində, pleksit, miopatiya, astenik vəziyyətlərdə olan damar distoniyasında və göz sinirinin hipotoniya və atrofiyasında istifadə edilir.

## *Papaver* L. - Lalə

*** *Papaver somniferum* L. – Xaşxaş** (Yuxugətirici lalə, bihuşedici, lalə, dağ laləsi)

**Botaniki xarakteristikası -** Birillik ot bitkisi olub, hündürlüyü 100-150 sm olub, tərkibi çoxlu şirəyə malikdir. Gövdəsi düzqalxan, sıxyarpaqlı, göyümtül-yaşıl, yuxarı hissəsi adətən budaqlıdır. Yarpaqları növbəli, göyümtül, sıx, və ya aşağı hissəsi damarlı, nadir hallarda tükcüklüdür. Kökətrafı yarpaqlarının uzunluğu 30 sm, çətir kimi toplanmış, qısa saplaqlı, ellipssəkilli, iridişcikli və ya kəsilmiş-pərli olub, kənarları kəskin dişciklidir. Gövdə yarpaqlarının uzunluğu 20 sm, enli ellipssəkilli və ya tükcüklü itidişciklidir. Çiçəkləri 1-10 saylı, iri, gövdə zirvəsi budaqlanan, çiçəkləri uzun və yağlı şişkindir. Çiçəkləmə dövründə başı aşağı əyilmiş çiçəklər hamar, tərkibində tiryək olan sortlar göyümtül-yaşıl, uzunsov-ellipssəkilli, zirvəsinin uzunluğu 3-4,5 sm, yağlı sortlarda isə onların ölçülərinin uzunluğu 2-2,5 sm, aşağı hissəsi qırmızı-bənövşəyi və ya tam yaşıl, enli-ellipssəkillidir. Kasacığı çılpaq, çiçəkləmədən əvvəl açılmağa başlayır. Çiçək tacı 4 ləçəkli, çoxçiçəkli, müxtəlif rəngli (ağ, bənövşəyi, qırmızı, çəhrayı) olub, uzunluğu 30 sm-dir. Ləçəklər əsasən tünd rənglidir. Meyvələrin qutucuqlarının diametri 5sm olub, dairəvidir. Toxumları açıq-sarı (tiryək sortlarında), mavi, sarı və ya sarımtıl - qara (yağlı sortlarda) olur. İyun ayında çiçəkləyir, iyul-sentyabr aylarında meyvələri yetişdikdə toplanılır.



Qutucuqları yetişdikdə toplanılaraq tiryək alınır.
Özünəməxsus iylidir.

**Tərkibi və təsiri:** Qutucuğunda izoxinolin sırası alkaloidləri, müxtəlif qruplu 20-ə qədər alkaloidlər vardır. Başlıca olaraq fenantrenizoxinolin: morfin, kodein, tebain, benzilizoxinolin: papaverin, narkotin, naçein alkaloidləri vardır. Qutucuqlarında yetişmə zamanı 2,5%-ə qədər şirəyə rast gəlinir. Yağlı sortlarında yetişmə zamanı toxumlarının tərkibində 0,3-0,6% morfin, 0,08% nakotin, 0,07% kodein və 0,05% papaverin vardır.

Ağrıkəsici dərman olub, narkotik analeptikdir.

Birillik ot bitkisi olan lalənin döyülmüş qutucuq və toxumları (xammal) yuxugətirici və ağrıkəsici kimi keyfiyyətli dərman bitkisidir.

Morfin hydrochlorid, 1%-li məhlulu, 0,01 q həbi vardır. Ağrıkəsici narkotik analeptikdir.

Morfilonq, 0,5%-li inyeksiyadır. Ağrıkəsici narkotik analeptikdir.

Omnopon, 1-2%-li inyeksiyadır. Ağrıkəsici narkotik analeptikdir.

Kodein, «Kodelakt», «Kodterpin», Bexteriyev miksturası.

Tərkibindəki morfin yuxugətirici və ağrıkəsici kimi digər alkaloidlərdən daha çox üstünlük təşkil edir. Az dozası ağrıkəsici, yüksək dozası isə yuxugətirici, eyforiya effekti əmələ gətirməklə, morfinizm yaradır.

Morfin-hidroxloridin travma və şok əleyhinə hallarda işlədilir.

Kodein fosfat keyfiyyətli öskürəkkəsici preparatdır.

Papaverin-hidroxlorid spazmolotik dərman kimi damar spazmlarının (hipertoniya, stenokardiya, miqren) götürülməsində,

saya əzələlərinin spazmlarını aradan qaldıraraq, bağırsaq ağrılarında və bronxial astmada yaxşı nəticə verir.

## *Glaucium* Hill –Buynuzlalə

***Glaucium flavum*** **Crantz – Sarı buynuzlalə** (Buynuzlalə, parıldayan şuxçiçək)

**Botaniki xarakteristikası:** İkiillik ot bitkisi olub, hündürlüyü 50sm-ə qədər olur. Gövdəsi düz, dəyirmi olub, budaqlanandır. İnkişafının birinci ilində çətiri böyük liraşəkilli-lələkvari yarılmış, yarpaqları sıxtükcüklü olmaqla, uzunluğu 35 sm-ə qədərdir. Gövdəyəbənzər yarpaqları çoxsaylı, şişkin, göyümtül, oturaq, yuxarı hissəsi qısa, oval, demək olar ki, kənarları bütövdür. Çiçəkləri tək, iri, diametri 1,5-3sm, ləçəkləri 4, böyük tərsyumurtaşəkilli və ya dairəvi, uzunluğu 3,5 sm, parlaq-sarı və ya tünd-sarıdır. Toxumları böyrəkşəkilli, qəhvəyi və ya qaradır. Bitkinin bütün hissələri şirəli soka malik olub, şirəsi çıxarıla bilir. May-iyun aylarında çiçəkləyir, avqust-sentyabr ayında isə meyvələri yetişir.



Qumsal torpaqlarda, qaya və çınqıllı yerlərdə yaşayır.

Gövdə əmələgəlmə, butonizasiya və ya ot və çiçək əmələgəlmə mərhələsində, mədəni bitki olan sarı buynuzlalə birinci il iyulun sonu, avqustda, ikinci ildə isə iyunda toplanılarsa keyfiyyətli dərman bitkisi hesab edilir. Birinci çalımda bitkidə maksimal miqdarda qlauçin alkaloidi toplanılır. İkinci çalımda avqustda, birillik əkində sentyabrın sonu, oktyabrda qlauçinin miqdarı 1%-ə qədər olur. Qurudulma təbii şəraitdə, brezent üzərində yeri meyilli, daimi havalı yerlərdə, naveslərdə,

qəlbirləndikdən sonra quruducu şkafda 50-60°C temperaturda qurudulmalıdır.

Xammal olaraq toplanılan tam və qismən yarpaqlarla örtülmüş budaqları, çiçək və yetişməmiş meyvələri qarışıq kimi istifadə edilir. Spesifik zəif iylidir.

Xammal B şkafında saxlanılır. Saxlanılma müddəti 3 ildir. **Tərkibi və təsiri:** Otun tərkibində flavonoidlərdən rutin, izoxinolin sırasının 15 alkaloidləri vardır. Əsas alkaloidlərə qlauçin (2%) izoboldin, xeleritrin, sanqvinarin və protopin aiddir.

Öskürəkkəsici, α-adrenoblakatr dərmandır. Qlauçinin öskürəkkəsici aktivliyi vardır. Öskürək mərkəzinə və periferik sistemə təsir edir və arterial təzyiqi azaldır.

Bitkinin tərkibindəki qlauçin-hidroxlorid tibbdə yuxarı tənəffüs yollarının və ağ ciyərlərin xəstəliklərində işlədilir.

## *Chelidonium* L. - Dəmrovotu (ziyilotu)

***Chelidonium majus* L. – Böyük dəmrovotu** (ziyilotu, təmizkar, sarımtıl südləyən, dəmrovotu, itsabunu, qaranquş otu, sarı südqabı, sarılıq otu)

**Botaniki xarakteristikası -** Çoxillik ot bitkisidir. Kökləri mil və qol-budaqlı olub, xaricdən qırmızı-qonur, daxili hissəsi isə sarı rənglidir. Gövdəsi 1m-ə qədər, düzqalxan, yuxarıdan budaqlanan, çılpaq, düyünlü və ya tükcüklüdür. Yarpaqları növbəli, yuxarı hissədən göyümtül, oturaq və lələkvari bölünmüş, aşağı hissəsi isə saplaqlıdır. Yarpaq seqmentləri dairəvi yumurtaşəkilli və ya dairəvi-dişciklidir. Çiçək ləçəkləri dörd açıq-sarı, düzgün, uzunluğu 5-10 sm, sadə çətirdən ibarət olmaqla, saplaqlıdır. Kasacığı 2 kasayarpağından ibarət, qınlı, təkyuvalı qutucuqdan ibarət olub, açılan qapayıcı qapağı vardır. Bitkinin bütün hissələrı tünd-sarı rəngli olub, içərisi təbii şirədən ibarətdir. May ayından payıza qədər çiçəkləyir, iyul-sentyabr aylarında isə meyvələri yetişir.



Alaq otu kimi bağ, park, meşə zonalarında, enliyarpaqlı və iynəyarpaqlı meşələrdə, pöhrəlik və kolluqlarda yayılmışdır.

Çiçəkləmə dövründə (iyun-avqust) iti bıçaq və ya oraqla toplanılır. Xammal yalnız quru havada toplanılmalıdır.

Qurudulma günəşli havada təbii şəraitdə, brezent üzərində, naveslərdə, daimi havalı yerlərdə və ya quruducu şkafda 50-60°C

temperaturda qurudulmalıdır. Yavaş qurudulma zamanı çürümə prosesi güclənir.

Xammal kimi gövdə və yarpaqları, çiçək və meyvələri keyfiyyətli və yararlıdır. Gövdəsi Iyli, təyin olunmayan dadlı olmaqla, zəhərlidir(!).

Havası tez-tez dəyişilən yerlərdə saxlanılmalıdır. B siyahına daxildir. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Otun tərkibində izoxinolin sırası alkaloidləri: xelidonin, hemoxelidonin, xeleritrin, metoksixelidonin, oksixelidonin, çox olmayan miqdarda sanqvinarin, protopin, berberin vardır. Bundan başqa saponinlər, flavonoidlər (rutin, kempferol, kverçetin), aşı maddələri, 0,01 % efir yağı, askorbin turşusu, karotinoidlər və üzvi turşular – alma, limon, kəhrəba və xelidonin vardır. Otunda 2%, köklərində isə 4% alkaloidlər olur.

Xarici iltihabsorucu, antiseptik, spazmalotik, ödqovucu dərmandır.

Çoxtərəfli farmakoloji aktivliyi vardır. Başlıca olaraq spazmalotik, ödqovucu və iltihabsorucu (bakterisid) xüsusiyyətə malikdir. Bundan başqa ağrıkəsici və sakitləşdirici təsiri morfi və papaverində olduğu kimidir. Saya əzələlərə təsir edərək, spazmı aradan qaldırır, hipotenziya və bradikardiya yaradır. Homoxelidonin qıcolma əleyhinə olmaqla, güclü yerli ağrıkəsici təsirə malikdir. Tərkibindəki sanqvinarın antixolinestraza təsir edərək, bağırsağın peristaltikasını artırır və ağız suyunun axmasına səbəb olur. Dərman vasitisi kimi xərçəng törəməsində, metastazlarda, funqistatik və bakterostatik təsiri də vardır.

Şirəsi təzə bitkidən alınır. Ekstraktı qırtlaq və bağırsaq papillamatozunda, qırmızı qurdeşənəyində, 2,5% sulu dəmləməsindən qaraciyər və ödyolları xəstəliklərində tətbiq edilir. Epilepsiya, stenokardiya, bronxial astma və bütün nevroloji sindromlarda istifadəsi əks göstərişdir. Güclü zəhərləyici xassəyə malik olmaqla, ürək bulanma, qusma və tənəffüs yollarının iflici

baş verir. Bitkinin suyunda uşaqların yuyundurulması əks göstərişdir.

## *Macleaya* R.Br. - Macleya

***Macleaya cordata*** **(Willd.) R. Br. – Ürəkvari makleya** (Ürəyəoxşar, makleya)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Gövdəsi budaqlanmayan, hündürlüyü 250 sm-ə bərabərdir. Bitkinin bütün hissələri tünd-göydür. Bütün kütləsi çəhrayı şirədən ibarətdir. Yarpaqları ürəkşəkilli formalı olub, 5-7 bölümlü, növbəli, saplaqlı, aşağı hissəsi iri (uzunluğu 25sm), yuxarı hissəsi isə kiçikdir. Çiçəkqrupu uzunsov, süpürgə, uzunluğu 40 sm olub, sonu budaqlanandır. Çiçəkləri yalnız kasayarpağından ibarət, tez tökülən, 4-30 erkəkcikli olmaqla, çiçək tacı yoxdur. Meyvələri qutucuqmeyvədir. Çiçək və meyvələrinin quruluşuna görə 2 növü vardır. Ürəkşəkilli makleyanın çiçəkləri 25-30 erkəkcikdən, qutucuğu neştərşəkilli formalı 2-6 toxumludur. Kiçikmeyvəli makleyanın erkəkciki 8-12, qutucuğu dairəvi formalı tək toxumludur. İyul ayında çiçəkləyir və avqust ayında meyvələri yetişir.



Bitki çiçəkləmə dövründə toplanılır. Tərkibindəki alkaloidlərin miqdarı üçüncü ildə daha yüksək olur. Xammalın toplanılması otbiçən maşınla həyata keçirilir. Qurudulma təbii

şəraitdə, daimi havalı yerlərdə və ya 40-50°C temperaturda quruducu şkafda aparılmalıdır.

Xammal olaraq gövdə hissəciyi, yarpaqları, buton və çiçəkləri hesab olunur. Zəif iyli olub, dadı müəyyən olunmamışdır (!).

Havası tez-tez dəyişilən yerlərdə saxlanılmalıdır. B siyahına daxildir. Saxlanılma müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Otun tərkibində izoxinolin sırası alkaloidləri ürəkşəkilli makleyada 0,7%, kiçikmeyvəli makleyada isə 1%-dir. Başlıca olaraq sanqvinarin və xeleritrin alkaloidlərindən (0,8 %) ibarətdir.

Antixolinestraza, antimikrob və göbələk əleyhinə xassəyə malikdir.

Sanqvarin və xeleritrin geniş spektrli mikrob əleyhinə, qrammüsbət və qrammənfi bakteriyalara, mayayaoxşar və mitselisi olan göbələklərə təsir edir. Antixolenestraza aktivliyə malikdir. Bitki əsas xammal hesab olunur. Xammalı butonizasiya zamanı çiçəkləri və meyvələridir. Tərkibindəki alkaloidlərin maksimal miqdarı bitkinin inkişafının üçüncü ilində baş verir.

Xammaldan "Sanqviritrin" adlı preparat hazırlanır. Tərkibi əsasən sanqviritrin bisulfat və xeleritrindən ibarətdir. Antibakterial, antixolenestraza və göbələk əleyhinə aktivliyə malikdir. Miopatiya, kəskin polimielit və iflicin mualicəsində, yanıq infeksiyalarında, otit və paradontitdə istifadə edilir.

## *Stephania* Lour. – Stefaniya

***Stephania glabra* (Roxb.) Miers – Hamar stefaniya**

**Botaniki xarakteristikası -** Çoxillik ikievli tropik lian olub, uzunluğu 5-8 m-ə bərabərdir. Kök sistemi demək olar ki, dairəvi, aşağı hissəsi isə saçaqlıdır. Bir bitkinin çəkisi 20 kq-a bərabərdir. Gövdəsi çılpaq, dairəvi, dırmaşan, vegetativ inkişaf dövründə əsası oduncaqlı olur. Qafqazda yayılan növün uzunluğu 6-9m-ə qədər olub, qışda quruyur. Yarpaqları iri, növbəli, itiuclu, bütövkənarlı, hamar, uzunluğu 15-20 sm, saplaqları ilə birlikdə 40 sm-ə qədər olur. Çiçəkləri yaşıl-sarı, başcıqla birlikdə toplanan, çətir çiçək qrupuna aiddir. Erkək çiçək qrupları 6 sərbəst kasayarpağından və 3 tərsyumurtavari yumşaq ləçəkdən, dişi çiçəkləri 3 kasayarpağından və 3 ləçəkdən ibarətdir. Qara dəniz sahillərində Stefaniyanın erkək çiçək qrupu iyulun birinci yarısında, dişi çiçəkləri isə iyulun ortalarında açır. Meyvələri sentyabrın ortalarında yetişir. İlk şaxtada vegetasiya sona çatır.



Rütublətli subtropik ərazilərində yayılmışdır.

Bir və üçillik stefaniyanın kökyumrusu və kökləri payızda toplanılır, təmizlənir və 60-80$^0$C-də qurudulur. Xammal B siyahısına daxildir. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Tərkibində yüksək alkaloidlər, xüsusən köklərində 6-8% izoxinolin törəmələri vardır. Bundan başqa hindarin (30%), rotindin, stefarin (15-18%) və siklearin alkaloidləri də vardır. Qafqazda yayılmış bu bitkinin tərkibi 6-7,5% alkaloidlərdən, xüsusən 30% hindarin, 10% sikleanid və az miqdarda digər alkaloidlərdən təşkil olunmuşdur.

Mioreleksant, qıcolmaya qarşı, analgetik və antixolenestraza təsirli dərmandır.

Xammal kimi payızda bir və üçillik bitkilərdən istifadə edilir. Hindarin sedativ, yüngül yuxugətirici və hipotenziv təsirə malikdir. Stefaqlabrin antixolenestraza təsirə malikdir.

Spesifik zəif iyli olub, dadı müəyyən olunmamışdır (!).

Tərkibindəki maddələrdən ən çox istifadə olunan sanqviritrindir. Sanqviritrinin və xeleritrinin bisulfat antimikrob aktivliyə malikdir. Sanqviritrin dəri və selikli qişaların maya göbələklərin və qarışıq floranın, infiltrativ yara və xoraların müvəffəqiyyətlə müalicəsində tətbiq edilir. Su və spirtdə hazırlanan emulsiyalı məlhəmləri hazırlanır. Kökyumruları və köklərindən hindarin-hidroxlorid və stefaqlabrin sulfat alınır. Hindarin-hidroxlorid sedativ, yüngül yüxügətirici, hipotenziv və trankvilizativ təsirə malikdir. Stefaqlabrin sulfat periferik sinir sistemi xəstəliklərində - miopatiya, aminotrofik sklerozunda üz sinirinin parezində təyin edilir. Stefaqlabrin sulfat keyfiyyətli antixolenestrazaya təsir etməklə, amiotrofik sklerozda, yeniyetmələrin miopatiyasında və sinir sistemi xəstəliklərində təyin edilir.

## *Ungernia* Bunge - Ungerniya

***Ungernia victoris* Vved. ex Artjushenko – Viktor ungerniyası** (Evgeni ungerniyası, amankora, ungerniya)

**Botaniki xarakteristikası:** Çoxillik soğanaqlı bitkidir. Soğanağı iri, uzunluğu 7-11 sm, yumurtaşəkilli, diametri 7-12 sm, açılan, tünd-qəhvəyi və ya qaramtıl-qonur rəngli, pulcuqlu olub, boyuncuğunun uzunluğu 17 sm-ə bərabərdir. Soğanağın dib tərəfi yaxşı inkişaf etmiş, sarımtıl-çəhrayı rəngli, şirəli olmaqla, yalançı əlavə kökləri vardır. Yarpaqları ikisıralı, şirəli, hamar, xətti, zirvəsi küt, uzunluğu 20-40 sm, eni isə 1-4 sm-ə bərabərdir. Bu bitki fevralın sonunda inkişafa başlayaraq, aprelin ortalarına kimi maksimal inkişaf edir. Mayın sonundan iyunun sonuna qədər inkişafı zəifləyir və quruyur. İnkişaf etmiş çiçəkqruplarının uzunluğu 12-30 sm olub, bircərgəli çətirşəkilli qına malikdir. Çiçəkqrupları 2-11 ədəd, düz qıfabənzər, sarımtıl-çəhrayı və ya yasəmən çiçəklərinə bənzəyir. İyulun sonu və avqustun əvvəllərində çiçəkləyir, sentyabrda isə meyvələri yetişir.



Toplanıldığı yerlərdən təkrar toplanılması 3 ildən sonra ola bilər. Keyfiyyətli xammalı ən inkişaf etmiş yarpaqları hesab (30-35sm) edilir. Toplanılma aprelin ortalarından mayın ortalarına qədər aparıla bilər. Yarpaqlarını iti bıçaqla kəsmək lazımdır. Çoxlu miqdarda yarpağın birdən-birə toplanılması məsləhət

görülmür. Çoxillik yabanı və keyfiyyətli dərman xammalı olan Viktorunqerniyası bitkisini aprelin ortalarından mayın sonuna (yarpaqlar saralana qədər) qədər toplamaq və qurutmaq mümkündür. Təzə yarpaqları küləş doğrayan maşınla 2-3 sm hissəciklərə bölərək, brezent və ya düz meydançaya sərərək qurutmaq lazımdır. Qurutma 4-5 gün ərzində aparılmalıdır.

Zəif iyli olub, dadı müəyyən olunmamışdır (!).

Xammalı B siyahısına daxildir. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Soğanaq və yarpaqlarının tərkibində qalantamin və likorin sırası alkaloidlər vardır. Bu alkaloidlərin əsasını qalantamin, qalantin və likorin təşkil edir. Soğanaqlarında 0,8-0,9%, köklərində 2,25%, yarpaqlarında isə 0,33-1% alkaloidlər vardır. Yarpaqlarında 0,2% qalantamin olur. Bundan başqa xelidin turşusu, çiçəklərində efir yağı izləri, soğanağında nişasta, selik, kitrə və qatran vardır.

Bronxolitik, öskürəkkəsici, qusmaəleyhinə və antixolenestraza dərmandır.

Qalantamin xolenestrazanın əks blokatrıdır. Sinir impulslarının keçiriciliyini yüngülləşdirir, baş və onurğa beyin reflektor zonalarının sinir-əzələ sinapslarının oyanmasını gücləndirir. Skelet əzələlərin tonusunu oyandırır və stimullaşdırır, mədə və tər vəzilərinin sekresiyasını artırır, mioz yaradır, akkomodasiya spazmını aradan götürür və gözdaxili təzyiqi azaldır. Likorin bronxolitik, öskürəkkəsici və qusma yaradır. Antixolenestraza aktivliyi, bağırsaq və skelet əzələlərini və sidik yollarını stimullaşdıran dərmandır.

Yarpaqlarında qalantamin vardır ki, bundan da “qalantamin hidrobromid” maddəsi alınır. Miasteniyada, proqressiv əzəzə distrofiyasında, hərəkət və duyğu pozğunluqlarında, nevrit, polinevrit, radikulit və digər patologiyalarda təyin edilir.

## *Physostigma* Balf. - Fizostiqma

***Physostigma venenosum*** **Bulf. - Zəhərli fizostiqma** (Fizostiqma, zəhərli iristiqma, mezopontik stiqma)



**Botaniki xarakteristikası** Tropik lian olub, şişman silindrik gövdəsinin uzunluğu 15 m-ə qədərdir. üçər mürəkkəb yarpaqlarının uzunluğu 7-15 sm, növbəli, yumurtavari, itiuclu və çılpaqdır. Çiçəkləri açıq-qırmızı, başı aşağı əyilmiş, boş, tük qələm və ya fırçalarının uzunluğu 15 sm, meyvəsi 10-18 sm uzunluğunda,tünd-qəhvəyi paxlameyvəolmaqla, 2-4 toxumludur.

**Tərkibi və təsiri:** Toxumlarında indol qruplu alkaloidlər vardır. Başlıca olan alkaloid fizostiqminin (ezerin) miqdarı 1,5%-ə qədərdir.

Dərman maddələri - Fizostiqminin (ezerin) salisilat göz damcısı, inyeksiyası 0,1%-dir. Antixolinestraza dərmandır.

Farmakoterapevtik qrup - Antixolinestraza dərmandır.

Fizostiqminin (ezerin) ilk vəziyyətə qayıtma qabiliyyətinə malikdir. Mioz (daraltma) qabiliyyətinə malik olmaqla gözdaxili təzyiqi aşağı salır. Atropinin antoqonistidir. Fizostiqminin (ezerin) salisilatı başlıca olaraq oftolmologiyada geniş şəkildə işlədilir. Bundan başqa başırsaq iflicində, sidik yollarının sinir-əzələ xəstəliklərində işlədilir. “Kalabar paxlası” adlanan bu bitki

olduqca zəhərlidir. Keçmişdə afrika əsirləri bu bitkini "məhkum olunmuşların paxlası" və ya "ezera" adlandırırdılar. Ölüm hökmü verilənlərə bu bitkini dəmləyərək içirirdilər. Avropaya bu bitkinin toxumu 1850-ci ildə aparılmışdır.

## *Peganum* L. – Üzərlik

***Peganum harmala*** **L. – Adi üzərlik (**Qəbirsandıq otu, nəzərotu, nəfəsotu, çöl sədəfotu)

**Botaniki xarakteristikası** – Çoxillik çilpaq ot bitkisi olub, spesifik kəskin iyli olub, hündürlüyü 40-50 (70) sm-dir. Gövdəsində bir neçə şırım olmaqla, güclü budaqlanan, qollu-budaqlı, girintili-çıxıntılı və sıx yarpaqlıdır. Yarpaqları oturaq, növbəli, uzunluğu 4-5 (7) sm, iki lələkvari yarılmış olmaqla, xətti seqmentlidir. Çiçəkləri çoxsaylı və ya tək, iri, düzgün, beşüzvlü, ikiqat çiçək yatağına malik olmaqla, azacıq sarımtıldır. Erkəkciyi 15 ədəd olub, yuxarı yumurtalıqlıdır. Meyvələri şarşəkilli, qutucuğu 3-yuvalı və çox toxumludur. May-iyul ayında çiçəkləyir, iyundan avqust ayına qədər isə meyvələri yetişir.



Gilli və qumsal torpaqlarda, eyni dərəcədə yarımçöl, öndağlıq və 2800 m dəniz səviyyəsi hündürlüyü olan dağlarda yayılmışdır. Mədən sevən (ruderal), otlaq-alaq bitkisidir.

Yerüstü hissələri erkən yazda (aprelin ikinci yarısında), çiçəkləmə fazasında yalnız quru hava şəraitində toplanılmalıdır. Toplanılan bitkisi 8 sm-ə qədər kəsilərək 4-5 sm qalınlığında sərilməli və tez bir zamanda qurudulmalıdır. Qurudulma günəş altında aparılır. Qurudulmya düzgün riayət edilməzsə, bitkinin qəbulu zamanı təngnəfəslik və baş ağrısı əmələ gəlir.

Bitkilərin, pöhrəliklərin normal bərpasını gözləməklə, 2 ildə 1 dəfə toplanılmalıdır.

Xammal kimi gövdə, yarpaq, buton və çiçəkləri hesab olunur. Xammalı spesifik özünəxas iyli və təyin olunmayan dadlıdır (!).Quru yerdə saxlanılır. B siyahısına daxildir. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Bitkinin bütün orqanlarında akaloidlər xinazolin və indol törəmələri vardır. Butonizasiya zamanı xinazolin törəmələrinin xüsusilə, L-peqaninin miqdarı 1,5-3% olur. Çiçəkləmə və meyvəvermə vaxtı indol qrupundan olan akaloidlərdən harmin, harmalin daha çox toplanılır. Müxtəlif fazalarda bitkinin tərkibində müxtəlif qruplu maddələr toplanırlar. Akaloidlərdən başqa aşı maddələri, saponinlər və üzvi turşular vardır.

Dərman preparatları: Dezoksipeqanin hidroxloridin 1%-li məhlulu, 0,05 və 0,1q dozada həbi. Antixolinestraza dərmandır.

Antixolinestraza dərmandır. Skelet əzələlərin tonusunu və bağırsağın motor funksiyasını artırır.

Xinazolin qruplu alkaloid. Antixolinestraza aktivliyi göstərərək, sinir-əzələnin keçiricilik qabiliyyətini bərpa edir.

Dezoksipeqanin hidroxlorid, 1% məhlul, 0,05 və 0,1q dozada həbi. Antixolenesteraza dərmandır.

Adi üzərlik otundan antixolinestraza təsirli «Dezoksipeqanin hidroxlorid» dərmanı alınır. Periferik sinir sistemində baş verən müxtəlif xəstəliklərdə və beyin pozğunluqlarında işlədilir. Epilepsiya, mədə və onikibarmaq bağırsaq xorası, bronxial astma və hipertoniyada əks göstərişdir.

## *Veratrum* L.- Asırqal

***Veratrum album* (=Veratrum lobelianum Bernh.) – Ağ asırqal (**Çoxsalxımlı dioskoreya, şamdanabənzər, dioskoreya)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisidir. Kökümsovu qalın, şaquli və çoxsaylı uzun köklərdən ibarətdir. Gövdəsi qalın, uzunluğu 70-170 sm-ə bərabərdir. Yarpaqları növbəli, iri, qalın, ellipsvari, bütövkənarlı olub, uzun boruşikillidir. Yarpaqlarında büzməli lövhəciklər yerləşir. Zirvədəki süpürgə çiçəklərinin uzunluğu 20-60 sm-dir. Çiçəkləri görkəmsiz, yaşıl, sadə, 6 bölümlü və geniş kasa yarpağına malikdir. Meyvələri 3 yuvalı qutucuqdan və çoxsaylı toxumlardan ibarətdir. Bu bitki olduqca zəhərlidir(!). İyun-avqusta çiçəkləyir, avqust-sentyabrda meyvələri yetişir. Tərkibində *veratrin* alkaloidi olduğundan olduqca zəhərlidir.



Avrasiya növüdür. Rusiyanın Avropa hissəsinin meşə və meşə-çöl ərazilərində, cənubi Qazaxıstanda, şimal-şərqi Qırğızıstanda və Orta Asiya, Qərbi Sibir, cənub-şərqi Sibir və Baykal ətrafı ərazilərdə çox geniş yayılmışdır.

Meşə zonalarında, meşə və subasar çəmənliklərdə, iynəyarpaqlı və qarışıq meşələrdə, tozağacı, meşə-bozqır və çay kənarlarında yayılmışdır.

Xammal olaraq kökümsov və kökləri erkən yaz və payızda yığılmalı və tez bir zamanda qurudulmalıdır. Unutmaq olmaz ki, zəhərli olduğundan tənəffüs yollarının selikli qişasını güclü qıcıqlandıra bilər(!). Qurudulma təbii şəraitdə, daimi havalı yerlərdə və ya quruducu şkafda 60°C-də aparılmalıdır.

Quru yerdə saxlanılır. B siyahısına daxildir. Saxlanılma müddəti 4 ildir. Xammalı həm bütöv və həm də doğranmış kökümsov və kökləri ola bilir. İysiz olub, dadı təyin edilməmişdir(!).

**Tərkibi və təsiri:** Bitkinin bütün orqanlarında steroid alkaloidlər və qlikoalkaloidlər vardır. Yeraltı orqanlarında ifrazat alkaloidi, qlikoalkaloid və psevdoiervin alkaloidlərindən ibarətdir. Bu alkaloidlər köklərdə 2,4%, kökümsovlarda 1,3%, otunda isə 0,55%-dir. Otun tərkibindəki alkaloidlər yayda birdən - birə aşağı düşür, yazda isə miqdarı artır.

Famakoterapevtik qrup – Antipedikulyoz dərmandır.

Yabanı çoxillik asırqalın yaz və payızda toplanan kökümsov və kökləri xammal kimi keyfiyyətli dərman bitkisidir.

Asırqalın 70% etil spirtində 1:10 nisbətində cövhəri və 1:10 nisbətində sulu məhlulu antipedikulyoz dərmandır.

Kökümsov və köklərindən məhlul alınır ki, bu baytarlıq praktikasında parazit əleyhinə dərmanlar hazırlanır. Yüksək toksikidir(!).

## *Solanum* L. – Quşüzümü

***Solanum laciniatum* Ait. – Dilimli quşüzümü (Bataqlıq mərcanı, quşüzümü)**



**Botaniki xarakteristikası –** Çoxillik ot bitkisi olub, hündürlüyü 2,5 m, birillik kulturada isə 1 m-ə qədər olur. Gövdəsi tək olub, hündürlüyü 40-60 sm, dişcikli-budaqlanandır. Gövdəsi üzərində bənövşəyi piqmentli düyüncüklü, aşağı yarpaqları saplaqlı, uzunluğu 35 sm, cüt olmayan, üç hissəli parçalanan, yuxarı yarpaqları isə azalaraq sadələşən, kiçik, bütöv və neştərşəkillidir. Yarpaqları çılpaq, yuxarı hissəsi azacıq tünd-yaşıl, aşağı hissəsi isə açıq-yaşıl rənglidir. Çiçəkləri iri, qısa çiçəkqrupundan ibarət olub, 3-17 ədəddir. Kasacığı yaşıl, 5 yarpaqlı, çiçək tacı tünd-bənövşəyi, dairəvi, meyvələri şirəli olub, uzunluğu 3 sm-dir. Meyvələri narıncı-qırmızı oval giləmeyvə, uzunluğu 2-3 sm olub, toxumları kiçik və çoxsaylıdır. Butun bitkiləri zəhərlidir (!).

Bitkinin vətəni subtropik təbilətli ölkələr - Avstraliya və Yeni Zelandiyadır.

Qazaxıstan və Orta Asiyada birillik kulturada becərilir. Toxumlarla çoxalır.

Xammalı kütləvi çiçəkləmə zamanı toplanılır. Yayda məhsulu 2 dəfə toplamaq mümkündür. Qurudulma təbii və süni

yolla ola bilər. Bitki 8-12 sm qalınlığında sərilməli və daimi olaraq qurudulmalıdır. Süni şəkildə quruducu şkafda 50-60ºC temperaturda qurudulmalıdır.

Saxlanılma müddəti 5 il olmaqla, quru yerdə saxlanılır. B siyahısına daxildir. Özünəməxsus zəif iyli olub, dadı təyin olunmamışdır (!).

**Tərkibi və təsiri:** Bitkinin tərkibində qlüko-alkaloidlər olan solasonin, solamarqin və solasodin aqlikon vardır. Solasodin alkaloidi və steroid sırasının əsasını təşkil edir. Solasodin alkaloidləri yetişməmiş meyvələrdə 2,42-3,27%, yarpaqlarda 1,30-2,07%, gövdə və köklərdə az 0,33% vardır.

Famakoterapevtik qrup - Xammalı hormonal preparatların sintezində işlədilir.

Mədəni əkilən çoxillik quşüzümü bitkisi (otu) çiçək və meyvələrinin yetişməsi zamanı xammal kimi keyfiyyətli dərman bitkisidir.

Progesteron,1% və 2,5% məhlulu. Bu hormon yarımsintetik yolla alınır.

Kortizon asetat, həb 0,025, 0,05q, inyeksiya üçün suspenziya. Qlükokortikosteroiddir.

Otundan solasodin maddəsi alınır ki, bu maddədən progesteron sintez olunur. Tibb praktikasında həm də *kortizon asetat* maddəsi alınır. Bu maddə bronxial astma, revmatizm, revmatoid artrit, kəskin limfo və mieloblast leykozda, infeksion mononukleoz, neyrodermit, ekzema və digər dəri xəstəliklərində tətbiq olunur. Eyni zamanda böyrəküstü vəzin hormonal çatmamazlığı olan Addison xəstəliyində, hemolitik anemiyada, qlomerulonefrit, kəskin pankreatit və virus hepatitinin müalicəsində istifadə edilir.

## *Delphinium* L. – Mahmızçiçək

***Delphinium dictyocarpum* DC. - Bəzəktoxum mahmızçiçəyi**

**(**Dərman xəndəkotu, mahmızlı, tünd göy buynuzaoxşar, əkin mahmızçiçəyi, mahmızçiçək, tünd göy mahmızçiçək)

**Botaniki xarakteristikası** – Çoxillik ot bitkisi olub,hündürlüyü 60-100 sm-ə bərabərdir. Yarpaqları növbəli, uzunsaplaqlı, dairəvi-böyrəkşəkilli, uzunluğu 5-10 sm, eni isə 6-13 sm, dişli-yarılmış, 5-7 rombşəkilli, çılpaq və ya seyrək tükcüklüdür. Çiçəkləri sıxlaşmış çoxçiçəkli fırçalı olub, uzunluğu 40 sm-ə qədərdir. Çiçəkləri qeyri-düzgün, kasacığı tacvarı, 5 tünd-göy yarpaqcıqlı, yuxarı yarpaqları əsasından tam mahmızlaşmış, zeh əmələ gətirmişdir. Ləçəkləri qısa kasa yarpağından nektarlıqdan, mahmızdan ibarət hamar, ağımtıl, bükük və yarısına qədər yarılmışdır. Erkəkcikləri çoxdur. Meyvəsi çoxyarpaqlı, üç çoxtoxumlu yarpaqcıqlardan ibarət, uzunluğu 1 sm-ə qədər olub, yarpaqcıqları dimdiklidir. İyun-avqust aylarında çiçəkləyir, avqust-sentyabr aylarında isə meyvələri yetişir.



Gövdəsinin uc hissəsindən 70 sm aralı kəsilməlidir.Qurudulma kölgəli və havalı yerlərdə aparılmalıdır. Süni qurudulma 45-50°C-də aparılmalıdır. Bitki zəhərli

olduğundan toplama və qurutma zamanı ehtiyatlı olmaq lazımdır (!).

Bitkinin hər bir pöhrəsi toxum əmələ gətirənə qədər qorunmalıdır. Təkrar toplanılma 2 ildən sonra aparıla bilər. Xammal B siyahısında saxlanılır.

.

Yarpaqlı gövdəsinin uzunluğu 40-70 sm olub, buton və çiçəklərə malikdir. İysiz olmaqla, dadı təyin olunmamışdır (!).

**Tərkibi və təsiri:** Bitkinin tərkibində 0,1-0,7% deterpen, başlıca olaraq mellikakonitin alkaloidi tapılmışdır. Bundan başqa izoxinolin alkaloidi də vardır.

Famakoterapevtik qrup – Mioreleksant, qanqlioblokatr dərmandır.

Mellikakonitin alkaloidi kurareyəbənzər təsir etməklə, antidepolyarlaşmış mioreleksant və zəif qanqlioblokatr dərmanlardan ibarətdir.

Melliktin həbi, 0,02 q (hidroyod mellikakonitin alkaloidi). Mioreleksant, qanqlioblokatr dərmandır.

Xammalından «Millektin» adlı keyfiyyətli mioreleksant preparatı alınır ki, bu dərman əsəb sistemini sakitləşdirməklə yüksək əzələ tonusunu azaltmaq üçün istifadə edilir.

## *Aconitum* L. - Akonit, Kəpənəkçiçək

***Aconitum leucostomum*** **Worosch. – Ağbığcıqlı akonit (**Akonit, zəhərli akonit, kəpənəkçiçək)

**Botaniki xarakteristikası** – İri bitki olub, hündürlüyü 120-200 sm, möhkəm olub, şaquli və dik istiqamətdə yerləşən kökümsova malikdir. Aşağı yarpaqları uzunsaplaqlı, kökümsov ətrafında rozet əmələ gətirən və gövdə yarpaqları qısasaplaqlıdır. Bütün yarpaqları sıx, dəricikli, böyrəkvari-dairəvi, dərin kəsilmiş, yuxarı hissəsi çılpaq, güclü damarlı olub, qısa əyilmiş tükcükləri vardır. Hamaşçiçəkləri adətən qol-budaqlı, çılpaq və çoxçiçəkli olur. Çiçəkləri qeyri-düzgün, kasacığı tacabənzər, 5 sərbəst kasaşəkilli, yuxarı kasayarpaqları dəbilqəyə bənzərdir. Ləçəkləri nektarla örtülü, mahmızları nazik spiralşəkilli burulub bağlanmış olur. Çiçəkləri tutqun-bənövşəyidən, sarı rəngə qədər dəyişir. Meyvəsi üçyarpaqlı, metalabənzər tükcüklüdür. İyul-avqust aylarında çiçəkləyir, avqust-sentyabr aylarında isə meyvələri yetişir.



Dağ-meşə və subalp çəmənliklər, kolluqlar.

Yerüstü hissələri may-iyun aylarında, çiçəkləri isə vegetasiya fazasında toplanılır. Xammal torpaqdan 4-5 sm hündürlükdə yığılmalıdır. Toplanılmış xammal sutqa ərzində 3-10 sm ölçüdə

hissələrə kəsilməli və qurudulmaya hazırlanmalıdır. Qurudulma günəş altinda 3-5 sm qalınlıqda sərilməli və ya 80°C temperaturada quruducu şkafda aparılmalıdır. Xammal qurudulduqdan sonra qablaşdırılmalıdır. Bu zaman bütün qaydalara riayət etmək lazımdır (!).

Bitkini ehtiyatla toplamaq lazımdır. Yeni yaranan pöhrələrinin məhv edilməsinin qarşısını almaq lazımdır. Xammalın təkrar toplanılması 3 ildən sonra mümkündür.

Xammal B siyahısında saxlanılmaqla, saxlama müddəti 5 ildir. Zəif iyli və təyin olunmayan dadlıdır (!).

**Tərkibi və təsiri:** - Yerüstü hissələrinin tərkibində 0,5-4% deterpen alkaloidləri (lappakonitin, lappakonidin), vegetasiya müddəti qurtardıqdan sonra isə yeraltı orqanlarında bu alkaloidlər 4,9% olur. Bundan başqa izoxinolin alkaloidləri - koridin, saponinlər, kumarin və aşı maddələri vardır.

Dərman preparatları – Allapinin həbi 0,025 q, 0,5% məhlulu (lappakonitin hidrobromid alkaloidi). Antiaritmik, yerli keyləşdirici və sedativ tərkiblidir.

Antiaritmik preparatlar. Aklezin həb 0,025 q. Bundan başqa Karaol (Aconitum karacolicum Rapaics) və Cunqar (Aconitum soongaricum Stapf) növləri vardır ki, bu növlər Tyan-Şanın rütublətli dağ meşələrində rast gəlinir. Bu növlərdə deterpenin zəhərli alkaloidləri vardır. Cunqar akonitini (FS 42-269-72) çiçəkləmə dövründə toplayaraq cövhərini almaq lazımdır. Cövhərindən «Exinop» dərman maddəsi hazırlanır ki, bundan anginanın, xalq təbabətində isə xərçəng əleyhinə dərman kimi işlədilir. Güclü zəhərləyici dərmandır (!).

Antiaritmik, analgetik maddədir. «Allapinin» və «Aklezin» dərmanları keyfiyyətli antiaritmikdir.

## *Brassica* L. – Xardal (Kələm)

***Brassica juncea*** **(L.) Czern. (=Sinapis juncea L.) – Cığabənzər xardal** (Bataqlıq xardalı, köpmüş xardal, göyümtül xardal, rus xardalı)

***Brassica*** **nigra L. – Qara xardal**

**Botaniki xarakteristikası** – Birillik ot bitkisi olub, gövdəsi budaqlanan olmaqla, hündürlüyü 150 sm-ə qədərdir. Yarpaqları növbəli, çılpaq, aşağı hissəsi-liraşəkilli, yarılmış və ya bölümlü, orta hissəsi neştərvari, kənarları girintili-çıxıntılı, yuxarı hissəsi isə bütövkənarlı və ellipsşəkilli formalıdır. Hamaşçiçəkləri fırçaşəkillidir. Çiçəkləri kiçik, qızılı-sarı, tipik xaççiçəkli quruluşundadır. Meyvələri silindrik, çılpaq, qınşəkilli bizəoxşar olub, gövdəsi



əyilmişdir. Toxumları demək olar ki, şarşəkilli, diametri 1 mm-ə qədər, sarımtıl-göy, qəhvəyi və ya açıq-sarı, aydın görünən deşik-deşikdir. May-iyun aylarında çiçəkləyir, iyun-iyul aylarında isə meyvələri yetişir. Qara xardalın toxumları (*Brassica nigra* (L.) Koch.) xarakterik möhkəm sıxılmış qınşəkilli olur. Ağ xardal (*Sinapis alba* L.) isə qalınlaşmış və sıx, sərt tükcüklərlə örtülmüşdür. Hər iki növ birillikdir. May-iyun aylarında çiçəkləyir, iyun-iyul aylarında isə meyvələri yetişir.

Yabanı bitki olaraq Rusiyanın Avropa hissəsinin cənub rayonlarında yayılmışdır. Mədəni halda geniş şəkildə quraqlığa davamlı bitki yayılmışdır. Əvvəllər mədəni şəkildə əkilən xardaldan yağ və yaxma hazırlanırdı. Qara xardal mədəni şəkildə yalnız Cənub-Qərbi Ukraynada becərilir.

Yabanı şəkildə yayılan bu bitki çırlaşaraq mədənlərin kənarlarında, yaşayış məntəqələrində, yol kənarlarında, alaq və əkin sahələrində, bostan və bağlarda yaşayır.

Bitkinin aşağı qınları yetişən zaman toxumları toplanılır. Saxlanılma yeri quru olmalıdır. Saxlama müddəti 2 ildir.

Bitki məhvolma ərəfəsindədir. Ona görə də bitkini qorumaq vacibdir.

**Tərkibi və təsiri:** Toxumlarının tərkibində qlikozinolatlar-triqlükozidlər vardır. Başlıca olaraq siniqrin qlükozidi, ikili efir olan allil izotiosianit, kalium bisulfat və qlükoza (1,4%) vardır. 30-40ºC temperaturda mirozin fermenti təsir edərək, xardalın toxumları siniqrin komponentinə parçalanır. Hidroliz 2 etapla gedir. İlk olaraq siniqrin kalium bisulfata, sonra isə qlükozid əlaqəsi kükürd atomuna təsir edərək, qlükoza və allil izotiosianitə çevrilir ki, bundan da xardal iyi gəlir. Toxumlarında bolluca miqdarda efirli yağlar (40%), zülal və selik maddələri vardır.

Dərman preparatları - Xardal yaxması. Yerli qıcıqlandırıcı, yayındırıcı dərmandır. "Efkamon" məlhəmi (xardalın efir yağı).

Famakoterapevtik qrup –Yerli qıcıqlandırıcı, yayındırıcı və analgetik dərman olub, eyni zamanda iştahartırıcıdır.

Toxumları təsirli maddə olub,saniqrin qlükozidi şəkəri parçalayaraq kalium bisulfata, allil yağına və suya çevrilir. Bu yağ spesifik iyli və yandırıcı olduğundan dəriyə sürtülən yeri qızardaraq istiləşdirir.

Xardal listi 8×12,5 sm. Yerli keyləşdirici və yayındırıcıdır.

Efkamon məlhəmi. Efiryağlı komponentdir.

Toxumundan sənaye xammalı üçün xardal yağı alınır. Bütün toxumları qabığından azad edildikdən sonra doğrama dəzgahı ilə

üyüdülür və xardal yaxması hazırlanır. Qalıq olan jımıx farmakoloji xammal hesab edilir. Üyüdülmüş xardal kauçuk yapışqanın köməyi ilə kağız üzərinə yapışdırılır. Xardal kağızından iltihabi proseslərdə və revmatizmdə istifadə edilir. Bunun üçün dəri isti su ilə silinir, xardal yaxması isti suya salınaraq nəzərdə tutulan yerə yapışdırılır. 5-15 dəqiqə qaldıqdan sonra yaxma qoparılır, yaxmanın yeri nəm dəsmalla silinir. Bronxit, ağ ciyər iltihabı, plevrit, miozit, nevrit, radikulit, revmatizm və digər soyuqdəymə xəstəliklərində tətbiq edilir. Xardal yağının çoxkomponentli məlhəmi «Efkamon» artrit, poliartrit, miozit, lümbaqo, revmatizm, miqren və digər xəstəliklərin müalicəsində işlədilir.

## *Datisca* L. - Dəliçətənə

***Datisca cannabina* L. – Kənaf dəliçətənə** (Dəliçətənə, gülxətmi dəliçətənə, gicitkan dəliçətənə, çətənə)

**Botaniki xarakteristikası -** Çoxillik ot bitkisi olub, kökümsovu yoğun budaqlanandır. Gövdəsi düzqalxan, çılpaq, hündürlüyü 2-3 m-ə bərabərdir. Yarpaqları cüt olmayan lələkli, iri, uzunluğu 10-35sm olub, növbəli, yalançı zoğu olmayan, saplağının uzunluğu 3-7 sm-dir. Çiçəkləri yaraşıqsız, tutqun, kiçik, düzgün, ayrı cinsiyylətli, yuxarı yarpaqları fırçayabənzər, uzunluğu 3-20 sm, gövdənin zirvəsindəki çiçəkləri süpürgə çiçək qrupunda toplanmışdır. Meyvələri uzunsov-ellipsşəkilli olub, böyük olmayan qutucuqdur. İkievlidir. Qafqazda iyundan avqusta qədər, Orta Asiyada isə iyun-iyul aylarında çiçəkləyir. Meyvələri avqust-sentyabr aylarında yetişir.



Qafqazın demək olar ki, bütün rayonlarında yabanı növü rast gəlinməklə yanaşı, Dağıstan, Orta Asiyanın Sırdərya, Pamir-Altay və Tyan-Şanda regionlarında yayılmışdır. Yabanı pöhrəliklərdə xammal ehtiyatı mədəni halda əkiləndən daha çox olur. Toxumları çox kiçikdir. Mockva vilayətində, Şimali Qafqaz və Ukraynada mədəni şəkildə əkilir.

Özünəməxsus dağ silsiləsi və dağ dərələrində yaşayır. Çətənə ilkin olaraq dayaz sucaq, yerlərdə zəif inkişaf edir, qalxır, sonradan böyüyərək yatır. Çətənə təbii şəraitdə əhəmiyylətli pöhrəliyə çevrilərək qrup halında yayılır.

Çətənənin xüsusən toxumlarından ehtiyatlı olmaq lazımdır. Tənəffüslə qəbulu olduqca təhlükəlidir. Qurudulma 40-50ºC temperaturda aparılmalıdır.

Xammal yarpaq, gövdə, saplaq və çiçəkqrupu hesab olunur. Zəif iyli və acı dadlıdır. Havası dəyişilən yerlərdə saxlanılır. Saxlama müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Yerüstü hissələrinin tərkibi flavonoidlər (10%): datişçin, qalanqinozid, datinozid, kannabin, rutin, datiskanin maddələrindən ibarətdir. Tərkibində alkaloidlər, triterpenoidlər, steroidlər və aşı maddələri (2,9%) vardır.

Dərman preparatları – Datiskan həbi 0,05 q. Spazmalotik dərmandır.

Famakoterapevtik qrup –Spazmalotik xassəli dərmandır.

Bu bitkinin əsasən ödqovucu və iltihabsorucu təsiri vardır. «Datiskan» adlı dərman maddəsi alınır ki, yaraəleyhinə və spazmalotik təsir göstərir. Yoğun bağarsağın saya əzələlərinə və öd yollarına təsir edir. Toksiki təsiri azdır. Ödqovucu kimi xolesistitlərdə, spazmalotik olmaqla, hipoasit qastritlərdə və mədə və onikibarmaq bağırsağın xorasında təyin edilir.

## *Solidago* L. – Qızılsəbət

***Solidago canadensis* L. – Kanada qızılsəbəti** (Qızılsəbət, qızıl çubuq, canlandırıcı ot, xənazirli, sarıçiçək, dovşan pərğu (tiftik)

**Botaniki xarakteristikası** – Çoxillik ot bitkisi olub, hündürlüyü 1,5 m-ə bərabərdir. Gövdəsi düzqalxan, yuxarı hissədən budaqlanan, bütün hissələri sıxyarpaqlı olub, əsası odunlaşmışdır. Gövdəsinin rəngi tünd-yaşıldan, açıq-yaşıla qədər dəyişir. Yarpaqları növbəli, xətti-neştərvari, zirvəsi uzun itiuclu və uzunsov damarlıdır. Aşağı yarpaqlarının kənarları boyunca itidişcikli, qısasaplaqlı olub, uzunluğu 5-12 sm-ə bərabərdir. Yuxarı yarpaqları bütövkənarlı, oturaq və uzunluğu 2-8 sm-dir. Səbətcikdəki çiçəkləri xırda, diametri 3-5 mm, kənarlarında 4-6 yalançı dilcik və 5-8 ədəd boruşəkilli çiçəkləri vardır. Bütün çiçəkləri qızılı-sarı olur. Yalançı dilcikli çiçəkləri bir cərgədə yerləşir. Səbətdə birtərəfli toplanmış, qövsşəkilli, əyilmiş, bükülmüş, qatlanmış fırçaları qollu-budaqlı, piramidaşəkili və süpürgəvarı çiçəkləri yerləşmişdir. Meyvələri ensiz silindrik, toxumları qabırğalı, uzunluğu 1-1,5mm, kəkilli ağ tükcüklüdür. Birinci il budaqlanan kökümsovu və yan kökcüyü



olur. İyul-avqust aylarında çiçəkləyir, avqust-sentyabr aylarında isə meyvələri yetişir.

Çiçəkləmə başlayan zaman bitkinin yerüstü hissəsini silos yığan kombaynla hündürlüyü 36 sm olmaq şərti ilə toplamaq lazımdır. Bu üsulla kəsilmə uzunluğu 10-15 sm ölçüdə xammalı doğramaq və qurutmaq lazımdır. Qurudulma yaxşı havalanan yerlərdə və ya 50-60ºC temperaturda quruducu şkafda aparılmalıdır.

Yerüstü hissələri, yarpaqları, çiçəkləri, yetişməmiş meyvələri və kəkilləri xammal hesab olunur. İysiz, acı dadlı olmaqla, azacıq büzücüdür.

Yaxşı hava axını olan quru yerlərdə saxlanılmalıdır. Saxlama müddəti 5 ildir.

**Tərkibi və təsiri:** Yerüstü hissəsində flavonoidlərdən aqlikon (kverçetin, kempferol, izoramnetin), qlükozidlər, kumarinlər (skopoletin, umbelliferon), kofein və çoxlu miqdarda triterpen saponinləri vardır.

Diuretik, iltihabsorucu və spazmolotik dərmandır.

Hipoazotemik və diuretik dərman bitkisi olub, iltihabsorucu və spazmolotik vasitə kimi orqanizmdən sidik konkrimentlərini çıxarır. Böyrəkdaşı və sidikyolu xəstəliklərində təyin edilir. «Prostanorm» preparatı xroniki prostat vəzinin adenomasında işlədilir.

Solidar məhlulu (ekstrakt). Daxilə qəbul edilir. Diuretik, iltihabsorucu vəspazmolotik dərmandır.

Marelin, həb (komponent ekstrakt). Spazmolotik, diuretik, iltihabsorucu dərman olub, sidik konkrimentlərini çıxarır və böyrək sancısını azaldır.

Urofluks, toz (komponent ekstrakt). Diuretik və iltihabsorucu dərmandır.

Prostanorm, duru ekstrakt, daxilə qəbul edilir. Həb 0,2 q, (komponent ekstrakt). Prostatotrop və diuretik dərmandır.

## *Kalanchoe* Adans. - Kalanxo

***Kalanchoe pinnata* (Lam.) Pers. (=*Bryophyllum pinnatum* Lam.) - Ləlıkvari kalanxo** (Kalanxo, lələkvari, doktor)

**Botaniki xarakteristikası:** Çoxillik, həmişəyaşıl, sukkulent ot bitkisi olub, hündürlüyü 50-150 sm-dir. Gövdəsi düzqalxan, möhkəm olub, ağac əsaslıdır. Yarpaqları üz-üzə dayanan, saplaqlı, şirəli, yoğun, açıq-yaşıl və ya qırmızı rəngə çalan, ellips və ya yumurtavari, dişcikli-çəpərli, vegetasiya başladıqda sadə, qurtardırda yuxarı hissəsi bərabər olmayan-lələkli, 3-5 (7) ellips və ya yumurtavari yarpaqlı olub, qısa saplaqlı və ya oturaq olur. Çiçəkləri ikicinsli olmaqla, süpürgəvarı çiçək qrupunda formalaşmışdir. Çoxsaylı meyvələri kiçiktoxumlu və çoxyarpaqlıdır. Həyatının ikinci ilində qeyri-müntəzəm formada çiçəkləyir və zəif meyvə əmələ gətirir. Toxumla və vegetativ orqanlarla çoxalır.



Vətəni məlum deyil. Tropik Afrikada, Madaqasqarda, tropik Asiyada, Avstraliya, cənubi və mərkəzi Amerikada yayılmışdır. Otaq şəraitində geniş inkişaf edir. Plantasiya şəklində Gürcüstanda (Acarıstan) becərilir.

Birinci toplanılma avqustun başlanğıcında, ikinci isə oktyabrın sonunda aparılır. Oktyabr ayının sonunda cavan budaqların üzərində çıxan yarpaqları kəsilərək yeşiklərə

toplanaraq ventiliyasiyalı anbarlara yığılır və emal ediləcək zavodlara göndərilir bundan sok (şirə) alınır.

Xammal kimi gövdə yarpaqlarıdır. Zəif iyli, turş dadlı olmaqla, azacıq büzücüdür.

Toplandıqdan ən geci 20 saat sonra emal zavoduna göndərilməlidir. Xammal işlənilməli, 5-10°C temperaturda qaranlır yerdə 7 sutqadan çox olmamaqla saxlanılmalıdır.

**Tərkibi və təsiri:** Gövdə və yarpaqlarının sirəsində 40% polisaxaridlər, flavonoidlər (kverçetin, kempferol və qlükozidlər), katexinlər, aşı maddələri, üzvi turşular – alma, oksalat, limon, sirkə, fermentlər, askorbin turşusu və mikro və makroelementlər: alüminium, maqnezium, kalsium, mis, silisium və manqan olur.

İltihab əleyhinə dərmandır. Toxuma regenerasiyasını stimullaşdırır.

Bitkidən alınan sok iltihabsorucu olmaqla, eksudasiya fazasını aktivləşdirir. Yaralanmalarda, yanıqlarda, donvurmalarda, antibakterial hallarda, irinin təmizlənməsində, epitelizasiyada işlədilir. Sokunun təsirindən orqanizmdə virus əleyhinə interfermentativ maddələr hasil olur. Antivirus zamanı polimielitdə və enteroviruslarda təyin edilir. V.P.Filatov metodu ilə bakterisid effektli, qrammüsbət və qrammənfi mikroorqanizmlərə qarşı biogen stimulyator hazırlanır. Bitkinin soku az toksikidir.

Xammal olaraq keyfiyyətli dərman bitkisi kimi istifadə edilir. Təzə gövdəsindən hazırlanan sokdan yerli iltihabsorucu, toxumaları saflaşdırıcı vasitə kimi istifadə edilir. Eyni zamanda irinli nekrotik proseslərin, trofik yaraların, yataq yaralarının, dəlikli-deşikli yaraların, dəri transplantasiyalarında və yanıqların müalicəsində təyin edilir. İrinli yaraların, abses, dolama, frunkulyoz zamanı tamponların qoyulmasında istifadə edilir. Eyni zamanda qızılyel iltihabında, göz xəstəliklərində, yanıq, travma, keratitdə və gözün distrofit hallarında işlədilir. Qranulası mədə və 12 barmaq bağırsağın iltihabında, qastritdə, qastrodiodenitdə və xroniki enterkolitdə təyin edilir.

## *Oxycoccus* Hill – Mərcanı, (quşüzümü)

***Oxycoccus palustris*** **Pers. – Bataqlıq mərcanı**, (quşüzümü)

**(**Mərcanı, quşüzümü, bahar nəğməsi, durna balası, dördpərli bataqlıq quşüzümü



**Botaniki xarakteristikası** – Həmişəyaşıl kolcuq bitkisi olub, döşənən, sürünən vegetativ gövdəli olub, uzunluğu 80 sm-ə qədər olmaqla, üzərində çiçəklər və çətirşəkilli çiçəkqrupu vardır. Yarpaqları növbəli, qısasaplaqlı, dəricikli, aşağı kənarları bükülərək uzunsov-yumurtavari, yuxarı hissəsi parlaq, tünd-yaşıl, aşağıdan isə ağımtıl-göydən, mum rənginə qədər dəyişir. Çiçəkləri düzgün dördtilli olub, çiçək tacı çəhrayıdır. Meyvələri şirəli, tünd qırmızı olub, müxtəlif formalı (şarşəkilli, uzunsov-yumurtavari, armudşəkilli) göyümtül çalarlı və turş dadlıdır. İyun-iyul aylarında çiçəkləyir. Meyvəsi avqustun sonundan oktyabrın ortalarına qədər yetişir və yaza qədər bitkinin üstündə qalır.

Sfaqnum, torf və cil-tüklücə-sfaqnum bataqlıqlarında, seyrək meşə, bəzən bataqlaşmış yerlərdə yaşayır.

Meyvəsi yetişməyə başlayandan (avqustun sonu) qar yağana qədər, yazda isə qar əriməyə başladıqda əl ilə toplamaq lazımdır. Əgər xammal yetişməmiş, yan tərəfi qırmızıdırsa keyfiyyəti və təsiri aşağı hesab olunur. Bunun saxlanılması mümkün hesab edilmir. Xammal toplanıldıqdan sonra təmizlənir və çeşidlərə ayrılır.

Bütünlüklə pöhrəlikləri xüsusən ərsinəbənzər və ya daraq formalı quşüzümünün qorunması məqsədəuyğundur.

Səbətin çiləkəndən və ya çubuqdan hörülmüş hissələrinin çəkisi 30-60 kq olmaqla, 10°C-dən yüksək temperaturda, quru, yaxşı havalı olan yerlərdə saxlanılmalıdır. Payızda toplanılan giləmeyvələri bütün qışı saxlamaq mümkündür.

**Tərkibi və təsiri:** Meyvələrində bol üzvi turşular (2-5%): xinin, limon, alma və benzoy turşuları vardır. Meyvələrinin tərkibində şəkər (qlükoza, fruktoza, saxaroza), pektin maddələri (1,5%), efir yağları, azacıq askorbin turşusu (12-29 mq%), B qrup vitaminləri, flavonoidlər (kverçetin, rutin, hesperidin), aşı maddələri (4,9%), sərbəst katexin, antosian, triterpen birləşmələr, kalium, fosfor, kalsium, manqan və yod duzları, toxumlarının tərkibində isə 16-28% piyli yağlar vardır.

Mikrobəleyhinə və diuretik dərmandır.

Meyvələri qiymlətli qida və diuretik məhsuldur. Tərkibində çoxlu miqdarda olan benzoy turşusu mikrobəleyhinə, diuretik dərmandan başqa, müxtəlif böyrək, sidikyolu xəstəliklərinin müalicə və profilaktikasında istifadə edilir. Təzə giləmeyvələri mədə və mədəaltı vəzi sekresiyasını artırır. Temperatura hallarında tərqovucu vasitə kimi işlədilir. Sidiyin tərkibindəki urat və oksalat duzlarını əridərək yaxşı təmizləyir.

## *Verbascum* L. (Celsia L.) – Keçiqulağı, Sığırquyruğu

*Verbascum densiflorum* **Bertol. (=V.thapsiforme Schrad.)- Sıxçiçəkli keçiqulağı** (Çar şamı, seyrəkyarpaq keçiqulağı, sığırquyruğu, ayıqulağı, dəvəcik, heyrətə salan, hökmdar əsası, zərli çiçək)

**Botaniki xarakteristikası** – Sıxçiçəkli keçiqulağı iriçiçəkli keçəyəbənzər tükcüklü, birinci il inkişaf edərək kök üstündə olan çətir və yarpaqlar, ikinci il isə generativ gövdə əmələ gətirir. Gövdəsi budaqlanmayan hündürlüyü 2 m-ə qədərdir. Kök üstündə olan yarpaqları oturaq və ya qısasaplaqlı, uzunsov və ya uzunsov-ellipsşəkilli, iriçəpərli kənarları, gövdəsi növbəli, bütün uzunluğu boyu sallanmış buğumarasından, aşağı hissəsi uzunsov, yuxarı hissəsi yumurtavari, itiuclu olub, kənarları dişlidir. Çiçəkləri sarı, azacıq qeyri-düzgün və beşüzvlü, olub, 3-4,5 sm diametrinə bərabərdir. Meyvəsi qutucuqdur. İyun-avqust aylarında çiçəkləyir.



Bütün bu növlər sarı və ya çəhrayı rəngli, erkəkcik sapından ibarət olmaqla, aydın görünən tükcüklərdən ibarətdir.

Çəmənliklərdə, meşənin kənarında, qumluqlarda, dağ döşündə yamaclarda, dəmir yollarının kənarlarında, istifadəsiz və təzə meşə salınan yerlərdə rast gəlinir. Bəzən xüsusilə meşə

salınan yerlərdə və çöllüklərdə bir neçə hektar uzanan pöhrəlikləri yayılır.

Xammal iyul-avqust ayında aydın günəşli gündə, günün birinci yarısında şeh çəkilməmiş toplanılmalıdır. Açıq-sarı çiçəkləri toplanılmalı, çiçək tacı seçilərək götürülməlidir. Xammalı toplanan zaman kasacıq və digər hissəcikləri atılmalıdır. Toplanan çiçək tacı dərhal, gecikdirmədən qurudulmalı, 1 sm-ə qədər qatlara sərilməli, çardax və yaxşı ventiliyasiyalı naveslərə yerləşdirilməlidir. Qurudulma 40-50°C-də aparılmalı, sonra quruyan xammal paketənməli və taxtadan düzəldilmiş rəflərə yığılmalıdır. Yaxşı qurumuş xammal qızılı-sarı rəngdə olur.

Toplayan zaman pöhrəliklərdə bitkinin məhv edilməməsinə maksimum çalışılmalıdır.

Olduqca hiqroskopik olduğundan asanlıqla nəm, rütubət çəkir, kiflənir və kif basır. Ona görə də xammal quru saxlama məntəqələrində stelaj və yeşiklərdə, perqament döşəmələrdə, apteklərdə isə şüşə bankalarda quru yerlərdə saxlanılmalıdır. Saxlama müddəti 2 ildir. Zəif iyli, ədviyyəli və şirintəhər dadlıdır.

**Tərkibi və təsiri:** Çiçəklərinin tərkibində 2,5%-ə qədər selik, 11%-ə qədər şəkər, β-karotin, kumarin, saponinlər (verbasko saponin), flavonoidlər (apigenin, lyuteolin, rutin, kempferol), dihidrolakton, iridoid (aukubin, katalpol, metilkatalpol), fenol (0,5%), efirlər, piyli turşular və boyayıcı maddə olan α-kroçetin vardır.

Öskürəkkəsici dərmandır. Xammal kimi çiçəkləri eksport olunur. Öskürəkkəsici, yumşaldıcı və bürüyücü kimi sinə qarışıqlarının tərkibinə daxildir.

## *Skopolia* Jacg.– Skopolia

***Skopolia carniolica*** **Jacg. – Karniol skopoliyası** (Qısa kök skopoliya, skopoliya)

**Botaniki xarakteristikası:** Çoxillik ot bitkisi olub, horizontal, şişman, lətli, zəif gövdəli kökümsovu vardır. Gövdənin hündürlüyü 80 sm, açıq-yaşıl, demək olar ki, əsası bənövşəyi rənglidir. Yarpaqları yaşıl, saplaqlı, uzunsov-yumurtaşəkilli, zirvəsi itiuclu, bütövkənarlı və ya zirvəsi 1-2 dişlidir. Çiçəkləri başı aşağı əyilmiş, tək, uzunluğu 2-2,5sm, çiçək saplağı uzun, zənğşəkilli, 5 dişli, tacın xarici hissəsi tünd qırmızı-bənövşəyi, daxili isə sarımtıl-qonur rənglidir. Meyvələri dairəvi olub, açılandır.



Kökümsovlarını erkən yazda, yayın sonunda toplamaq lazımdır. Kökümsovlarını kürək və çəngəllə torpaqdan çıxararaq yumaq və qurutmaq lazımdir. Xammal toplandıqdan 10-15 il ərzində biosenoz bərpa edilir. Toplanılan xammal açıq, lakin kölgəli, yaxşı ventiliyasiyalı naveslərdə, çardaxda 1-2 sm qalınlığında sərilməli, qutucuqları günəş altında və ya 40$^{O}$C temperaturda quruducu şkafda qurudulmalıdır.

Zəif iyə və məlum olmayan dada malikdir(!).

**Tərkibi və təsiri:** Bütün orqanlarında 0,9% (tropan sırası), hiosçiamin və skopolamin alkaloidləritapılmışdır. Kökümsovlarının tərkibində 0,4% hiosçiamin toplanmışdır.

Qutucuğun tərkibində 0,55%, toxumlarının tərkibində isə 0,31% skopolamin alkaloidi toplanmışdır.

Yabanı ot bitkisi olan skopolianın kökümsovu keyfiyyətli xammal və dərman hesab edilir. Kökümsovlarının tərkibində çoxlu miqdarda skopolamin vardır.

Kökündən atropin sulfat, hiosçiamin, kamfora, skopolamin hidro-bromid, skopolamin kamfora alınır. Skopolamin sinir-psixi praktikada kamfora, hiosçiamin və skopolamin "aeron" həbinin hazırlanmasında istifadə edilir ki, bu da dəniz xəstəliklərində istifadə edilir.

## *Filipendula* Miller – Quşqonmaz

***Filipendula ulmaria*** **(L.) Maxim. - Qarağacyarpaq quşqonmaz** (Alaf, ağbaşlıqlı, ballıca (öfkəotu), ladan, xiyarcıq, quşqonmaz)



**Botaniki xarakteristikası** – Kökümsovluçoxillik ot bitkisi olub, hündürlüyü 2 m-ə qədərdir. Kök sistemi saçaqlı, nazik, incə sapaoxşar olmaqla, kök yumruları qalınlaşmışdır. Yarpaqları kəsik-kəsik, lələkvari 2-3(5) hissəyə bölünməklə, neştərvari, kənar seqmentləri mişarabənzər, yuxarı hissəsi yaşıl, aşağı hissəsi ağımtıldan keçəvari tükcüyə qədər dəyişir. Çiçəkləri sarımtıl-ağ, ətirli, süpürgəvarı çiçəkqrupunda cəmləşmişdir. Meyvələri çoxyarpaqlı 6-10-a qədər olub, yapaqları burulan spiralşəkillidir. Iyul-avqust aylarında çiçəkləyir, avqust-sentyabr aylarında isə meyvələri yetişir.

Avropanın əksər ərazilərində, Qərbi, Mərkəzi Sibirdə və Qafqaz.

Çaybasar çəmənliklərdə, nəmişlik, rütublətli yerlərdə, bataqlıqlarda, çay sahillərində, doğranmış, kəsilmiş meşələrdə, orta dərəcəli kolluqlarda yaşayır. Pöhrəliklər şəklində rast gəlinir.

Çiçəklərini yarpaqsız olmaqla bıçaqla, çapacaq və dəhrə ilə kəsərək səbətə toplamaq lazımdır. Yaxşı ventiliyasiyalı çardax və naveslərdə nazik qatla sərərək qurudulmalıdır. Quruducu şkafda 40°C-yə qədər temperaturda qurutmaq lazımdır.

Bütöv orqanları xammaldır. Quru və işıqdan qorunan yerlərdə (3 il) saxlanılmalıdır.

**Tərkibi və təsiri:** Çiçəklərinin tərkibində 0,2%-ə qədər efir yağı, salisil turşusunun metil efiri, aşı maddələri, flavonoidlər (spireozid, qlükozid, kverçetin), fenoqlükozid (monotropitin, spirein, izosaliçin), kumarinlər, askorbin turşusu və mikroelementlər vardır.

Hemostatik, hemorroy əleyhinə, diuretik və iltihabsorucu dərmandır.

Çiçəklərindən iltihabsorucu, hemostatik, diuretik, hemorroy,yara və yanıq əleyhinə dərman hazırlanır.

Çiçəkləri bişirmə (1:20 və 1:50) və dəmləmə formasında (1:50 və 1:100) işlədilir. Iltihabsorucu, büzücü, yarasağaldıcı, bürüyücü, vanna şəklində, sulu yaralar zamanı quruducu sarğıların qoyulmasında istifadə edilir. Bundan başqa ağız-boğazın qarqara edilməsində, ekzema, trofik yaralarda, qaşınan dermatozlarda və bədənin bişmiş yerlərində istifadə edilir. Babasildə imalə kimi olduqca effektlidir. Qarağacyarpaq quşqonmazın çiçəkləri və xırdalanmış hissəcikləri xammaldır. İltihabəleyhinə və büzücü dərmandır.

## *Lespedeza* Michx. – Lespedeza

***Lespedeza hedysaroides* (Pall.) Kitag. – Qəpikvari lespedeza (Lespedeça, tibbi lespedeça)**

**Botaniki xarakteristikası** – Lepidezaçoxillik ot bitkisi olub, qısa kökümsovu sıxılmış və basılmış düz gövdəsi 50 sm hündürlüyündədir. Yarpaqları uzunsov və ya uzunsov-ellipsşəkilli, sonu tikanlı, üçərmürəkkəb, sapvari-iynəli olub, yalançı zoğludur. Hamaşçiçəkləri qoltuq tumurcuqları fırçalı, kəpənəkçiçəkli tipində, sarımtıl və ya ağ-bənövşəyidir. Meyvəsi təktoxumlu, ellipsvari və ya dairəvi-yumurtavari paxlameyvədir. İyul-avqust ayında çiçəkləyir, sentyabr ayında isə meyvələri yetişir.



Lepideza quru yerlərdə, otlu kolluqlarda, çınqıllı torpaqlarda, çay kənarlarında, qumlu-çaqıl daşlı yerlərdə daha yaxşı inkişaf edir.

İti bıçaq, oraqla torpaqdan 5-10 sm hündürlüyündə toplanılmalıdır. Yaxşı havalanan çardax və navestlərdə, parça və ya kağız üzərində daimi çevrilərək qurudulmalıdır. Quruducu şkafda qurudulması 40-50ºC temperaturda aparılmalıdır.

Bütun yarpaqlı gövdəsi, çoxsaylı hamaşçiçəklərin qoltuq tumurcuqları və meyvələri buraya aiddir. Spesifik iyli və zəif-büzücü dadlıdır.

Yaxşı havalanan quru yerlərdə, stelajlarda saxlanılmalıdır. Saxlama müddəti 5 ildir.

**Tərkibi və təsiri:** Yarpaqlarının tərkibində flavonoidlər (2,5%), kempferol, kverçetin, orientin, homoorientin, viteksin, saponaretin, biokverçetin və lespedin vardır. Cavan budaqlarında flavonoidlərdən - kempferol, kverçetin, izokverçetin orientin və lespedin vardır.

Dərman maddələri - Xelepin, həb,0,1 q; məhlul 0,2%; məlhəmi 1% və 5% (flavonoidlərdən ibarət təmizlənmiş ekstrakt). Virus əleyhinə (herpes) dərmandır.

Lespeflan, məhlul (gövdəsinin təmizlənmiş ekstraktı). Hipoazotemik, diuretik və natrium qovucu təsirlidir.

Farmakoterapevtik qrup - Virus və herpes əleyhinə dərmandır. Hipoazotemik, diuretik və iltihabsorucu təsirlidir.

Bu bitkidən alınan "Xelepin" virus əleyhinə təsir edərək, qamma-interferonun sintezini aparmaqla, immun stimullaşdırıcı, hüceyrələrdə humoral immunitet yaradır. Preparat herpes, dəmirov, otit və hətta adenovirus konyuktivitdə əvəzsiz sayılır. Bu bitkidən alınan "Lespeflan" iltihab əleyhinə, hipoazotemik və diuretik dərmandır. Yumaqcıq filtrasiyasını gücləndirməklə, qanda azot qalığını aşağı salır. Xroniki böyrək çatmamazlığında və nefropatiyada işlənilir. Fransada anoloji olaraq şimali Amerika növünün gövdə və yarpaqlarından (*Lespedeza capitata* Michx.) "Lespenefril" adlı preparat hazırlanır.

## *Arctium* L. – Atpıtrağı

***Arctium lappa*** **L. – İri atpıtrağı (a**yıpəncəsi, hörümçək toruna bənzər qızılyarpaq, ayıpəncəsi-pıtraq, babacıq, itcik)

***Arctium tomentosum*** Mill.(A. transcaucasicum Sosn.) – Keçətüklü atpıtrağı (ayıpəncəsi-pıtraq, ayıpəncəsi, torabənzər qızılyarpaq) Hər ikisi dərman kimi işlədilir.

**Botaniki xarakteristikası** –İri atpıtrağı ikiillik iri ot bitkisi olub, yoğun, lətli əsas kökümsovlu və düzqalxan, qırmızımtıl qabırğalı gövdəyə malik hündürlüyü 60-180 sm-dir. Yarpaqları saplaqlı, gövdənin zirvəsinə doğru tədricən azalan, ürəkvari-yumurtaşəkilli, dişcikli, yuxarıya doğru arabir qısa tükcüklü və ya çılpaq, yaşıl, aşağı tərəfdən sarımtıl-keçəvari olmaqla, uzunluğu 50 sm-ə bərabərdir. Çiçək səbətləri şarşəkilli olub, 3-3,5 sm diametrində, qalxanvari və ya süpürgəvaridir. Yarpaqcıqları çılpaq və ya hörümçək toruna bənzəyən naxışlı, kirəmitvari düzülmüş, xətti, sərt, qarmaqşəkilli və əyilmiş olur. Çiçək qrupunun yatağı sıx, qalın, sərt yerləşdirilmiş xətti və bizəoxşar çiçək altlığından ibarətdir. Bütün çiçəkləri boruşəkilli, ikicinsli, göyümtül-purpurşəkilli çiçək tacından ibarət olmaqla, kasacığı kəkillidir. Meyvəsi iri, sarımtıl-qonur toxumları 5-7 mm uzunluğunda, uzunsov və ya uzunsov-qabırğalı, çılpaq olmaqla, toxumları qısa kəkillidir. İyun-avqust aylarında çiçəkləyir, iyul-sentyabr



aylarında isə meyvələri yetişir. Keçəvari pıtraq hörümçək toruna bənzəyən tükcüklü və gövdəli, kiçik pıtraq xırda səbətcikli (1,5-2,5 sm diametrli), hörümçək torundan məhrum edilmiş fırçaya bənzəyir.

Zibilli yerlərdə, boş məndəcərlərdə, yaşayış yerlərinə yaxın ərazilərində, bostan və bağlarda yayılmışdır.

Bitkinin yaşayışının birinci ilində payızda kökləri toplanılır. Kökləri qazılaraq çıxarılır təmizlənir və soyuq suda yuyulur. Sonra yoğun köklər hissələrə kəsilir, qurutmaq üçün 3-5 sm qatlara sərilir, çardax və yaxşı ventiliyasiyalı naveslərə qurudulur. Peçlərdə qurudulma 50-60°C-də aparılmalıdır.

Xammal quru saxlama məntəqələrində stelaj və yeşiklərdə, perqament döşəmələrdə, apteklərdə isə şüşə bankalarda quru yerlərdə saxlanılmalıdır. Saxlama müddəti 4 ildir.

Özünəməxsus zəif iylidir. Unlu, nişastalı dada malikdir.

**Tərkibi və təsiri:** Kökün tərkibində inulin (45%), selik, piyli turşular, fitosterin, polin (arktinal), seskviterpenoidlər, liqnan, efirli yağlar (0,06-0,18%), fenol turşuları (1,9-3,65%) və kalium, kalsium və maqnezium duzları vardır.

Famakoterapevtik qrup – Diuretik, ödqovucu və iltihabsorucu dərmandır.

Pıtrağın kökü diuretik, ödqovucu, tərlədici, zəif iltihabsorucu və yarasağaldıcı dərmandır. Bu bitki proteolitik fermentlərin sekresiyasını artırır, mədəaltı vəzi fermentini stimullaşdırır. Qaraciyərin qlikogen ehtiyatını artırır, maddələr mübadiləsini, qanın və sidiyin tərkibini normallaşdırır.

Pıtrağın kökü. Diuretik və ödqovucu dərmandır.

Kökünün dəmləmə və bişirməsi revmatizmdə sidikqovucu, ödqovucu, tərlədici, revmatizm, podaqra, xolesistit, xolangit və digər durğunluq xəstəliklərində əvəzsiz vasitədir. Bundan başqa frunkulyoz, ekzema, dəri səpkiləri, trofik yara və yanıqlarda işlədilir. Xaricə yuma, islatma, frunkulyozda ekzema, səpkilərdə, trofik yaralarda və yanıqlarda sulu islatma şəklində işlədilir. Kökünün dəmləməsi zeytun və ya şaftalı yağı ilə birlikdə tüklərin

bərkidilməsində tətbiq edilir. Yarpaqları oynaq ağrılarında kompres kimi işlədilir.

## *Sedum* L.- Dovşankələmi

***Sedum maximum*** **(L.) Hoffm. - Böyük dovşankələmi** (Meksika kələmi, çalarlı dovşankələmi, qayaotu)

**Botaniki xarakteristikası** – Çoxillik sukkulent ot bitkisi olub,hündürlüyü 80 sm-ə qədər, qısa kökümsov və qalınlaşmış iyşəkilli, milşəkilli kökdən ibarətdir. Gövdəsi tək, düzqalxan, 40-80 sm hündürlüyündədir. Yarpaqları növbəli və qarşı-qarşıya, oturaq, ellipsşəkilli, ürəkvari, bütövkənarlı, bəzən 1-2 dişcikli olub, lətlidir. Çiçəkləri kiçik, ağımtıl-çəhrayı, 6-10 sm diametrində, sıx, qalın, qalxanşəkilli-süpürgəvarı çiçək qrupunda toplanmışdır. Meyvələri çoxyarpaqlı olub, düz və yaşıl yarpaqlardan ibarətdir. Toxumları uzunsov-yumurtavari, uzunluğu 0,5 mm-ə qədərdir. İyul-oktyabr aylarında çiçəkləyir, yayın ortalarından payızın sonuna qədər meyvələri yetişir.



Kolluqlarda, talalarda, meşə kənarında, yarğanlarda, qayalarda, quru qumsal və daşlı-xırlı torpaqlarda bitır.

Bitki çiçəkləyən zaman (avqust) təzə halda yığılır və xammal işlənildikdən sonra preparat hazırlanır. Bu zaman bitkinin tərkibində maksimal miqdarda bioloji aktiv maddələr olur. Bitkinin yalnız quru havada, yaxşı olar ki, səhər şeh çəkildikdən sonra toplanılması məqsədəuyğundur. Bitki bıçaqla kəsildikdən sonra yığılmalı və dərhal işlənilməlidir.

Bitkinin köklərinin toplanılması yolverilməzdir.

Xammala butonla birlikdə yarpaqlı gövdəsi, çiçək və yetişməmiş meyvələri aiddir.

**Tərkibi və təsiri:** Yerüstü hissələrinin şirəsinin tərkibində oksalat, limon və alma turşusu, flavonoidlər (kverçetin, izoramnetin, kempferol, mirçetin və qlükozidlər) və alkaloid izləri vardır.

Famakoterapevtik qrup - Biostimulyator, tonuslandırıcı və iltihabəleyhinə dərmanlar.

İltihabəleyhinə, ümumi tonuslandırıcı dərmandır. Toxumaların regenerasiyaedici stimulyatorudur.

Bitkinin sulu ekstraktı biostimulyator xassəyə malikdir. Bu maddələr mübadiləsi və regenerasiya proseslərini sürətləndirir, ümumi tonuslandırıcı və iltihab əleyhinə təsir göstərir. «Biosed» adlı preparatını bir neçə dəfə əzələ daxilinə yeritdikdən sonra qanda zülalın ümumi miqdarı artır, *albumin* və *qlobulin* fraksiyasının normal münasibəti bərpa olur, qalıq azotun miqdarı normallaşır və qanda fibrinogenin miqdarı artır. Bitkinin dəmləməsini qəbul etdikdə borulu sümüklərin regenerasiyası stimullaşır. Eksperimental yolla öyrənilmişdir ki, bitkinin tərkibindəki fenol birləşmələri qanda adrenalinin miqdarını artırır.

Tibb sənayesində bitkinin sulu ekstraktı olan «Biosed» preparatı keyfiyyətli biogen biostimulyator kimi süstlük, kəsalət baş verən hallarda, ağır travmalarda və qanitirmələrdə müvəffəqiyyətlə təyin edilir. Preparatın təyini zamanı zülal mübadiləsi stimullaşır, yanıqlarda və göz xəstəliklərində toxuma regenerasiya edir, mədə və onikibarmaq bağırsağın xora xəstəliyində, sümüklərin sınıqları və parodontoz zamanı işlədilir. Yeni törəyən şişlərdə əks göstəriş sayılır.

## *Primula* L. – Novruzgülü

***Primula veris* L. – Bahar novruzgülü** (Dərman bahar xoruzgülü, fıstıq, qıvrım-qıvrım, qıvrımcıq, Petra qızıl çiçəyi)

**Botaniki xarakteristikası** – Çoxillik ot bitkisidir.Qısa kökümsovları şaquli, dik yerləşib, uzunluğu 6-8 sm olmaqla, çoxillik şirəli, qaytanabənzər köklərə malikdir. Kök üstündə olan yarpaqları rozetşəkilli, uzunsov-tərsyumurtavari, qırışıq, kənarları çəpərli, yumşaq tükcüklü, mərkəzi damarı aydın görünən, şirəli və qanadlı saplağı vardır. Gövdəsi yarpaqsız, şirəli, hündürlüyü 15-30 sm, çiçəkqrupunun sonunda sadə birtərəfli çətirləri başı aşağı əyilmiş açıq-sarı rəngli burcuqlu çiçəkləri vardır. Meyvələri yumurtavarı çoxtoxumlu olmaqla, qutucuqda yerləşir. May-iyun aylarında çiçəkləyir, iyul-avqust aylarında isə meyvələri yetişir.



-Enliyarpaqlı və qarışıq meşələrdə, orta dərəcəli kolluqlarda, seyrək meşəliklərdə, meşə çəmənliklərində və talalarda yaşayır.

Yarpaqlarını, bitki çiçəkləmə başladıqda əl ilə və ya bıçaqla toplamaq lazımdır. Qurudulma tez olmaqla, quruducu şkafda 100-120°C-də naves və ya çardaxda nazik qatla kölgəli yerlərdə sərilməlidir.

Bitkini köklə birlikdə qopararaq çıxarmaq yolverilməzdir. Xammalı sarımtıl-yaşıl, uzunsov-tərsyumurtavari yarpaqlı,

uzunluğu 10 sm-ə qədər, eni isə 5-8 sm, qanadlı, yastı saplaqdan ibarətdir. Spesifik iyli və şirintəhər-acı dadlıdır.

Kisələrdə qablaşdıraraq quru yerdə saxlamaq lazımdır. Saxlama müddəti 1 ildir.

**Tərkibi və təsiri:** Yarpaqlarının tərkibində 5,9%-ə qədər askorbin turşusu, flavonoidlər, karotinoidlər və triterpen saponinlər vardır. Yeraltı orqanlarının tərkibində 10% triterpen saponinlər flavonoidlər, karotinoidlər və efir yağı vardır.

Öskürəkkəsici və iltihabsorucu dərmandır.

Alınan preparatın tərkibindəki saponinlər bronx vəzilərinin sekresiyasını artırır, öskürəkkəsici və iltihabsorucu təsir göstərir. Yarpaqlarının tərkibində çoxlu miqdarda askorbin turşusu vardır.

Bahar xoruzgülü şərbəti. Öskürəkkəsici, iltihabsorucu dərmandır.

Sinupret draje, damcı. Öskürəkkəsici, sekretyaradıcı və iltihabsorucu dərmandır.

Bronxikum, eliksir. Öskürəkəleyhinə şərbət. Öskürəkkəsici, iltihabsorucu dərmandır.

Yarpaqlarının tərkibində sinqa xəstəliyi əleyhinə çoxlu miqdarda vitaminlər (xüsusən askorbin turşusu) vardır. Kökümsov və köklərində tənəffüs yollarının infeksion iltihab xəstəliklərində, bəlğəmin çətin çıxması və tutmaşəkilli öskürəklərdə əvəzedilməz dərmandır.

## *Cucurbita* L. - Balqabaq (Boranı)

****Cucurbita maxima* Duch. - İri balqabaq** (Balqabaq, boranı, qabaq); ***Cucurbita moschata* (Duch.) Poir. - Muskat (ətirli) balqabaq** (Balqabaq, boranı, qabaq, ətirli qabaq, kabak); ***Cucurbita pepo* L. -Adi balqabaq** (Balqabaq, boranı, qabaq, kabak, Yunan qabağı, qarbuz)

**Botaniki xarakteristikası** – Birillik mədəni birevli ot bitkisi olub, gövdəsinin uzunluğu 10 m olub, spiralvari burulan bığcıqları vardır. Adi balqabaq gövdəsi rəndələnmiş, yonulmuş, tikanlı və sərt tükcüklü, yarpaqları tikanlı-kələ-kötür, ürəkşəkilli, beşpərli və itidir. Çiçəkləri bircinsiyylətli, sarı, iri, tək və ya erkəkciyi dəstəlidir. Çiçək tacı zəngşəkilli, 5-10 sm diametrli, itiuclu və düzqalxandır. Meyvəsi iri, diametrli, 15-40 sm, şarşəkilli və ya ellipsvari formalı, çoxsaylı sarımtıl-ağ toxumlardan ibarətdir. İyun ayında çiçəkləyir. Muskat balqabağın gövdəsi küt, yumşaq tükcüklü, yarpaqları 5-7 pərli, dəyirmi-böyrəkşəkilli və iti pərlidir. Tacı iti qatlanmışdır. Meyvələri uzunsov, adətən yastılaşmış-şarvari olmaqla, müxtəlif rənglərdə olur. Toxumları tutqun-ağ olur. Balqabaq iri silindrik olub, gövdəsi yumşaq tükcüklüdür. Yarpaqları 5 pərli, böyrəkşəkilli, küt, dəyirmi pərli olmaqla, sərt tükcüklüdür. Tacı girdə, dəyirmi formalıdır. Toxumları iri, ağ və ya sarımtıldır. İyun ayında çiçəkləyir.



Mədəni şəraitdə əkilən 3 növü də becərilir. Toxumlarının toplanıldığı ölkə Ukrayna hesab olunur.

Toxumları payızda meyvələri yetişən dövrdə toplanılır. Meyvələri əl ilə yığılır, toxumları lətli meyvəyanlığından seçilir. Meyvələrinin ümumi kütləsinin 10%-ni toxumlar təşkil edir. Meyvələrinin lətli hissəsindən *karotin* alınır. Toxumları qızdırılmadan yaxşı ventiliyasiyalı çardax və naveslərdə 2 sm-ə qədər qalınlığında kağız və ya parça üzərində sərərək qurudulmalıdır. Müalicə məqsədilə istifadə edildiyindən quruducu soba və şkafda qurutmaq (!) məqsədəuyğun sayılmır.

Adi balqabaq mötədil, mülayim yerlərdə daha məhsuldar olur. Ventiliyasiyalı, quru yerlərdə (3 il) saxlanılalıdır.

**Tərkibi və təsiri:** Toxumlarının tərkibində 50%-ə qədər piyli yağlar, triqliseridlər, palmitin və stearin (30%-ə qədər), olein (25%-ə qədər), linol (45%-ə qədər) turşuları olur. Çoxlu miqdarda (80%-ə qədər) qeyri-təbii yağ turşuları vardır. Balqabaq toxumunun başlıca olaraq farmakoloji aktiv maddələri antihelment effektli 0,1-0,3% aminturşu olan *kukurbitin* (3-amino-3-karboksi pirrolidin) təşkil edir. Bundan başqa toxumlarının tərkibində aminturşu, qatranlı maddələr, B, C, E vitamin qrupları, karatinoidlər və üzvi turşular saxlayır. Lətli hissəsində şəkər (4-11%), vitamin C, karatinoidlər (16 mq%-qədər), $B_1$, $B_2$ və nikotin turşusu vardır.

Antihelmint, ödqovucu və antiseptik dərmandır.

Xalq təbabətində toxumlarının müalicəvi təsiri çoxdan məlumdur. Bundan başqa elmi təbabətdə eksperimental və kliniki cəhətdən ətraflı öyrənilmişdir. Son zamanlar aparılan tədqiqatlar nəticəsində toxumdan alınan lipofil tərkibli bioloji aktiv maddələr hepatoprotektor, ödqovucu, xoraəleyhinə, reparativ, iltihabqovucu, antiaterosklerotik dərmanlar alınmışdır.

Toxumlarından alınan yağ bir çox hüceyrələrinin proliferasiyasını azaldır, dizuritik simptomların qarşısını almaqla, prostat vəzinin iltihab və adenomasında istifadə edilir.Tıkveol

(toxumunun piyli yağı). Ödqovucu, xoraəleyhinə, antiseptik, hepatoprotektor, antiaterosklerotik dərmandır.

Peponen, kapsulu 0,3 q (toxumunun yağı). Antidizuritiv, hipolipidemik və immunomodulyator dərmandır. Aterosklerozun profilaktikası zamanı istifadə edilir.

Prostavit, kapsulu. Antidizuritik dərmandır.

Qabıqlardan təmizlənmiş toxumları *ex tempore* emulsiya hazırlanır ki, bu da helmintlərin müalicəsində işlədilir. Əsasən lentşəkilli (donuz zəncirvarisinin, cırtdan, uzun lentşəkilli) və bizquyruq qurdların müalicəsində müvəffəqiyyətlə işlədilir. Toxumlarının yağından hepatotrop və ödqovucu dərman kimi hepatitdə, qaraciyərin piy distrofiyasında, öd yollarının diskenziyasında, qastrit, mədə və 12 barmaq bağırsağın xora xəstəliyində iltihabqovucu dərman kimi istifadə edilir. Prostat vəzinin adenomasında keyfiyyətli antidizuritiv vasitə olaraq işlədilir. Toxumlarından hazırlanmış yağdan uşaqlıq boynunun eroziyasında dermatit, ekzema və yanıqlarda olduqca yaxşı təsir göstərir. Meyvəsinin lətindən sidikqovucu, ödqovucu və yüngül işlədici dərman hazırlanır. Bağırsaq funksiyasını artırır, qəbizlikdə, orqanizmdən xloridlərin ayrılmasında, diurezin artırılmasında işlədilir.

## *Phaseolus* L. – Lobya

***Phaseolus vulgaris* L. - Adi lobya (Maş, lobya, lobu, qapayıcı paxla)**

**Botaniki xarakteristikası** – Adi lobyabecərilən, birillik, gövdəsi (kolşəkilli formalı, hündürlüyü 50 sm), sarılan, sarmaşanot bitkisidir. Yarpaqları yumurtavarı, uzunsaplaqlı, üçər mürəkkəb, kənarları bütöv, yarpağın əsası eyni dərəcədə olmayan və zirvəsi itiucludur. Çiçəkləri ağ, çəhrayı və ya bənövşəyi rəngli, kəpənəkçiçək tipindədir. Meyvəsi paxla, düz, yastılaşmış və ya silindrik, köndələn istiqamlətli, 3-7 müxtəlif forma və rəngli olur. İyul-avqust aylarında çiçəkləyir, avqust-sentyabr aylarında isə meyvələri yetişir.Yabanı növü məlum deyil. Ehtimal edilir ki, vətəni Mərkəzi Amerika və Meksikadır. Bir çox ölkələrdə taxıl-paxlalı və tərəvəz bitkisi kimi becərilir. İstisevən və quraqlığa davamlıdır. Ukrayna, Belarusiya, Moldaviya, Özbəkistanda və Qafqazda geniş becərilir.



Yabanı növü məlum deyildir. Ehtimal ki, vətəni Mərkəzi Amerika və Meksikadır. Bir çox ölkələrdə paxlalı və tərəvəz bitkisi kimi geniş yayılmışdır. İstisevən və quraqlığa davamlı bitkidir. Ukrayna, Moldaviya, Özbəkistan və Qafqazda yayılmışdır.

Xammalı avqust-sentyabr aylarında meyvələri yetişdikdə, yetüstü hissələri məhv olduqda, toxumları qabığından azad edilir. Toxumları qida məhsulu kimi istehlak edilir. Meyvələri təbii yolla qurudulur və ya 50-60ºC temperaturda quruducu şkafda qurudulur. Quruldulduqdan sonra xammal lazımsız hissəciklərdən təmizlənir.

Quru ventiliyasiyalı yerlərdə (stellajda) saxlanılmalıdır. Saxlama müddəti 3 ildir.

**Tərkibi və təsiri:** Meyvələrinin tərkibində flavonoidlər – kverçetin törəmələri və kempferol: rutin, robinin, kempferol 3-qlükoronozid, kverçetin 3-qlükoronozid, izokverçitrin, oksikumarin, fenol turşusu, β-sitosterin və onun qlükozidləri, triterpen qlükozidləri – fazeolozid, xolin və aminturşular vardır.

Hipoqlikemik, diuretik və hipotenziv dərmandır.

Tərkibindəki *arginin* aminturşusu hesabına hipoqlikemik və diuretik təsirə malikdir. Bundan başqa zəif hipotenziv, iltihabsorucu və hipoazotemik aktivliyə də malikdir.

Adi lobya meyvəsi. Hipoqlikemik və diuretik dərmandır.

Qarışıqlarının tərkibi «Arfazetin» və «Mirfazin» preparatından ibarətdir.

Tərkibi qarışıqlardan ibarət «Arfazetin» və «Mirfazin» preparatları yüngül və otra ağır diabet xəstəliyində keyfiyyətli hipoqlikemik dərmandır. Dəmləməsi böyrək, revmatizm, hipertoniya xəstəliyinin başlanğıc mərhələsində və duz mübadiləsi pozğunluqlarında təyin edilir.

# *Allium* L. – Soğan

Azərbaycanda 47 növünə rast gəlinir ki, onlardan da 3 növü (soğan, kəvər və sarımsaq) becərilir.

***Allium sativum* L. – Əkin sarımsaq-soğanı**

**Botaniki xarakteristikası** – Yabanı halda Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun (Pəzməri), Şahbuz rayonunun (Dərəyeri) və Kəngərli rayonunun (Çalxanqala) ərazilərində yayılmışdır. Çoxillik soğanaqlı ot bitkisi olub, spesifik kəskin iylidir. Soğanaqları "dişcik"lərdən ibarət, qabığı dəricikli, ağ və



ya yasəməni, pərdəli, zarlı örtüklə əhatə olunmuşdur. Gövdəsi düzqalxan, hündürlüyü 70 sm, aşağı hissəsinin yarpaqları qınlıdır. Gövdəsi son dərəcə yastılaşmış qınlıdır. Yarpaqlarının aşağı hissələri dəbəlik şişkinlikli, zirvəsində çətirəbənzər xırdaçiçəkli çiçəkqrupu, dövrələnmiş təkyarpaqlı, çiçəklənmiş örtüklü, uzun dimdiklı olub, lüləklidir. Çiçəkləri xırda, uzunsaplaqlı, çiçək yatağı 6-yarpaqlı tacvari olub, tutqun-ağımtıl və ya tutqun-göyümtül rəngli, 6-erkəkcikli və yuxarı yumurtalıqlıdır. Meyvəsi qutucuqdur. İyul-avqust ayında çiçəkləyir, payızda soğanaq əmələ gətirir. İyul-avqust aylarında çiçəkləyir, şəraitdən asılı olaraq müxtəlif vaxtlarda meyvələri yetişir.

Sarımsağın vətəni Azərbaycan (Naxçıvan MR) hesab olunur. Bir neçə min il bundan əvvəl sarımsaq əksər dünya ölkələrində becərilməyə başlanılmışdır. Sarımsaq populyar bostan bitkisi hesab olunur. Soğanaqları payızda topanılır.

Soğanaqlarının kəskin xarakterli iyi və yandırıcı dadı vardır. Tərkibindəki uçucu maddələr göz və burunun selikli qişasını qıcıqlandırır.

**Tərkibi və təsiri:** Tərkibində fitonsidlər, efir yağı (0,4%), kükürd birləşmələri olan “disulfidlər” tiosianat allin, fitosterin, azotlu birləşmələr, askorbin turşusu, B qrup vitaminlər, selen konsentratı və digər bioloji aktiv maddələr vardır. Alliçin vacib bioloji aktiv komponent olub, allinə çevrilir.

Orqanizmdə şirəqovucu, antiseptik, öskürəkkəsici və ümumtonuslandırıcı dərmandır.

Sarımsaq iştah artırmaqla, mədə-bağırsaq sistemində ferment ifrazını gücləndirir, qidanın həzm edilməsinə güclü təsir edir. Tərkibindəki efir maddələr bakterisid təsir etməklə, dezinfeksiyaedici əhəmiyylətlidir. Son zamanlar aşkar edilmişdir ki, bu preparat qanda xolesterinin miqdarını aşağı salır, yüksək konsentrasiyalı lipidlərin miqdarını azaldır. Hipotenziv, hipolipidemik, hipoxolisterinemik və ümumtonuslandırıcı dərmandır. 90% etil spirtli sarımsaq ekstraktı (1:5) nisbətində olur.

Alisat. Alisat-150, Alisat-super, Alisat-ekstra, kapsulu. Antiaterosklerotik, antiaqreqant, fibrinolitik və hipotenziv maddədir.

Allikor. Allikor-150 həb, Allikor-ekstra kapsul. Antiaterosklerotik, antiaqreqant, fibrinolitik və hipotenziv maddədir.

Allitera. Kapsul (sarımsaq yağı ilə iki illik eşşəkqulağı bitkisinin yağı (1:1).

Ümumtonuslandırıcı, antiaqreqant, hipotenziv, iltihabəleyhinə və immunstimullaşdırıcı maddədir.

Revaytl, sarımsaq incisi, kapsul. Ümummöhkəmləndirici, hipoxolisterinemik və hipolipidemik maddədir.

Kvay (sarımsaq tozu). Ümummöhkəmləndirici, antiaterosklerotik və hipolipidemik maddədir.

Aterosklerozun müalicə və profilaktikasında, postinsult və postinfarkt vəziyyətində, soyuqdəymə və infeksion xəstəliklərinin müalicəsində təyin edilir.

Alloxol (sarımsağın quru ekstraktı) həb. Ödqovucu və mədə-bağırsaqda həzmedici maddədir.

Ekstraktı yuxarı tənəffüs yollarının soyuqdəymə xəstəliklərində (bronxit, traxeit) kompleks terapiyanın tərkibinə daxil olmaqla, bağırsaq atoniyasında da işlədilir. Başlıca olaraq tozu və yağı arterial hipertenziya, ateroskleroz, hiperlipidemiya və orqanizmin soyuqdəymə xəstəliklərinə qarşı rezistentlik qabiliyyətinin artırılmasında istifadə edilir. Soğanağının qatı ekstraktından – kompleks preparat olan "Alloxol" hazırlanır ki, bundan da effektli ödqovucu dərman kimi xolesisitit, hepatit, xolangit və digər qaraciyər-öd xəstəliklərində həzmedici və qəbizlik əleyhinə dərman kimi istifadə edilir. Xalq təbabətində soğanağı kəskin respirator infeksiyalarda əvəzedilməzdir. Böyrək xəstəliklərində parenximanı qıcıqlandırdığından əks göstəriş sayılır.

## *Zea* L. – Qarğıdalı

***Botaniki xarakteristikası:*** *Zea mays* L. – Qarğıdalı (məkə) mədəni şəkildə becərilən birillik bitkidir. Gövdəsinin hündürlüyü 3 m-ə qədər yoğunluğu 3 sm, budaqlanmayan, lakin aşağı hıssəsi oduncaqlaşan bitkidir. Saçaqlı kök sisteminə malik,yarpaqları növbəli, uzun, xətti, yuxarı hissəsi qatlanmış, aşağı hissəsi isə çılpaqdır. Erkək çiçəkləri süpürgəşəkilli, dişi çiçəkləri çoxlu sayda (30 sm) qıça olmaqla, yarpaqların arasında yerləşir. Yumşaq gövdəli, erkəkcik və dişcik çiçək qrupları, zirvəsində isə 2 ayaqlı ağızcığı yerləşmişdir. Çiçəkləri qəhvəyi-qırmızı və açıq-sarı rəngilidir. Özünəməxsus zəif iyli olub, dadı hiss olunacaq dərəcədə olub, seliklidir. Yazda və ya erkən payızda "saçaqlar"ını südlü-mumlu qıçalarını, avqust-sentyabr aylarında silos kimi gövdə və yarpaqları toplanılır. Toplanılmış xammal hava dəyişilən kölgə yerlərdə qurudulmalıdır.

**Tərkibi və təsiri:** Gövdə və saçaqlarının tərkibində K vitamini, pantoten və askorbin turşuları, karotinoidlər, steorid, saponin və yağlar vardır. Saçaqlarında karotinoidlər, K, $B_1$, $B_2$, C, D, E vitaminləri, qlükozidlər (1,2%), yağlar (2,5%) və efirli maddələr (0,2%), saponinlər (3,2%), kitrə (3,8%), inozit, alkoloidlər (0,05%) sitosterol, kriptoksantin, stiqmasterol, alkaloidlər, qatran (2,7%), şəkər və acı maddələri vardır.

Xammal preslənərək parça kisələrə yığılmalıdır. Hiqroskopik olduğundan quru və havalı yerdə saxlanılmalıdır. Saxlama müddəti 3 ildir.

Saçaqlarındandərman maddəsi kimi, digər hissələrindən isə silos və qida maddələrinin hazırlanmasında istifadə edilir. Qıçaların yetişməsi və gövdənin quruması zamanı toplanılan bütün orqanlar keyfiyyətli dərman xammalı hesab edilir.

Ödqovucu, sidikqovucu, qanın laxtalanma müddətini və maddələr mübadıləsini normallaşdıran, qara ciyər, xüsusən öddaşı xəstəliyində çox yaxşı səmərə verir. Böyrəkdaşının yaratdığı travmalarda, nefrit, şəkərli diabet və digər xəstəliklərdən yaranan ödemlərdə, tətbiq edilir. Qankəsici maddə kimi hipoprotrombineyada müxtəlif tipli qanaxmalarda istifadə edilir. Xolesistit, xolangit, heratit və qanaxmalarda istifadə edilir. Xüsusən xroniki qaraciyər xəstəliklərində saçaqlarının dəmləməsi uzun müddət qəbul edilməlidir. Bu orqanizmdə maddələr mübadiləsini nizama salır, artıq mayeni kənarlaşdırır. Qarğıdalı sacaqları sedativ təsrir edir. Piylənmədə iştahazaldıcı və maddələr mübadiləsini aktivləşdirici dərman kimi təyin edilir. Qarğıdalı yağı (sutqalıq doza 50-70q) qanda xolesterini aşağı saldığından aterosklerozun profilaktika və müalicəsində təyin edilir. Eyni zamanda dəri xəstəliklərinin müalicəsində effektlidir. Öddaşı və böyrəkdaşı sancılarında olduqca səmərəlidir. Tərkibindəki qlütamin turşusu psixoz, depressiya, epilepiya, proqressiv əzələ distrofiyası və polimielitdə tətbiq edilir.3 xörək qaşığı qarğıdalı saçağı 2 stəkan qaynar suda 30 dəqiqə ərzində dəmləyərək, gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl (sutqalıq doza) qəbul edilməlidir. Bitkinin bütün orqanlarından xüsusən saçaqlarından alınan maye ekstrakt sidikqovucu və ödqovucu təsirə malikdir. Tərkibindəki linolin turşusu (vitamin F) orqanizmdən lipidlərin qovulmasına səbəb olur və xolesterinin miqdarını azaldır. Fitosterin isə antiskelerotik təsirə malikdir. Tərkibindəki vitamin E zülal mübadiləsini zəiflədərək, kapilliyarları kövrəkləşdirərək xolesterinin toplanmasının qarşısını alır. Ateroskelerozun profilaktika və müalicəsində əvəzsiz dərmandır.

Ekstrakt maddənin nəmliyi ən azı 15%, qaralmış orqan hissəcikləri 13%, ümumi külün miqdarı 7%, qaralmış gövdə və saçaqları 3%, üzvi maddələri 0,5%, mineral maddələri isə 5%-dən çox deyildir. İştahın azlığı, çəkinin azalması, yüksək qan laxtalanma müddəti.

## *Fungi* - Göbələklər

Göbələklər canlıların böyük qrupu olub, 100000-dən 250000-ə qədər nümayəndəni özündə toplayır. Bir qrup mikoloqlar hesab edirlər ki, bu gün göbələklərin sayı 1,5 milyonu keçmişdir. Bu mikoloqlar onu əsas götürürlər ki, bu gün dəniz və okeandakı yosunlar və su bitkiləri, su heyvanları, göbələk və digər orqanizmlər üzərindəki göbələklərin sayı və növü öyrənilməmişdir. Göbələklərin insan həyatında rolu böyükdür. Onlar bitkilərdə və heyvanlarda bir çox xoşagəlməz xəstəliklər törədirlər. Onlar habelə sənaye və ərzaq məhsullarını, optik cihazları və kitabları xarab edib yararsız hala salırlar. Bütün bunlarla yanaşı, göbələklər insan üçün bir çox bioloji aktiv maddələrin sintezində yaxından iştirak edirlər. Göbələklərin ən böyük rolu tibb aləmindədir. Bunlarla bərabər göbələklər fizioloqların, genetiklərin, biofiziklərin və nəhayət, mikoloqların tədqiqat obyektidir.

Himenoxetakimilər bazidili göbələklərin çox geniş yayılmış qrupu sayılır. Buraya 12.000-dən artıq növ daxildir. Bazidilər mitseli üzərində düzülərək himeni adlanan təbəqə əmələ gətirirlər ki, bu sıranın xarakter xüsusiyyətidir. Himeni ali nümayəndələrdə ilk dövrdə qapalı olur, sporlar yetişdikdə isə açılır.

Himenoxetakimilərin əksər nümayəndələri bitki qalıqları, peyin, çürüntülü torpaq üzərində saprofit həyat tərzi keçirirlər, eyni zamanda ağaclar üzərində parazitlik edən növləri də məlumdur. İstər parazit və istərsə də saprofit növlərin mitseliləri substrat içərisinə daxil olur, nadir hallarda onlar xaricə çıxaraq hörümçək toruna bənzər pambıq və ya dərivarı təbəqə əmələ gətirirlər. Bəzi nümayəndələrdə rizomorflara, əksər növlərdə isə

sklerotsilərə təsadüf edilir. Bazidiospor inkişaf edərkən tək və ya çoxnüvəli hüceyrələrdən ibarət haploid mitseli əmələ gətirir.

Sonralar belə mitselilərdən apoqam yolla dikarionları olan diploid mitselilər əmələ gəlir. Onların üzərində müxtəlif quruluşlu meyvə cisimləri inkişaf edir. İbtidai nümayəndələrdə meyvə cisimləri hörümçək toruna bənzər, bəzən keçəvarı təbəqə şəklində olur. Himeni meyvə cismi üzərində yerləşir.

Təkamül nəticəsində dəriyəbənzər, mantarlaşmış, ağaclaşmış və yaxud otlu meyvə cisimləri meydana çıxmışdır. İbtidai orqanizmlərin meyvə cisimləri substrat üzərinə sərilir, nisbətən təkamül etmiş orqanizmlərdə isə onların kənarı substratdan qoparaq ya üfüqi, və ya şaquli istiqamətdə durur. Himeni meyvə cisminin alt səthində inkişaf edir. Sporların yayılması və mühafizə edilməsində belə quruluşun böyük əhəmiyyəti vardır. Ağac gövdələri və budaqlarında təsadüf edilən növlərin meyvə cisimləri at dırnağına bənzər forma alır və substrata möhkəm yapışır. Himeni onların alt səthində yerləşir. Torpaqda inkişaf edən nümayəndələrdə qıfvarı, çətirəbənzər meyvə cisimləri müşahidə olunur.

**İnonotus P.Karst – Qov göbələyi (İnonotus)**

Ağaclar üzərində təsadüf edilən qov göbələklərin meyvə cisimləri daha gec, məsələn, bitki xəstələndikdən bir neçə il sonra əmələ gəlir. Belə ki, həqiqi qov göbələyi adlanan *Fomes fomentarius*-un meyvə cismi 3-5 ildən sonra inkişaf edir.

*İnonotus obliquus* (Pers.) Pil - Çəp qov göbələyi (Qara tozağacı göbələyi, qovğa göbələyi, qov göbələyi, çaqa)

**Botaniki xarakteristikası:** Çaqa göbələyi canlı ağacların üzərində, başlıca olaraq tozağacı üzərində parazitlik edir. Sporları qabıqdan nüfuz etməklə (günəş yanığı, sinmiş budaq görüntüsü) dağıdıcı təsir



edərək, orada inkişaf edir. İnkişaf etdiyi yerdə dairəvi şişkinlik - uzunluğu 30-40 sm, qalınlığı 10-15 sm nəzərə çarpır. Çox vaxt tozağacı qabığında bu şişkinlik qat həmişəlik saxlanılır. Kəsik, yarıq, oyma, kəsilmiş yer 3 qatlı: xarici qat qara rəngli, qalınlığı 1-2 mm, orta qat - qalın, möhkəm, bərk, kip, qonur-qəhvəyi rəngli, müxtəlif qalınlıqlı, daxili qat - yumşaq, boş, bəzən qonur və ya sarımtıl, ağacın dərin qatı çürük, iylənmiş, qoxumuş və kiflənmiş olur. Bu göbələk bəzən qızılağacda, təsadüfü hallarda quşarmudunda inkişaf edir.

Tozağacı və qarışıq meşələrdə daha çox müşahidə edilir.

Çaqa göbələyini bütün il boyu toplamaq mümkündür. Topladıqdan sonra 10 sm ölçüdə kəsilməli, quruducu şkaf və ya peçlərdə 60°C temperaturda qurudulmalıdır. Yayda yaxşı hava olduqda çardax və naveslərdə, hava axını olan yerlərdə nazik kəsərək qurutmaq mümkündür.

Xammal 10 sm ölçüdə kəsilməlidir. İyi yoxdur və acı dadlıdır. Quru anbarlarda yaxşı havası dəyişilən yerlərdə, rütubətdən tam uzaq şəraitdə kisələrdə saxlanılmalıdır. Saxlanılma müddəti 2 ildir.

**Tərkibi və təsiri:** Kifayət qədər öyrənilməmişdir. Xammalın tərkibində piqmentlər, polifenolkarbol kompleksi, qatran və digər maddələr vardır.

Şiş əleyhinə olmaqla, həm dətər ifrazını azaldır.

Orqanizmin müdafiə qabilliyyətini yüksək dərəcədə təmin edir, beyin toxumasında maddələr mübadıləsini aktivləşdirir və beyin kötüyünün bioelektrik xassəsini gücləndirir. Tsiklofosfan kimi sitostatik effektə malikdir.

Qəbul etdikdən 1,5-3 saat sonra hipoqlikemik təsir edərək qanda şəkərin miqdarını 15,8-29,9% azaldır.

Möhkəmləndirici və iltihabsorucu dərman kimi mədə-bağırsağın müxtəlif lokalizasiyalı şiş xəstəliklərində simptomatik dərman kimi işlədilir. Tinkturası mədə və onikibarmaq bağırsaq xorasında təyin edilir. Ağri sindromlarında, dispeptik vəziyyətlərdə və bağırsaq tonusunu artırmaq üçün istifadə edilir.

Çaqadan alınan «Befunqin» adlı ekstraktdan psorioz, ekzema və digər dəri xəstəliklərində, qastrit, ödyolu sistemi və qaraciyərin iltihabında təyin edilir. Bu preparatla müalicə olunan zaman südlü-bitkili yeməklərdən daha çox istifadə etmək və ət və yağlardan, konservlərdən, hisdə qurudulmuş ərzaqlardan, sous, şirə, ədviyyat və xuruşdan pəhriz olmaq lazımdır.

## *Claviceps* - Çovdar mahmızı

Çovdar mahnuzı mühüm praktiki əhəmiyyət kəsb edir. O, müxtəlif taxıl bitkiləri, xüsusən çovdar sünbüllərində parazit həyat tərzi keçirir, bitkinin çiçək yatağında inkişaf edərək mitseli, konididaşıyıcılar və şəffaf təkhüceyrəli konidilər əmələ gətirir. Onun bu dövrü *sfaseliya* adlanır. Bitkilərin yoluxımış hissəsindən həşəratları özünə cəlb edən şirin şirə ifraz olunur ki, nəticədə konidilər həşərat vasitəsilə sağlam bitkilərə keçərək xəstəliyi yayırlar. Konidilər inkişaf edən zaman mitseli yığılaraq yumurtalığın alt hissəsində tünd-bənövşəyi rəngli mahmızabənzər sklerotsilər əmələ gəlir. Onlar yetişdikcə torpağa tökülüb orada qışlayır və ikinci ilin yazında inkişaf edərək iki hissədən: 20-30 ədəd uzun ayaqcıq və yumru qırmızımtıl başdan ibarət stromalar əmələ gətirir. Başın səthində kiçik məsaməli, ellipsvarı boşluğa malik çoxlu sayda peritetsi yerləşir. Onun 8 ədəd telşəkilli askosporu olan uzunsov kisələri vardır. Parafizlər yoxdur. Kisələr yetişdikdə məsamədən xaricə çıxır, sporlar külək vasitəsilə çiçəkləyən taxıl bitkilərinə gətirilir və yenidən burada inkişaf edirlər. Çovdar mahmızının böyük təcrübi əhəmiyyəti vardır. O, bir tərəfdən taxıl bitkilərində parazitlik edərək məhsuldarlığı azaldır, digər tərəfdən isə tərkibindəki zəhərli maddələrdən tibbdə geniş istifadə olunur. Onların təsirindən əzələlər büzüşür, qanaxma dayanır. Həmin maddələr şiddlətli zəhərlənmələr verir.

### *Claviceps purpurea* (Fr.) Tul. – Purpur çovdar mahmızı

**Botaniki xarakteristikası -** Parazit göbələk olub, digər yabanı və mədəni bitkilərin üzərində yaşayır. O, öz yaşayışını 3

mürəkkəb: skleroidal, kisəli və kondidal tsikillə başa çatdırır. Tibb təlimində skleroidal – göbələk halında olan yaşayış mərhələsidir.

Çovdar mahmızı bozqır və tundra ərazilərində geniş yayılmışdır.



Çox rütublətli havada taxılların ziyanvericisi hesab olunur. Göbələyin inkişafı üçün optimal temperatur 24°C hesab olunur.

Farmakoloji sənaye üçün becərilən çovdar mahmızının seçimi bir neçə mərhələyə bölünür: 1) çovdar mahmızının toplanılması, 2) materialın yoluxma dərəcəsinin yoxlanılması, 3) sürməyə yoluxma. Toplanılan çovdar mahmızı quruducu şkafda $40^0$C temperaturda qurudulmalıdır. Yüksək temperaturada qurutduqda alkaloidlər parçalanir.

Çovdar mahmızı olan taxıllar anbarlarda sağlam toxumlardan ayrı saxlanılmaqla, dezinfeksiya edilməlidir. Xammal B siyahısına daxildir.

**Tərkibi və təsiri:** Sklerosiya dövründə tərkibində daha çox indol qrupu alkaloidləri rast gəlinir. Bu alkaloidlər iki qupa: lizerqin turşusu və klavin sırası alkaloidlərinə ayrılır. Birinci qrupda 7 steromüntəzəm birləşmələr dayanır. Alkaloidlərdən lezerqin yarımqrupu 4 tipə: peptid sırası (erqotamin, erqotoksin), alkolanid tipi (erqometrin, erqometrinin), amid tipi (erqin, erqinin) və karbonilamid tipinə (alfa lizerqin metilkarbinolamid turşusu) ayrılır. İndiki zamanda lizerqin turşusunun 20-dən çox alkaloidləri vardır. Yüksək alkaloidləri olan çovdar mahmızının bəzi ştammlarında 0,3-0,5% alkaloidlərin olduğu aşkar edilmişdir. Bu alkaloidlərdən erqotamin ştammında 70% erqotoksin, erqokriptin ştammında 80% erqokriptin vardır. Alkaloidlərdən başqa tərkibində aminlər, alkilaminlər, 35% aminturşular, piyli yağlar, süd turşusu, şəkər və piqmentlər tapılmışdır.

Mədəni becərilən yetişmiş çovdar mahmızının qurudulan xammalı keyfiyyətli dərman bitkisi olub, mürəkkəb təsir mexanizminə malikdir. Farmakoloji xüsusiyyətinə görə tərkibindəki erqotamin və erqometrinə görə uşaqlıq əzələsinin tonusunu azaldır, digər xüsusiyyətinə əsasən α-adrenoblokatr olduğundan, ürək-damar xəstəliklərində təyin edilir. Çovdar mahmızından 30-a qədər dərman preparatları alınır. Çovdar mahmızından zəhərlənmə (erqotizm) onun tərkibindəki alkaloidlərlə bağlıdır. Bu zaman qıcolmalar başlayır, kapilliyarlar daraldığından periferiyalarda qanqrena prosesləri başlayır.

İndiki zamanda taxıllarda sünbülləmə başlayanda bu pas göbələyinin kandida sporları yayılaraq sünbülləri xəstələndirir. Sklerosiya dövründə onun tərkibində erqoalkaloidlər seleksiya işlərinin aparılmasına böyük maneçilik törədirlər. Yeni yaranan ştamplar müxtəlif alkaloidlərin yaranmasına səbəb olurlar. İndiki zamanda 4 ştampın yaranmasına (erqotamin, erqotoksin, erqokriptin və erqometrin) səbəb olur. Birinci iki ştamp təbabətdə geniş şəkildə tətbiq edilir. Taxılın yetişməsi - göbələyin sklerosiya dövrünə düşür. Çovdar mahmızının sümsüsünün tozu keyfiyyətli dərman bitkisi kimi uşaqlıq əzələsini stimullaşdıran alkaloidlərdən təşkil olunmuşdur. Tərkibində olan maddələr genokoloji praktikada işlədilərək, uşaqlıq əzələsini yığaraq qanaxmanı kəsir. Olduqca keyfiyyətli olan bu maddə erqometrindir. Erqometrin alkaloidi “bellataminal” və “kofetamin”in əsas tərkib hissəsini təşkil edir. “Bellataminal” spazmolotik və sakitləşdirici dərman kimi yüksək həssaslıqda, halsızlıqda, klimakterik nevrozlarda, neyrodermitdə, vegetativ distoniyada, miqrendə və arterial hipotoniyada təyin edilir. Erqokriptin ştampından yarımsintetik preparat olan *parlodel* dərmanı alinır. Bu preparat prolaktin sekresiyasını azaldaraq, mastit və süd vəzinin xərçəngində tətbiq edilir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Qasımov M.Ə. Azərbaycanın ədviyyat bitkiləri. Bakı: Azər. Döv. nəş. 1992, 174 s.
2. Qədimov Ş. Şəfa ensklopediyası. Bakı: 1997, 335 s.
3. Quliyev Z. Azərbaycanm zəhərli, zərərli və dərman bitkiləri.Kirovabad: 1970, 40 s.
4. Dəmirov I., Bağırov R. Azərbaycamn faydalı dərman bitkiləri. Bakı: Azərnəşr, 1969, 112 s.
5. Dəmirov I.A., Islamova N.A., Kərimov Y.B., Mahmudov R.M. Azərbaycanın müalicə əhəmiyətli bitkiləri. Bakı: Azərnəşr, 1988, 175 s.
6. Talıbov T.H., İbrahimov Ə.Ş., İsmayılov A.H., Ələkbərov R.Ə. Naxçıvan Muxtar Respublikası florasında rəsmi dərman bitkilərinin taksonomik spektri. AMEA Botanika İnstitutu, "Faydalı bitkilərdən istifadənən aktual problemləri" Beynəlxalq konfransın materialları, 26-28 oktyabr 2011, Bakı, Azərbaycan. 9 s.
7. Əliyev N. Azərbaycanm dərman bitkiləri və fitoterapiya. Bakı: Elm, 1998, 343s.
8. Ibaduilayeva S. C. Çətirçiçəklilər fəsiləsinin faydalı bitkiləri. Bakı: Araznəş. 2001, 147 s.
9. Ibadullayeva S.C. Azərbaycan florasının Kərəvüzkimiləri. Bakı: Elm 2004, 321 s.
10. Ibadullayeva S.C., Cəfərli I.Ə. Efır yağları və aromaterapiya. Bakı: Elm, 2007, səh. 116
11. Səyyarə İbadullayeva, Ramiz Ələkbərov. Dərman bitkiləri (Etnobotanika və Fitoterapiya) Medicial plants (Ethnobotany and Phytoterapya) Təhsil, Elm, Bakı, 2013, 331 s.

12. Ismayılov Ə., Dəmirov I. Azərbaycanın dərman bitkiləri. Bakı:1959, 60 s.
13. Məhəmməd Yusif Şirvani. Tibbnamə. Xalq təbabəti. Məlum. kitabı. Bakı: Işıq nəşr, 1990, 191 s.
14. Mehdiyeva N.P. Azərbaycanın dərman florasının biomüxyi.Bakı, "letterpress" nəşr, 2011, s. 188.
15. Xalq təbabəti xəzinəsindən. «Azərbaycanın ensiklopediyası». Bakı: Poliqraf Birliyi, 1992, 223 s.
16. Rzazadə R.Y. Azərbaycanın dərman bitkiləri. Bakı: 1942, 50 s.
17. Vəliyev I. Kütləvi tibb ensklopediyası. Bakı: 2000, 429 s.
18. Алекперов Ф.У. Сравнительный анализ лекарственных растений средневекового (ХШ-ХВ1П в.в.) и современного Азербайджана. Баку: 1992, 55с.
19. Альбом лекарственные растения. Универсальный справочник. Москва: 2003, 256 с.
20. Аммосова М.М. «Матьмачеха» как отхаркивающее. Тр. мед.инст: т. Х 1951, 245-249 с.
21. Аничков С.В. Атлас лекарственных растений СССР. Ред. Н.В.Цицин, М.: Медгиз, 1962, 140с.
22. Алимбаева П.К. Лекарственно-растительное сырьё Киргизии, применяемое в практической медицине. Фрунзе: «Илим»: 1982, 30 с.
23. Алуф М.А., Лейбман Б.Я. и Ивенский Я.Г. Лекарства растительного происхождения: Справочник для врачей и студентов (с рецептурой). М.: 1943, 107 с.
24. Атлас лекарственных растений СССР / Под ред. акад. Н.В. Цицина. М.: Медицинская литература, 1962, 704 с.
25. Бажецкая А.А., Шабаева Г.А. Полезные растения Киргизии (лекартсвенные). Фрунзе: Кыргызыстан, 1983, 124 с.

26. Батрак Г.Е., Попова Е.В. Новые лекарственные средства растительного происхождения. Госмедиздат УССР:, 1959, 160 с.
27. Бессчентов В.П. и др. Облепиха. Шиповник. Черноплодная рябина. Алма-Ата: Кайнар, 1989, 236 с.
28. Благовещенский А.И. Лекарственные растения пастбищ Узбекистана. Ташкент: Мехнат, 1989, 134 с.
29. Бурейко В.В. Роль лекарственных растений в лечении болезней. Саратов: 1912, 26 с.
30. Васильев В.Ф. Лекарственные растения Воронежской области, их сбор и применение. Воронеж: 1944, 68 с.
31. Васильев С.М. Лечение земляникой (материалы к диетотерапии). Юрьев: 1901, 130 с.
32. Васильева В.Д., Шретер А.И. Современное состояние и преспективы химического изучения и медицинского использования барбарисов флоры СССР /В кн: Сб. научн. Работ Всес.науч. -исслед. ин-та лек. растений. 1970, вып 1.
33. Васильков Б.П. Критический обзор новейшей литературы по сбору и заготовке дикорастущих лекарственных растений. «Природа», 1944, №3, 92-96 с.
34. Вережбицкий Т.И. Р1екоторые лекарственные растения, употребляемые простым народом Курской губернии. «Живая старина», 1898, № 3-4, т.VIII, 409-420 с (Отд.2).
35. Волкова П.А., Долгова А.А. и др. Дикорастущие лекарственные растения Московской области. М.: 1963, 108 с.
36. Володарский Л.И. Практическое руководство по сбору и заготовке дикорастущих лекарственных растений. М.:Медгиз, 1959, 165 с.

37. Вандышева В.И., Юсупова А.А. Однолетние лекарственные растения в культуре. Фрунзе: «Илим», 1978, 44 с.
38. Вульф ВВ., Малеева О.Ф. Мировые ресурсы полезных растений. Справочник. - Л. : Наука, 1969, 564 с.
39. Гасымов Г.З., Кулиев В.Б., Ибадуллаева С.Д. Дикорастущие пищевые растения в Нахчыванской Автономной Республике Азербайджана по материалам этноботанических исследований. Растительные ресурсы, Санкт-Петербург, вып.2, том 45, 2009, стр. 109-115
40. Гарник Т.П.Бухтинская Н.Л., Исакова Т.И. Обзор официанального и преспективного лекарственного растительного сыря. Фитотерапия в Украини, 1998, №1.
41. Государственная фармакопея СССР. XI издание, М.: Медицина. Вып. 1, 1987, 336 с. Вып. 2, 1990, 400 с.
42. Государственный реестр лекарственных средств. М.: Минздрав России: Фонд фармацевтической информации, 2004. – 1277 с.
43. Государственная фармакопея СССР. XI издание. М.: Медицина. Вып. 1, 1987, 336 с. Вып. 2, 1990, 400 с.
44. Государственный реестр лекарственных средств.М.: Минздрав России: Фонд фармацевтической информации, 2004, 1277 с.
45. Гаммерман А.Ф. Дикорастущие лекарст. растения СССР. М.: «Медицина» 1976, 288 с.
46. Гаммерман А.Ф., Кадаев Г.Н., Яценко-Хмелевский А.А. Лекарственные растения (растения целитеми). М.: Высшая школоа, 1983, 400 с.
47. Гасымов Г.З., Кулиев В.Б., Ибадуллаева С.Д. Дикорастущие пищевые растения в Нахчыванской Автономной Республике Азербайджана по материалам этноботанических исследований. Растительные

ресурсы, Санкт-Петербург, вып.2, том 45, 2009, стр.109-115
48. Гарник Т.П.Бухтинская Н.Л., Исакова Т.И. Обзор официанального и преспективного лекарственного растительного сыря. Фитотерапия в Украини, 1998, №1.
49. Геворкянц С.А., Педенко М.Е. Возделывание шалфея мускатного. М.: «Колос», 1967, 20 с.
50. Геогриевский В.П. Биологически активные вещества лекарственных растений. Новосибирск: 1990, 327 с.
51. Георгиевский В.П., Коммисаренко Н.Ф., Дмитрук С.Е. Биологически активные вещества лекарственных растений.Новосибирски: Наука, Сибир.отделение, 1990, 332с.
52. Голышенков П.П. Лекарственные растения и их использование. Саранск: 1966, 180 с.
53. Голышенков П.П. Лекарст-ные растения и их использование. Саранск: Мордов, 1982, 311 с.
54. Головко Д.Н., Рожко Ф.М. Сбор, сушка, хранение и упаковка лекарственного сырья. (Справочник). М.: 1950., 212 с.
55. Гозин А.А., Яснецов В.С. Лекарственные растения Смоленской области. М.: Моск.рабочий, 1991, 223 с.
56. Гриффит В. Витамины, травы, минералы и пищевые добавки: Справочник /Пер. с англ. К.Ткаченко. М.: ФАИР- Пресс, 2000,210 с.
57. Гроссгейм А.А., Исаев Я. и др. Лекарственные растения Азербайджана. Баку: 1942, 215 с.
58. Губергриц А.Я., Соломченко Н.И. Лекарственные растения Донбасса. Донецк: 1966, 160 с.
59. Губергриц А.Я., Соломченко Н.И. Лекарственные растения Донбасса. Донбас: 1990, 278 с.

60. Дамиров И.А. К истории использования лекарственных растений в Азербайджане. Баку: 1970, 37 с.
61. Дамиров И.А., Прилипко Л.И., Шукюров Д.З., Керимов Ю.Б. Лекарственные растения Азербайджана. Баку: 1988, 319 с.
62. Дубняков К. Лекарственные растения России. Список и краткое наставление к сбору, сушке и сбыту. Миргород: 1915, 32 с.
63. Ибадуллаева С.Д. Кумарины некоторых видов сем. *Apiaceae* флоры Азербайджана. VI Международная конференция Биоантиоксидант. Москва, 2002. стр.206.
64. Ибадуллаева С.Д. Влияние экологических факторов нанакопление биологически активных веществ в растениях. IV международная научно-практическая Конференция «Интродукция нетрадиционных и редких сельскохозяйственных растений, Ульяновски, 2002, стр. 301
65. Ибадуллаева С.Д. Динамика накопления кумариновых соединений и эфирных масел в плодах растений на разных фазах их развитияXП Международного симпозиума «Нетрадиционное растениеводство. Эниология. Экология и здоровье». 2003, Симферополь, с.454
66. Ибадуллаева С.Д. Интродукция нескольков видов эфирно-масличных культур семейства Зонтичных в условия Нахчыванской АР. Спорник научных трудов. Генетические Ресурсы лекарственных и ароматических Растений (ВИЛАР). В 2-Х томах, том 1, Москва, 2004, стр.95-96
67. Ибадуллаева С.Д., А.Ш.Ибрагимов, Г.Ш.Ширалиева, Ф.З. Талыбова. Субальпийское высокотравье Нахчыванской АР и его использование в народном

хозяйстве. Бот. журнал, Санкт-Петербург, 2008, №5, с. 737-743.
68. Ибрагимов Ф.И., Ибрагимова В.С. Основные лекарственные средства китайской медицины. М.: Медгиз, 1960,412 с.
69. Иванов В.И. Сбор, сушка, хранение дикоращих лекарств. растений. М.: 1947, 175 с.
70. Инструкция по сбору и сушке соцветий ромашки аптечной. В сб.: Инструктивные материалы. Вып. 4. М.: Изд. Конъюктурно-информ. бюро Минздрава СССР, 1971,93 с.
71. Исмайылов Н.М.Алкалоидоносные растения Азербайджанской ССР. Баку: 1975,199 с.
72. Кант К. Фитотерапия. Способ лечения болезней безвредными растениями по основным законам натурального метода /Перевод с 5-го немецкого издания К.П.Александрова. М.: 1913, 165 с.
73. Касумов Ф.Ю., Алиев Н.Д., Аббасов Р.М. Содержание эфирных масел и антимикробное действие некоторых эфироносов флоры Азербайджана. Изв. АН АзССР, сер.биол.наук, 1977, №4, 72-78 с.
74. Касумов Ф.Ю., Абдуллаев М.И., Исмайлов Н.М., Кязимов И.М. Изучение антивирусного и антибактериального действия некоторых эфирномасличных растений флоры Азербайджана. Симферополь: В Всесоюз. симпозиум, 1990, 176-177с.
75. Катина А. Природная аптека. Москва: «Из-во АСТ», 2000, 304 с.
76. Керимов Ю.Б., Исламова Н.А., Халилов Д.С., Джафарова Р.Э., Сулейманов Т.А., Исаев Д.И., Агаев Э.М. Перспектива использования лекарственного растительного сырья и производства фитопрепаратов в Азербайджане. Баку: 1996, 84 с.

77. Киселева В.С., Волхонская Т.А., Киселев В.А. Биологически активные вещества лекарственных растений Южной Сибири. Новосибирски, 1991, 136с.
78. Кирилюк Ж.И. Лечение гнойной инфекции препаратами зверобоя и каланхоэ. Вестн.хир., 1977, №9, 112-116 с.
79. Ковалева Н.Г. Дикорастущие отечественные лекарственные растения, применяемые при болезнях почек, почечных лоханок и мочевого пузыря. // «Врач.дело», 1953, №1, 79-80 с.
80. Ковалева Н.Г. Лекарственные растения в формакопее СССР. Аптечн.дело, т. II, 1953, 48-49 с.
81. Ковалева Н.Г. Лечение растениями. М.: Медицина, 1971, 350 с.
82. Ковалева Н.Г. Лечение растениями. М.: Медицина, 1978, 298 с.
83. Кобзор А.Д. Фармакогнозия в медицини: 1 Клинична фармакогнозия. 2.Фитотерапия. Киев, 2004, 478с.
84. Ковальев В.М., Павлий О.Н., Исакова Т.И. Фармакогнозия с основами биохимии растений. Харьков, 2000, 704.
85. Комаров В.Л. Сбор, сушка и разведение лекарственных растений в России. Справочник. Пг., тип.А.Бенке, 1916, 210 с.
86. Конопля Е.Ф., Николайчук Л.В., Баженова Л.А. Целебнопищевые растения. Минск: Полымя, 2000, 190с.
87. Корсун В.Ф., Корсун Э.В., Захаров Ю.А. Лекарственные растения в педиатрии. Изд.«Русский врач», М.:2003,216 с.
88. Котелина Н.С., Маргыненко В.А. Целебные растения Севера. Сыктывкар: Коми кн.изд-во, 1988, 109 с.

89. Котуков Г.Н. Культивируемые и дикорастущие лекарственные растения. Киев: «Наук, дулека», 1974, 175 с.
90. Курамысова И.И., Аксенова В.Ф., Татимова Н.Г. Лекарственные растения. Алма-Ата: Кайнар, 1988, 302 с.
91. Куренное П.М. Знахарские рецепты. Ташкент: 1991, 142 с.
92. Лавренов В.К., Лавренева Г.К. Полная энциклопедия лекарственных растений. М.: Олма-Пресс, 1999,417 с.
93. Лавренко Е. М. Основные закономерности растительных сообществ и пути их изучения. Полевая геоботаника. М., 1959, т. 1, с. 13-75.
94. Левин А.Л. В сб. Фармакотерапия при нарушениях свертывающей системы крови.// Науч.тр. Кубанского мед.ин-та, Краснодар: 1960, 18 с.
95. Лекарственные растения научной и народной медицине. Изд. Саратовсого Университета: 1974, 382с.
96. Лекарственные растения (Каталог). М.: Медицина, 1985, 256 с.
97. Лекарственное растительное сыре. МЗ СССР, Москва, 1989, 398с.
98. Махалюк В.П. Лекарственные растения в народной медицине. Саратов:1967,559 с.
99. Носаль М.А., Носаль И.М. Лекарственные растения и способы их применения в народе. Киев: Здоровья, 1959. 114 с.
100. Носаль М.А., Носаль И.М. Лекарственные растения испособы их применения в народе. Киев: 1960. 192 с.
101. Пастушенков Л.В. Растения - друзья здоровья. Л.: Лениздат.1989, 190с.
102. Попов Л.П. Лекарственные растения в народной медицине.Киев: Здоровья, 1969, 31ос.

103. Попов В.И., Шапиро Д.К., Данусевич И.К. Лекарственныерастения. Минск: Полымя, 1984, 240 с.
104. Растительные ресурсы СССР.Л.: Наука, 1984, 470 с.
105. Растительное сырье СССР. АН СССР, БИ. Им.В.Л. Коморова от рас.рес. под. обш.редак. проф. М.М.Итьина, т. 2, с.46
106. Российский Д.М. Лекарственные растения в народноймедицине./ «Фельдшер и акушерка», 1945, № 7-8, 33-35 с.
107. Российский Д.М. Изыскание и изучение новых тонизирующих и стимулирующих средств из отечественныхлекарственных растений. М.: Медгиз., 1947, 65 с.
108. Российский Д.М. Лекарственные растения нашей страны.М.: 1953,24 с.
109. Сабатин Е.Ю. Полезные народные медицинские растения(Аджарской АССР). / Блю. Глав. бот. сада., 1950, вып.6,с.85-89.
110. Середин Р.М. Лекарственные растения Дагестана. Махачкала: 1961,143с.
111. Совроменная фитотерапия / Под ред.В.Петкова, София,1988, 976с.
112. Соколов С.Я. Фитотерапия и фитофармакология. Москва,Мед. Инфарм.агенство, 2000, 971с.
113. Соколов С.Я., Замотаев И.П. Справочник по лекарственным растениям, (фитотерапия). М.: Медицина, 1990, 173 с.
114. Турова А.Д. Лекарственные растения СССР и ихприменение. М.: Медицина, 2-е изд., 1974, 424 с.
115. Федченко Б.А. Лекарственные растения. Л.: 1943, 75с.
116. Фурентов Н.К. Лекарственные растения Дальнего Востока.Хабаровск: Хабаровское кн. изд-во, 1972, 398 с.

117. Убашев И.О., Назаров-Рыгдылан В.Э., Батарова С.М. и.др. Раны и их лечение в тибетской медицине. Новосибирск. Наука, Сибирское отделение, 1990, 192с.
118. Халматов Х.Х. Дикорастущие лекарственные растения Узбекистана. Ташкент: изд. АН Узбек.ССР, 1964, с 310.
119. Чектан И.С., Хинкан Т.Н. Растительные лекарственные средств. Киев: Колос. ИТЭМ, 1983, 384 с.
120. Ченцова Т.Ф. Донник (буркун), борьба с ним и его использование. Ростов -на - Дону: Азчерниздат, 1936, 230 с.
121. Шалыт М.С. Дикорастущие полезные растения Туркменской ССР. М.: 1951,230 с.
122. Шанью Ли. Лекарственные растения. Г. VI -VIII. Черновцы:«Митець», 1992, 210 с.
123. Шассе Е.Ю., Варлаков М.Н. Тысячелетник. «Фармация»,1944, №4, 33-35с.
124. Шассе Е.Ю. Фитотерапия. М: изд. АМН СССР, 1952, 216 с.
125. Шретер А.И. Лекарная флора Советого ДальгоВоска. М.: «Медицина», 1975, 197 с.
126. Шретер А.И., Муравьева Д.А., Пакалн Д.А., Ефимова Ф.В.Лекарственная флора Кавказа. М.: Медицина, 1979, 368 с.

**MÜNDƏRİCAT**


## Ön söz

## Bitkilərin istifadəsinin ilk mənbələri

***Urtica* L. – Gicitkan**

***Capsella* Medik. - Quşəppəyi**

***Althaea* L. – Bəlğəmotu (gülxətmi**

***Plantago* L. – Bağayarpağ**

***Tussilago* L. – Dəvədabanı**

***Linum* L. - Zəyrək**

***Coriandrum* L. – Keşniş**

***Melissa* L. – Bədrənc (Batrınc)**

***Mentha* L. – Yarpız**

***Salvia* L. – Sürvə, Adaçay**

***Carum* L. – Zirə**

***Anethum* L. -   Şüyüd**

***Valeriana* L. – Pişikotu**

***Lepidotheca* Nutt.-Lepidoteka**

***Matricaria* L.( *Chamomilla* S.F.Gray) – Mollabaşı**

***Arnica* L. – Öküzotu**

***Inula* L. – Andız**

***Zingiber* Mill. – Zəncəfil**

***Pimpinella* L. –Yalançı cirə**

***Foeniculum* Hill – Razyana**
***Thymus* L.  – Kəklikotu**
***Orthosiphon* Benth. – Böyrəkotu**
***Origanum* L. – Qaraqınıq**
***İri*s L. - Süsən**
***Acorus* L. -  Kəcəvər**
***Achille*a L. – Boymadərən**
***Artemisia* L. –Yovşan**
***Humulus* L. – Mayaotu**
***Menyanthes* L. – Su yoncası**
***Centaurium* Hill – Qızılçətir**
***Taraxacum* Wigg. – Zəncirotu**
***Digitalis* L. – Üskükotu**
***Strophanthus* DC. – Strofant**
***Adonis* L. – Xoruzgülü**
***Convallaria* L. – İnciçiçəyi**
***Erysimum* L. - İsitməotu**
***Drimia* Jacq. – Dəniz Soğanı**
***Glycyrrhiza* L. – Biyan**
***Polemonium* L. – Göyümçiçək**
***Oplopanax* Miq. – Oplopanaks**
***Panax* L. – Jenşen**
***Bryonia* L. – Küstümşam (Adamotu)**
***Astragalu*s L. – Gəvən (astraqal)**
***Dioscorea* L. – Diskoreya**
***Tribulus* L. - Dəmirtikan**
***Rhaponticum* Ludw. -  Levzey**
***Rhodiola* L.- Radiola**
***Paeonia* L. – Pion**
***Echinacea* Moench – Exina**
***Eleutherococcus* Maxim. – Eleuterokokk**
***Podophyllum* L. – Podofil**
***Silybum* Vaill. – Alaqanqal**
***Melilotus* Hill. - Xəşənbül**

**_Ammi_ L. – Dişqurtlayan**
**_Psoralea_ L. – Psorale**
**_Pastinaca_ L. – Xımı (Cırhavuc)**
**_Phlojodicarpus_ Turcz. ex Ledeb. – Şişmeyvə**
**_Lagochilus_ Bunge - Dovşandodaq**
**_Leonurus_ L. – Şirquyruğu (Damotu)**
**_Sophora_ L. – Sofora**
**_Helichrysum_ Mill. – Solmazçiçək (Quruçiçək)**
**_Tanacetum_ L. – Dağtərxunu**
**_Bupleurum_ L. – Öküzboğan**
**_Persicaria_ Hill – Qırmızıbaş (bibər)**
**_Polygonum_ L. – Qırxbuğum**
**_Ononis_ L. - Ononis (Paxlakolu)**
**_Equisetum_ L. – Qatırquyruğu**
**_Dryopteris_ Adans. s. str. - Ayıdöşəyi**
**_Centaurea_ L. – Güləvər**
**_Bidens_ L. – Yatıqqanqal**
**_Calendula_ L. – Gülümbahar**
**_Hypericum_ L. - Dazı**
**_Gnaphalium_ L. – Quruca**
**_Viola_ L. - Bənövşə**
**_Hedysarum_ L. -Qəpikotu**
**_Cassia_ L. - Səna**
**_Aloe_ L. – Əzvay (aloe)**
**_Rheum_ L.–Rəvənd**
**_Rumex_ L. – Əvəli**
**_Rubia_ L. – Boyaqot**
**_Potentilla_ L. – Qaytarm**
**_Bistorta_ Hill – Bistort**
**_Sanguisorba_ L. – Sincanotu (qaraçörəkotu**
**_Bergenia_ Moench - Bergeniya (Badan)**
**_Capsicum_ L. – Bibər (İstiot**
**_Colchicum_ L.- Vaxtsızot**
**_Atropa_ L. – Xanımotu**

***Hyoscyamus* L. – Batbat (Bəngotu)**
***Datura* L. – Dəlibəng**
***Senecio* L. – Xaçgülü**
***Anabasis* L. – Öldürgə**
***Thermopsis* R.Br. - Termopsis**
***Nuphar* Sibth. & Sm. - Nelufər (Su zanbağı)**
***Huperzia* Bernh. – Huperziya (Qurdayağı)**
***Echinops* L. – Toppuztikan**
***Papaver* L. - Lalə**
***Chelidonium* L. - Dəmrovotu (ziyilotu)**
***Macleaya* R.Br. - Macleya**
***Stephania* Lour. – Stefaniya**
***Ungernia* Bunge - Ungerniya**
***Physostigma* Balf. - Fizostiqma**
***Peganum* L. – Üzərlik**
***Veratrum* L.- Asırqa**
***Solanum* L. – Quşüzümü**
***Delphinium* L. – Mahmızçiçək**
***Aconitum*  L. - Akonit, Kəpənəkçiçək**
***Brassica* L. – Xardal (Kələm)**
***Datisca*  L. - Dəliçətənə**
***Solidago* L. – Qızılsəbət**
***Kalanchoe* Adans. - Kalanxo**
***Oxycoccus* Hill – Mərcanı, (quşüzümü)**
***Verbascum* L. (Celsia L.) – Keçiqulağı, Sığırquyruğu**
***Skopolia* Jacg.– Skopolia**
***Filipendula* Miller – Quşqonmaz**
***Lespedeza* Michx. – Lespedeza**
***Arctium* L. – Atpıtrağı**
***Sedum* L.- Dovşankələm**
***Primula*  L. – Novruzgülü**
***Cucurbita* L. - Balqabaq (Boranı)**
***Phaseolus* L. – Lobya**
***Allium* L. – Soğan**

***Zea* L. – Qarğıdalı**
***Fungi* - Göbələklər**